# Görkəmli azərbaycanlılar

## Dövlət və ictimai-siyasi xadimlər

Heydər Əliyev
İlham Əliyev
Mehriban Əliyeva
Behbud xan Cavanşir
Vəli Axundov
Cavad xan
Cavanşir
Cəmo bəy Hacınski
Çələbi xan
Əbülfəz Elçibəy
Əhməd Ağaoğlu
Əlimərdan bəy Topçubaşov
Əziz Əliyev
Fətəli xan
Fətəli xan Xoyski
Həsən bəy Ağayev
Hüseynqulu xan Qacar
Xəlil bəy Xasməmmədov
Xosrov bəy Sultanov
Xudadat bəy Məlik-Aslanov
Xudadat bəy Rəfibəyli
İbrahimxəlil xan
İmam Mustafayev
Məmməd Əmin Rəsulzadə
Məmmədhəsən Hacınski
Məmmədyusif Cəfərov
Nəriman Nərimanov
Nəsib bəy Yusifbəyli
Pənahəli xan
Ramiz Mehdiyev
Sabit Orucov
Səttarxan
Seyidcəfər Pişəvəri
Şah İsmayıl Xətai
Şeyx Məhəmməd Xiyabani
Şıxəli Qurbanov
Şirvanşah I İbrahim

## Sərkərdələr və qəhrəmanlar

Babək Xürrəmi
Balakişi Ərəblinski
Cahangir Kazımbəyli
Cəmşid Naxçıvanski
Əliağa Şıxlinski
Həbib bəy Səlimov
Həzi Aslanov

Hüseyn Naxçıvanski
Hüseyn Rəsulbəyov
Kərim A. Kərimov
Mehdi Hüseynzadə
Sadıxbəy Ağabəyzadə
Səmədbəy Mehmandarov
Tofiq Ağahüseynov

**Elm xadimləri və mütəfəkkirlər**

Abbasqulu ağa Bakıxanov
Adilə Namazova
Arif Mehdiyev
Arif Məmməd
Azad Mirzəcanzadə
Bəhmənyar
Bəkir Nəbiyev
Cavad Heyət
Cəmil Əliyev
Eldar Salayev
Əbdulkərim Əlizadə
Əhəd Rəhmanzadə
Əhməd Cəfəroğlu
Əhməd İsgəndərov
Əhməd Rəcəbli
Ələşrəf Əlizadə
Əli Əmiraslanov
Əlibəy Hüseynzadə
Fazil İrəvani
Fərman Salmanov
Fuad Əfəndiyev
Hacı Süleyman İrəvani
Hacı Zeynalabdin Şirvani
Heydər Hüseynov
Həsən Abdullayev
Həsən Əliyev
Həsən bəy Zərdabi
Xalıq Koroğlu
Xəlil İbrahim
Xudu Məmmədov
İqor Aşurbəyli
Kərim M. Kərimov
Qulamrza Səbri Təbrizi
Lütfi Zadə
Mahmud Kərimov
Məhəmməd ağa Şahtaxtlı
Məhəmməd Ağaoğlu
Məmmədbağır Əliyev
Midhəd Abbasov
Mikayıl Useynov

Mirəsədulla Mirqasımov
Mirməmməd Cavadzadə
Mirzə Cəfər Topçubaşov
Mirzə Kazım bəy
Musa Əliyev
Mustafa Topçubaşov
Nəsirədin Tusi
Rafiq Qurbanov
Rauf Munçayev
Rövşən Xəlilov
Süleyman Vəzirov
Sürəyya Ağaoğlu
Səməd Ağaoğlu
Şəmsəddin Təbrizi
Tofiq Köçərli
Turxan Gənceyi
Vaqif Nağıyev
Valeh Quliyev
Yusif Məmmədəliyev
Ziya Bünyadov

**Yazıçılar və şairlər**

Abbas Səhhət
Abdulla Şaiq
Almas İldırım
Anar
Aşıq Ələsgər
Bəxtiyar Vahabzadə
Ceyhun Hacıbəyli
Cəfər Cabbarlı
Cəlil Məmmədquluzadə
Çingiz Abdullayev
Əbdürrəhim Haqverdiyev
Əhməd Cavad
Əliağa Vahid
Əzizə Cəfərzadə
Həmid Araslı
Hüseyn Cavid
Xaqani Şirvani
Xəlil Rza Ulutürk
Xurşidbanu Natəvan
İmadəddin Nəsimi
İsmayıl bəy Qutqaşınlı
İzzəddin Həsənoğlu
Qabil İmamverdiyev
Qasım bəy Zakir
Qətran Təbrizi
Mehdi Hüseyn
Məhəmməd Füzuli
Məhəmməd Hadi

Məhəmmədhüseyn Şəhriyar
Məhsəti Gəncəvi
Məqsud Şeyxzadə
Məmməd Araz
Məmməd Səid Ordubadi
Mikayıl Müşfiq
Mir Cəlal Paşayev
Mirzə Ələkbər Sabir
Mirzə Fətəli Axundov
Mirzə İbrahimov
Mirzə Şəfi Vazeh
Molla Pənah Vaqif
Molla Vəli Vidadi
Nəbi Xəzri
Nəcəf bəy Vəzirov
Nizami Gəncəvi
Osman Sarıvəlli
Rəsul Rza
Saib Təbrizi
Seyid Əzim Şirvani
Səməd Vurğun
Süleyman Rüstəm
Süleyman Sani Axundov
Um-Əl-Banu (Banin)
Yusif Vəzir Çəmənzəminli

**İncəsənət xadimləri**

Abbasmirzə Şərifzadə
Adil İsgəndərov
Arif Məlikov
Asəf Zeynallı
Bülbül
Cabbar Qaryağdı oğlu
Cahangir Cahangirov
Əbdülmüslüm Maqomayev
Əcəmi Naxçıvani
Əfrasiyab Bədəlbəyli
Əminə Dilbazi
Əzim Əzimzadə
Fatma Muxtarova
Fərhad Bədəlbəyli
Fidan Qasımova
Firəngiz Əhmədova
Fikrət Əmirov
Fuad Əbdürrəhmanov
Göyərçin
Hüseyn Ərəblinski
Hüseynqulu Sarabski
Xan Şuşinski
Xuraman Qasımova

Qara Qarayev
Qəmər Almaszadə
Qurban Pirimov
Leyla Vəkilova
Lətif Kərimov
Maqsud İbrahimbəyov
Maral Rəhmanzadə
Mikayıl Abdullayev
Mir Seyfəddin Kirmanşahlı
Mirzə Qədim İrəvani
Mirzəağa Əliyev
Müslüm Maqomayev
Nəsibə Zeynalova
Niyazi Tağızadə-Hacıbəyov
Ömər Eldarov
Rasim Balayev
Rasim Ocaqov
Rauf Hacıyev
Rəşid Behbudov
Rüstəm İbrahimbəyov
Rüstəm Mustafayev
Seyid Şuşinski
Səid Rüstəmov
Səttar Bəhlulzadə
Soltan Hacıbəyov
Sultan Məhəmməd
Süleyman Ələsgərov
Şövkət Məmmədova
Tahir Salahov
Toğrul Nərimanbəyov
Tofiq Quliyev
Tokay Məmmədov
Üzeyir Hacıbəyov
Vaqif Mustafazadə
Vasif Adıgözəlov
Zeynəb Xanlarova
Zivərbəy Əhmədbəyov
Zülfü Adıgözəlov

**Mesenatlar**

Ağa Musa Nağıyev
Hacı Zeynalabdin Tağıyev
Murtuza Muxtarov
Şəmsi Əsədullayev

# Dövlət və ictimai-siyasi xadimlər

## Heydər Əliyev
(1923-2003)

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.



1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqrad şəhərində (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini

olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir.

2003-cü il dekabrın 12-də Azərbaycanın ümummilli lideri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat etmişdir.

Heydər Əliyev dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur. O, həmçinin bir çox dövlətlərin orden və medalları ilə təltif olunmuş, beynəlxalq mükafatlara layiq görülmüş, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru seçilmişdir.

Heydər Əlirza oğlu Əliyevin həyat yoldaşı – Əliyeva Zərifə Əziz qızı (1923-1985) alim-oftalmoloq, tibb elmləri doktoru, professor, Azərbaycan EA-nın akademiki olmuşdur. Oğlu İlham Heydər oğlu Əliyev 2003-cü, 2008-ci və 2013-cü illərdə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

**İlham Əliyev**
(1961)

İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur.



1967-1977-ci illərdə Bakı şəhərində orta məktəbdə oxumuşdur.

1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ) daxil olmuşdur.

MDBƏİ-ni bitirdikdən sonra 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun aspiranturasına daxil olmuşdur.

1985-ci ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi dərəcəsi almışdır.

1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda müəllim işləmişdir.

1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışmışdır və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.

1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. "Heydər Əliyevin neft strategiyası"nın həyata keçirilməsində fəal iştirak etmişdir.

Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.

İki dəfə, 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə seçilmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam vermişdir.

1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin Prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir.

1999-cu ildə hakim Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir.

2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur.

2003-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir.

2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir.

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. O, 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlamışdır.

2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə AŞPA-nın fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir.

2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88%-dən çoxunun səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, 2008-ci il oktyabrın 24-də vəzifəsinin icrasına başlamışdır.

2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə seçicilərin 84,54 faizinin səsini qazanan İlham Əliyev üçüncü dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

2018-ci il aprelin 11-də keçirilən seçkilərdə seçicilərin 86,02 faizinin səsini qazanaraq dördüncü dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində seçicilərin 92,12 faizinin səsini qazanaraq beşinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Ailəlidir, iki qızı, bir oğlu, beş nəvəsi var.

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.

**Mehriban Əliyeva**
(1964)

Əliyeva Mehriban Arif qızı 1964-cü il avqustun 26-da Bakı şəhərində ziyalı ailəsində anadan olub.

1981-ci ildə Bakı şəhəri 23 №-li orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub.



1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib.

1988-1992-ci illər ərzində Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyib.

1995-ci ildə onun təşəbbüsü ilə hazırda rəhbərlik etdiyi Azərbaycan Mədəniyyət Fondu təsis olunub.

2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib.

Onun beynəlxalq aləmdə artmaqda olan nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının Bədii Gimnastika üzrə 2003 və 2004-cü il Dünya Kuboku yarışlarının və 2005-ci il Dünya Çempionatının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynayıb.

2004-cü il may ayının 10-dan Heydər Əliyev Fonduna rəhbərlik edir.

2004-cü il dekabrın 28-də Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilib.

2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

2005-ci ildə "Evtanaziya və təbabətdə humanizm problemi" mövzusunda dissertasiya işi müdafiə edib və fəlsəfə elmləri namizədi alimlik dərəcəsi alıb.

2005-ci il noyabrın 6-da Milli Məclisə keçirilən seçkilərdə 14 saylı Əzizbəyov ikinci seçki dairəsindən deputat seçilib.

2010-cu il noyabrın 7-də Milli Məclisə keçirilən seçkilərdə 14 saylı Xəzər ikinci seçki dairəsindən deputat seçilib.

2013-cü il yanvarın 17-də Birinci Avropa Oyunlarını Təşkilat Komitəsinin sədri təyin olunub.

2013-cü il iyunun 7-də Yeni Azərbaycan Partiyasının sədr müavini vəzifəsinə seçilib.

2015-ci ilin oktyabrın 15-də IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri təyin olunub.

2015-ci il noyabrın 1-də Milli Məclisə keçirilən seçkilərdə 14 saylı Xəzər seçki dairəsindən deputat seçilib.

Azərbaycan Respublikasının Prezidentinin 21 fevral 2017-ci il tarixli Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib.

Mehriban Əliyeva UNESCO və ISESCO-nun xoşməramlı səfiridir.

Ailəlidir, iki qızı, bir oğlu, beş nəvəsi var.

**Əhməd Ağaoğlu**
(1869-1939)

Əhməd bəy Mirzə Həsən oğlu Ağayev 1869-cu ildə Şuşada doğulmuşdur. Azərbaycanın və Türkiyənin ictimai-siyasi xadimi. İbtidai və orta təhsilini Şuşada almışdır. Parisdə hüquq məktəbini və Sarbonna Universitetini bitirmişdir.



Fransada olarkən gənc türklərlə yaxınlaşaraq onların türk xalqlarının özünüdərk ideyalarını ürəkdən qəbul etmişdir. 1884-cü ildə Azərbaycana gələrək "Həyat", "İrşad", "Tərəqqi" "Kaspi" qəzetləri ilə əməkdaşlıq etmişdir. Türk xalqlarının özünüdərkinə milli oyanışına mədəni və ruhən yaxınlaşmasına tərəqqisinə xidmət edən yazılar yazmışdır. 1908-ci ildə İstanbula gedərək burada gənc türklərin "Birlik və tərəqqi" partiyasına daxil olmuşdur. Süleymaniyyədə kitabxana direktoru, "Türk yurdu" jurnalının redaktoru olmaqla İstanbul universitetində rus dilindən dərs demişdir. Ə.Ağaoğlu 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin köməyinə gəlmiş Türkiyə ordusu komandanının siyasi müşaviri olmuşdur.

Ağaoğlu Bakıda Azərbaycan parlamentinə üzv seçilərək Azərbaycan nümayəndə heyətinin tərkibində Versal sülh konfransında iştirak edir. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqutu və kommunist rejimi dövründə Ağaoğlu İstanbula gələrək burada "İttihad və Tərəqqi" partiyasının işində daha fəal iştirak edir. Birinci Dünya müharibəsində Türkiyənin məğlubiyyətindən sonra Ə.Ağaoğlu "İttihad və tərəqqi" partiyasının digər rəhbərlərilə birgə ingilislər tərəfindən həbs olunaraq Malta adasına sürgün olunur. Sürgündən qayıtdıqdan sonra kamalçılarla yaxınlaşaraq Ankara İnformasiya Agentliyinə rəhbərlik etmiş, "Hakimiyyəti-milliyyə" qəzetinin baş redaktoru olmuş, ikinci və üçüncü çağırış Türkiyə Böyük Millət Məclisinə deputat seçildikdən sonra Mustafa Kamal Atatürkün xarici məsələlər üzrə siyasi məsləhətçisi olmuş və xarici siyasət sahəsində qüvvə və bacarığını sərf etmişdir.

Əhməd bəy Mirzə Həsən oğlu Ağayev 1939-cu ildə Türkiyədə vəfat etmişdir.

Oğlu - Ağaoğlu Səməd Əhmədbəy oğlu (1909-1982) yazıçı, publisist və Türkiyənin dövlət və siyasi xadimi olmuşdur. Üç dəfə Böyük Millət Məclisinə deputat seçilmiş, baş nazirin müavini, dövlət naziri olmuşdur. 1960-cı ildə Calal Bayar-Menderes işinə görə ömürlük həbs cəzasına məhkum olunmuş, 1964-cü ildə amnistiyaya buraxılmışdır. "Rus sovet imperiyası", "Mərmərə dənizində ada", "Qafur müəllim", "Babamın arkadaşları" və s. iyirmidən artıq kitabın müəllifidir. O, 1967-ci ildə ulularının vətəni Azərbaycanı ziyarət etmişdir.

**Həsən bəy Ağayev**
(1875-1920)



Həsən bəy Məşədi Hüseyn oğlu Ağayev 1875-ci ildə Gəncədə anadan olmuşdur. Orta təhsilini Gəncədəki klassik gimnaziyada almışdır. Hacı Zeynalabdin Tağıyevin maddi köməkliyi ilə Moskva Universitetinin tibb fakültəsinə daxil olmuş və 1901-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir.

Həsən bəy Gəncədə həkimlik fəaliyyəti ilə yanaşı, qəzet və jurnallarda məqalələr də dərc etdirmişdi. "Hümmət" təşkilatının tapşırığı ilə Azərbaycan dilinə tərcümə etdiyi "Silk, sinif, firqə" kitabçası Tiflisdə Cəlil Məmmədquluzadənin "Qeyrət" mətbəəsində çap olunmuşdur (1906). Həmin kitabçanın nəşrinə görə təqiblərə məruz qalan Ağayev İrana mühacirət edərək, bir müddət orada yaşamışdır.

Mühacirətdən qayıtdıqdan sonra Gəncədə rus dilində çıxan "Yujnıy Kavkaz" qəzetinin redaktoru, müsəlmanlar arasında maarifçiliyi yayan cəmiyyətin rəhbəri olmuşdur. 1914-cü ilin sonlarında Xudadat bəy Rəfibəyli ilə birlikdə Gəncədə ilk səhiyyə cəmiyyəti yaratmışdır.

1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı Azərbaycanın digər görkəmli ictimai-siyasi xadimləri kimi, Ağayevin də sonrakı həyat və fəaliyyətində həlledici rol oynamışdır. Yeni şəraitdə Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Gəncədə yaradılmış "Türk Ədəmi-Mərkəziyyət Partiyası"nın yaradıcılarından biri də Həsən bəy idi. Həsən bəy Ağayev 1917-ci ilin aprelində Bakıda çağırılmış Qafqaz müsəlmanları qurultayında iştirak etmiş və Rusiya daxilində Azərbaycana muxtariyyət verilməsinin ardıcıl tərəfdarlarından olmuşdur.

1917-ci ilin iyununda Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyası ilə Nəsib bəy Yusifbəylinin "Türk Ədəmi-Mərkəziyyət Partiyası" birləşərək, "Türk Ədəmi-Mərkəziyyət-Müsavat" partiyası adlandırılmışdır. “Müsavat”ın 1917-ci il oktyabrın 26-31-də keçirilmiş birinci qurultayında Həsən bəy partiyanın mərkəzi komitəsinin üzvü, ilin axırlarında isə Ümumrusiya Müəssislər Məclisinə nümayəndə seçilmişdir. Rusiyada oktyabr çevrilişi ilə əlaqədar olaraq Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş nümayəndələr onun iclasına gedə bilməmiş, 1918 il fevralın 10-da Tiflisdə toplaşaraq Cənubi Qafqazda ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaratmış, aprelin 22-də isə Cənubi Qafqazın suverenliyini elan edərək, Zaqafqaziya Demokratik Federativ Respublikası Hökumətini yaratmışdılar. Zaqafqaziya seymində Müsəlman fraksiyasının üzvü olan Həsən bəy bütün tədbirlərdə fəal iştirak etmişdir. Zaqafqaziya seymi və hökuməti bu ərazidə yaşayan millətlərin milli maraqlarına cavab vermədiyindən həmin il mayın 25-də buraxılmışdı. Mayın 27-də Zaqafqaziya seyminin Müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan etmiş və Şuranın rəyasət heyətini seçmişdi. Həsən bəy Ağayev Şura sədrinin müavini seçilmişdi.

Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Tiflisdə Qafqaz Canişininin keçmiş sarayında keçirilmiş təntənəli iclasında Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsini ilk olaraq Həsən bəy Ağayev imzalamışdır. 1918 il iyunun 16-da Azərbaycan Milli Şurası və Hökuməti Gəncəyə köçmüşdür. İyunun 17-də burada keçirilən ilk iclasında Milli Şura yaranmış vəziyyətlə əlaqədar olaraq, fəaliyyətini müvəqqəti olaraq dayandırmış, bütün hakimiyyəti yeni yaradılmış Hökumətə vermişdir. Azərbaycan Parlamentinin 1918-ci il dekabrın 7-də Bakıda təntənəli açılışına qədər Həsən bəy Azərbaycan Dəmir Yolu İdarəsinin baş həkimi vəzifəsində çalışmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk iclasında Həsən bəy Parlament sədrinin birinci müavini seçilmişdir. Parlamentin sədri seçilmiş Əlimərdan bəy Topçubaşov Bakıda olmadığından ona rəhbərliyi Həsən bəy həyata keçirmişdir. O, 1919 ilin dekabrında yenidən Parlament sədrinin birinci müavini seçilmiş və 1920-ci il fevralın 2-nə qədər ona rəhbərlik etmişdir.

Aprel işğalından (1920) sonra Tiflisə mühacirət edən Həsən bəy Ağayev həmin il iyunun 19-da muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir. Tiflisin müsəlman qəbiristanlığında dəfn olunmuşdur.

## Vəli Axundov
(1916-1986)

Vəli Yusif oğlu Axundov 1916-cı ildə Bakıda doğulmuşdur. Alim-həkim, tibb elmləri doktoru, Azərbaycan EA-nın akademiki olmuşdur. 1941-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir.



V. Axundov 1941-1949-cu illərdə hərbi həkim, Gigiyena İnstitutunda elmi işçi, sonra isə direktor olmuşdur.

V.Axundov 1949-1952-ci illərdə Azərbaycan SSR səhiyyə nazirinin müavini, 1952-1953-cü illərdə isə Bakı Vilayəti səhiyyə şöbəsinin müdiri olmuşdur.

1953-1954-cü illərdə V.Axundov Azərbaycan KP MK-da inzibati, ticarət-maliyyə və plan orqanları şöbəsi müdirinin müavini vəzifəsində işləmişdir. V.Axundov 1954-1958-ci illərdə isə Azərbaycan SSR səhiyyə naziri vəzifəsini aparmışdır.

O, 1958-ci il fevralında Azərbaycan KP MK katiblərindən biri seçilmiş, bir qədərdən sonra – 1958-ci ilin iyulunda isə Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsinə təyin edilmişdir. O, bu məsul dövlət vəzifəsində 1959-cu ilin iyuluna qədər çalışmışdır.

1959-1969-cu illərdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışmışdır.

V.Axundov 1956-cı ildə namizədlik dissertasiyasını müdafiə etmiş və SSRİ Ali Attestasiya Komissiyası ona tibb elmləri namizədi, 1964-cü ildə isə tibb elmləri doktoru elmi dərəcəsi vermişdir.

1969-cu il iyulun 14-də birinci katib vəzifəsindən azad edilmişdir. H.Əliyevin sədrliyi ilə keçirilən Azərbaycan KP MK bürosunun iclasında V.Y.Axundovun birinci katib olarkən istifadə etdiyi tibbi və məişət xidmətləri özündə saxlanılmışdır.

V.Axundov 1969-cu ildə isə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir. 1969-1972-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti olmuş və akademiyanın səhiyyə sahəsinə rəhbərlik etmişdir. V.Axundov 1972-1986-cı illərdə Q.M.Musabəyov adına Virusrologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru olmuşdur.

Vəli Axundov 1986-cı il avqustun 22-də Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

## Cavad xan
(1748-1804)

Sonuncu Gəncə xanı Cavad xan ibn Şahverdi xan Ziyadoğlu Qacar 1748-ci ildə Gəncə şəhərində doğulub. 1785-1804-cü illərdə Gəncə xanlığının hakimi olmuş, sərkərdə. Hakimliyi illəri ərzində daim Rusiya və qonşu gürcü Kartli-Kaxetiya knyazlığının hücumlarına qarşı mübarizə aparmışdır. 30 minlik yaxşı silahlanmış atlı və piyada qoşunu olmuşdur.



Cavad xan 1795-ci ildə İran şahı Qacarla birlikdə Tiflisə qarşı hücumda iştirak etmişdir. 1796-cı ildə Gəncəyə hücum etmiş general V. Zubovun qoşunlarına qarşı vuruşmuşdur. Bir neçə parlaq qələbə əldə etmişdir. Tezliklə Rusiya qoşunları Qafqazdan geri çağırıldı. 1794-cü ildə Kartli-Kaxetiyanın hakimi II İrakliy Qarabağ xanı İbrahimxəlil və Şəki hakimi Səlim xanla danışığa girərək Gəncə xanlığında Cavad xanı devirib danışıq aparılması daha rahat olan Əlisultanı yerinə qoymağı qərara aldılar. Ancaq Qacarın Qafqaza hücumunu eşidib fikirlərindən döndülər. 1801-ci ildə Gürcüstan Rusiyanın tərkibinə daxil olduqdan sonra rus-gürcü qoşunları general O. Lazarevin başçılığı ilə Gəncə xanlığının içərilərinə yeridilər. Cavad xan onlara layiqli cavab verdi. Cavad xanın tərəfində Şəki xanı Səlim xan və Qarabağ xanı İbrahimxəlil xan vuruşurdu. 1803-cü ildə rus qoşunları general P. D. Sisianovun başçılığı ilə təkrarən Gəncəyə hücum etdilər. Bu dəfə də Cavad xan işğalçılara qarşı lazımi müqavimət göstərdi. Onunla birlikdə oğlu da süvari dəstələrin birinə başçılıq edərək döyüşürdü.

Rus qoşunlarının komandanı Sisyanov 1804-cü il yanvarın 3-də qalanı hücumla almaq qərarı verir. İlk hücumda qalanı asma pilləkənlərlə almaq istəyirlərsə də, uğursuzluğa düçar olurlar. Bu hücum qurtarmamış, qalanın o biri yanından hücum başlanır. Gəncəlilərin qəhrəmancasına müqavimət göstərmələrinə baxmayaraq, ruslar qalanın əsas qüllələrini ələ keçirirlər. Qalanın divarları üzərində açıq döyüş zamanı Cavad xan yanvarın 3-dən 4-nə keçən gecə (səhər saat 4-də) düşmən gülləsindən həlak olur. Qala divarları uğrunda döyüşlərdə onun oğlu Hüseynqulu xan da atasının adına layiq bir şərafətlə həlak olur.

Cavad xan Gəncədə şah Abbas tərəfindən tikilmiş məşhur Cümə məscidində dəfn olunur. 1962-ci ildə yaxınlıqdakı meydanın rekonstruksiyası adı altında onun məzarı dağıdıldı. Lakin vətənpərvərlər Cavad xanın cəsədinin qalıqlarını gizli şəkildə qoruyub saxladılar və artıq 1990-cı il martın 27-də öz əvvəlki yerində torpaqa tapşırdılar. Məzarın üzərində kiçicik bir abidə də qoyuldu. Hazırda Cavad xanın məzarının üzərində məqbərə ucaldılmışdır.

## Cavanşir
( ?-681)

Cavanşir - Azərbaycan Alban dövlətinin hökmdarı, görkəmli dövlət xadimi və sərkərdəsi, məşhur Mehranilər sülaləsinin ən qüdrətli nümayəndəsi.



O, 637-ci ildən 681-ci ilədək Alban dövlətini idarə etmiş, öz ölkəsinin qüdrət və nüfuzunu qaldırmağa müvəffəq olmuşdur. VII yüzilliyin birinci yarısında ərəb qoşunları İrana yürüşlər etməyə başladılar. Həmin vaxt Cənubi Azərbaycan indi olduğu tək, İranın tərkibində idi, Şimali Azərbaycan - Albaniya isə onun vassalı idi. Təbii ki, Albaniya da bu müharibəyə İran tərəfdən girişdi. Alban qoşunları Cavanşirin başlığı altında yeddi il ərəblərə qarşı vuruşmalı oldu. Nəhayət, Cavanşir üç min nəfərlik qoşunu ilə son dəfə İran tərəfdən döyüşə girdi. Bu döyüşdən sonra ona aydın oldu ki, Sasani dövləti artıq süquta uğramışdır və Cavanşir öz ölkəsinə qayıtmağı qərara aldı. Ərəblərə qarşı döyüşlərdə Cavanşir igid sərkərdə kimi ad-san qazanmışdı. İran hökmdarı III Yezdəgird onunla hamıdan çox hesablaşırdı, onu dəfələrlə yüksək mükafatlarla təltif etmişdir, başına qızıl tac qoymuşdu. Cavanşirin mərdliyi onu hətta düşmənlər içərisində də xeyli məşhurlaşdırmışdı.

Albaniya dörd nəhəng dövlətin - ərəb Xilafətinin və İranın, Bizansın və Xəzər İmperiyasının yolları üstündə kəsişmə nöqtəsi idi. Cavanşir İberiya hökmdarı müqavilə bağlayıb İrana Albaniyanın müstəqilliyini qəbul etdirdi. Az sonra iranlılar Cavanşirin atasını həbs edib yeni vuruşa başlasalar da, məğlub edildilər və birdəfəlik Albaniyadan qovuldular. Bundan sonra Cavanşir Bizans imperatoru Konstantin ilə yaxınlıq etməyə başladı. Bizans imperatoru bu təşəbbüsə həvəslə qoşuldu. Bu yaxınlaşmada Cavanşirin məqsədi ərəblərə qarşı duruş gətirə bilmək üçün güclü müttəfiq əldə etmək, Konstantinin məqsədi isə Bizansı şərq sərhədlərini ərəblərin birbaşa hücumlarından qorumaq idi.

Lakin təhlükə başqa tərəfdən üz verdi. Milad tarixi ilə 662-ci ildə Xəzər qoşunları şimalda Dərbənddən ərəbləri məğlub edib cənuba qovdular və özləri Albaniyanın ərazisinə soxuldular. Cavanşir ordu toplayıb Kür çayının üstündə xəzərlərlə döyüşə girdi və onları məğlub etdi. Düz iki il Albaniya ərazisində Xəzər qoşunları görünmədi. 664-cü ildə onlar böyük qüvvə ilə yenidən Albaniyaya hücum etdilər. Bu dəfə xəzərlər daha irəli gedərək bir necə vilayəti talan etdilər. Cavanşir Xəzər xaqanı ilə sülh bağladı, qarət edilmiş var-dövləti geri aldı və xəzər xaqanının qızı ilə evləndi. Artıq Albaniya həm Bizansla, həm də xəzərlərlə möhkəm dostluq əlaqələri yaratmış, dinclik əldə edə bilmişdi.

Tezliklə cənubdan ərəblərin yeni hücumları başladı. Cavanşir gördü ki, Bizans imperatorundan ona bir kömək olmayacaq. İmperator öz torpaqlarını güclə qoruyurdu. Eyni zamanda Bizansın üzərinə hücuma keçmiş ərəblər az qala ölkənin paytaxtı Konstantinopola çatmışdılar. Cavanşir ölkəsini yeni qırğınlardan və talanlardan xilas etmək üçün Ərəblərlə yaxınlaşmaq qərarına gəldi. Bu məqsədlə o, 667-ci ildə Dəməşq (Şam) şəhərinə Xəlifə I Müaviyənin görüşünə yollandı. Cavanşir Xəlifədən xahiş etdi ki, onu vassallığa qəbul etsin. Xəlifə, əlbəttə, bu təklifə böyük məmnuniyyətlə razı oldu. Albaniya daha bir

müddətə qan və qırğından xilas oldu. Üç il sonra Xəlifə Cavanşiri öz hüzuruna dəvət etdi. Bu dəfə o, Sünik knyazlığının Cavanşirə tabe edilməsi haqqında fərman verdi. Cavanşir Xilafətin Albaniyadan aldığı vergi və xəracının miqdarını üçqat azaltmağa müvəffəq oldu.

Ərəblərin Albaniyaya böyük rəğbətinin səbəbi bu ölkənin hərbi baxımından son dərəcə əlverişli coğrafi mövqeyi idi. VII əsrin ikinci yarısında ərəblər ildırım sürətli suvariləri ilə məşhur olan Türküstan qoşunlarından çox ehtiyat edirdilər. Buna görə də Xəzər türklərinin qənşərində sipər kimi dayanan Albaniyanın yerli hakimiyyətini ləğv etmək onlar üçün sərfəli deyildi. Ərəblər bu dövləti özlərinə tabe etməklə kifayətlənməni üstün tutular. Xəlifə Cavanşirlə ikinci görüşündə ona bütünlüklə Atrapatakan (Azərbaycan) üzərində hakimliyi təklif etsə də, Cavanşir razılaşmadı.

Lakin xristian albanların bəzi iri feodalları Cavanşirin müsəlman hökmdarı ilə yaxınlığını və Bizansla əlaqələrini zəifliyini görüb, ona qarşı sui-qəsd təşkil etdilər.

Cavanşir 681-ci ildə öldürülmüşdür.

**Behbud xan Cavanşir**
(1877-1921)

Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın nəticəsi, Azad xanın oğlu Behbud xan Cavanşir



1877-ci ildə Tərtər qəzasının Azad Qaraqoyunlu kəndində dünyaya gəlmişdir. 1890-cı ildə alman dili təmayüllü Tiflis realnı məktəbinə daxil olmuş və Tiflis mağazalarından birinin xidmətçisinin oğlu Stepan

Şaumyanla səkkiz il bir sinifdə oxumuşdur. Orta təhsilini Tiflis realnı məktəbində almış, sonra dünyada ilk ali-texniki məktəb olan Almaniyadakı Frayberq Dağ-Mədən Akademiyasını bitirmişdir. O, bu akademiyanın ilk azərbaycanlı məzunudur. Behbud xan Cavanşir Almaniyadan ingiltərəyə gedərək təkmilləşdirmə kurslarında oxumuşdur. Qərbi Avropadakı həyatı onun bir siyasi və ictimai xadim kimi formalaşmasına təsir etmişdir. Behbud xan Cavanşir alman, ingilis, fransızr rus, gürcü və erməni dillərini mükəmməl bilmişdir.

1916-cı ildə Azərbaycana qayıdan Behbud xan Cavanşir Bakı neft müəssisələrində baş mühəndis vəzifəsində çalışmışdır. Doğma xalqının maariflənməsi uğrunda mübarizə aparan Behbud xan Cavanşir Bakı Müsəlman xeyriyyə cəmiyyətinin rəhbərliyinə seçilmişdir. Behbud xan Rusiyada və Avropada ali təhsil alan bir neçə azərbaycanlı gəncə öz vəsaiti hesabına təqaüd verirdi, anadilli mətbuata müəyyən yardımlar göstərirdi. Onun fəaliyyəti çar xəfiyyələri tərəfindən ciddi izlənirdi. 1920-ci ildə Bakıda rusca çapdan çıxmış "Zaqafqaziyada rus siyasətinə dair sənədlər" kitabından (onun digər adı "Qara kitab"dır) aydın olur ki, Behbud xan Cavanşir Əhməd bəy Ağayevin 1905-ci ildə gizli şəkildə yaratdığı "Difai" partiyasının Mərkəzi Komitəsinə daxil idi. O, "Nicat" cəmiyyətinin və "Rus texniki cəmiyyəti"nin Bakı şöbəsinin üzvü seçilmişdir. Texniki cəmiyyətin elmi əsərlərində Behbud xan Cavanşirin xeyli məqaləsi çap olunmuşdur.

O, fevral inqilabından sonra yaranmış Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin tərkibinə seçilmişdir.

1918-ci il martın 18-dən 22-dək Stepan Şaumyanın başçılığı ilə Bakıda törədilən qırğında 15 minə yaxın azərbaycanlı həlak olmuşdu. Bu qırğının qabağını almağa çalışanlardan biri də Behbud xan Cavanşir idi. O, barışıq komitəsinin üzvü idi.

Behbud xan Cavanşir 1918-ci il iyunun 17-də Azərbaycan xalq Cümhuriyyəti hökumətinin başçısı Fətəli xan Xoyskinin Gəncədə təşkil etdiyi ikinci hökumət kabinəsində daxili işlər naziri vəzifəsini tutmuşdur.

1918-ci il oktyabrın 6-dan həmin ilin sonuna qədər Behbud xan Cavanşir eyni zamanda ticarət və sənaye nazirliyini də idarə etmişdir. O, yerli sənayenin inkişaf etdirilməsinə və Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələrinin yaradılmasına ciddi səy göstərmişdir.

Behbud xan Cavanşir Azərbaycan parlamentinə üzv seçilmişdir. Həmin ilin dekabrında Fətəli xan Xoyskinin kabinəsi istefaya çıxdığı üçün Behbud xan Cavanşir tutduğu vəzifələri tərk etmişdir.

1919-cu ildə xarici ölkələrlə ticarət əlaqələri yaratmaq üçün Behbud xan Cavanşirin yaxından iştirakı ilə Bakıda "Dəyanət" şirkəti yaradılmışdır. 1918-1920-ci illərdə Bakıda təntənəli "Azərbaycan gecələri" konsertinin və bir çox cəmiyyətlərin təşkili onun adı ilə bağlıdır.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra Nəriman Nərimanovun tövsiyəsi ilə Behbud xan Cavanşir neft sənayesi sahəsində işləmişdir. Həmin ilin axırında müasir neft-mədən avadanlığı almaq üçün Almaniyaya ezam edilmişdir. Behbud xan Cavanşir yolüstü İstanbulda dayanaraq, o vaxt Malta adasında sürgündə olan həmyerlisi Əhmədbəy Ağayevin evində yaşamışdır. Görünür o, bolşevik əsarəti altındakı vətənilə həmişəlik vidalaşmaq qərarına gəlmişdi. Çünki uzaq səfərə xanımı Tamara Cavanşir, qardaşları Surxay xan və Cəmşid xan ilə birlikdə çıxmışdı.

1921-ci il iyulun 18-də saat 23 radələrində İstanbulun "Pera-Palas" hotelinin önündə "Daşnaksütyun" partiyasının üzvü və Ermənistan ordusunun keçmiş əsgəri Misak Torlakyan Behbud xan Cavanşiri üç güllə ilə qətlə yetirir və həbs olunur. Həmin vaxt İstanbul ingilis işğalı altında olduğundan cani cinayət hadisəsindən 20 gün sonra ingilis hərbi tribunalında mühakimə edilir.

Prokuror qatil üçün ölüm cəzası istəmiş. Lakin prokuror 24 saat içərisində Türkiyədən uzaqlaşdırılır. Yerinə gələn prokuror isə müttəhimə bəraət istəyir və qatil Torlokyan gecə ikən qaçırılır.

**Məmmədyusif Cəfərov**
(1885-1938)

Məmmədyusif Hacıbaba oğlu Cəfərov 1885-ci ildə Bakıda doğulmuşdur. Siyasi və dövlət xadimidir. Orta təhsilini Bakıda almışdır. 1912-ci ildə Moskva universitetinin hüquq fakültəsini bitirmişdir. Tələbəlik illərində tələbə hərəkatında fəal iştirak etmişdir.



1912-ci ilin sentyabr-oktyabr aylarında IV Dövlət Dumasına Rusiyanın hər yerində olduğu kimi

Cənubi Qafqazda da seçkilər keçirildi. Hüquqşünas kimi Bakı əhalisinin hörmətini qazanmış 27 yaşlı M. H. Cəfərov əvvəl Bakıda, oktyabrın 20-də isə Yelizavetpolda Bakı, Yelizavetpol və İrəvan quberniyalarının müsəlman əhalisi tərəfindən IV Dövlət Dumasına deputat seçilmişdir.

M. H. Cəfərov 1912-1917-ci illərdə Sankt-Peterburqda fəaliyyət göstərmiş IV Dövlət Dumasında iştirak etmiş, Dumanın V bölməsinin, Müsəlman fraksiyasının, büdcə, köçürmə, sorğu, məhkəmə islahatı, hərbi və dəniz işləri üzrə komissiyaların üzvü seçilmişdir.

1917-ci il martın 9-da Müvəqqəti hökumətin təşəbbüsü ilə IV Dövlət Dumasının Zaqafqaziyadan olan deputatlardan ibarət Xüsusi Zaqafqaziya Komitəsi yaradıldı. Onun tərkibinə V. Xarlamov (rus), A. Çxenkeli (gürcü), K. Abaşidze (gürcü), M. Papaçanovla (erməni) yanaşı M. Cəfərov da daxil oldu. M. Cəfərova bu yeni yaradılmış komitədə sənaye və ticarət işlərinə rəhbərlik etmək tapşırıldı.

1917-ci il noyabrın 15-də Tiflisdə Y. Gegeçkorinin sədrliyi ilə Müstəqil Zaqafqaziya hökuməti - Zaqafqaziya Komissarlığı yaradıldı. M. Cəfərov bu hökumətdə ticarət və sənaye naziri vəzifəsini tutmuşdur.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi işə başladı. Seymdə gürcü, erməni və azərbaycanlı nümayəndələri iştirak edirdilər. Buraya Azərbaycandan Müsavat Partiyasını və bitərəf demokratik qrupları təmsil edən 30 nəfər, o cümlədən M. Cəfərov da seçilmişdi. 1918-ci il mayın 26-da Zaqafqaziya Seyminin sonuncu iclasında Seymin buraxılması və Gürcüstanın müstəqilliyi elan edilməsi ilə əlaqədar olaraq mayın 27-də Müsəlman fraksiyasının fövqəladə iclası çağırıldı. Onlar M. Rəsulzadənin sədrliyi ilə Müvəqqəti Milli Şura və F. Xoyskinin sədrliyi ilə Milli Şuranın İcra Komitəsi təşkil etdilər. İcra Komitəsinin tərkibinə M. Hacınski, N. Yusifbəyov, X. Xasməmmədov və b. ilə birlikdə M. Cəfərov da seçildi.

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqda M. H. Cəfərov bu hökumətinin tərkibinə sənaye və ticarət naziri kimi daxil olur. 1919-cu ildə Azərbaycan parlamentinə seçilir və Müsavat partiyasının üzvü olur. Tezliklə M. Cəfərov Azərbaycanın diplomatik nümayəndəsi kimi Gürcüstana göndərilir. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin dördüncü kabinetində M. Cəfərov xarici işlər naziri olur. 1920-ci ilin fevralında Azərbaycan parlament sədrinin müavini seçilir. Bu ərəfədə parlamentin sədri Əlimərdan bəy

Topçubaşov Versal sülh konfransında iştirak etdiyinə görə M. Cəfərov parlamentin sədri vəzifəsini icra edir. 27 aprel 1920-ci ildə gecə saat 23-də bolşeviklər M. Cəfərovu Azərbaycan parlamentinin hakimiyyəti bolşeviklərə verməsi haqqında razılığa imza etməyə məcbur etdilər.

Sovet dövründə Məmmədyusif Hacıbaba oğlu Cəfərov müxtəlif sənaye müəssisələrində hüquq məsləhətçisi işləmiş, 1938-ci ildə Bakıda vəfat etmiş, Şağan kəndində dəfn olunmuşdur

## Çələbi xan
(?-1755)

Görkəmli siyasi xadim və istedadlı sərkərdə Hacı Çələbi tarixə müstəqil Şəki xanlığının yaradıcısı kimi daxil olub. İran şahı Nadir şah Əfşarın tabeçiliyindən birinci çıxan Hacı Çələbi xan olub, hələ onun sağlığında ikən Şəkinin müstəqilliyini elan etmişdir. Nadir şah tərəfindən bu vilayəti idarə etmək üçün təyin olunmuş Məlik Nəcəf ağır vergiləri və hədsiz zülmü ilə əhalini özünə qarşı qaldırmışdı.

1743-cü ildə Hacı Çələbi Şəkini müstəqil bir xanlıq elan edir. 1744-cü ilin qışında Nadir şah öz qoşununu qiyamçı Hacı Çələbinin üzərinə göndərir. Hacı Çələbi isə bunu irəlicədən gördüyü üçün şəkililəri geri çəkilib, Nadir şahın hücumundan sonra "Gələrsən-görərsən" adlandırılan möhkəmləndirilmiş və təchiz olunmuş məşhur qalada gizlənməyə çağırır. Nadir şah dayanmadan, 15 minlik seçmə qoşunu ilə qalanın üzərinə yeriyir. Ancaq tezliklə geri çəkilməli olur. Nadir şah qoşununu Bərdəyə çəkir. Orada möhkəmləndikdən sonra 30 minlik qoşunla 1744-cü ilin sonunda Dərbəndə yola düşür. Fevral ayında o, yenidən Hacı Çələbinin üzərinə gəlir. "Gələsən-görəsən" qalasının mühasirəsi yenidən heç bir nəticə vermir. Bundan qəzəblənən Nadir şah qədim Şəkini və onun ətrafındakı kəndləri yandırıb külə döndərir. Qəhrəman şəkililər az qala üç il özlərini "Gələsən-görəsən" qalasında ağır məhrumiyyətlərə düçar edib, Nadir şahın hər cəhətcə üstün ordusuna müqavimət göstərirlər.

Hacı Çələbi xan 1755-ci ildə vəfat edir. Şəki xanlığının ən möhtəşəm və inkişaf etmiş Azərbaycan xanlığına çevrilməsi onun müstəsna xidmətlərindəndir. Hacı Çələbi xan özünün paytaxtı olan Şəki şəhərinin abadlaşdırılması üçün çox işlər görmüşdür. Burada mədrəsələr, məscidlər, karvansaralar, hamamlar, məktəblər tikmişdir.

**Əbülfəz Elçibəy**
(1938-2000)

Əbülfəz Qədirqulu oğlu Əliyev 1938-ci ildə Ordubad rayonunun Kələki kəndində doğulmuşdur. Şərqşünas-alim, dövlət və siyasi xadim, tarix elmləri namizədi. 1962-ci ildə ADU-nun şərqşünaslıq fakültəsini bitirmişdir.



1962-63-cü illərdə Elçibəy Moskva Hidrologiya İnstitutunun Bakı filialında tərcüməçi işləmişdir.

1963-64-cü illərdə Misirin Asuan bəndində tərcüməçi olmuşdur. 1965-68-ci illərdə ADU-nun aspiranturasında oxumuş, 1968-75-ci illərdə orada dərs demiş, 1975-ci ildə antisovet təbliğat aparması ilə əlaqədar DTK orqanları tərəfindən həbs olmuşdur. Həbsxanadan azad olunduqdan sonra bir müddət işsiz qalmışdır. 1977-92-ci illərdə Azərbaycan EA-nın Əlyazmalar İstitutunda kiçik, sonra böyük elmi işçi işləmişdir. Əliyev Əbülfəz Qədirqulu oğlu (Elçibəy) tələbəlik illərindən sovet imperiyasına qarşı Azərbaycanın müstəqilliyi uğrunda barışmaz mübarizə aparmışdır. Elə buna görə də Azərbaycan gəncliyi arasında böyük populyarlığa malik olmuşdur. 1989-cu ildə Azərbaycan Xalq Cəbhəsi adlanan siyasi təşkilat yarandıqdan sonra onun sədri olmuşdur. 1992-ci ilin iyununda isə Azərbaycan Respublikasının prezidenti seçilmişdir. Bir ildən sonra Surət Hüseynovun üsyanı zamanı hakimiyyətdən uzaqlaşaraq Kələki kəndinə getmişdir. 1997-ci ildə Bakıya qayıtmış, ömrünün son illərində müxalifətdə olan Xalq Cəbhəsi partiyasına rəhbərlik etmişdir.

Əliyev Əbülfəz Qədirqulu oğlu (Elçibəy) 2000-ci il avqustun 22-də Ankarada vəfat etmiş, Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Əziz Əliyev**
(1897-1962)

Əziz Məmmədkərim oğlu Əliyev 1897-ci ildə İrəvanda anadan olmuşdur. İlk təhsilini İrəvanda



Abdulla bəy Muğanlinskinin pansionatında almışdır. O, İrəvan gimnaziyasını 1917-ci ildə qızıl medalla bitirdikdən sonra Peterburqa gedərək Hərbi-Tibb Akademiyasına daxil olmuşdur. 1918-ci ildə Ermənilərin İrəvanda törətdikləri qırğınlardan qurtulmaq üçün ailəsini əvvəlcə Naxçıvanın Şahtaxtı kəndinə, oradan isə İrana aparmalı olur. 1921-ci ildə yenidən Şahtaxtıya qayıdırlar və iki il orada həkim köməkçisi işləyir. 1923-cü ilın mayında Bakıya köçərək Xalq Komissarları Şurasında işləyir. İşləməklə yanaşı Tibb İnstitutunda təhsil alır və oranı 1927-ci ildə bitirir.

1928-30-cu illərdə Xalq Səhiyyə Komissarlığında müalicə şöbəsinin müdiri və Klinik İnstitutun direktoru işləyir. 1932-34-cü illərdə Tibb İnstitutunun direktoru, sonra isə Bakı şəhər səhiyyə şöbəsinin rəisi işləyir. 1936-37-ci illərdə Tibb İnstitutunun direktoru və ADU-nun rektoru vəzifəsində çalışır. Həmin ildə doktorluq işini müdafiə edir. 1938-39-cu illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi işləyir. 1939-41-ci illərdə xalq səhiyyə komissarı olur. 1941-ci ilin martından 1942-ci ilin sentyabrınadək Azərbaycan KP MK-nın katibi, 1948-ci ilin dekabrınadək isə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində işləmişdir. 1949-50-ci illərdə İctimai Elmlər Akademiyasında dinləyici, sonra isə ÜİK(b)P MK-nın inspektoru olmuşdur. 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, 1952-56-cı illərdə Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru və rayon xəstəxanasında baş həkimin müavini, 1956-cı ildən ömrünün sonunadək Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru işləmişdir.

Əziz Məmmədkərim oğlu Əliyev dəfələrlə SSRİ, RSFSR, Azərbaycan SSR və Dağıstan MSSR Ali Sovetlərinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1962-ci ildə Bakıda vəfat etmişdir. Azərbaycanda və Dağıstanda bir sıra küçələr onun adı ilə adlandırılmışdır.

Qızı Zərifə Əliyeva Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki olmuşdur. Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyevin həyat yoldaşı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin anası Zərifə xanım 1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat etmişdir. Onun cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbiri yanında dəfn olunmuşdur.

Oğlu Tamerlan Əliyev tibb elmləri doktoru, professor, respublikanın baş terapevti idi. Uzun müddət Tibb Universitetində daxili xəstəliklər kafedrasının müdiri, müdafiə şurasının sədri olmuşdur.

Oğlu Cəmil Əliyev tibb elmləri doktoru, professordur. 1990-cı ildən Azərbaycan Səhiyyə Nazirliyinin Onkologiya Mərkəzinin direktoru, 1994-cü ildən eyni zamanda Azərbaycan Dövlət

Həkimləri Təkmilləşdirmə İnstitutunun onkologiya kafedrasının müdiridir. Nyu-York Elmlər Akademiyasının üzvü, Rusiya Tibb Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Federasiyasının Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, Gürcüstan Milli Elmlər Akademiyasının həqiqi üzvü, İngiltərə Kral Universitetinin professoru, Anderson Xərçəng Əleyhinə Mərkəzin professorudur.

## Fətəli xan
**(**1736-1789)

1736-cı ildə Bakıda anadan olmuşdur. 1758-89-cu illərdə Quba xanı, böyük dövlət xadimi, sərkərdə, diplomat olmuşdur.



I İbrahimdən sonra Fətəli xan Azərbaycan hakimləri içərisində Azərbaycanın feodal dövlətlərinin xanlıqlarını vahid qüdrətli bir dövlətdə birləşdirmək cəhdində olmuşdur. Rusiya ilə dostluq əlaqələri saxlamış, dəfələrlə Peterburqa elçilər göndərmişdir. 1769-cu ildə Türkiyə və İran dövlətlərinin Rusiyaya qarşı birgə çıxış etmək təkidini rədd etmişdi. 1759-74-cü illərdə danışıqlar və müharibələr vasitəsilə öz ərazilərini Gilana qədər genişləndirmişdi. Ancaq 1774-cü ildə Fətəli xanın siyasətindən narazı olan Azərbaycanın bir sıra xanlıqları birləşərək Xudat yaxınlığında onunla döyüşə başladılar. Fətəli xan döyüşdə məğlub olaraq Salyana geri qayıtdı. 1775-ci ildə Rusiyanın Fətəli xana yardımı nəticəsində Fətəli xan Dərbənd, Şamaxı və Cənubi Azərbaycandakı əraziləri itirməklə öz ərazilərinin bir qismini bərpa edə bildi. Fətəli xan təkrarən Azərbaycan xanlıqlarını bir dövlətdə birləşdirmək istəyəndə Zaqafqaziyanı ələ keçirmək istəyən Rusiya ona maneçilik etdi.

Fətəli xana Azərbaycanın feodal xanlıqlarını vahid bir dövlətdə birləşdirmək nəsib olmadı. O, 1789-cu ildə Bakıda vəfat etmişdir.

**Cəmo bəy Hacınski**
(1888-1942)

Cəmo bəy Süleyman oğlu Hacınski 1888-ci ildə Qubada doğulmuşdur. Siyasi və dövlət xadimi.



Valideynlərilə hələ uşaq ikən Bakıya köçmüş, burada gimnaziyanı bitirmişdir. Bir müddət "Kaspi" qəzetində müxbir işləmişdir. 1907-ci ildə Peterburq Universitetinin hüquq fakültəsinə daxil olmuşdur.

C. Hacınski Universiteti bitirdikdən sonra 1915-17-ci illərdə Birinci Dünya müharibəsi illərində Batumda müsəlman qaçqın-cəmiyyətində çalışaraq ziyan çəkənlərə hüquqi yardım göstərmişdir. 1917-ci ilin aprelində C. Hacınski Zaqafqaziya Komitəsində Rusiyanın müvəqqəti hökumətinin nümayəndəsi təsdiq olunur. 1918-ci ilin fevralında Zaqafqaziya Seyminə daxil olur. Azərbaycan Demokratik Respublikasının birinci kabinetində dövlət nəzarəti naziri olur. Dördüncü və beşinci kabinetlərdə isə rabitə və teleqraf naziri olur, Azərbaycan Xalq Cümhuriyyəti parlamentinə seçilir. 1920-ci ildə Azərbaycanda kommunist rejimi qurulduqdan sonra Xalq Ədliyyə Komissarlığında çalışır. 1922-ci ildə birinci dəfə həbs olunaraq altı il məhkum olunur. Azadlığa çıxaraq Solovkovdan Bakıya gəlir. 1928-36-cı illərdə tutduğu böyük hüquq məsləhətçisi vəzifəsi ixtisara düşdüyü üçün işsiz qalıb, küçəyə düşür. İyirmi iki ay heç kəs C. Hacınskini işə götürmək istəmir.

1938-ci ilin noyabrında Cəmo bəy Süleyman oğlu Hacınski təkrar həbs olunur, 1942-ci ildə Vyatka həbs düşərgəsində vəfat edir. Kommunist rejimi Azərbaycanın ləyaqətli oğullarının birini də beləcə məhv edir.

C. Hacınskinin böyük qardaşı Mehdi bəy Süleyman oğlu (1879-1941) Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrindən biri-publisist, naşir, aktyor və teatr xadimi olmuşdur.

**Məmmədhəsən Hacınski**
(1875-1931)

Məmmədhəsən Cəfərqulu oğlu Hacınski 1875-ci ildə Bakıda doğulmuşdur. Siyasi və dövlət xadimi, şəhərsalma mühəndisi. Orta təhsilini Bakı realnı məktəbində almışdır. 1902-ci ildə Peterburq Texnologiya İnstitutunu bitirmişdir.



1902-ci ildə M. C. Hacınski bir neçə ay Şəmsi Əsədullayevin Moskvadakı neftayırma zavodunun tikintisində çalışır. İlin sonunda Bakıya qayıdır və burada Bakı şəhər idarəsində tikinti şöbəsinə rəhbər təyin olunur. 1904-cü ildə M. C. Hacınski, M. Q. Mövsümov, M. Ə. Rəsulzadə RSDFP-nin Bakı komitəsinin nəzdində "Hümmət" qrupunu yaradırlar. 1905-ci ildə bu qrupa M. Əzizbəyov, N. Nərimanov və Azərbaycanın başqa kommunistləri daxil olurlar. 1904-05-ci illərdə bu qrup altı nömrə "Hümmət" adlı qəzet buraxır. 1911-ci ildə M. Hacınski müsəlman demokratik müsavat partiyasına daxil olur. M. C. Hacınski şəhərin abadlaşdırılmasına xüsusi qayğı göstərir. Onun rəhbərliyi altında 1911-ci ildə Bakı bulvarının tikintisi başa çatdırılır, küçələrə ad, evlərə nömrə qoyulur. M. C. Hacınskinin təşəbbüsü ilə Şirvanşahlar sarayının bərpası üçün tədbirlər planı hazırlanır. 1913-cü ildə M. C. Hacınski bir müddət Bakı şəhər idarəsinə rəhbərlik edir. Rusiyada 1917-ci ildəki fevral burjua inqilabından sonra M. Hacınski Bakıda və Moskvada müsəlmanların qurultayının işində iştirak edir. 1917-ci ilin oktyabrında keçirilən "Türk Milli Federallar" partiyasının və sonralar "Müsavat" adlandırılmış, "Müsəlman Demokratik Müsavat" partiyasının birləşdirilmiş qurultayında "Müsavat" partiyasına keçərək onun mərkəzi komitəsinə üzv seçilir. Zaqafqaziya Seyminin üzvü olmuş, Zaqafqaziya Komissarlığında ticarət komissarının müavini olmuşdur. 1918-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqda bu hökumətin birinci kabinetində xarici işlər naziri, ikinci kabinetində əvvəlcə xarici işlər naziri (28 may - 7 dekabr 1918), sonra maliyyə naziri, üçüncü kabinetdə dövlət nəzarət naziri, beşinci kabinetdə əvvəlcə daxili işlər naziri, sonra sənaye və ticarət naziri olmuşdur. M. Hacınski Azərbaycan parlamentinə nümayəndə seçilmişdi. 1920-ci ilin aprelində hökumətin təşkili M. Hacınskiyə tapşırılır. O, fraksiyalarla habelə bolşevik fraksiyası ilə danışıqlara başlayır. Onlara dövlətdə vəzifə təklif edir, bolşeviklər razılaşmırlar. 1920-ci ilin aprelində M. Hacınski parlamentdə dövlətin formalaşdırılmasının mümkün olmadığını elan edir. Beş gün sonra Sovet Rusiyasının XI ordusu Bakıya daxil olur. Bu günlərdə "Müsavat"ın bir qrup üzvü M. Hacınski ilə birlikdə partiyadan çıxıb bolşeviklərə qoşulduğunu elan edir. Sovet dövründə M. Hacınski Azərbaycanın xalq təsərrüfatında rəhbər vəzifələrdə çalışmış, Zaqafqaziya Sovet Sosialist Federasiyasında plan komissiyasının sədr müavini olmuşdur. 1920-30-cu illərdə M. Hacınski Azərbaycanın və Zaqafqaziyanın perspektiv inkişafı ilə əlaqədar bir sıra məqalələr dərc etdirir.

1931-ci ilin əvvəlində Məmmədhəsən Cəfərqulu oğlu Hacınski sovet imperiyasının cəlladı L. Beriyanın tapşırığı ilə həbs edilərək mart ayında güllələnir.

**Hüseynqulu xan Qacar**
(1742-1831)

Hüseynqulu xan təxminən 1742-ci ildə Cənubi Azərbaycanda anadan olmuşdur. Qacarların Qoyunlu/Qovanlı tayfasına mənsub olmuşdur. Bəzən Qəzvini adından istifadə etməsinə görə onun Qəzvində doğulduğu ehtimal edilir. Lakin çox güman ki, bu ləqəbin işlədilməsi onun Qəzvin yaxınlığında Sadiq xan Şaqaqi üzərində qələbəsi və bundan sonra orada hökmdarlığı ilə əlaqədardır.



Atası Məhəmməd xan Qacar məşhur sərkərdə olmuşdur. Doğulduğu yer məlum deyil.

Tarixi mənbələrdə Hüseynqulu xanın adı ilk dəfə Şirazda sarayın üzvü kimi xatırlanır, O, burada qullarağası kimi fəaliyyət göstərmişdir. Fətəli şah taxta çıxandan sonra, ona olan sədaqətinə görə, Hüseynqulunu bir neçə üsulla mükafatlandırmışdı: Xorasanın idarəçiliyi də daxil olmaqla, ona bir neçə vəzifə vermiş, Hüseynqulunun bacısı ilə evlənmiş, Hüseynqulunun qızlarının birinə vəliəhd Abbas Mirzə ilə evlənməyi təklif etmiş və 29 yaşlı qızının Hüseynqulunun oğlu Məhəmməd ilə evlənməsinə razılıq vermişdir. Birinci Rusiya-İran müharibəsi (1804-1813) zamanı İrəvan qalasının rus qoşunlarından qorunması üçün şahın güclü və sədaqətli sərkərdəyə ehtiyacı var idi. Fətəli şah 1807-ci ildə Hüseynqulunu İrəvan xanı və şah qüvvələrinin baş komandanı (sərdarı) təyin edir. Bir il ondan sonra Hüseynqulunun qardaşı – hansı ki, igidliyinə görə "Sər Aslan" (yəni aslanlar başı) adını qazanan Həsən xan da İrəvana gəlir.

20 illik hökmranlığı zamanı Hüseynqulu xan ədaləti üsul-idarəçiliyə görə əhalinin rəğbətini qazanmışdır. Xarici səyahətçilər onu vəliəhd Abbas Mirzə qədər ixtiyar sahibi, ən güclü və var-dövlətli hökmdarlarından biri adlandırırdılar.

Hüseynqulu xan pul kəsmək ixtiyarına malik idi. O, gəlirin böyük hissəsini müdafiə məqsədlərinə istifadə etməyə imkan əldə edirdi. Hüseynqulu xan ticarəti həvəsləndirmiş və sabit idarəçilik qurmuşdu. Erməni və rus mənbələri də Hüseynqulu xanın mərhəmətli, səmimi, alicənab, vicdanlı və ədalətli xan olduğunu təsdiqləyirlər.

1827-ci ilin sentyabrın 1-də rus qoşunları Sərdarabad qalasını mühasirəyə alırlar. Hüseynqulu xan İrəvan qalasından çıxıb Sərdarabad qalasını mühafizə edən nəvəsinin köməyinə yetişmək istəyir Lakin rus qoşunları buna imkan vermirlər. O, İran-Türkiyə sərhədinə çəkilmək məcburiyyətində qalır. İrəvan qalasının müdafiəsi Həsən xanın üzərinə üzərinə düşür. Oktyabrın 1-də rus qoşunları İrəvan qalasını ələ keçirirlər. Həsən xanı isə ruslar əsir alır və onu Peterburqa imperator I Nikolayın hüzuruna göndərmək qərara alınır. Müəyyən səbəblərdən Həsən xanı aparan kareta yolda Terek çayı üzərindəki Yekaterinoqrad şəhərində ləngiyir. Lakin onun sonrakı taleyi haqda məlumat verilmir. Fətəli şah Səfəvilərdən ona miras qalan Teymurləngin qılıncını müharibələr zamanı göstərdiyi igidliyə görə Həsən xana hədiyyə etmişdi. Həsən xanın həmin qılıncını general-leytenant Krasovski İmperatora hədiyyə olaraq göndərir.

Fars mənbələrinə istinadən Hüseynqulu xan 1831 ildə İranda vəfat etmişdir.

**Xəlil bəy Xasməmmədov**
(1873-1920)

Xəlil bəy Hacıbaba oğlu Xasməmmədov 1873-cü ildə Gəncədə doğulmuşdur. Siyasi və dövlət xadimi. Azərbaycan Demokratik Partiyası "Müsavat"ın əsas ideoloqlarından biri olmuşdur, orta təhsilini Gəncədə almışdır. 1895-ci ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir.



1895-1919-cu illərdə Yekaterinodar və Yelizavetpol qəzalarının məhkəmələrində işləmişdir. II və III çağırış Dövlət Dumasına deputat seçilmişdir. 1913-18-ci illərdə Yelizavetpol şəhər bələdiyyə rəisi, Yelizavetpol qəza icraiyyə komitəsinin sədri olmuşdur. 1917-ci ildə Rusiyada fevral inqilabından sonra Zaqafqaziya Komissarlığı yaradıldıqda nəzarət komissarı, habelə Zaqafqaziya Seyminin üzvü olur. 1918-ci ilin mayında Azərbaycan Milli Şurasında icraiyyə komitəsinin tərkibində olmuşdu. O, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin bütün beş kabinetinin tərkibində ədliyyə, yollar, daxili işlər, təkrarən ədliyyə naziri, habelə Azərbaycan parlamentinin üzvü olmuşdur.

1920-ci ilin aprelində Xəlil bəy Hacıbaba oğlu Xasməmmədov Azərbaycanın Türkiyədə səfiri təyin olunur. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Azərbaycanda kommunist rejimi qurulmasından sonra vətənə qayıtmamışdır. Türkiyədə vəfat etmişdir. Bakıdakı Hüquq Kadrlarının Təkmilləşdirmə İnstitutu onun adını daşıyır.

**Şeyx Məhəmməd Xiyabani**
(1878-1920)



Şeyx Məhəmməd Hacı Əbdülhəmid oğlu Xiyabani 1878-ci ildə Təbrizin Xamnə kəndində doğulmuşdur. Cənubi Azərbaycanın milli-azadlıq hərəkatının görkəmli xadimi, publisist.

Təbrizdə ruhani təhsili almış Xiyabani 1905-11-ci illər İran inqilablarının fəal iştirakçısı olmuşdur. Port-Petrovsk, Bakı və Tiflisdə yaşamışdır. 1914-18-ci illərdə Təbrizdə gizli yaşamışdır. 1917-ci ildə Cənubi Azərbaycan Demokratik partiyasına rəhbərlik etməklə partiyanın orqanı olan "Təcəddüd" qəzetində mütəmadi olaraq çıxış etməklə İrandakı azərbaycanlıları müstəqillik uğrunda mübarizəyə çağırmışdır. 1920-ci ilin aprelində Təbriz üsyanına, iyunda isə Cənubi Azərbaycan hökumətinə rəhbərlik etmişdir. Xiyabani hökuməti qısa müddət ərzində xəstəxanalar, məktəblər açmış və xalqın həyatını yaxşılaşdırmaq üçün bir sıra başqa sosial tədbirlər həyata keçirmişdir.

Şeyx Muhəmməd Hacı Əbdülhəmid oğlu Xiyabani 1920-ci ilin sentyabrında şah qoşunlarının Təbrizə hücumu və üsyanın yatırıldığı zaman öldürülmüşdür.

**Fətəli xan Xoyski**
(1875-1920)

Fətəli xan İsgəndər oğlu Xoyski 1875-ci ildə Şəkidə doğulmuşdur. Onun ulu babası Cəfərqulu xan Cənubi Azərbaycanda Xoyun hakimi, babası İsmayıl xan 1807-10-cu illərdə Şəki xanı olmaqla rus ordusunun general-leytenantı olmuşdur. F. İ. Xoyski orta təhsilini Gəncə Klassik Gimnaziyasında almış, 1901-ci ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir.



1901-16-cı illərdə Gəncə, Suxum, Batum, Kutais, Bakı məhkəmələrində vəkil olmuşdur. Yekaterinodarda prokurorun köməkçisi, ikinci Dövlət Dumasının deputatı olmuşdur. 1917-ci ildə Rusiyada fevral inqilabından sonra F. Xoyski Zaqafqaziya seyminə daxil olur. 26 may 1918-ci ildə Seym buraxıldıqdan sonra, 1918-ci il mayın 28-də M. Ə. Rəsulzadənin başçılığı ilə yaradılan Azərbaycan Milli Şurası Azərbaycan Xalq Cümhuriyyəti yaradıldığını elan etdi. Şura F. İ. Xoyski başda olmaqla Azərbaycan hökumətini seçdi. 1919-cu ilin martına kimi F. İ. Xoyski bu hökumətin rəhbəri oldu. Bu müddət ərzində bank sistemi yaradılaraq pul və poçt markaları buraxıldı, milli dildə məktəblər açıldı, kənd və şəhərlərə əvvəlki adları (məs. Yelizavetpol - Gəncə) qaytarıldı və s. dövlət əhəmiyyətli işlər görülərək dövlət hakimiyyətinin strukturu möhkəmləndirildi. F. Xoyski Azərbaycan Dövlət Universitetinin yaradılması prosesində və Azərbaycan parlamentinə keçiriləcək seçkilərdə fəal iştirak edir. 1919-cu ilin martından 1920-ci ilin martınadək olan dövrdə Azərbaycan hökumətinə Nəsibbəy Yusifbəyli rəhbərlik edir. F. İ. Xoyski bu hökumətdə xarici işlər naziri vəzifəsini tuturdu. 22 yanvar 1920-ci ildə bolşevik Rusiyasının xarici işlər naziri Çiçerin Azərbaycan hökumətinə nota göndərərək Denikinə qarşı birgə səy göstərməyi təklif etmişdi. Azərbaycan hökumətinin cavabı belə olmuşdu: "Azərbaycan Respublikası Sovet Rusiyasının işinə qarışmır, biz bu məsələdə bitərəfik". 27 aprel 1920-ci ildə Azərbaycan parlamentində Çiçerinin göndərdiyi ikinci notasına eyni cavab oxuduqdan sonra rus imperiyasının qoşunları Azərbaycan dövlət sərhədini keçdilər.

Azərbaycan Xalq Cümhuriyyəti süqut edib kommunist rejimi qurulduqdan sonra Fətəli İsgəndər oğlu Xoyski ailəliklə Tiflisə köçdü. Burada 1920-ci ilin iyunun 19-da erməni millətçi-terrorçuları tərəfindən qətlə yetirildi.

## İbrahimxəlil xan
(1726-1806)

Qarabağ xanlığının əsasını qoyan Pənahəli bəyin oğlu İbrahimxəlil xan təxminən 1726-cı ildə Şuşa yaxınlığında doğulmuşdur. 1759-1806-cı illərdə Qarabağ hakimi olmuşdur.

Azərbaycanın qədim feodal dövləti Qarabağ xanlığı dəfələrlə yadelli işğalçıların hücumlarına məruz qalmışdır. Xüsusilə, İran şahı Ağa Məhəmməd şah Qacarın XVIII əsrin ikinci yarısındakı hücumları daha ağır olmuşdur. Qacar müharibələr üçün ondan atlılar və vəsait tələb edirdi. Ona görə də İbrahimxəlil xan rus çarından himayə istəməyə məcbur oldu. 1783-cü ildə o, Peterburqa elçilər göndərdi. (Bu səhnə rəssam Q. Qaqarin tərəfindən "Qarabağ xanlığından Peterburqa elçilərin gəlməsi" əsərində gözəl təsvir olunmuşdur). II Yekaterina elçiləri qəbul etdi. Elçilər Qarabağ xanı İbrahimxəlil xanın Rusiya təbəəliyinə girmək xahişini imperatriçəyə bildirdilər. Təklif anlaşıqlı şəkildə qəbul edildi. 1795-ci ildə Şah Qacar növbəti dəfə Şuşa qalasını mühasirəyə aldı. Mühasirə 33 gün davam etdi, 34-cü gün Qacar mühasirəni götürüb Gürcüstana getdi. 1796-cı ildə general V. Zubov böyük qoşun dəstəsilə Şimali Azərbaycana girdi. İbrahimxəlil xan vəziri - xarici işlər naziri, böyük şair Molla Pənah Vaqifi onun yanına göndərərək Qarabağın rus təbəəliyinə keçmək təklifini təkrarladı. 1897-ci ildə Rusiyanın yeni çarı I Pavel Azərbaycandakı qoşunları geri çağırdı. Bundan istifadə edən İran şahı Qacar təkrarən Qarabağa hücum etdi. Ancaq bu yürüşdə Qacar öldürüldü. İbrahimxəlil Qarabağa qayıtdı və 1805-ci il mayın 14-də Kür çayı sahilində general Sisianovla Qarabağ xanlığının Rusiya tərkibinə keçməsilə bağlı Kürəkçay traktatını imzaladılar. 1806-cı ildə İran qoşunları təkrarən Qarabağa hücum etdi. Rus qoşunlarının Şuşada yerləşən qarnizonunun rəisi mayor Lisaneviç xanın xəyanətkarlığından şübhələnərək İbrahimxəlil xanı və ailəsini güllələdi.

1813-cü ildən sonra ermənilər Qarabağa İran və Türkiyədən köçərək gəlmişlər. 1823-cü ildə Qafqaz canişininin dəftərxanasının keçirdiyi siyahıyaalmaya görə orada yaşayan 18563 ailənin ancaq 1559-u və ya 8,4 faizi ermənilər idi. 1832-ci ildə Qarabağ əhalisinin 34,2 faizi erməni, 64,8 faizi azərbaycanlılar idi.. XX əsrin sonunda isə azərbaycanlılar Qarabağdan tamamilə qovuldular.

**Şıxəli Qurbanov**
(1925-1967)

Şixəli Qurbanov Qurban-Əli Oğlu 1925-ci il avqustun 16-da Bakı şəhərində qulluqçu ailəsində dünyaya göz açmışdır. Dövlət və ictmai xadim, ədəbiyyatşünas-alim, dramaturq, nasir, şair, SSRİ Yazıçılar və Jurnalistlər Birliyinin üzvü.



Filologiya elmləri doktorudur. Azərbaycanın Dövlət mükafatının (“Sənsiz” dramına görə) və Üzeyir Hacıbəyov adına Dövlət mükafatının (“Milyonçunn dilənçi oğlu” musiqili komediyasına görə) laureatıdır.

Tələbəlik illərindən başlayaraq ömrünün son günlərinə kimi ictimai-siyasi fəaliyyətlə məşğul olmuş və respublikada bir sıra rəhbər vəzifələrdə çalışmışdır.

Əqidəsinə görə beynəlmiləlçi olan bu insan, öz xalqını və Vətəni Azərbaycanı hədsiz dərəcədə sevirdi. Məhz bu məhəbbətin sayəsində Şixəli Qurbanov 1958-ci ilin noyabrında rəsmi Moskvaya qarşı «İmkan verin öz tariximizi özümüz yazaq!» - deyə etiraz etmişdir. Lakin buna baxmayaraq, 1966-cı il fevral ayının 27-də Şixəli Qurbanov Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin ideoloji işlər üzrə katibi seçilmişdir.

Azərbaycanda ilk puşkinşünasdır. «Puşkin və Azərbaycan poeziyası» (1956), «A.S.Puşkin və Azerbaydcan» (1959), «XIX əsrdə Azərbaycan - rus ədəbi əlaqələrinin inkişaf mərhələləri» (1964) monoqrafiyalarının; 50-dən artıq elmi məqalənin müəllifidir. Şixəli Qurbanovun əsərləri şərqşünaslıq tədqiqatlarının qızıl fonduna daxildir.

Şıx-Əli Qurbanov həm də iki cildlik əsaslı elmi əsərin – «Великая дружба азербайджанского и русского народов» («Azərbaydcan və rus xalqlarının böyük dostluğu», 1964) müəllif-tərtibatçılarından biridir.

1961-1967-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunda özünün yaratdığı Ədəbi əlaqələr şöbəsinə rəhbərlik etmiş, bu sahədə bir sıra elmi kadrlar yetişdirmiş və bununla da Azərbaycan ədəbiyyatşünaslığında bütöv bir cərəyanın əsasını qoymuşdur.

Şixəli Qurbanovun qələminə “Sənsiz” dramı;“Əcəb işə düşdük” komediyası; “Bahadır və Sona” operasının şeir mətni; “Özümüz bilərik”, “Olmadı elə, oldu belə”, “Milyonçunun dilənçi oğlu”, “Sevindik qız axtarır” musiqili komediyalarının librettoları; povest və yumoristik hekayələr, poema və şeirlər məxsusdur.

Şixəli Qurbanov 1967-ci ilin mart ayında tutduğu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji məsələlər üzrə katibi vəzifəsindən istifadə edərək Azərbaycan xalqının ən qədim və istəkli bayramı olan «Novruz»u uzun illik həbsdən qurtarmasının və onun dövlət səviyyəsində keçirilməsinin təşəbbüskarı və təşkilatçısı olmuşdur. Bununla da Şixəli Qurbanov xalqının milli şüurunun oyanmasına nail ola bilmişdir. İki ay sonra, o, 1967-ci il may ayının 24-də faciəli surətdə vəfat etmişdir.

Şixəli Qurbanov üç çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. Ölümündən sonra Lenin Ordeni ilə təltif edilmişdir.

Şixəli Qurbanovun adını Azərbaycan Dövlət Musiqili Komediya teatrı (1967), paytaxtımızın mərkəzi küçələrindən biri (1967) və respublikanın bir çox şəhər və rayonlarında bir sıra müəssisə və küçələr daşıyır.

**Xudadat bəy Məlik-Aslanov**
(1879-1935)

Xudadat bəy Ağa oğlu Məlik-Aslanov 1879-cu ildə Şuşada doğulmuşdur. Dövlət və siyasi xadim, 1899-cu ildə Şuşa realnı məktəbində oxumuş, 1904-cü Peterburq yol mühəndisləri institutunu bitirmişdir.



1901-ci ildə də RSDFP-yə daxil olur, 1904-cü ildə partiyadan çıxaraq ömrünün sonunadək bitərəf qalır. Ali məktəbi bitirdikdən sonra yarım il Voloqda-Petrozavodsk yolunun tikintisində işləmişdir. 1905-ci ildə Tiflisə gəlmiş, burada Zaqafqaziya dəmir yolunda çalışmış, Surom bölməsində texniki qurğular tikmiş, Çianuri-Marqal mərkəzlərinə ensiz dəmir yolu çəkmişdir. 1912-17-ci illərdə Peterburq elmi jurnallarında dəmir yollarının sonrakı perspektiv texniki inkişafı yolları haqqında bir sıra məqalələrlə çıxış edir. Fevral inqilabından sonra müvəqqəti hökumətin Zaqafqaziya dəmir yolu üzrə nümayəndəsi təyin olunur. Sonra, Zaqafqaziya komissarlığında dəmir yolu komissarı, Zaqafqaziya federativ hökumətində dəmir yol naziri olur. 1918-ci ildə Zaqafqaziya dəmir yolu tarixindən kitab nəşr etdirir. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra, hökumətin birinci kabinetində dəmir yol, teleqraf və poçt naziri olur. İkinci, üçüncü, dördüncü kabinetlərdə dəmir yolu naziri, beşinci kabinetdə dəmir yolu eyni zamanda sənaye və ticarət naziri və həm də hökumətin birinci müavini olur, Azərbaycan parlamentinin üzvü idi. 1919-cu ildə bilavasitə Məlik-Aslanovun iştirakı ilə dəmir yolunu kadrlarla təmin etmək üçün Bakıda dəmir yolu texnikumu açılır. Elə həmin il Məlik-Aslanovun rəhbərliyi ilə latın əlifbasına keçmək üçün komissiya yaradılır. Komissiyanın hazırladığı tədbirlər planını parlament təsdiq edir. ADR süqut etdiyindən bu məsələni həyata keçirmək mümkün olmur. Ölkədə kommunist rejimi quruldu. Sovet hakimiyyətinin ilk günlərində Məlik-Aslanov əvvəlcə tikinti komitəsində şöbə müdiri, sonra komitənin sədri olur. 1923-33-cü illərdə Xalq Təsərrüfatı Şurasında, Dövlət Plan komissiyasında, işləmiş Politexnik İnstitutunda dekan olmuşdur. SSRİ-nin və Azərbaycanın müxtəlif elmi texniki cəmiyyətləri və komissiyalarının üzvü olur. İki monoqrafiya bir sıra elmi məqalələr nəşr etdirir.

1930-cu ildə Məlik-Aslanov Xudadat bəy Ağa oğlu birinci dəfə tutularaq Baş Siyasi İdarəsinin zindanında iki il yarım həbsdə olur. Qısa bir müddət azadlığa çıxan kimi nəqliyyat və tikinti institutlarında dərs deyir. 1934-cü ildə ikinci dəfə həbs olunur, 1935-ci ildə həbsxanada vəfat edir. Beləcə Stalinin cəza maşını Azərbaycanın ən ləyaqətli oğullarından birinin həyatına son qoyur.

## Ramiz Mehdiyev
(1938)

Ramiz Ənvər oğlu Mehdiyev 1938-ci il aprelin 17-də Bakı şəhərində anadan olmuşdur. Şərur rayonunun Qarxun kəndindən olan atası Mehdiyev Ənvər Hüseynqulu oğlu 1942-ci ildə İkinci Dünya müharibəsində Krım cəbhəsində həlak olmuşdur. Uşaqlıq illəri və ilk gənclik dövrü Naxçıvan şəhərində keçmişdir. Orta təhsilini Naxçıvan şəhər A. S. Puşkin adına 3 saylı orta məktəbdə rus dilində almışdır.



1957-ci ildə Bakı Dənizçilik Məktəbini bitirdikdən sonra “Xəzərdənizneftqazsənaye” Ümumittifaq İstehsalat Birliyinin “Xəzərneftdonanma” İdarəsinin gəmilərində maşinist işləmişdir.

O, 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuş, 1965-ci ildə universitetin V kursunda oxuyarkən Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin tələbə-gənclər şöbəsinin təlimatçısı təyin edilmişdir.

Ramiz Mehdiyev 1967-68-ci illərdə Naxçıvan Vilayət Komsomol Komitəsinin ikinci katibi vəzifəsində çalışmışdır. 1968-ci ildə M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsinin aspiranturasına daxil olmuş, 1972-ci ildə dissertasiya müdafiə etmişdir.

1972-ci ildən Azərbaycan Dövlət Universitetinin Elmi kommunizm kafedrasında əvvəlcə müəllim, sonra isə baş müəllim işləmişdir. 1974-cü ilin mayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Təbliğat və təşviqat şöbəsində mühaziraçi, bir il sonra isə Azərbaycan KP MK-nın ideologiya məsələləri üzrə katibinin köməkçisi təyin edilmişdir. O, 1976-cı ilin iyun ayında Azərbaycan KP MK-nın elm və təhsil müəssisələri şöbəsi müdirinin müavini vəzifəsinə təsdiq edilmişdir. 1978-cı ilin oktyabrında R.Mehdiyev Azərbaycan KP 26 Bakı komissarları adına Rayon Komitəsinin birinci katibi seçilmişdir.

1980-cı ilin iyununda Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsinin müdiri, 1981-ci ilin yanvarında isə Azərbaycan KP MK-nın Təşkilat-partiya işi şöbəsinin müdiri təyin olunmuşdur.

1983-1988-ci illərdə Azərbaycan KP MK-nın ideologiya məsələləri üzrə katibi vəzifəsində işləmişdir.

Özünü sırf elmi-tədqiqat işlərinə həsr edən Ramiz Mehdiyev 1993-cü ilin dekabr ayında fəlsəfə elmləri doktoru dərəcəsi almaq üçün “Millətlərarası münasibətlər: nəzəriyyə və siyasət problemləri” mövzusunda dissertasiya müdafiə etmişdir.

1994-cü ilin fevralında Azərbaycan Respublikasının Prezidentinin İcra Aparatının Ümumi şöbəsinin müdiri təyin olunmuşdur. 1995-ci ilin fevralından isə Prezidentin İcra Aparatının (indiki Prezident Administrasiyası) rəhbəri təyin olunmuşdur.

Ramiz Mehdiyev 2001-ci ilin aprel ayında Nyu-York Elmlər Akademiyasının üzvü, 2007-ci ilin aprel ayında isə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

1980-1985-ci illərdə və 1985-1990-cı illərdə Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

1995-2000-ci illərdə birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Azərbaycan Respublikasının "İstiqlal" ordeni (2008), "Şərəf" ordeni (2013) və "Şöhrət" (2018) ordeni ilə təltif edilmişdir.

Rusiya Federasiyasının "Dostluq" ordeni (2008) və "Şərəf" ordeni (2018) ilə təltif edilmişdir.

Ramiz Mehdiyev 23 oktyabr 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir. O, Həmin gün Prezident Administrasiyasının rəhbəri vəzifəsindən azad edilmiş və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçilmişdir.

19 fevral 2022-ci ildə AMEA ümumi yığıncağında Ramiz Mehdiyevin Akademiyanın prezidenti vəzifəsindən istefası qəbul edilmişdir.

## İmam Mustafayev
(1910-1998)

İmam Daşdəmir oğlu Mustafayev 1910-cu ildə Qax rayonunda doğulmuşdur. Seleksiyaçı, genetik-alimdir. Biologiya elmləri doktoru, Azərbaycan EA-nın Akademiki. 1933-cü ildə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.



İmam Mustafayev 1934-40-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda kafedra müdiri, dekan, direktor müavini olmuşdur. 1940-54-cu illərdə kənd təsərrüfatı nazirinin müavini, nazir, Gəncə şəhər Partiya Komitəsinin birinci katibi, 1954-59-cu illərdə Azərbaycan KP MK-nın birinci katibi olmuşdur. 1959-70-ci illərdə Azərbaycan EA-nın Genetika və Seleksiya İnstitutunun şöbə müdiri, 1971-ci ildən ömrünün sonuna kimi bu institutun direktoru olmuşdur. O, Azərbaycanda əkilmək üçün bir sıra buğda sortları yetişdirmişdir. Bir sıra elmi əsərlərin, habelə, "Azərbaycanda buğdanın seleksiyası", "Azərbaycanın buğda kolleksiyası", "Azərbaycan buğda növlərinin vətənidir" və s. monoqrafiyaları, bu gün də öz əhəmiyyətini itirməmişdir.

İmam Daşdəmir oğlu Mustafayev dəfələrlə Azərbaycan və SSRİ Ali Sovetlərinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1990-cı ildə Respublika Ağsaqqallar Şurasının yaradılmasında böyük zəhməti olmuş və I təsis qurultayında onun ilk sədri seçilmişdir. 1998-ci ildə Bakıda vəfat etmişdir.

**Nəriman Nərimanov**
(1870-1925)

Nəriman Nəcəf oğlu Nərimanov 1870-ci ildə Tiflisdə doğulmuşdur. Yazıçı, dramaturq, publisist, maarifçi, həkim, dövlət və ictimai xadim. 1890-cı ildə Qori Müəllimlər Seminariyasını bitirmişdir. 1908-ci ildə Novorossiysk Universitetinin tibb fakültəsini bitirmişdir (Odessa). Kommunistlərin onun xalqına xoşbəxtlik gətirəcəyinə bütün varlığı ilə inanmışdı. Yanıldığını biləndə artıq gec idi.



N. Nərimanov seminariyanı bitirəndən sonra Tiflis Quberniyasının Qızıl-Hacılı kəndində müəllim işləmişdir. 1891-ci ildə Bakıya gəlib publisistik-maarifçilik işlərilə məşğul olur. Oxucu zalı, milli dildə kitabları olan ilk Azərbaycan Xalq Kitabxanasının əsasını qoyur. Azərbaycan və rus məktəbləri üçün dərsliklər yazır. N. Qoqolun "Müfəttiş" əsərini tərcümə edir. "Nadanlıq" dramını, "Şamdan bəy" komediyasını yazır. "Nadir şah" faciəli dramında cəllad əlində inləyən, əzilən xalq kütləsinin iztirablarını göstərir. "Bahadır və Sona" əsərində iki gəncin məhəbbəti arasında uçurum yaradaraq milli ayrı-seçkiliyi ittiham edir, Nəriman Nərimanovun əsərləri hələ 20-ci illərə qədər Azərbaycanın həvəskar və professional səhnələrində tamaşalara qoyulmuş və tamaşaçıların rəğbətini qazanmışdı. N. Nərimanov dövlət və siyasi işlərdə də böyük uğurlar qazanmışdı. 1905-ci ildə "Hümmət" təşkilatına daxil olub Rusiya sosial demokratlarının (RSDFP) proqramını Azərbaycan dilinə tərcümə edir. 1909-cu ildə həbs olunaraq Həştərxana sürgün olunur. 1913-cü ildə Bakıya qayıdaraq fəhlələr arasında təbliğat aparır. 1917-ci ildə Nərimanov "Hümmət" təşkilatının sədri və RSDFP (b) üzvü, "Hümmət" qəzetinin redaktoru idi. 1918-ci ildə Bakı xalq komissarları sovetinin şəhər təsərrüfatının komissarı olur. 1918-ci ilin iyununda ağır xəstəliyi ilə əlaqədar Həştərxana göndərilir. Müalicədən sonra bir müddət Həştərxanın partiya, sovet orqanlarında çalışır. 1919-cu ildə Moskvaya çağırılaraq Xarici İşlər Komissarlığında yaxın şərq şöbəsinin müdiri və eyni zamanda milli məsələlər üzrə komissarın müavini olur. 1920-ci ildə Nərimanov Azərbaycan İnqilabi Komitəsinin və XKS sədri olur. 1922-ci ildə SSRİ təşkil olunduqdan sonra ömrünün sonunadək SSRİ Mərkəzi İcraiyyə Komitəsi sədrlərindən biri olur.

Nəriman Nəcəf oğlu Nərimanov 1925-ci ildə Moskvada müəmmalı şəkildə vəfat etmişdir. Qızıl meydanda - Kreml divarının yanında dəfn edilmişdir.

**Sabit Orucov**
(1912-1981)

Sabit Atababa oğlu Orucov 1912-ci ildə Bakıda doğulmuşdur. Neft və qaz sənayesinin görkəmli



təşkilatçılarından biri olmuş, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ Dövlət mükafatı laureatı, texnika elmləri doktoru, Azərbaycanın əməkdar elm xadimi. Orta təhsilini Bakıda almış, 1929-31-ci illərdə orta məktəbdə dərs demiş, ,1931-36-cı illərdə Neft Sənayesi İnstitutunda oxumuşdur.

1936-46-cı illərdə S. Orucov kompressor təsərrüfatında mexanik, neftçıxarma ustası, Suraxanı mədənlərində direktor olmuşdur. "Orcenikidzeneft"in idarə rəisi, "Azərneftkombinat"da qazma üzrə rəis müavini, "Azneftdə" baş mühəndis işləmişdir. 1946-47-ci illərdə SSRİ Neft Sənayesi Nazirliyində şöbə müdiri, 1947-49-cu illərdə "Krasnodarneft" birliyində rəisin birinci müavini - baş mühəndis, 1949-53 və 1955-57-ci illərdə SSRİ neft sənayesi nazirinin müavini, 1957-59-cu illərdə Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədri, Nazirlər Soveti sədrinin müavini, 1959-62-ci illərdə Azərbaycan Nazirlər Sovetinin SSRİ Nazirlər Sovetindəki nümayəndəsi, 1962-65-ci illərdə SSRİ Dövlət Plan Komitəsində neft və qaz sənayesi məsələlərilə məşğul olmuş, 1965-72-ci illərdə SSRİ neft sənayesi nazirinin birinci müavini, 1972-81-ci illərdə SSRİ qaz sənayesi naziri olmuşdur.

S. A. Orucov Xəzər dəniz neft yataqlarında xüsusilə də neft daşlarında neft çıxarılmasına böyük əmək sərf etmişdir. SSRİ qaz sənayesinin inkişafında böyük xidmətləri olmuşdur. Xüsusilə Sibirdə qaz sənayesinin inkişafına diqqət yetirirdi. SSRİ neft komitəsinin sədri və dünya neft konqreslərinin sədr müavini seçilmişdir. "Yüksəkdərinlikli iribloklu dəniz neft buruqları özülləri", "İranın neft sənayesi", "Qaz sənayesi inkişaf yolunda" kimi əsərlərin müəllifidir.

Sabit Atababa oğlu Orucov dəfələrlə Azərbaycan və SSRİ Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1981-ci ildə Moskvada vəfat etmişdir.

## Pənahəli xan
(1693-1758)

Pənahəli bəy Sarıcalı Cavanşir 1748-ci ildə Qarabağ xanlığının əsasının qoymuş və özünü xan elan etmişdir. Xanlıq Araz və Kür çayları arasındakı ərazidə yerləşirdi. Qarabağ xanlığı İrəvan xanlığı, Şəki xanlığı, Gəncə xanlığı, Naxçıvan xanlığı, Qaradağ xanlığı, Cavad xanlığı və Şamaxı xanlığı ilə həmsərhəd idi. Pənahəli xan xanlığın əsasını qoyandan sonra müdafiə işlərinin gücləndirmək üçün 1748-ci ildə Kəbirli mahalında Bayat qalasının, 1751-ci ildə Tərnəkütdə Şahbulağı qalasını tikdirdi. III qala Şuşa qalası oldu. Şuşa əlçatmaz dağlarda yerləşib. Lakin monqolların yürüşlərindən (XIII əsr) sonra dağılmış və Pənahəli xan tərəfindən bərpa edilmişdir. Şuşa qalası Qarabağ xanlığının iqtisadi, siyasi paytaxtına çevrilmişdir. Pənahəli xanın yeritdiyi düzgün siyasət nəticəsində qonşu xanlıqlar və xanlığın tərkibində olan məliklər Pənahəli xana yaxınlaşmışlar. Buna görədə Urmiyalı Fətəli xan Əfşar, Məhəmmədhəsən şah Qacar Qarabağ xanlığına hücum etmişdirlər. Xanlığı yalnız Fətəli xan tabe etdirə bilsədə Kərim xan Zəndin Fətəli xana müharibə elan etməsi Qarabağ xanlığının asılılıqdan qurtarmasına səbəb oldu. Lakin Kərim xan Zənddə Fətəli xanı məğlub edib Urmiyanı tutduqdan sonra Qarabağ xanlığını tabe etdirib onun idarəsinin Pənahəli xanın oğlu İbrahimə tapşırmış, Pənahəli xanı isə Şiraza aparmışdır. Bununla da Qarabağ xanlığına böyük zərbə vurmuşdur.

Qarabağ tarixçisi Mirzə Camal yazır ki, "Pənah xan Nadir şahın ölümündən sonra 12 illik hakimiyyəti dövründə özünü görkəmli sərkərdə və dövlət xadimi kimi göstərə bilir. "Azərbaycan" vilayətinin böyük bir qismi ona tabe olmuşdu."

**Seyidcəfər Pişəvəri**
(1892-1947)

Seyidcəfər Seyidcavad oğlu Cavadzadə 1892-ci ildə Cənubi Azərbaycanın Xalxal mahalının Zəviyə kəndində doğulmuşdur. Cənubi Azərbaycan inqilabi hərəkatının görkəmli nümayəndəsidir. 1905-ci ildə Bakıya köçmüşdür. Təhsilini Xalxalda və Bakıda almışdır. 1913-17-ci illərdə Xırdalanda müəllimlik etmişdir. 1918-ci ildə İranda "Ədalət" kommunist təşkilatının orqanı "Hürriyyət" qəzetinin redaktoru olmuşdur.



S. Pişəvəri 1920-ci ilin mayında qısa müddət yaşayan Gilan Respublikasının xarici işlər komissarı, 1921-22-ci illərdə İran kommunistlərinin qəzeti "Həqiqət"in redaktoru olur. Kommunist internosialının III konqresində iştirak edərək onun katiblərindən biri seçilir. 1928-ci ildə İrana qayıdır. 1929-cu ildə İran Kommunist partiyasının birinci katibi seçilir. 1930-cu ildə həbs olunur və 10 il "Qəsri-Qacar" zindanında həbsdə olur. Azad olunduqdan sonra Kaşana sürgün olunur. 1941-45-ci illərdə Pişəvəri solçuların "Acir" qəzetinin redaktoru, 1945-ci ildə Azərbaycan demokratik partiyasının birinci katibi olur. 1945-ci ildə Azərbaycan Milli Məclisinin tapşırığı ilə Cənubi Azərbaycan hökumətinə rəhbərlik edir. 1946-cı ildə İran qoşunları tərəfindən Təbriz tutulduqda Bakıya gəlir.

Seyidcəfər Seyidcavad oğlu Cavadzadə (Pişəvəri) bütün ömrü boyu İran əsarəti altında əzilən 30 milyonluq Azərbaycan xalqının azadlığı uğrunda mübarizə aparmışdır.

1947-ci ildə Bakıdan Gəncəyə gedərkən müəmmalı avtomobil qəzasında həlak olmuşdur.

Bakıda adına məktəb və küçə var.

## Xudadat bəy Rəfibəyli
(1873-1920)

Xudadat bəy Ələkbər oğlu Rəfibəyli 1873-cü ildə Gəncədə doğulmuşdur. İctimai və dövlət xadimi, publisist, həkim. Gəncə klassik gimnaziyasında orta təhsil almışdır. 1903-cü ildə Xarkov universitetinin tibb fakültəsini bitirmişdir.



1903-cü ildə Gəncəyə qayıdan X. Rəfibəyli həkimliklə məşğul olmuşdur. 1906-cı ildən publisistik fəaliyyətə başlayaraq təkcə tibbdən deyil, ədəbiyyatdan, incəsənətdən və tarixdən yazmağa başlamışdır. 1914-cü ildə Həsənbəy Ağayevlə birgə "Gəncə tibb cəmiyyətini" yaradıb onun sədri seçilir. Cəmiyyət imkansız adamlara pulsuz tibbi yardım göstərir. 1918-ci ilin mayında Azərbaycanda demokratik respublika quruldu. X. Rəfibəyli bu hökumətin birinci və ikinci kabinetlərində səhiyyə naziri oldu. Qısa müddətdə yeni xəstəxanalar açdı, imkansızlara pulsuz xidmət göstərmək üçün köhnələrini bərpa etdi, apteklər açdı, tibbi avadanlıqları və dərmanları saxlamaq üçün anbarlar, analizlər etmək üçün laboratoriyalar yaratdı. Gəncə ətrafında vəba əleyhinə stansiya yaratdı. 1919-cu ildə X. Rəfibəyli Gəncə qəzasının general-qubernatoru təyin olundu. O, fəal şəkildə milli ideyaları təbliğ edərək Azərbaycan dövlətinin tədbirlərini Gəncədə və qəzada həyata keçirməyə başladı.

1920-ci ilin aprelində Azərbaycanda kommunist rejimi qurulduqdan sonra, əvvəlcə sovet hakimiyyətini tanınmış Gəncə qarnizonu 1920-ci ilin mayında ona tabe olmaqdan imtina etdi və üsyan etdi. Bolşeviklər ordusu üsyanı amansızcasına yatırdılar. Bu qarışıqda Xudadat bəy Rəfibəyli həbs olunaraq güllələndi.

**Məmməd Əmin Rəsulzadə**
(1884-1955)

Məmməd Əmin Ələkbər oğlu Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində doğulmuşdur. Siyasi xadim, publisist, yazıçı-dramaturq. Əvvəlcə kommunist ideyalarına meyl etmiş, sonra müsavatçı olmuş. "Hümmət" və "Müsavatın" yaradıcılarındandır. Azərbaycan Demokratik Respublikasının banisi və rəhbəri. Bakıda rus-tatar və texniki məktəbdə təhsil almışdır.



1904-1907-ci illərdə "Hümmət", "Təkamül" və "Yoldaş" qəzetlərini yaradıb redaktə etmişdir. Yazılarında Azərbaycan türkləri arasında sosial demokratik ideyaları təbliğ etmişdir. 1908-ci ildə inqilabi mövzuda "Gecədə işıq" əsərini yazır. 1909-cu ildə Səttarxanın başçılığı altında Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı baş verir. Rəsulzadə ora köməyə gedir. 1910-cu ildə Tehranda İran Demokratik Partiyasının "Yeni İran" qəzetinin təşkilində iştirak edib, ilk nömrələrini redaktə edir. Tehranda və Ərdəbildə sosial-demokratiyanı təbliğ edən iki kitab nəşr etdirir. 1911-ci ildə Rus qoşunları İrana girir. M. Rəsulzadə İstanbula mühacirət edir. "Türk yurdu" jurnalını təsis edərək burada Azərbaycan türklərinin iranlılaşdırılmasından bəhs edir. Onların tarixi köklərini və xalqın millət kimi formalaşmasını araşdırır. 1911-ci ildə üç keçmiş müsavatçı M. Rəsulzadə ilə birgə gizli şəkildə "Müsəlman demokratik müsavat partiyası"nı yaradırlar. Tezliklə M. Rəsulzadə bu partiyanın rəhbəri olur. 1914-cü ildə "Dirilik" siyasi jurnalında çap etdirdiyi məqalələrində Azərbaycan milli ideyalarını formalaşdırmağa başlayır. 1915-ci ildə yenidən gizli şəkildə müsavat partiyasının orqanı olan "Açıq söz" qəzetini təsis edərək marksist ideyalardan tamamilə uzaqlaşır.

1917-ci ildə Rusiyadakı fevral inqilabından sonra "Müsəlman demokratik müsavat partiyası" üzə çıxır. 1917-ci ilin iyulunda bu partiya N. Yusifbəyli tərəfindən yaradılmış "Türk milli federallar partiyası" ilə birləşərək "Müsavat" partiyası adlandırıldı. Partiyanın sədri M. Rəsulzadə oldu. Federalların Rusiyanın tərkibində milli-müstəqil federasiya kimi qalmaq proqramı əsas götürüldü. 1917-ci ilin oktyabrında Rusiyada: bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra, Azərbaycan demokrat partiyası "Müsavat" öz proqramında dəyişiklik edərək Azərbaycanın tam müstəqilliyini tələb etdi. Azərbaycanda müstəqil dövlətçilik hərəkatı inkişaf etməyə başladı. Bu hərəkatın ideyalarına M. Ə. Rəsulzadə "Xalq idarəçiliyi", "Bizə hansı hakimiyyət lazımdır" kitablarında inkişaf etdirir. 1918-ci il mayın 26-da Zaqafqaziya seymi özünün buraxıldığını elan etdi. Səhəri gün buraxılmış seymə daxil olan müsəlman partiya və qruplar Azərbaycan milli şurasını yaradaraq, M. Rəsulzadəni İcraiyyə komitəsinin sədri seçirlər. 28 may 1918-ci ildə Azərbaycan Milli Şurası Azərbaycan Demokratik Respublikasının yarandığını elan edərək Fətəli xan İsgəndər oğlu Xoyskini hökumətə rəhbər seçirlər. Bu dövrdə M. Rəsulzadə Azərbaycan dövlətçiliyinin, milli mədəniyyətin, təhsilin, sənaye və kənd təsərrüfatının inkişafı üçün bütün qüvvə və bacarığını sərf edir. Bilavasitə onun rəhbərliyilə Azərbaycan Dövlət Universiteti yaradılır və özü burada "Osmanlı

ədəbiyyatı tarixi"ndən mühazirələr oxuyur. 1920-ci ilin aprelində rus sovet imperiyası ikinci dəfə Azərbaycanı işğal edərək burada kommunist rejimi qurur, avqustda M. Rəsulzadəni həbs edib məşhur Bayıl dustaqxanasına salırlar. Bu arada Bakıya gələn Stalin M. Rəsulzadənin azad olunması üçün tapşırıq verir və onu özü ilə Moskvaya aparır. Məsələ onda idi ki, 1905-ci ildə faytonda neft rezervuarlarının birinin yanından keçən M. Rəsulzadə görür ki, bir dəstə adam birinin əl-ayağını bağlayıb neftlə dolu rezervuarada batırmaq istəyir. Bu İ. V. Stalin (Koba) imiş. M. Rəsulzadə onu xilas edərək şəhərə gətirib gizlədir. İ. Stalin də burada borclu qalmayıb, M. Rəsulzadəni azad edib özü ilə Moskvaya aparıb Xalq Millətlər Komissarlığında işə düzəldir. 1922-ci ildə M. Rəsulzadəni Skandinaviya ölkələrinə ezamiyyətə göndərirlər. O, daha geri qayıtmır. Bu dövrdən M. Rəsulzadənin mühacir həyatının üçüncü dövrü başlanır. 1923-cü ildə o, İstanbulda "Bizim əsrin əzabkeşi" və "Azərbaycan Respublikası keçmişdə və indi", 1924-29-cu illərdə "Yeni Qafqaz" və "Odlar ölkəsi" qəzetlərini redaktə edir. 30-cu illərin əvvəllərində qəzetlərin redaktəsilə bərabər Berlində və Parisdə kitablar çap etdirir. 1938-39-cu illərdə Polşa hökumətinin məsləhətçisi olur. 1947-ci ildə Ankaraya köçərək Azərbaycan haqqında bir neçə kitab nəşr etdirir. 1952-ci ildən "Azərbaycan" jurnalını nəşr edir.

Məmməd Əmin Rəsulzadə 6 mart 1955-ci ildə Ankarada vəfat etmiş, oradakı Əsri qəbrisitanlığında dəfn olunmuşdur.

1991-ci ildə doğulduğu Novxanı kəndində büstü qoyulmuşdur.

## Səttarxan
(1867-1914)

Səttarxan Hacıhəsən oğlu 1867-ci ildə Cənubi Azərbaycanın Qaradağ mahalında doğulmuşdur.



Xalq qəhrəmanıdır. Cənubi Azərbaycanda və İranda demokratik dəyişikliklər uğrunda mübarizə aparmışdır. Şah rejiminə qarşı partizan hərəkatına rəhbərlik etmişdir. Dəfələrlə təqib olunmuşdur.

1908-09-cu illərdə Təbriz üsyanına başçılıq edərək şahın 40 minlik ordusunun böyük hissəsini Cənubi Azərbaycandan qovmuşdur. İnqilabi komitəyə rəhbərlik etmişdir. İnqilabi komitə şahın və onun qohumlarının malikanələrini müsadirə etmiş, varlılardan pul və taxıl alaraq kasıblar arasında paylamışdır. Səttarxan özünü istedadlı sərkərdə və dövlət quruculuğunun bilicisi kimi göstərə bilmişdi. Üsyançılar 11 ay davam gətirdilər. Ancaq 1909-cu ildə Avropanın jandarmı sayılan Rusiyanın qoşunları Cənubi Azərbaycana girib Asiyada da jandarm rolunu icra edərək inqilabi hərəkatı boğdu. 1909-cu ildə Tehranda burjua hökuməti formalaşdırıldı, o da Səttarxanı İran paytaxtına hiylə ilə dəvət etdi. Onun 100 nəfərlik dəstəsi tərksilah edildi, atışmada Səttarxan ağır yaralandı. Uzun xəstəlikdən sonra 1914-cü ildə vəfat etdi.

Səttarxan Hacıhəsən oğlu xalq arasında böyük hörmətə malik idi. Onun haqqında dastanlar qoşulmuş, poemalar, şeirlər, romanlar yazılmışdır. Təbrizdə heykəli qoyulmuş, adına küçə var, Bakıda ən böyük maşınqayırma zavodu onun adını daşıyır.

## Şah İsmayıl Xətai
(1487-1524)

I Şah İsmayıl Səfəvi 1487-ci ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərində doğulmuşdur. Şair, sərkərdə, dövlət xadimi. Sufi Şeyx Heydərin oğlu olmuşdur. Səfəvilər sülaləsinin banisi, milliyyətcə azərbaycanlı.



1500-01-ci illərdə qızılbaş sülaləsinin müdafiəsilə yeddi minlik dəstə ilə Ağqoyunlu türkmən qəbilələrinin birləşmiş 30 minlik qoşununu məğlub edərək Təbrizi ələ keçirmişdir. Taxta oturub özünü I Şah İsmayıl elan edir. 1503-10-cu illərdə bütöv İranı, Cənubi Qafqazı, Kürdüstanı, İraq Ərəbini, Orta Asiyanın bir hissəsini və bir sıra başqa yaxın əraziləri hakimiyyəti altına aldı. I İsmayılın Qərbə doğru irəliləyişi 1514-cü ildə türklərlə müharibəyə gətirib çıxartdı. Çaldıran döyüşündə I İsmayıl məğlub olaraq Şərqi Anadolunu, Kürdüstanı, İraq Ərəbini itirdi.

Osmanlıların Şərqə irəliləyişinin qarşısını almaq üçün I Şah İsmayıl 1515-ci ildə Zəngi çayının sahilində qala tikməyi əmr edir. Qalanın tikintisi Rəvanqulu xana tapşırılır. Buradan da qalanın adı Rəvanqala qalır. Sonralar Rəvanqala Rəvan şəhəri oldu. Bir qədər sonra isə İrəvan.

I Şah İsmayıl sənətkarlığı və ticarəti alqışlayırdı. O, şiəliyi dövlət dini kimi qəbul etmişdi. Alimlərə, şairlərə, rəssamlara rəğbət bəsləyirdi. Xətai təxəllüsü ilə Azərbaycan, ərəb və fars dillərində yazırdı. Xətainin yazdıqlarının çoxu ruhuoxşar-qəlboxşar xalq nəğmələrini xatırladır. Onun "Nəsihətnamə" toplusu qəhrəmanlığa, şücaətə çağıran Azərbaycan dilində yazılmış didaktik ədəbiyyatın ən yaxşı nümunəsidir.

Səfəvi şahı I Şah İsmayıl Xətai 1524-cü ildə ovda xəstələnmiş, dağ yolu ilə Təbrizə aparılarkən yolda vəfat etmiş, Ərdəbildə dəfn olunmuşdur.

1993-cü ildə Bakıda abidəsi ucaldılmışdır.

## Şirvanşah I İbrahim
(1352-1417)

Şeyx İbrahim Dərbəndi 1352-ci ildə kasıblaşmış xan ailəsində doğulmuşdur. Kəsranilərin törəmələrindən olub ikinci Mənuçöhrün doqquzuncu nəslindəndir. 1382-1417-ci illərdə Şirvanın şahı. Dərbəndilər sülaləsinin banisi.

İbrahim elmi, mədəniyyəti himayə edən uğurlu sərkərdə, müdrik dövlət xadimi idi. Deyilənlərə görə İbrahim yaz günlərinin birində özünün adəti ilə xışla yer şumlayır - ağbuynuzlu kəlləri ilə xış çəkirmiş. Günəş bir qədər qalxdıqda günortaya yaxın xışı bir qədər dərinə salaraq öküzləri dincə buraxıb, ağacın altında dincəlirmiş. Bu arada Şirvan sarayından elçilər gəlib onun Şirvanın şahı elan edirlər. Şah olduqdan sonra İbrahim 35 il ərzində Teymur və onun varisi, Toxtamış, Cəlairilər, Qaraqoyunlular kimi qüdrətli, qorxulu düşmənlərə qarşı davam gətirir. İbrahim özünün 10 minlik süvarisilə Teymurun Türkiyə səfərində iştirak edərək bir sıra parlaq qələbələr əldə etmişdi. Hakimiyyətdə olduğu illərdə Azərbaycan feodal xanlıqlarını qüdrətli bir dövlətdə birləşdirməyə səy göstərmiş, siyasi danışıqlar yolu ilə onları özünə tabe etdirə bilmişdi. Teymurilərin türkmən qəbilələri Qaraqoyunlularla müharibə aparmalarından məharətlə istifadə edən İbrahim 1406-cı ildə döyüşsüz Təbrizə girmişdi. Ancaq tezliklə Qaraqoyunluların qorxusundan geri qayıtmışdı. Şəki xanı Sidi Əhmədlə və Kaxetiya çarı Konstatinlə müqavilə bağlayaraq 1412-ci ildə Qaraqoyunlularla müharibəyə başladı. Bu döyüşdə İbrahim və onun silahdaşları uğursuzluğa düçar olub əsir düşdülər. Konstantin öldürüldü. İbrahim üçün isə 1200 tümənlik qan pulu tələb olundu. Təbrizlilər onu o qədər sevirdilər ki, Şirvan xəzinəsinə növbə çatmadı. Təbrizlilər bu pulu yığıb onu təntənə ilə yola salanda Qaraqoyunlu hökmdarı özü də burada iştirak etmişdi. Çox maraqlıdır ki, İbrahim Moskva knyazları ilə də dostluq edirdi. İbrahimin tapşırığı ilə on beşdən artıq azərbaycanlı usta Moskvada Kremlin tikintisində iştirak etmişdi.

Şeyx İbrahim Dərbəndi (I İbrahim) 1417-ci ildə Şirvanda vəfat etmişdir.

İ. P. Petruşevski "Böyük patriot Şirvanşah İbrahim" adlı kiçik bir broşüra, yazıçı Əbdül Hüseynov isə "Əkinçi taxtda" adlı povest yazmışdır.

**Xosrov bəy Sultanov**
(1879-1947)

Xosrov Paşa bəy oğlu Sultanov 1879-cu il mayın 10-da Zəngəzur mahalının Kürdhacı kəndində anadan olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət və siyasi xadimi. Azərbaycan milli azadlıq hərəkatının fəal iştirakçısı olmuşdur. Gəncə gimnaziyasında oxumuş, Novorossiysk



Universitetinin tibb fakültəsini bitirmişdir (1903). Zəngəzur və Qarabağda topladığı zəngin bitkilərdən hazırladığı dərmanlarla kəndlərə gedərək, xəstələri təmənnasız müalicə etmişdir. Vətən tarixini, ədəbiyyatını və mədəniyyətini sevən ziyalılardan olan Xosrov bəy Şuşadakı evlərindən birini Şərq kitabxanası adlandırmış, quberniya işçilərinə Şərq xalqlarının tarix və mədəniyyətindən mühazirələr oxumuşdur.

Xosrov bəy Sultanov 1917 ildə "Müsavat" partiyasına daxil olmuş, Rusiya Müəssislər Məclisinə deputat seçilmişdir. Zaqafqaziya seyminin üzvü idi. 1918 ildə "İttihad" partiyasına keçmişdir. 1918 il mayın 28-də İstiqlal bəyannaməsini imzalayan 26 nəfərdən biri də Xosrov bəy Sultanov olmuşdur. Tiflisdə Azərbaycan Milli Şurası tərəfdən təsdiq olunan 1-ci hökumət kabinəsində hərbi nazir teyin edilmiş, Azərbaycan Milli Şurasının və Hökumətinin yaranmasını, onların məqsəd və vəzifələrini izah etmək, regionda qayda-qanun və əmin-amanlıq yaratmaq məqsədilə Nəsib bəy Yusifbəyli və Şəfi bəy Rüstəmbəyli ilə birlikdə ilk nümayəndə heyətinin tərkibində Gəncəyə göndərilmişdir. Xosrov bəy 1918-ci il iyunun 17-də Gəncədə təşkil olunan 2-ci hökumət kabinəsində əkinçilik naziri idi.

Xosrov bəy 1918-20-ci illərdə Qarabağın və Zəngəzurun daşnak-erməni quldur dəstələrindən təmizlənməsində qardaşı Sultan bəylə birlikdə müstəsna xidmət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Ermənistanın daşnak hökumətinin 1918-ci ilin yayından başlayaraq Zəngəzur bölgəsində azərbaycanlılara qarşı dövlət səviyyəsində həyata keçirdiyi soyqırımı siyasətinin, Andranikin, Nijdehin, Dronun quldur dəstələrinin Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında törətdiyi kütləvi soyqırımlarının, vəhşiliklərin, qarətlərin qarşısını almaq məqsədilə Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarını Gəncə quberniyasından ayırıb, Müvəqqəti Qarabağ general-qubernatorluğu yaratdı və Xosrov bəy Sultanovu 1919-cu il fevralın 12-də həmin qubernatorluğun general-qubernatoru təyin etdi.

Azərbaycan hökumətinin öz tarixi torpaqlarında general-qubernatorluq yaratması və Xosrov Paşa bəy Sultanovun bu vəzifəyə təyin etməsi haqqında qərarını daşnaklar çox böyük narahatlıqla qarşıladılar. Ermənistan Xarici İşlər Nazirliyinin Rusiya hökumətinə, digər aparıcı dövlətlərə və beynəlxalq təşkilatlara çoxsaylı müraciətlərində, Azərbaycan hökuməti-nə etiraz notalarında, belə bir iddia irəli sürülürdü ki, guya bu bölgənin böyük bir hissəsi Ermənistan ərazisidir, Xosrov Paşa bəy isə guya ermənilərin düşmənidir.

Xosrov Paşa bəy Sultanov Şuşaya gələn kimi Qarabağ-da daşnak Andranik başda olmaqla erməni quldur dəstələrilə amansız mübarizəyə başladı, təhlükəli yerlərdə milli ordunun əsgərlərindən ibarət mühafizə dəstəsi yaratdı, Erməni Milli Şurası üzvlərinin Azərbaycandan çıxarılmasına nail oldu. Buna cavab olaraq erməni yaraqlıları Şuşada silahlı toqquşma törətsə də, ertəsi gün - iyunun 6-da sülh əldə edilmiş, şəhərin dinc erməni əhalisi Xosrov bəy Sultanova üzrxahlıq məktubu yazaraq, erməni separatçılarının fitnəkarlığına görə onun şəxsində Şuşanın müsəlman camaatından üzr istəmişdi. 1919 ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində Qarabağda, Zəngəzurda və ermənilərin ərazi iddiası irəli sürdüyü digər yerlərdə Azərbaycanın suveren hüquqlarının bərpa edilməsində Xosrov bəy Sultanov böyük xidmət göstərdi. Həmin ilin sentyabrında Azərbaycan hökuməti burada yaşayan ermənilərə mədəni muxtariyyət verdi.

Xosrov bəy Sultanov Aprel işğalından (1920) sonra mühacirətdə yaşamış, "İttihad" partiyasının liderlərindən biri kimi partiyanın xarici ölkələr bürosunu formalaşdırmağa və ittihadçıları bir təşkilat ətrafında cəmləşdirməyə çalışmışdır. O, 1926 ildə Parisdən İrana gedərək, burada İttihadın Tehran və Təbriz komitələrini yaratmışdı. 1936-cı ildə Türkiyəyə qayıdan Xosrov bəy Sultanov, Trabzonda məskunlaşır, sonra isə 1941-45-ci illər müharibəsi dövrü əsir düşmüş azərbaycanlı əsgərlərin Almaniyadakı həbs düşərgələrindən Türkiyəyə gətirilərək, xilas edilməsinə kömək etmişdir. Fəaliyyətinin son dövrü haqqında məlumat azdır. Xosrov bəy Sultanov 1947-ci ildə Türkiyədə vəfat etmişdir.

## Əlimərdan bəy Topçubaşov
(1862-1934)

Əlimərdan bəy Ələkbər oğlu Topçubaşov 1862-ci ildə Tiflisdə doğulmuşdur. Siyasi və dövlət xadimi, publisist. Orta təhsilini birinci Tiflis gimnaziyasında almış, 1888-ci ildə Peterburq universitetinin hüquq fakültəsini bitirmişdir. Universiteti bitirdikdən sonra ona provaslavlığı qəbul etməklə universitetdə stajor professor yerini təklif edilmiş, o isə bundan imtina etmişdi.



Universiteti bitirdikdən sonra Ə. Topçubaşov Tiflisdə hakim köməkçisi, vəkil işləmiş, Bakıda publisistika ilə məşğul olmuşdur. 1898-ci ildə "Kaspi" qəzetini alaraq ona rəhbərlik edir. Maarifçiliklə məşğul olaraq teatr həyatını işıqlandırır və Azərbaycan ədəbiyyatını təbliğ edir. Rus dilli "Bakinskiy Torqovo-promışlennıy listok" qəzetini redaktə edir. XX əsrin əvvəlində Bakı şəhər dumasına seçilir, bir qədər sonra onun sədri olur. 1905-ci ilin avqustunda Oka çayında "Qustav Struve" gəmisində "Ümumrusiya müsəlmanlarının qurultayını çağırır. Müsəlmanların qurultayı mərkəz Bakıda olmaqla Ə. Topçubaşovu sədr seçir. O, Rusiya müsəlmanlarını qurultayda birləşməyə çağırır, sonra Ə. Topçubaşov daha iki qurultay keçirir. 1907-ci ildə Ə. Topçubaşov Bakı qəzasından Rusiya Dövlət Dumasına deputat seçilir. Dumada o Rusiyada bütün azsaylı xalqların avtonomiyasını tələb edən, "Narodnaya volya"çıların fraksiyasına qoşulur. Ə. Topçubaşov dumada çıxış edərək Rusiyanın kapitalist siyasətini kəskin tənqid edirdi. Bu illərdə o çar hökumətinin "Qara siyahısı"na düşərək polisin məxfi nəzarətinə götürülür. 1918-ci ildə Ə. Topçubaşov Azərbaycan Demokratik hökumətində xarici işlər naziri olur. Onu iki qardaş xalqlar arasında əlaqələr yaratmaq tapşırığı ilə Türkiyəyə göndərirlər. İstanbulda Ə. Topçubaşov əsas vəzifəsindən əlavə Azərbaycanda baş verən hadisələrlə bağlı kitab nəşr edir. 1918-ci ildə o, Azərbaycan parlamentinin üzvü olur və ilk iclasda sədr seçilir. Tezliklə ona Versal sülh konfransında iştirak etmək üçün göndərilən Azərbaycan nümayəndə heyətinə başçılıq etmək tapşırığı verilir. Ə. Topçubaşov İstanbuldan birbaşa Fransaya yola düşür. 1920-ci ildə Azərbaycanda kommunist rejimi qurulduqdan sonra vətənə qayıda bilməyərək mühacir olur. Parisdə elmi publisistik fəaliyyətlə məşğul olur, burda kitablar nəşr edərək dünya ictimaiyyətinə bolşevik Rusiyasının onun xalqına qarşı kolonial siyasət yürütdüyünü çatdırır.

Əlimərdan bəy Ələkbər oğlu Topçubaşov 1934-cü ildə Parisdə vəfat etmiş, Sen-Klu qəbiristanlığında dəfn edilmişdir.

**Nəsib bəy Yusifbəyli**
(1881-1920)

Nəsib bəy Yusif oğlu Yusifbəyli (Usubbəyov) 1881-ci ildə Gəncədə doğulmuşdur. Siyasi və dövlət xadimi, publisist. Orta təhsilini Gəncə gimnaziyasında almış, 1902-ci ildə Novorossiysk (Odessa) universitetinin hüquq fakültəsinə daxil olmuş, ancaq bitirməmişdir.



1905-07-ci illərdə Rusiyada baş verən inqilabi əhval-ruhiyyə ilə bağlı bu universitet müvəqqəti

bağlanmışdı. 1907-ci ildə N. Yusifbəyli Krıma köçüb, "Tərcüman" qəzeti ilə əməkdaşlıq edir. Özü baş rolda oynamaqla Azərbaycan dramaturqlarının əsərlərini burada səhnəyə qoyur. 1908-ci ildə İstanbula köçərək publisistik fəaliyyətlə məşğul olmaqla bərabər "Türk dərnəyi" cəmiyyətinin təşkili ilə məşğul olur. 1911-ci ildə N. Yusifbəyli Gəncəyə qayıdaraq "Molla Nəsrəddin" jurnalı və "Tərcüman" qəzetlərinə məqalələr göndərir, "Müsəlman xeyriyyə cəmiyyəti", "Müsəlmanların maariflənməsi cəmiyyəti", "Aktyorlar cəmiyyəti"nin fəaliyyətlərində iştirak edir. 1917-ci ildə N. Y. Yusifbəyli öz həmfikirlərilə Gəncədə "Milli federalistlərin Türk partiyasını" yaradır. Partiyanın əsas tələbi Rusiyanın milli ərazi muxtariyyətlər əsasında təşkili idi. 1917-ci ilin iyulunda bu partiya M. Ə. Rəsulzadənin başçılığı ilə "Müsəlman demokratik müsavat partiyası" ilə birləşərək "Müsavat" adlandırılmağa başladı və öz proqramlarında millətçi-federalistlərin əsas tələbi - Rusiyanın federativ qurulması saxlanıldı. M. Ə. Rəsulzadə partiyanın mərkəzi komitəsinin sədri seçildi. Gəncədə partiyanın rəhbəri N. Yusifbəyli oldu. 1917-ci ildə Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra partiya öz nizamnaməsində dəyişiklik edərək Azərbaycanın tam müstəqilliyini tələb etməyə başladılar. N. Yusifbəyli Zaqafqaziya seyminin üzvü, Zaqafqaziya federativ hökumətində - maarif naziri, 28 may 1918-ci ildən ADR hökumətində 1919-cu ilin martına kimi maarif naziri, 1919-cu ilin martından 1920-ci ilin martına kimi Azərbaycan hökumətinin sədri olmuşdur.

1920-ci ildə Sovet Rusiyası tərəfindən Azərbaycan tutulduqdan və kommunist rejimi qurulduqdan sonra Nəsib bəy Yusif oğlu Yusifbəyli (Usubbəyov) Tiflisə getmək istəyir.

1920-ci il mayın əvvəllərində yolda quldurlar tərəfindən öldürülmüşdür. Meyiti tapılmamışdır.

## Sərkərdələr və qəhrəmanlar

### Sadıxbəy Ağabəyzadə
(1865-1944)

Sadıxbəy İsmayıl oğlu Ağabəyzadə 1865-ci ildə Göyçayda doğulmuşdur. Çar ordusunun general-



mayoru, şərqşünas-alim. Orta təhsilini Bakı realni məktəbində almışdır. 1886-cı ildə Konstantinovsk hərbi-piyada məktəbini bitirdikdən sonra Mixaylovsk artilleriya məktəbinin üçüncü kursuna dinləyici kimi daxil edilmişdir. Buranı bitirdikdə podporuçik rütbəsi almışdır. 1899-cu ildə Sankt-Peterburqda Hərbi Şərq Dilləri İnstitutunu bitirmişdir. Ərəb, fars, polyak, fransız, rus və türk dillərini bilirdi.

S. İ. Ağabəyzadə 1899-1913-cü illərdə Türküstan diyarının Aşqabad Qarnizonunda xidmət etmişdir. Hərbi xidmətlə yanaşı elmi yaradıcılıqla məşğul olmuş, jurnallara ədəbi məqalələr göndərmişdir, "Turkmenskiy razqovornik" kitabını nəşr etdirmişdir. 1913-cü ildə general-mayor rütbəsi aldıqdan sonra təqaüdə çıxaraq Göyçaya gəlmişdir. Burada məktəb açmaq istəmiş, ancaq rus-alman müharibəsinin başlanması ilə əlaqədar 1914-cü ildə orduya çağırılmışdır. Daha dörd il xidmət edib Göyçaya qayıdır. 1918-ci ildə Azərbaycanda  qurulduqdan sonra bu hökumətdə daxili işlər nazirinin müavini təyin olunur. 1920-ci ildə Xalq Cümhuriyyəti hökuməti süqut etdikdən sonra Türkiyəyə gedərək bir müddət İstanbulda yaşamışdır. 1921-ci ildə Fransaya köçərək burada şərq dillərindən dərs demişdir. 1927-ci ildə S. İ. Ağabəyzadə Polşaya – Lvov universitetinə şərq dilləri fakültəsinə professor kimi dəvət olunur. O, burada 17 il işləyərək 1944-cü ildə 79 yaşında vəfat etmişdir.

Ukraynanın Lvov şəhərində mərkəzi küçələrdən biri Sadıqbəy İsmayıl oğlu Ağabəyzadənin adınadır. Tanınmış Azərbaycan yazıçısı Əli Səmədli generalın həyatından bəhs edən "İki ömür yaşamış insan" adlı sənədli povest yazmışdır.

**Tofiq Ağahüseynov**
(1923-2021)

Tofiq Yaqub oğlu Ağahüseynov 1923-cü il fevral ayının 1-də Şəkidə anadan olub. Yeddi yaşında olanda ailəliklə Bakıya köçüblər. Orta məktəbi Bakıda bitirib. 1941-ci ilin sentyabrında o, Bakı Zenit Artilleriya Məktəbinə daxil olur. Bir il yarımdan sonra Tofiq leytenant rütbəsi alır və bu rütbə ilə Bakıdan ayrılmalı olur.



1-ci Belorusiya cəbhəsində vzvod-komandiri, əlahiddə zenit artilleriyası divizionu qərargah rəisinin köməkçisi olmuş, Visla-Oder və Berlin əməliyyatlarında iştirak etmişdir.

Müharibə bitdikdən sonra Tofiq Ağahüseynovun qulluq etdiyi diviziya 1946-cı ilin oktyabrına qədər Almaniyada qalır. Onun sağlamlığı, fiziki hazırlığı, ətrafındakılara münasibəti, cəsarəti, dönməzliyi, xüsusilə də daim biliyini artırması gələcəkdə böyük hərbçi olacağına yol açan faktorlardan idi. 1949-cu ildə Dzerjinski adına Hərbi Akademiyaya, bunun ardınca Hərbi Artilleriya Akademiyasına daxil olur. Tofiq Ağahüseynov 1960-64-cü illərdə Hövsanda yerləşən Hava Hücumundan Müdafiə polkuna komandirlik edir, 1964-cü ilin sonlarında Volqoqrada göndərilir və diviziya komandiri kimi orada çalışır. 1968-ci ildə general-mayor rütbəsi alır. 1969-cu ildən Rostovda korpus komandiri təyin edilir. 1972-ci ildə general-leytenant rütbəsi alır və 1975-ci ildə Bakı Dairəsi Hava Hücumundan Müdafiə Komandanının birinci müavini təyin edilir.

1980-ci ildə general-polkovnik rütbəsini alan Tofiq Ağahüseynova həm də Bakı Dairəsi Hava Hücumundan Müdafiə Komandanı vəzifəsi həvalə edilir. O, SSRİ Silahlı Qüvvələrində general-polkovnik rütbəsi alan ilk azərbaycanlıdır.

Tofiq Ağahüseynova 1982-ci ildə daha böyük bir vəzifə həvalə etdilər. O, Varşava Müqaviləsi dövlətlərinin birləşmiş silahlı qüvvələri baş komandanlığının Çexoslovakiyadakı nümayəndəsi təyin olunur.

Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci il 17 aprel tarixli sərəncamı ilə Tofiq Ağahüseynov prezidentin hərbi məsələlər üzrə köməkçisi təyin olunur. Eyni zamanda, general-polkovnik rütbəsində Azərbaycan Milli Ordusu sıralarına bərpa edilir. Bu zaman onun 74 yaşı var idi.

Müharibə illərində və sonralar dövlətin ali mükafatlarına, orden və medallara layiq görülüb. Qırmızı Bayraq, Oktyabr İnqilabı, Birinci Dərəcəli Vətən Müharibəsi, Qırmızı Ulduz ordenləri onun yaxasını bəzəyib. O, üç çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 fevral 2008-ci il tarixli Sərəncamı ilə Azərbaycanda hərbi qulluqçuluq sahəsində xidmətlərinə görə "Şöhrət" ordeni ilə, 17 yanvar 2013-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşdırılmasında və hərbçi kadrların hazırlanmasında xüsusi xidmətlərinə görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Tofiq Ağahüseynov 13 may 2021-ci ildə, 98 yaşında vəfat edib. İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

# Həzi Aslanov
(1910-1945)

Həzi Əhəd oğlu Aslanov 1910-cu ildə Lənkəranın Gərmətük kəndində doğulmuşdur. Tank



qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanıdır. 1924-1930-cu illərdə Bakıda və Leninqradda hərbi məktəb bitirmişdir.

Rus-alman müharibəsinin ilk günündən - 1941-45-ci illərdə H. Aslanov ön cəbhədə vuruşmuşdur. 1941-ci ildə Moskva ətrafındakı döyüşdə yüksək hərbi təşkilatçılıq qabiliyyətinə görə kapitan H. Aslanova podpolkovnik rütbəsi verilmişdir. Onun sərkərdəlik qabiliyyəti Stalinqradın müdafiəsində daha qabarıq şəkildə üzə çıxmış, rəhbərlik etdiyi əlahiddə tank alayı Manşteynin tank ordusuna əsaslı zərbə endirərək Stalinqrad ətrafındakı döyüşdə alman-faşist ordusunun darmadağın edilməsində əhəmiyyətli rol oynamışdır. Bu döyüşdən sonra Stalinqrad ətrafındakı döyüşlərdə göstərdiyi igidlik və qəhrəmanlığa görə 55-ci əlahiddə alay Qvardiya adına, komandiri isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. 1944-cü il-də H. Aslanov 32-ci tank briqadasına komandir təyin edilərək tank qoşunları general-mayor rütbəsi aldıqdan sonra, onun briqadası Belarusiyanın və Pribaltikanın azad olunmasında iştirak edir. 1945-ci ilin əvvəllərində Miatva indiki Yelqava şəhərinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla həlak olur. Bakıda şəhidlər xiyabanında dəfn edilmiş, qəbiri üstündə tank üzərində büstü qoyulmuşdur.

Həzi Əhəd oğlu Aslanov bir sıra orden və medallarla təltif olunmuşdur. Ölümündən 46 il sonra, 1991-ci ildə Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Bakıda Zabitlər Evi, Zabitlər parkı, Ali Ümumqoşun Məktəbi, bir sıra orta məktəblər, küçələr onun adını daşıyır. Haqqında romanlar, poemalar, povestlər, şeirlər yazılmışdır. Lənkəranda ev-muzeyi açılmış, dəmir yolu vağzalı meydanında abidəsi qoyulmuş, haqqında filmlər çəkilmişdir.

**Babək Xürrəmi**
(795-838)

Babək Xürrəmi (Babək əl-Xürrəmi) təqribən 795-cı ildə, (başqa məlumata görə, 798-14.3.838) - Azərbaycanda milli-azadlıq hərəkatının simvolu, görkəmli Azərbaycan sərkərdəsi və siyasi xadimi olmuşdur. Ərdəbil şəhəri (Cənubi Azərbaycan) yaxınlığındakı Bilalabad kəndində doğulmuşdur. Bəzi tarixi mənbələrə görə, əsl adı Həsən olmuşdur.



Xürrəmilər hərəkatına qoşulan Babək Cavidanın ölümündən sonra Azərbaycan xalqının Ərəb işğalçılarına qarşı azadlıq müharibəsinə başçılıq etmişdir. Tanınmış ərəb sərkərdələri Babəkə qarşı müharibələrdə ağır məğlubbiyyətlərə düçar olmuşlar. Ərəb ordusunun 6 məşhur sərkərdəsi Babək tərəfindən məhv edilmişdir. 830-cu ildə Babəkin qoşunlarının Həmədanı alması ilə Xilafətin şərq torpaqlarından məhrum olma təhlükəsi yaranır. Ərəb tarixçisi Məsudinin (10-cu əsr) məlumatına görə, bu dövrdə Babəkin başçılığı altında geniş vüsət almış Xürrəmilər hərəkatı Abbasilər xilafəti üçün ciddi təhlükəyə çevrilir. Xəlifə Məmun varisi Mütəsimə xürrəmilərə qarşı bütün qüvvələri səfərbərliyə almağı və müharibəyə daha tədbirli, daha qəddar bir sərkərdə göndərməyi vəsiyyət etmişdi. Babək ərəb ordusunun Azərbaycandan çıxarılmasına nail olmaq məqsədilə 834 - 836-cı illərdə Bizans imperatoru Fefilə xiləfətə qarşı hərbi-siyasi ittifaq bağlamaq təklifi göndərir. Babəkin ərəblərə qarşı Bizans İmperiyası ilə əvvəllər də hərbi-siyasi müqavilələr bağlaması məlumdur. 837-ci ildə imperator ərəblərə qarşı qoşun göndərsə də, bu Azərbaycanda mübarizənin gedişatına əhəmiyyətli təsir göstərmir. Xürrəmilərin getdikcə güclənməsindən qorxuya düşən Mütəsim Bizans İmperisyası ilə sülh bağlamaq məcburiyyəti qarşısında qalır və Xilafətin bütün hərbi qüvvələrini xürrəmilərə qarşı yönəldir. Hərəkata qarşı hərbi əməliyyatlar aparan daha yaxşı silahlanmış xilafət ordusuna Bizans İmperiyasə ilə müharibədə şöhrət qazanmış türk mənşəli sərkərdə Afşin Heydər Kavus oğlu başçılıq edirdi.

Xürrəmilərin şiddətli müqavimətinə baxmayaraq, ərəb qoşunları 837-ci ildə Bəzz qalasını alır. Babək kiçik bir dəstə ilə mühasirəni yararaq Arrana üz tutur. O, Bizansa gedib imperator Feofil ilə əlaqə yaradır və ərəblərə qarşı yeni ordu toplamaq istəyini ona çatdırır. Lakin Şəki (indiki Ermənistanın Sisiyan rayonunun ərazisində yaşayış məntəqəsi) hakimi erməni esilli Səhl ibn Sumbatın xəyanəti nəticəsində Babək ərəblərin əlinə keçir . 838-ci il yanvarın 4-də Babək qardaşı Abdulla ilə birlikdə Samirə şəhərinə aparılır. Xəlifə Mütəsim Babəki xüsusi işgəncə ilə edam etdirir. Buna baxmayaraq, Babəkin başçılığı altında Azərbaycan xalqının ərəb istilasına qarşı apardığı azadlıq mücadiləsi Xilafəti zəiflədir və onun parçalanmasını sürətləndirir

**Balakişi Ərəblinski**
(1828-1902)

Tam əlli il rus ordusunda nümunəvi xidmət edən general-leytenant Balakişi Ərəblinski 1828-ci ildə



Zaqatalanın Tala kəndində anadan olmuşdur. Mahal rəisi Əlibəyin ailəsində böyüyən Balakişi Peterburqdakı birinci dərəcəli kadet korpusunu 1848-ci ildə müvəffəqiyyətlə bitirib kornet rütbəsi almışdır. Müxtəlif hissələrdə qüsursuz xidmət edən Ərəblinski çox gənc yaşlarında, podpolkovnik rütbəsində briqada komandiri kimi məsul vəzifəyə irəli çəkilmişdir. Sonralar diviziya komandiri olan general-leytenant Balakişi Ərəblinski əlli illik xidmətində o vaxt Rusiyada olan bütün yürüş və döyüşlərdə iştirak etmişdir. Hələ 1848-49-cu illərdə Vilaqoş qalası uğrunda gedən ağır döyüşlərdə kapitan Ərəblinski də mərdliklə vuruşaraq "Birinci dərəcəli müqəddəs Stanislav" ordeni ilə təltif olunmuşdur.

1849-cu ildə Macarıstanda Avstriya hökmranlığına qarşı inqilabi üsyan olmuşdur. Həmin üsyan zamanı rus imperatoru Nikolay, Avstriya imperatoru Frans Iosifin xahişilə oraya xeyli qoşun göndərərək qəhrəman macar xalqının öz milli azadlığı uğrunda mübarizəsinin amansızcasına yatırılmasına kömək etmişdir. Balakişi Ərəblinskinin ikinci böyük yürüşü 1854-cü ildə Rusiyanın Xivə xanı ilə apardığı müharibədə olmuşdur.

1853-56-cı illərdə Krım müharibəsində dörd süvari alayında mindən çox azərbaycanlı əsgər və zabit vuruşurdu. Onlardan biri də Balakişi Ərəblinski idi. Bu müharibədə podpolkovnik Ərəblinski göstərdiyi igidliyə görə üstü yazılı qılınc və "Müqəddəs Anna" ordeni ilə təltif olunmuşdu.

Balakişi Ərəblinskinin iştirak etdiyi sonuncu müharibə 1877-1878-ci illərdəki Rusiya-Türkiyə müharibəsi idi. Görkəmli sərkərdə 21-ci piyadalar diviziyasının briqada komandiri kimi yüksək vəzifəyə təyin olunmuşdu. Qısamüddətli döyüşdə göstərdiyi qeyri-adi igidliyə və əvəzsiz komandirlik fəaliyyətinə görə həmyerlimiz Balakişi Ərəblinski general-mayor rütbəsinə layiq görülmüşdü.

1898-ci ildə istefaya çıxan general-leytenant Balakişi Ərəblinski Dərbəndə qayıtmış, ömrünün axırına kimi orada yaşamış, imperator tərəfindən ona hədiyyə olunan torpaq sahəsinə başçılıq etmişdir. Yerli əhali arasında gözəl insani keyfiyyətləri ilə hədsiz hörmət qazanmış general-leytenant Balakişi Ərəblinskinin şərəfinə adlandırılan Dərbənd yaxınlığındakı qəsəbə və stansiya indi də onun adını daşıyır.

Balakişi Ərəblinskinin kiçik qızı Sona xanım Hacı Zeynalabdin Tağıyevin həyat yoldaşı idi.

General-leytenant Balakişi Əlibəy oğlu Ərəblinskini 1902-ci il yanvarın 3-də Dərbəndin qədim Qırxlar qəbiristanlığında əsgəri şərəflə dəfn edilmişdir. O, Qafqazın müsəlman əhalisindən Rusiyada ilk ali hərbi təhsil alan Azərbaycan oğlu idi.

## Cahangir Kazımbəyli
(1885-1955)

1885-ci ildə Gəncədə doğulmuşdur. Çar ordusunun polkovniki, 1920-ci ildə Gəncə hərbi qarnizonundakı üsyanın başçısı, 1939-cu ildə Varşavanın müdafiəsində diviziya komandiri. Peterburq Hərbi Hava Akademiyasını bitirmişdir.



Kazımbəyli 1914-18-ci illər rus-alman müharibəsinin iştirakçısı olmuş, 1918-ci ilin əvvəlində

Vətənə qayıtmışdır. Elə o ildə də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən Gəncə hərbi qarnizonuna komandir təyin olunur. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti süqut etdikdə 1920-ci ilin aprelində ə kommunist rejiminə qarşı Gəncə qarnizonunu üsyana qaldırdı. 1920-ci il mayın 28-də Sovet Rusiyasının XI ordusu Gəncəyə hücum etdi. Qanlı döyüşlər getdi. Gəncə qarnizonu Kazımbəylinin komandanlığı altında bolşeviklərə layiqli cavab verdi. Qüvvələr bərabər deyildi. Yeddi gün, yeddi gecə vuruşduqda sonra Gəncə qarnizonu təslim oldu. Kazımbəyli deyirdi: "Doğrudur, biz döyüşü uduzduq, yoldaşlarımızın çoxu qurban getdi. Vətən uğrunda can hayıf deyil, ancaq düşmən bunu unutmaz". Sovet ordusu bir neçə min döyüşçüsünü və zabitini itirdi. Onların cəsədlərini yığmağı çatdırmırdılar, çaqqallar yeyirdi. Bu qanlı döyüşdə Azərbaycanın şanlı oğulları, general Cavad bəy Şıxlinski, Teymur bəy Novruzov, zabitlərdən Məmməd Mirzə, Sarı Ələkbər, Qara Mehdi və başqaları Vətən yolunda qəhrəmanlıqla həlak oldular. Bu qanlı faciə haqqında kommunist rejimi 70 il susmağı məsləhət bildi. İnanırıq ki, tarixin bu səhifələri araşdırılacaq və bu hadisə Azərbaycan tarixində öz layiqli yerini tutacaqdır.

Gəncə üsyanı yatırıldıqdan sonra Cahangir Kazımbəyli Türkiyəyə, sonra Polşaya gedir. Burada o, Polşa ordusuna daxil olub diviziyaya komandirlik edir. 1939-cu ildə Varşavanın müdafiəsində iştirak edib, almanlara əsir düşür. Müharibədən sonra İtaliyaya köçür. Sonra İstanbula gəlir. 1954-cü ildə Almaniya Federativ Respublikasına gedir. Burada azərbaycanlıların birliyini yaratmaq üçün onlar arasında təşkilati-siyasi söhbətlər aparır. Almaniyada Azərbaycan Mərkəzini yaradır. 1955-ci ilin yanvarında Almaniya Demokratik Respublikasının xüsusi agenti tərəfindən Moskvada xaincəsinə arxadan güllə ilə vurulur.

# Kərim A. Kərimov
(1917-2003)

Kərim Abbasəli oğlu Kərimov 1917-ci ildə Bakıda doğulmuşdur. Mühəndis xidməti general-leytenantı. Sosialist Əməyi Qəhrəmanı, 1942-ci ildə Azərbaycan Dövlət Sənaye İnstitutunun energetika fakültəsini, 1943-cü ildə Hərbi Artilleriya Akademiyasını bitirmişdir.



1943-45-ci illərdə reaktiv mərmilər buraxan Moskva zavodlarında hərbi nümayəndə olmuşdur. 1945-ci ildən 20 il SSRİ Müdafiə Nazirliyinin aparatında müxtəlif vəzifələrdə işləyərək, böyük mühəndisdən kosmik vasitələr idarəsinin rəisliyinə qədər yüksəlmişdir. 1965-ci ildə sahə sənaye nazirlikləri yarandıqda K. Kərimov Ümumi Maşınqayırma Nazirliyində baş kosmik idarəsinə rəhbərlik edir. O illərdə sovet sənayesi "Soyuz" uçan pilotlu gəmilərin istehsalında böyük səy göstərirdi. K. Kərimov bu gəmilərin uçuşu üzrə Dövlət komissiyasının sədri təsdiq olunur. Bu vəzifədə fasiləsiz olaraq 25 il xidmət etmişdir. Akademiklərdən V. P. Qluşko, V. P. Mişin, Y. P. Semyonov onun müavinləri olmuşlar. K. Kərimov ehtiyata çıxdıqdan sonra 1991-ci ildən Kosmik Uçuşların İdarəetmə Mərkəzində məsləhətçi işləmişdir.

Kərim Abbasəli oğlu Kərimov bir sıra orden və medallarla təltif olunmuşdur. Yerin zondlaşdırılması üçün oriyentirli peykləri yaratdığına görə Lenin, bir sıra beynəlxalq uçuşların müvəffəqiyyətlə həyata keçirilməsinə görə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Kosmonavtikanın inkişafında böyük rolunu və Azərbaycan Respublikası qarşısında nailiyyətlərini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə K.Kərimov "Şərəf" Ordeni ilə təltif edilmişdir.

Kərim Kərimov "Kosmosa yol" avtobioqrafik kitabın müəllifidir.

Sovet kosmonavtikasının əfsanəvi şəxsiyyəti adını qazanan Kərim Kərimov 2003-cü ilin aprelində vəfat etmişdir.

**Cəmşid Naxçıvanski**
(1895-1938)

Naxçıvanski Cəmşid Cəfərqulu oğlu 10 avqust 1895-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur.

Hərbi xadim, briqada komandiri. Yelizavetqrad (Qərbi Ukrayna) qvardiya məktəbini bitirmişdir (1915). Birinci dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronun komandiri olmuş, "Brusilov cəbhəsi"nin yarılmasında iştirak etmiş, 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdu. Avstriya-Rumıniya cəbhəsində üç dəfə yaralanan C.Naxçıvanski igid süvari zabiti kimi gümüş silahla mükafatlandırılmış, 2-ci, 3-cü, 4-cü dərəcəli "Anna", 2-ci, 3-cü dərəcəli "Stanislav" ordenləri ilə təltif olunmuşdur.



Cənub-Qərb cəbhəsi dağıdıldıqdan sonra ştab-rotmistri C.Naxçıvanski başçılıq etdiyi süvari alayı ilə birgə Azərbaycana qayıtmış, 1918-ci il sentyabrın 15-də türk qoşunları və Azərbaycan Əlahiddə Korpusu ilə birgə Bakını düşmənlərdən təmizləmişdi. Azərbaycanın müstəqilliyi uğrunda C.Naxçıvanski inamla vuruşmuşdur.

C.Naxçıvanski 1923 və 1928-ci illərdə Moskvada qısa müddətli Frunze Adına Ali Hərbi Akademiya kurslarında oxumuş, Azərbaycana qayıtdıqdan sonra yenidən diviziya komandiri olmuşdur.

Rusiya tarixçisi və yazıçısı Rudolf İvanovun Cəmşid Naxçıvanski haqqında yazdığı "Sovet İttifaqı adından... Briqada komandiri Naxçıvanskinin həyatı və ölümü" kitabı 2007-ci ildə Moskvada dərc olunmuşdur. Bu kitab C. Naxçivanski haqqında yazılan ilk mükəmməl tarixi monoqrafiyadır. Kitabda Naxçıvan xanlarının əfsanəvi sülaləsindən olan sonuncu general, imperiya müharibəsinin qəhramanı, qoşun başçısı, Stalin repressiyasının qurbanı Cəmşid Naxçıvanskinin faciəli taleyindən bəhs olunur. Kitabın müəllifi saxta ittihamla üç dəfə həbs olunan (1920, 1931 və 1938) və iki dəfə güllələnmə hökmünə məhkum olunan Azərbaycan xalqının böyük oğlunun həyat yolundan parlaq səhnələr təsvir edib. R.İvanov arxiv sənədlərinə əsasən göstərir ki, Cəmşid Naxçıvanskinin güllənməsi barədə qərar Stalinin əmri ilə ləğv olunaraq sürgündə güllələnmə ilə əvəz olunub. Tarixçi Naxçıvanskinin güllələnmə tarixini dəqiqləşdirməyə müvəffəq olub. Bu, 1938-ci ilin may ayında baş verib. Naxçıvanski Moskva ətrafında «Kommunarka-Loza» obyektində SSRİ-nin digər tanınmış siyasi və hərbi xadimləri, Buxarin, Rıkov, Karayev, Bünyadzadə, Verxovski, Levandovski və başqaları ilə birlikdə dəfn edilib.

Hərbi xadimin şərəfli adı xalqına Azərbaycanın mərhum Prezidenti Heydər Əliyev tərəfindən qaytarılmışdır. İndi onun adına Bakıda hərbi lisey və küçə vardır, ana yurdu Naxçıvanda isə xatirə muzeyi yaradılmışdır.

**Hüseyn Naxçıvanski**
(1863-1919)

General-leytenant Hüseyn xan Naxçıvanski 28 iyun 1863-cü ildə Naxçıvanda anadan olmuşdur. Kəlbəli xan Naxçıvanskinin oğlu, Ehsan xan Kəngərlinin nəvəsidir. Atası rus ordusunun general-mayoru idi. Ona görə də oğlunu - on beş yaşlı Hüseyn xanı Peterburqdakı Paj korpusu məktəbinə oxumağa göndərir. Bu məktəb imperatorun şəxsi himayəsində idi. On beş yaşında ikən Peterburqdakı Paj korpusu məktəbinə verilmiş, 1881-ci ildə oranı əla qiymətlərlə bitirərək, çarın xüsusi süvari qoşununda xidmət etmişdir. Sonralar Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olan Naxçıvaniyə 1903-cü ildə polkovnik rütbəsi verilmişdir. Rusiya-Yaponiya müharibəsində (1904-1905) qafqazlılardan təşkil olunmuş 2-ci Dağıstan süvari alayına komandirlik etmişdir. Tanınmış rus jurnalisti A. Kvitkanın "Zabaykalye kazak zabitinin gündəliyi" əsərində Naxçıvaninin alayının döyüş rəşadətindən də bəhs olunur. 1906-cı ildə leybqvardiya polkunun komandiri olmuş, 1907-ci ildə generel-mayor rütbəsinə layiq görülmüşdür. 1912-ci ildə Naxçıvani 1-ci Əlahiddə süvari briqadasının komandiri idi.



Birinci dünya müharibəsində 1-ci və 2-ci süvari diviziyalarının komandiri olan Naxçıvani alman cəbhəsinin yarılmasında fərqlənmişdir. Rus yazıçısı A.Soljenitsin "14 avqust" romanında yazmışdır: "Peterburq zadəganlarının say-seçmə üzvlərindən ibarət qvardiya süvarilərinə general Hüseyn xan Naxçıvanski komandanlıq edirdi". Birinci dünya müharibəsi cəbhələrində qazandığı qələbələrə və sərkərdəlik məharətinə görə 1916-cı ildə Naxçıvaniyə tam süvari qoşunu generalı rütbəsi verilmişdir. Sonralar Cənubi Qafqaz cəbhəsinin komandanı təyin edilmiş, Fevral inqilabından (1917) sonra hərbi işdən uzaqlaşmışdır. "Müqəddəs Georgi" ordeninin dörd dərəcəsi ilə, "Müqəddəs Vladimir", ikinci dərəcəli "Müqəddəs Aleksandr", "Müqəddəs Anna", "İgidliyə görə", İranın almazla bəzədilmiş 2-ci və 4-cü dərəcəli "Şire-Xurşid", zabitlərə məxsus "Rumın ulduzu", Avstriyanın "Dəmir xaç", Bolqarıstanın Döyüş xidmətlərinə görə ordenləri, dördüncü dərəcəli, bantlı, üstü yazılı qızıl silahla təltif olunmuşdur. O, Rusiyada orduda general-adyutant rütbəsinə layiq görülmüş ilk və yeganə müsəlman idi.

Şərəfli bir nəslin yetirməsi olan Hüseyn xan Naxçıvanski nəinki əvəzolunmaz bir sərkərdə, həm də rus xalqına və onun hökmdarı II Nikolaya bütün varlığı ilə bağlı olan müdrik bir şəxsiyyət idi. İmperiya hakimiyyəti dağıldıqdan sonra belə Hüseyn xan Naxçıvanski müvəqqəti hökumətə tabe olmaqdan qətiyyətlə imtina etmişdi. Hətta II Nikolay özü Hüseyn xan Naxçıvanskiyə müvəqqəti hökumətə tabe olmağı məsləhət görsə də, o, öz əqidəsindən dönməmiş, pərəstiş etdiyi monarxiya hakimiyyətinin və onun hökmdarının yolunda ölümə belə getməyə hazır olduğunu bildirmişdi. Elə buna görə də H.X.Naxçıvanski 1919-cu ilin yanvarında bolşeviklər tərəfindən həbs olunmuş və ağır işgəncələrə məruz qaldıqdan sonra güllələnmişdir.

Professor Rudolf İvanovun Hüseyn xan Naxçıvanski haqqında yazdığı "Əlahəzrətin general-adyutantı" kitabı 2006-cı ildə Moskvada çapdan çıxmışdır.

# Mehdi Hüseynzadə
(1918-1944)

Mehdi Hənifə oğlu Hüseynzadə (Mixaylo) 22 dekabr 1918-ci ildə Bakı şəhərində anadan olmuş, uşaq yaşlarında atasını itirmiş, əvvəlcə anasının, sonra isə bibisinin himayəsində yaşamışdır.



O, 1925-ci ildə 77 №-li 7 illik məktəbə getmiş, burada onun ilk müəllimləri məşhur yazıçı Süleyman Sani Axundov və görkəmli bəstəkar Səid Rüstəmov olmuşdur. 1936-cı ildə Rəssamlıq Texnikomunu bitirərək Leninqrad Xarici Dillər İnstitutuna daxil olur və daha sonra Bakıya qayıdaraq Azərbaycan Pedoqoji İnstitutunda oxuyur.

Mehdi Hüseynzadə 1941-ci ildə öz ərizəsiylə hərbi xidmətə aparılmış. Gənc zabitin ilk döyüş yolu 1942-ci ildə Stalinqrad vuruşmasından başlamış və elə həmən ili Mehdi Kalaç şəhəri yaxınlığındakı döyüşlərdə ağır yaralanaraq faşistlər tərəfindən əsir götürülmüşdür. Ukrayna, Polşa, İtaliya, Yuqoslaviya hərbi əsir düşərgələrinə əsirlikdə olan Mehdi Hüseynzadə konslagerdən qaçaraq Yuqoslaviya ərazisində fəaliyyət göstərən partizan dəstələrinə qoşulmuşdur. Yuqoslaviya Xalq Azadlıq ordusunun 31-ci diviziyası yanında kəşfiyyat-təxribatçı qrup yaratmış və onun başçısı olmuş, bütün dünyada Mixaylo ləqəbiylə məşhurlaşmışdır.

2 aprel 1944-cü il Mixaylo opçina şəhərindəki kinoteatrı partlatmış və hamısı zabit olan 120 alman faşisti ölmüşdür. 23 aprel 1944-cü il Triyest şəhərində alman zabitlərinin nahar etdiyi restoranı partlatmış, nəticədə 150 alman faşisti ölmüşdür. Bundan başqa Mehdi faşist propaqandası üçün mühüm rol oynayan «İl Pikkolo» qəzetinin redaksiyasına mətbəə fəhləsi geyimində gəlmiş, mətbəəni minalayaraq bütün redaksiyanı havaya sovurmuşdur.

Partizanların aclıq çəkdiyini eşidən Mixaylo 1944-cü ilin yazında 4 nəfərlik partizan qrupuyla triest şəhərinə gəlmiş, bank işçilərini zərərsizləşdirərək, 5 milyon italyan lirəsi pulla qərargaha qayıtmış, hələ zarafatla komandanlıqdan qəbz də tələb etmişdir. Bu vəsaitə partizanlar üçün küllü miqarda ərzaq və dəva-dərman alınmışdır.

Müharibənin gedişində faşist Almaniyası partizan hərəkatını məhv etmək üçün casus təyyarələrdən istifadə etməyə başladı və bu məqsədlə xüsusi aeroport təşkil olundu. Cox keçmədi ki, partizan ovu üçün təşkil olunmuş təyyarə meydançası özü Mixaylonun ovuna çevrildi. Hərbi hava limanına daxil olan cəsur partizan təyyarələri, benzin anbarını minalayaraq ərazidən uzaqlaşdı. Çox keçməmiş təyyarə meydançası təyyarələr və benzin anbarıyla birlikdə havaya sovruldu.

1944-cü ilin payızında Mixaylonun rəhbərliyiylə bir qrup partizan italiyanın Udine şəhərindəki faşist həbsxanasına hücum edirlər. Əməliyyat nəticəsində 147 nəfəri Sovet əsgər və zabiti olmaq şərtiylə 700-ə qədər hərbi əsir faşist həbsxanasından azadlığa buraxılır.

Yuqoslaviya arxivlərindən əldə olunmuş məlumatlara görə Mehdi Hüseynzadənin partizan fəaliyyəti nəticəsində təxminən 1000 (min) nəfərə qədər faşist məhv edilmiş, külli miqdarda silah-sursat

və hərbi texnika, kommunikasiya vasitələri sıradan çıxarılmışdır.
Mixaylonun etdikləri bir insan gücünün o qədər fövqündəydi ki, hətta ilkin vaxtlarda faşistlərə elə gəlirdi ki, Mixaylo real tarixi şəxs deyil, bu mifi partizanlar uydurublar.

Amma çox keçmədi ki, hələ sağlığındaykən əfsanələşmiş bu cəsur partizan mif, uydurma olmadığı üzə çıxdı və faşist komandanlığı onun başına 400 min lirə (italyan pul vahidi) pul qoydu.

1944-cü il noyabrın 2-si əfsanəvi partizan üçün son əməliyyat günü oldu. Mixaylo Qaritsa şəhəri yaxınlığındakı sursat anbarını partlatdı və geri dönərkən faşist patrullarıyla qarşılaşdı. Mehdi yolunu dəyişərək Vitovle kəndində gizləndi. Baş verən qeyri-bərabər döyüşdə onlarla faşisti öldürən Mixaylo əsir düşməmək üçün sonuncu gülləsini ürəyinə sıxdı.

Mehdi Hüseynzadə hələ 1942-ci ildə ailəsinə göndərdiyi məktubda yazırdı: «Söz verirəm ki, son nəfəsimədək vuruşacağam. Ölsəm də qəhrəman kimi öləcəyəm.»

Mehdinin partizan yoldaşları bəşər övladı qarşısında son borclarını ləyaqətlə yerinə yetirdilər, bartizanın cəsədi gizli əməliyyatla faşistlərin nəzarətində olan Vitovle kəndindən çıxarılaraq Çepovan kəndinə gətirildi. Beləliklə faşistlərə Mixaylonun cəsədini də ələ keçirmək nəsib olmadı.

Kənd sakinləri onun məzarı üzərinə bu sözləri yazmışdılar: «Azərbaycan xalqının qəhrəman oğlu, əziz dostumuz Mehdi, rahat yat. Sənin azadlıq uğrunda göstərdiyin ölməz qəhrəmanlıq dostlarının qəlbində daim yaşayacaq.»

1957-ci ildə Mehdi Hüseynzadə Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdür.

**Səmədbəy Mehmandarov**
(1855-1931)

Səmədbəy Sadiqbəy oğlu Mehmandarov 1855-ci ildə Lənkəranda doğulmuşdur. Çar ordusunun general-leytenantı, Azərbaycan Xalq Cümhuriyyəti və Sovet ordusunun hərbi xadimi, orta təhsilini Bakıda almış, Peterburq artilleriya məktəbini bitirib, podporuçik hərbi rütbəsi almışdır.



S. S. Mehmandarov Varşavada, Sibirdə, Mancuriyada hərbi xidmət keçmişdir. 1904-05-ci illərdə Rus-yapon müharibəsində Port-Arturda divizion komandiri olmuşdur. Göstərdiyi qəhrəmanlığa görə qızıl qılıncla təltif olunmuş, general-mayor rütbəsi almışdır. 1907-10-cu illərdə 3-cü Sibir ordusunda artilleriya rəisi olmuşdur. 1908-ci ildə general-leytenant rütbəsi almışdır. Birinci Dünya müharibəsində əvvəlcə diviziya, sonra korpusa komandanlıq etmişdir. Çar ordusundakı xidmətlərinə görə Müqəddəs Anna, Vladimir, Georgi və Stanislav ordenlərinin bütün dərəcələrilə təltif olunmuşdur. O, İngiltərə, İran, Rumıniya və Fransanın ordenləri ilə mükafatlandırılmışdır. 1917-ci ildə hərbi xidmətdən tərxis olunaraq Vladiqafqazda yaşamışdır.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Azərbaycana hərbi xidmətə dəvət olunmuşdur. Dövlətin üçüncü, dördüncü və beşinci kabinetlərində hərbi nazir olmuş, 40 minlik milli ordu yaratmışdır.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra hərbi məktəblərdə dərs demiş, Azərbaycanın hərbi və dənizçilik qüvvələrində məsləhətçi olmuşdur. 1923-cü ildə ehtiyata çıxmışdır.

Səmədbəy Sadıqbəy oğlu Mehmandarov 1931-ci ildə Bakıda vəfat etmişdir.

Onun haqqında kitablar, məqalələr yazılmış, şöhrətli generallar N. A. Brusilov və Ə. Şıxlinski öz memuarlarında onun haqqında xoş sözlər yazmışlar.

S. Mehmandarovun igidliyi, qəhrəmanlığı haqqında A. Stepanov özünün "Port Artur" və "Zvonaryevlər ailəsi" kitablarında yazmışdır.

**Əliağa Şıxlinski**
(1865-1943)



Əliağa İsmayıl oğlu Şıxlinski 1865-ci ildə Qazaxda doğulmuşdur. Çar ordusunun və müvəqqəti hökumətin general-leytenantı, Azərbaycan demokratik hökumətinin, sovet dövlətinin görkəmli hərbi xadimi olmuşdur. Orta təhsilini Tiflisdə almış, 1886-cı ildə Peterburq artilleriya məktəbini bitirərək podporuçik rütbəsi almışdır.

Zabaykalyedə hərbi xidmət keçmiş, 1904-05-ci illərdə Port-Arturda batareya komandiri olmuşdur.

Göstərdiyi qəhrəmanlıq və igidliyə görə Qızıl qılıncla mükafatlandırılaraq podpolkovnik rütbəsi verilmişdir. Müharibədən sonra 1906-cı ildə Ə. Şıxlinski ixtisasını artırmaq üçün Tsarskoselski artilleriya məktəbinə göndərilir. 1907-ci ildə artıq bu məktəbdə dərs deyir. 1910-cu ildə onun "Səhra toplarının cəbhədə işlədilməsi" adlı ilk kitabı nəşr olunur. 1912-ci ildə artilleriya general-mayoru rütbəsi alır. Birinci dünya müharibəsində Ə. Şıxlinski Peterburq qarnizonunun artilleriya rəisi, 1915-ci ildə Qərb cəbhəsinin artilleriya rəisi təyin olunur. 1917-ci ildə general-leytenant rütbəsi alaraq müvəqqəti hökumətdə Qərb cəbhəsi 10-cu ordunun komandanı təyin olunur. O ilin noyabrında istefaya çıxaraq vətənə qayıdır. Şıxlinski Rusiyanın və Fransanın bir sıra ordenlərilə təltif olunmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətində hərbi nazirin müavini olmuşdur.

Azərbaycanda kommunist rejimi qurulduqdan sonra, respublikanın hərbi və dənizçilik komissarlığında işləmişdir. 1926-cı ildə Şıxlinski "Rusca, azərbaycanca qısa hərbi lüğət" kitabını çap etdirmiş, elə o il də ehtiyata çıxaraq yaradıcılıq fəaliyyətilə məşğul olmuşdur. "Xatirələrim" adlı kitab yazmış, Azərbaycan yazıçılarını rus dilinə tərcümə etmişdir.

Əliağa İsmayıl oğlu Şıxlinski 1943-cü ildə Bakıda vəfat etmişdir.

Onun adı küçə və məktəblərə verilmiş, haqqında bir neçə tədqiqat əsəri yazılmışdır. Ə. Şıxlinskinin qəhrəmanlığı haqda E. Z. Barsukov və A. N. Stepanovun "Port-Artur" və "Zvonoryevlər ailəsi" kitabında yazılmışdır.

**Həbib bəy Səlimov**
(1881-1920)

Həbib bəy Səlimov 1881-ci il fevralın 8-də İrəvan şəhərində anadan olmuşdur. Atası Hacı Yusif bəy İrəvan quberniyasında məhkəmə iclasçısı vəzifəsində çalışmışdır. Həbib bəy İrəvan gimnaziyasını bitirmişdir. O, 1900-cü ilin avqustunda orduya könüllü yazılaraq Yelizavetpol (Gəncə) süvari alayında xidmət etmiş, unter-zabit rütbəsi almışdır. 1902-ci ildə Tiflisdə süvari məktəbini bitirəndən sonra Üçüncü Qafqaz Atıcı Batalyonunda xidmətə başlamışdır. 1905-ci ildə batalyon komandirinin yavəri, 1907-ci ildə elə həmin hərbi hissədə üçüncü rotanın komandiri təyin olunmuşdur. Həmin ilin sentyabrında «Müqəddəs Vladimir» ordeni ilə təltif edilmişdir. Həbib bəy 1908-1910-cu illərdə Beşinci Qafqaz Atıcı Batalyonunun tərkibində Naxçıvanın Culfa sərhədlərində xidmət etmişdior. 1912-ci ildə kapitan rütbəsi almışdır. Daha sonra Peterburqda Baş Qərargahın Nikolayev Hərbi Akademiyasını bitirmişdir.



O, 1918-ci il martın 14-dən Müsəlman korpusunda xidmətə başlamışdır. Sonradan korpusun üç süvari alayından ibarət briqadasının qərargah rəisi təyin edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Səlimov Qafqaz İslam Ordusunun tərkibində daşnak-bolşevik qoşunlarına qarşı döyüşlərdə fəal iştirak etmişdir. Onun komandanlığı altında formalaşdırılan Müsüslü dəstəsi Müsüslü, Kürdəmir və Karrar ətrafındakı döyüşlərdə daşnak-bolşevik hərbi birləşmələri üzərində parlaq qələbə qazanmışdır. 1918 il iyulun ortalarında Müsüslü dəstəsinin bazasında yaradılan Cənub qrupu Həbib bəyin komandanlığı altında Bakı ətrafına qədər şərəfli döyüş yolu keçmişdir. 1918 il noyabrın 15-də Hərbi Nazirliyinin 2 nömrəli əmrilə Səlimov Azərbaycan ordusunun Ümumi qərargahının və nazirliyin dəftərxanasınm rəisi təyin edilmişdir. 1919 il fevralın 28-də Nazirlər Şurasının qərarı ilə Həbib bəy general-mayor rütbəsinə layiq görülmüşdür.

1919-cu ilin iyul ayında briqada generalı Həbib bəy Səlimovun komandanlığı ilə Muğanda və Lənkəranda Azərbaycan milli hökumətini tanımaq istəməyən malakan və rus-erməni silahlı qüvvələri darmadağın edilmişdir.

1920 il fevralın 17-də Həbib bəy Səlimov hərbi nazirin ərnri ilə Azərbaycan ordusu qərargahının yenidən qurulması üçün yaradılmış komissiyamn sədri təyin edilmişdir. Azərbaycan ordusunun vahid qərargahının yaradılmasından sonra Həbib bəy onun rəisi təyin edilmişdir.

Həbib bəy Səlimovun başlıca xidmətlərindən biri 1920-ci ilin mart-aprel aylarında uğurla keçirilmiş Qarabağ əməliyyatıdır. Bu əməliyyat zamam dövlətə xəyanət edərək, silahlı qiyam qaldırmış erməni-daşnak silahlı birləşmələrinə ağır zərbə vurulmuş, bölgədə Azərbaycanın suveren hüquqları bərpa edilmişdir.

Həbib bəy Səlimov 1920-ci il aprel işğalından sonra ordu sıralarından istefa vermişdir. Həbib bəy 1920-ci ilin mayında Naxçıvana hərbi komissar təyin olunmuşdur. Həmin il sentyabrın 1-də Həbib bəy həbs olunmuş, dekabrın 30-da güllələnmişdir.

Başı hərbi işlərə qarışan Həbib bəy ailə qurmağa macal tapmamışdır.

**Hüseyn Rəsulbəyov**
(1917-1984)

Hüseyn Cümşüd oğlu Rəsulbəyov 1917-ci il iyunun 26-da qədim türk torpağı olan Dərbənd şəhərində poçt məmurunun ailəsində dünyaya göz açıb.



O, orta təhsilini həmin şəhərdəki 1 nömrəli məktəbdə alıb. 1932-ci ildə Orconikidze şəhərində Politexnik Texnikumuna daxil olan gənc burada təhsilini başa vurduqdan sonra bir müddət Şimali Qafqaz Dəmiryolunun Mineralnıye Vodı stansiyasında mexanik işləyir. 1936-cı ildə Leninqrad Siqnalizasiya və Rabitə Mühəndisləri Elektrotexnika İnstitutuna daxil olur. İnstitutu bitirdikdən sonra isə o, 1938-ci ildə F.Dzerjinski adına Artilleriya Akademiyasının dinləyicisi olur. 1941-ci ildə Akademiyada təhsilini başa vuran Hüseyn Rəsulbəyov Odessa şəhərindəki Primorsk Qoşunlar Qrupuna göndərilir. Müharibəni də elə burada Hava Hücumundan Müdafiə qoşunlarının 15-ci briqadasının mühəndisi kimi qarşılayır. Müharibənin sonunda isə gənc zabit Zaqafqaziya cəbhəsinin 99-cu hava hücumundan müdafiə diviziyasının artilleriya üzrə rəisi idi. 1960-62-ci illərdə isə artıq mühəndis-texniki xidməti general-mayoru olan Hüseyn Rəsulbəyov Bakı Hava Hücumundan Müdafiə Dairəsi qoşunlarının zenit-artilleriya qoşunları komandanının müavini, 1966-1975-ci illərdə isə komandanı vəzifəsində xidmət edir. 1968-ci ildə nümunəvi xidmətə görə Hüseyn Rəsulbəyova artilleriya general-leytenantı ali hərbi rütbəsi verilir. 1975-ci ildə ordu sıralarından ehtiyata buraxılan H. Rəsulbəyov elə həmin il Azərbaycanın rabitə naziri vəzifəsinə təyin olunur.

Hüseyn Rəsulbəyov bu vəzifədə işlədiyi 9 il ərzində burada, demək olar ki, rabitə işini tam olaraq yenidən qurur, texnoloji və mənəvi cəhətdən köhnəlmiş bütün avadanlıqlar yenilənir, telefon-teleqraf rabitəsi keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Bir çox şəhər və kəndlər telefonlaşdırıldı, beynəlxalq rabitənin inkişafı sahəsində yeni istiqamətlər müəyyənləşdirildi. Kadr məsələlərinə ciddi diqqət yetirildi, onların sosial vəziyyəti yaxşılaşdırıldı.

Təkcə 1975-1980-ci illər ərzində H.Rəsulbəyovun gərgin səyləri hesabına, ölkədə kabel və radirele xəttində olan şəhərlərarası telefon xəttlərinin uzunluğu 1,6 dəfə, şəhərlərarası avtomat-telefon rabitəsi 1,6 dəfə, şəhər koordinat ATS-lərinin quraşdırılmış tutumu 7,9 dəfə, kənd koordinat ATS-lərinin quraşdırılmış tutumu 1,2 dəfə, poçt rabitəsinin həcmi 8,5 isə dəfə artmışdır.

H.Rəsulbəyovun xidmətləri layiqincə qiymətləndirilmişdir. O, Lenin, II dərəcəli Vətən müharibəsi, Qırmızı Ulduz, Qırmızı Əmək Bayrağı ordenləri və 14 medalla, o cümlədən "Hərbi xidmətlərinə görə", "Odessanın müdafiəsinə görə", "Qafqazın müdafiəsinə görə", "Nöqsansız xidmətə görə" və s. medallarla təltif edilmişdir. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 28 iyul 1966-cı il tarixli Fərmanı ilə ona "Azərbaycan SSR-in əməkdar mühəndisi" fəxri adı verilmişdir. H. Rəsulbəyov VII, VIII, IX və X çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. Azərbayçan KP XXVIII, XXIX və XXX qurultaylarında Azərbayçan KP MK üzvü seçilmişdir.

Hazırda Dərbənd şəhərinin ən böyük və abad prospektlərindən biri general-leytenant H. Rəsulbəyovun adını daşıyır. Bu şəhərdə onun adına park salınmış, doğulduğu evə və təhsil aldığı şəhər 1№-li orta məktəbə xatirə lövhələri vurulmuşdur. Dərbəndin "Döyüş şöhrətli muzeyi"ndə generala ayrıca ekspozisiya həsr edilmiş, onun büstü qoyulmuşdur.

Azərbaycanın sovet dönəminin ilk general-leytenantı Hüseyn Rəsulbəyov 1984-cü ildə ömrünün 67-ci ilində həyata vida etdi. O, Bakıda Fəxri Xiyabanda dəfn edilib.

1997-ci ildə Hüseyn Rəsulbəyovun anadan olmasının 80 illiyi münasibətilə poçt markası buraxilmışdır.

12 iyul 2000-ci ildə Hüseyn Rəsulbəyovun xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalamışdır. Həmin sərəncam əsasında onun yaşadığı binaya (Bakı şəhəri, Hüsü Hacıyev küçəsi,1) xatirə lövhəsi vurulmuşdur.

2017-ci ildə Bakı şəhəri Nəsimi rayonu, Yusif Səfərov küçəsinin başlanğıcından Kövkəb Səfərəliyeva küçəsinə qədər olan küçəyə General Hüseyn Rəsulbəyovun adı verilib.

# Elm xadimləri və mütəfəkkirlər

## Midhəd Abbasov
(1926- 2012)

Midhəd Teymur oğlu Abbasov 1926-cı ildə Bakıda doğulmuşdur. Neftçi, alim, texnika elmləri doktoru, professor, Azərbaycan EA-nın akademiki. 1949-cu ildə Azərbaycan dövlət sənaye institutunun neft sənayesi fakültəsini bitirmişdir.



M. T. Abbasov əmək fəaliyyətinə 1949-cu ildə "Azneft" birliyində başlamışdır. 1951-ci ildən Azərbaycan EA-da işləyir. Əvvəlcə neft və qaz yataqlarının kəşfiyyatı sahəsində, 1960-cı ildən isə neft və qaz yataqları problemləri elmi tədqiqat institutunda laboratoriya müdiri, elmi işlər üzrə direktor müavini, 1971-ci ildən isə direktor olmuşdur. 1990-cı ildə M. Abbasov Azərbaycan EA-nın vitse-prezidenti seçilmişdir. 500-dən artıq elmi əsərin, 13 monoqrafiyanın müəllifidir.

Abbasov Midhəd Teymur oğlu bir sıra elmi-texniki cəmiyyətlərin üzvü olmuş, SSRİ Ali Sovetinə deputat seçilmişdir. Orden və medallarla təltif olunmuşdur. 1991-ci ildə Azərbaycan Respublikası Prezident Şurasının üzvü, 1991-1992-ci illərdə Azərbaycan Respublikasının dövlət katibi olmuşdur.

24 aprel 2012-ci ildə vəfat etmişdir

**Həsən Abdullayev**
(1918-1993)

Həsən Məmmədbağır oğlu Abdullayev 1918-ci ildə Culfa rayonunun Yaycı kəndində doğulmuşdur. Alim-fizik, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan EA-nın həqiqi üzvü, 1970-83-cü illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. Azərbaycan SSR Dövlət mükafatı laureatı, əməkdar elm xadimi. l941-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika fakültəsini bitirmişdir.



Akademik H. Abdullayev ömrünün əlli ilindən çoxunu yarımkeçiricilər fizikasına və biofizikaya həsr etmişdir. İlk dəfə olaraq selenli cihazlarda selenin anomal hallarını aşkara çıxarmaqla onların idarə olunması yollarını göstərmişdir. Uzunmüddətli elektrik yaddaşlı cihazların hazırlanması və lazer üçün mürəkkəb kimyəvi tərkibli yarımkeçirici monokristalların alınması üçün bir sıra kompleks təcrübələr aparmışdır. H. Abdullayev tərəfindən yeni mürəkkəb yarımkeçiricilərin alınması üçün aparılan təcrübələr, elektrik yaddaşlı idarə olunan diodların yaradılmasına gətirib çıxarmışdır. Termoelektrik çeviriciləri üçün yeni yarımkeçiricilərin alınmasını o, işləyib hazırlamışdır. H.Abdullayev 150 elmi əsərin müəllifidir. Onların 50-si xarici ölkələrdə çap olunmuşdur. 30-dan artıq ixtiranın müəllifidir. Bunlardan bir qismi ABŞ-da, Fransada, Rusiyada patent almışdır. Türkiyədə, Rusiyada, ABŞ-da yarımkeçiricilər fizikası və yarımkeçirici selenlər haqqında bir sıra mühazirələr oxumuşdur. Uzun illər Azərbaycan Elmlər Akademiyasının fizika institutuna rəhbərlik etmişdir. 1956-cı ildə ADU-da yarımkeçiricilər fizikası kafedrasının əsasını qoymuş, bir sıra gənc kadrlar hazırlamışdır.

Həsən Məmmədbağır oğlu Abdullayev dəfələrlə SSRİ Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1993-cü ildə Bakı şəhərində vəfat etmişdir.

**Məhəmməd Ağaoğlu**
(1896-1949)

1896-cı ildə İrəvanda doğulmuşdur. Alim-sənətşünas filologiya elmləri doktoru, professor. 1916-cı ildə MDU-nu, 1926-cı ildə Vyana Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. Azərbaycan, ərəb, fars, rus, ingilis, alman, fransız, yunan dillərini bilmişdir.

MDU-nu bitirdikdən sonra M. Ağaoğlu şərq mədəniyyəti və islam incəsənətini öyrənmək üçün Türkiyə, İran, Suriya və Orta Asiyaya səfər edir. 1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında iştirak edir. Bakıda "İstiqbal" muzeyi yaradır, arxeologiya və etnoqrafiya cəmiyyətlərinin təşkilində iştirak edir. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra Türkiyə və Avstriyaya, 1929-cu ildə ABŞ-a köçərək ömrünün sonunadək orada yaşayır. Elə o ildə Detroyt Universitetində islam mədəniyyəti şöbəsini, sonra islam incəsənəti qalereyasını yaradır. 1933-38-ci illərdə M. Ağaoğlu bu universitetdə Şərq xalqları mədəniyyəti kafedrasının professoru olur. 1934-cü ildə "İslam incəsənəti" jurnalını təsis edərək ömrünün sonunadək onun redaktoru olur. M. Ağaoğlu 50-dən artıq elmi əsərin, habelə "İslam incəsənəti tarixi" (İstanbul, 1928). "XV əsrdə İranda kitab çapı" (Miçiqan 1935), "Səfəvilər dövrünün manufaktura və xalçaları" (Nyu-York, 1941)

Ağaoğlu Məhəmməd 1949-cu ildə Amerikanın Kolumbiya ştatında vəfat etmiş, orada da dəfn olunmuşdur.

**Sürəyya Ağaoğlu**
(1903-1989)

Türkiyədəki bir sıra ictimai təşkilatların yaradıcısı Əhməd bəy Ağaoğlunun qızı Sürəyya Ağaoğlu 1903-cü ildə Şuşada anadan olmuşdur. Türkiyənin ilk qadın vəkili, Beynəlxalq Qadın Hüquqşünaslar Cəmiyyətinin ilk prezidenti olan Sürəyya Ağaoğlu İstanbul Hüquq Fakültəsini bitirdiktən sonra ömrünün sonuna qədər vəkilliklə məşğul olmuşdur.



1921-ci il iyulun 18-də erməni qatil Torlakyan İstanbulun "Pera-Palas" hotelinin önündə Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri Behbud xan Cavanşiri üç güllə ilə qətlə yetirir və həbs olunur. Həmin vaxt İstanbul ingilis işğalı altında olduğundan cani cinayət hadisəsindən 20 gün sonra ingilis hərbi tribunalında mühakimə edilir.

Sürəyya Ağaoğlu hüquqşünas tələbə kimi iştirak etdiyi bu tarixi məhkəmənin yekunu barədə "Bir ömür də belə keçdi" adlı memuarında yazır: "Nəhayət, məhkəmə bitdi. Prokuror qatil üçün ölüm cəzası istədi. Bu tələb hətta bizi çaşdırdı. Lakin prokuror 24 saat içərisində Türkiyədən uzaqlaşdırıldı. Yerinə gələn prokuror isə müttəhimə bəraət istədi və qatil Torlokyan gecə ikən qaçırıldı". Məhkəmədən illər sonra Sürəyya Ağaoğlu Londonda olarkən prokuror Rickatson Hatt ilə görüşür. Görüş zamanı həmin prokuror məlum məhkəmənin sədri ilə Çində görüşdüyünü və sədrin ona türklərin bu davada haqlı olduğunu söyləyir.

Sürəyya Ağaoğlu Azad Fikirləri Yayma Dərnəyi və Türk-Amerikan Universitetlər Dərnəyinin təməlqoyucusudur. Bir sıra hüquqi məqalələrin, "Londonda gördüklərim" və "Bir ömür də belə keçdi" kitablarının müəllifidir.

29 dekabr 1989-cu ildə İstanbulda beyninə qan sızması nəticəsində vəfat etmişdir.

**Səməd Ağaoğlu**
(1909-1982)

Səməd Ağaoğlu 1909-cu ildə Bakıda dünyaya gəlmişdir. Ankarada hüquq fakultəsini bitirdikdən sonra bir müddət Strasburqda işləməli olur. Səməd Ağaoğlu elə bu illərdə yaradıcılığa başlamışdır. Fransada keçən illərini “Strasburq xatirələri“ adlı kitabında əks etdirmişdir.



Türkiyəyə döndükdən sonra bir sıra mühüm dövlət işlərində çalışan Səməd Ağaoğlu üç dəfə Böyük Millət Məclisinə deputat seçilmiş, baş nazirin müavini, dövlət naziri olmuşdur. 1960-cı ildə Calal Bayar-Menderes işinə görə ömürlük həbs cəzasına məhkum olunmuş, 1964-cü ildə amnistiyaya buraxılmışdır. "Rus sovet imperiyası", "Mərmərə dənizində ada", "Qafur müəllim", "Babamın arkadaşları" və s. iyirmidən artıq kitabın müəllifidir. Səməd Ağaoğlunun nəsr yaradıcılığı və qələmə aldığı memuarlar mühacirət ədəbiyyatımızın ən maraqlı səhifələrindən birini təşkil edir. Türkiyənin ədəbi-siyasi mühitində bir zamanlar böyük nüfuz sahibi olmuş bu şəxsiyyət haqqında ən mötəbər mətbuat orqanlarında yazılar dərc edilmiş, əsərləri təhlil və tədqiqat obyektinə çevrilmişdir.

O, 1967-ci ildə ulularının vətəni Azərbaycanı ziyarət etmişdir.

Səməd Ağaoğlu 1982-ci il avqustun 6-da dünyasını dəyişmişdir.

**İqor Aşurbəyli**
(1963)

Əslən azərbaycanlı olan İqor Aşurbəyli 1963-cü ilin sentyabrın 9-da Bakı şəhərində doğulub.



Məşhur Aşurbəyovlar nəslindəndir. Nəslin kökündə Aşur xan Avşar dayanır. Nadir şah Əfşar da bu nəsildəndir. Təzəpir məscidini inşa etdirən Nabat xanım Aşurbəyova, neft sənayeçisi Teymur bəy Aşurbəyov, məşhur tarixçi Sara xanım Aşurbəyli bu nəslin nümayəndələridir.

İqor Aşurbəyli Texnika elmləri doktoru, Rusiya Hərb Elmləri Akademiyasının və A.Proxorov adına Mühəndis Elmləri Akademiyasının həqiqi üzvüdür.

“Asqardia” adlanan Kosmok dövlətin qurucusudur.

Atası Rauf Aşurbəyli kimyaçı alimdir, AMEA Neft-Kimya Prosesləri İnstitutunda şöbə müdiri işləmişdir. Anası Yelizaveta Rezanova Bakıdakı Kosmik Tədqiqatlar İnstitutunda injener-metroloq vəzifəsində işləmişdir.

İqor 1980-ci ildə bir sıra fənlərin ingilis dilində tədris olunduğu 27 nömrəli xüsusi orta məktəbi qızıl medalla bitirib. O, 1985-ci ilə Azərbaycan Sənaye İnstitutunu bitirib. Azərbaycanlı alim Rafiq Əliyevin aspirantı olub. i Rafiq Əliyevin rəhbərliyi altında 30 may 1992-ci ildə Azərbaycan Sənaye İnstitutunda  namizədlik işini müdafiə edib. Elmi işinin mövzusu isə "D-Mərkəzləşdirilmiş sistemlərin qurulma prinsipləri"dir.

İqor AşurbəyliRusiya Hava Hücumundan Müdafiə Sistemləri Konserninin İdarədənkənar Ekspert Şurasının həmsədri, "Almaz-Antey" konstruktor bürosunun sabiq rəhbəri (2001-2011), Socium Holdinq İdarə Heyətinin prezidentidir.

Onun elmi rəhbərliyi ilə “Favorit” zenit raket sisteminin ən yeni modifikasiyası yaradılıb, hazırlanması başa çatdırılıb, dövlət sınaqları aparılıb və müasir və perspektiv hava hücumu vasitələrinin – maneə yaradan təyyarələrin, radiolokasiya patrulu və tuşlaması təyyarələrinin, kəşfiyyatçı təyyarələrin, o cümlədən kəşfiyyat-zərbə komplekslərinin tərkibindəki aviasiya raket daşıyıcıları olan strateji təyyarələrin, taktiki, operativ-taktiki ballistik raketlərin, orta mənzilli ballistik raketlərin, habelə intensiv radiomüqavimət şəraitində digər hava hücumu vasitələrinin məhv edilməsi üçün nəzərdə tutulan “Triumf” zenit raket sistemi Rusiya Federasiyasının Silahlı Qüvvələrində istifadəyə verilib.

2011-ci ilədək İqor Aşurbəyli on il "Almaz-Antey" baş konstruktor bürosu sisteminə rəhbərlik edib. Onun direktoru olduğu "Almaz" korporasiyası müasir Rusiyanın havadan müdafiə sisteminin qalxanı sayılan S-300 və S-400 raketlərinin istehsalı ilə məşhurlaşıb.

İ.Aşurbəyli Rus pravoslav kilsəsinin 2-ci və 3-cü dərəcəli “Moskva knyazı müqəddəs Daniil” (2000, 2002, 2008), “Şərəf” (2007) ordenləri, “Georgi Jukov” (1995), “1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi” (1995), “Rusiya Donanmasının 300 illiyi” (1996), “Moskvanın 850

illiyi" (1997) xatirə medalları ilə təltif olunub. Akademik V.Utkin adına qızıl medalın (2005), "SSRİ EA-nın akademiki A.A.Raspletin" gümüş medalının (2008) sahibidir.

"Rusiya iqtisadiyyatının lideri" milli mükafatının (2004), akademik A.Proxorov adına mükafatın (2008), "İlin adamı" milli mükafatının (2009) və s. laureatıdır.

İ.Aşurbəyli 100-dən artıq elmi məqalənin, bir ensiklopediyanın, üç monoqrafiyanın müəllifidir.

İqor Aşurbəyli 1983-cü ildə Viktoriya adlı xanımla ailə həyatı qurmuşdur. Oğlu Ruslan Moskva Aviasiya İnstitutunu bitirmişdir, "Sosium-A" holdinqin baş direktorudur.

**Sara Aşurbəyli**
(1906-2001)

Sara Balabəy qızı Aşurbəyli 27 yanvar 1906-cı ildə Bakıda doğulmuşdur. Şərqşünas alim, tarix elmləri doktoru. 1925-ci ildə İstanbulda Janna d'Ark adına fransız kollecini, 1930-cu ildə ADU-nun şərqşünaslıq fakültəsini, 1941-ci ildə Moskva pedaqoji institutunun xarici dillər fakültəsini bitirmişdir.



1937-58-ci illərdə S. B. Aşurbəyli Bakının ali məktəblərində ingilis və fransız dillərindən dərs demişdir.

1954-58-ci illərdə Azərbaycan EA-nın tarix muzeyində orta əsrlər şöbəsinin müdiri, Azərbaycan EA şərqşünaslıq institutunun böyük elmi işçisi, katib, 1961-ci ildən Azərbaycan EA-nın tarix institutunda elmi katib, baş elmi işçi və aparıcı elmi işçi vəzifəsində işləmiş, 1993-cü ildən ömrünün sonuna qədər Akademiyanın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi olmuşdur.

S. Aşurbəyli orta əsrlər Azərbaycan tarixi ilə bağlı bir sıra əsərlərin müəllifidir. Onun "Şirvanşahlar dövləti" və "Bakının tarixi – orta əsrlər dövrü" fundamental monoqrafiyaları orta əsrlərlə bağlı ədəbiyyatı, şərqşünaslığı, tarixi öyrənənlər üçün çox qiymətli dərs vəsaitidir.

Aşurbəyli Sara Balabəy qızı 1946-cı ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olmuşdur. O, bir sıra incəsənət əsərlərinin müəllifidir.

Azərbaycan Dövlət Mükafatı laureatı, "Şöhrət" ordeni və respublikanın əməkdar elm xadimi adı ilə mükafatlandırılıb.

Sara Balabəy qızı Aşurbəyli uzun sürən xəstəlikdən sonra 2001-ci il iyulun 17-də 95 yaşında Bakıda dünyasını dəyişmişdir.

**Abbasqulu ağa Bakıxanov**

(1794-1847)

Bakıxanov Abbasqulu ağa (Qüdsi) 1794-cü ildə Bakının Əmircan kəndində doğulmuşdur. Tarixçi, şair, yazıçı, maarifçi, filosof, ensiklopediyaçı alim. Axırıncı Bakı xanı II Mirzə Məhəmməd xanın oğlu. Gənc yaşlarında Qubada yaşamış və yaxşı təhsil almışdır. Ərəb, fars, türk dillərini mükəmməl bilmişdir.



Rus dilini öyrənərək rus imperiyasının Qafqazdakı canişini A. P. Yermolovun dəftərxanasında tərcüməçi vəzifəsinə işə düzəlir. Burada o, M. Ş. Vazeh, A. A. Bestujev-Marlinski, A. S. Qriboyedov, A. Çavçavadze, sonra isə şair Y. P. Polonski, polyak inqilabçısı T. L. Zablotski ilə tanış olur. 1828-ci ildə Türkmənçayda Rus-İran sülh danışıqlarında iştirak edir. Çar ordusunun polkovniki olmuşdur. A. A. Bakıxanov Rusiya, Latviya, Litva və Polşaya səyahətə çıxır. Peterburqda A. S. Puşkinlə tanış olur. A. Bakıxanov xidmətlə bərabər, elmi yaradıcılıqla da məşğul olur. "Təhzibul əxlaq", "Gülüstani irəm", "Qanuni qüdsi", "Kitabi əsgəriyyə", "Əsrarül mələkut" və başqa poetik hekayətlər və elmi-fəlsəfi tədqiqat əsərləri onun qələminin məhsuludur.

Azərbaycanın və Dağıstanın ərazisində ta qədimdən yerləşmiş feodal dövlətlərin, xanlıqların, habelə monqol və türkmən tayfalarının bu ərazidə hökmranlıq edənlərin 1813-cü ilə qədərki tarixini tədqiq edərək fundamental "Gülüstani irəm" əsərini yazır. Öz vaxtında bu əsər Rusiya və Avropa elmi cəmiyyətləri tərəfindən yüksək qiymətləndirilmişdi. Bakıxanovun elmi-publisistik əsərlərinin əksəriyyəti maarifçi xarakteri daşıyırdı. Ənənəvi məhəbbət süjeti əsasında qurulmuş "Kitabi əsgəriyyə" əsərində vəzifəpərəstliyə, karyerizmə, qəddarlığa, köhnəlmiş adətlərin baş alıb getməsinə qarşı çıxış edirdi. Təbrizlilərə müraciətlə yazdığı "Təbriz əhlinə xitab" satirasında feodal qaydalara və fanatizmə acıyaraq gülür. A. Bakıxanov həm də jurnalist kimi tanınmış, "Tiflisski vedemosti" qəzetinin fars nəşrini redaktə etmişdi. İ. A. Krılovun "Eşşək və Bülbül" təmsilini Azərbaycan dilinə tərcümə etmişdi. A. M. Bakıxanovun əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur.

Abbasqulu ağa Mirzə Məhəmməd oğlu Bakıxanov (Qüdsi) Rusiyanın, Türkiyənin və başqa ölkələrin ordenlərilə təltif olunmuşdur. 1847-ci ildə Məkkə yaxınlığında vəfat etmişdir. Doğulduğu Əmircan kəndində ona abidə qoyulmuş, Azərbaycanın kənd və şəhərlərində bir sıra maarif müəssisəsi onun adını daşıyır.

**Bəhmənyar**
(993-1066)

Bəhmənyar ibn Mərzban 993-cü ildə doğulmuşdur. Azərbaycanın görkəmli alimi, filosof. İbn Sinanın tələbəsi olmuşdur. Deyirlər, İbn Sina Təbrizdə yaşayarkən Bəhmənyar onun yanına şagirdliyə gəlir. İbn Sina ona od gətirməyi tapşırır. Uşaq əlinə kül töküb közü onun üstünə qoyub gətirir. Bu, İbn Sinanın xoşuna gəlir və o, Bəhmənyarı şagirdliyə götürür.



Bəhmənyarın traktatında Aristotelin fəlsəfəsini islamın əsas qaydalarına yaxınlaşdıraraq eyniləşdirən, insanın ali məqsədlər üçün yarandığını israr edən fikirləri o dövr üçün çox təhlükəli sayıla bilərdi. Bütün yaranışın birliyi və kainatda ağılın üstünlüyü fikirləri əsərlərində əksini tapırdı. XI əsrdə nə Bəhmənyar, nə də başqa birisi təsəvvürünə gətirə bilməzdi ki, onun əsərləri yaşayacaq, Avropa dillərinə tərcümə olunaraq nəşr olunacaq, XIX əsrdə qabaqcıl insanların düşüncəsinə təsir edərək ağıllarına hakim kəsiləcək.

Bəhmənyar öz fikirlərini "Metafizika", "Mövcudatın mərtəbələri", "Gözəllik və səadət kitabı", "Təhsil kitabı", "Məntiqə dair zinət" kitabı və bir sıra başqa fəlsəfi əsərlərində şərh etmişdir. Əbdülhəsən Bəhmənyar (Bəhmənyar İbn Mərzban) 1066-cı ildə vəfat etmişdir.

**Ziya Bünyadov**
(1921-1997)

Ziya Musa oğlu Bünyadov 1921-ci ildə Astarada doğulmuşdur. Tarix elmləri doktoru, professor, Azərbaycan EA-nın akademiki, əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı olmuşdur.



Z. Bünyadov 1941-ci ildə Bakı hərbi məktəbini bitirmiş, 1941-45-ci illərdə sovet-alman müharibəsində iştirak etmiş, bölüyə və tabura rəhbərlik etmiş, döyüşlərdə Berlinə qədər gedib çıxmışdır. Göstərdiyi qəhrəmanlıqlara görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. 1950-ci ildə Moskva Şərqşünaslıq İnstitutunu bitirmişdir. 1954-64-cü illərdə Azərbaycan EA-nın Tarix İnstitutunda elmi işçi, baş elmi işçi, orta əsrlər tarixi şöbəsinin müdiri, sonralar EA-nın Şərqşünaslıq İnstitutuna çevrilmiş Yaxın və Orta Şərq Xalqları Tarixi İnstitutunun direktoru olmuşdur. Eyni zamanda 1970-ci ildən "Azərbaycan EA-nın Xəbərləri" jurnalının tarix, fəlsəfə və hüquq seriyasının baş redaktoru olmuşdur. 1958-59-cu illərdə ADU-da dərs demişdir. Z. Bünyadov 250-dən artıq əsər çap etdirmişdir. Daha çox şöhrət tapmış monoqrafiyaları - "Azərbaycan VII-IX əsrlərdə", "Azərbaycan Atabəylər dövləti" (1136-1225) "Qafqaz Albaniyası tarixindən", "Xəzər dənizi ərəb məxəzlərində", "Torpaq mülkiyyəti vergilərinin növləri: Vergilər və Xarəzmşahların vergi yığımı" (1097-1203) və s. elmi əsərlərin müəllifidir. Z. Bünyadov həm də Şərq dillərinin bilicisi kimi gözəl tərcüməçi idi. Z. Bünyadovun əsərləri Fransada, İraqda, Rusiyada, Türkiyədə və dünyanın bir sıra başqa ölkələrində nəşr olunmuşdur. O, dünyanın bir sıra alimlərinin əsərlərini ingilis, ərəb, rus və türk dillərindən tərcümə etmişdir.

Ziya Musa oğlu Bünyadov bir sıra orden və medallarla təltif olunmuşdur. 1997-ci ildə Bakıda qətlə yetirilmişdir.

## Cavad Heyət
(1925-2014)

Cavad Heyət 1925-ci il mayın 24-də Təbrizdə anadan olmuşdur. İlk və orta təhsilini Təbriz, Həmədan və Tehranda almışdır. Orta hərbi məktəbi bitirdikdən sonra o, Tehran Universitetinə daxil olmuş, ikinci kursdan ali təhsilini Türkiyənin İstanbul Universitetində davam etdirərək 1943–1946-cı illərdə orada tibb fakültəsində oxumuşdur.



Əmək fəaliyyətinə 1946-cı ildə İstanbul Universitetində başlayan Cavad Heyət 1949-cu ilədək burada cərrahlıq klinikasında çalışmış, daha sonra ixtisasını təkmilləşdirmək üçün Paris Universitetinin cərrahlıq kafedrasında işləmişdir.

O, 1952-ci ildə yüksək dərəcəli cərrah ixtisasına yiyələnərək İrana qayıtmış, 1953-cü ildən Tehranda Hidayət və Ədliyyə xəstəxanalarında cərrahlıq klinikaları quraraq onlara rəhbərlik etmişdir. Doktor Cavad Heyət İranda eksperimental cərrahiyyənin təməlini qoymuşdur. 1954-cü ildən etibarən ürək üzərində apardığı əməliyyatlar onu istedadlı cərrah kimi tanıtmışdır. 1969-cu ildə o, Tehranda ilk dəfə transplantasiya əməliyyatını uğurla həyata keçirmişdir.

Doktor Cavad Heyət təbabətə dair qiymətli araşdırmaların müəllifi kimi də tanınırdı. Onun kitabları tibb sahəsində yazılmış dəyərli vəsait kimi mütəxəssislər tərəfindən daim yüksək qiymətləndirilmişdir. Bir sıra beynəlxalq elmi forumlar və toplantılarda öz təcrübəsinə əsaslanaraq dərin məzmunlu məruzələrlə çıxış etmiş alimin 100-dən artıq məqaləsi müxtəlif tibb jurnallarında işıq üzü görmüşdür. Cavad Heyət uzun müddət cərrahlığın tədrisi və cərrahların yeni nəslinin formalaşdırılması ilə məşğul olmuşdur. O, 12 il ərzində "Daneşe pezeşki"(Tibb Elmi) adlı jurnal dərc etdirmiş və yüzlərcə elmi məqalənin, cərrahiyyəyə aid uç kitabın müəllifi olmuşdur.

Cavad Heyətin zəngin və çoxşaxəli səmərəli fəaliyyətində Azərbaycan ədəbiyyatı tarixi, türk xalqlarının keçmişi, milli folklor və eləcə də islamşünaslığa dair tədqiqatlar mühüm yer tutur.

Cavad Heyət türkoloq kimi də tanınmışdır. O, Azərbaycan dilinin tarixi, sintaksisi, morfologiyası və leksikasını tədqiq etmişdir. 1991-ci ildə "Varlıq" adlı türkoloji jurnal nəşr etməyə başlamışdır.

Cavad Heyət türkologiyaya aid yeddi cildlik kitabın müəllifidir. Cavad Heyət eyni zamanda Azərbaycanın müxtəlif universitetlərinin fəxri doktoru və professor olmuşdur.

O, Azərbaycan, ingilis, fars, türk dillərini mükəmməl bilirdi.

Cavad Heyət 2014-cü il avqustun 12-də Bakıda dünyasını dəyişmiş və avqustun 15-də İkinci Fəxri Xiyabanda torpağa tapşırılmışdır.

## Mirməmməd Cavadzadə
(1926-2008)

Mirməmməd Cavad oğlu Cavadzadə 1926-cı ildə Lənkəranda doğulmuşdur. Həkim, uroloq, tibb elmləri doktoru, professor, EA-nın akademiki, Rusiya Tibb Elmləri Akademiyasının müxbir üzvü, SSRİ və Azərbaycan SSR Dövlət mükafatı laureatı. 1948-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir.



M. C. Cavadzadə 1941-ci ildən Azərbaycan xəstəxanalarında cərrahiyyə şöbəsinin müdiri, baş həkim işləmişdir. 1951-54-cü illərdə Moskva Dövlət Tibb İnstitutunda 2-ci urologiya kafedrasının aspirantı, sonra Simferopol Tibb İnstitutunun operativ cərrahiyyə kafedrasının dosenti, 1957-ci ildən 2-ci Moskva Tibb İnstitutunun dosenti, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun urologiya kafedrasının müdiri, 1967-ci ildən eyni zamanda bu institutun rektoru, Azərbaycan Səhiyyə Nazirliyinin baş uroloqu. Cavadzadə 1966-cı ildə Bakıda SSRİ-də birinci olaraq klinik uroloji xəstəxana açıb onun baş həkimi olur. M. C. Cavadzadə bir sıra cərrahiyyə əməliyyatların modifikasiyasını təklif etmişdir. Böyrəkdaşı xəstəliklərində cərrahiyyə əməliyyatı aparmadan sidik axarı daşlarının klinikası, diaqnostikası və qarın divarı əzələlərini kəsmədən az travmatik kəsiklə müalicəsi və ya sidik-tənasül yolları vasitəsilə böyrəkdaşı xəstəliklərinin müalicəsi, pollikistozun omentorevaskulyarizsasiyası, aşağı subkritikal, pielolitimiyanın müalicəsi və s. M. C. Cavadzadə urologiya, nefrologiya, böyrəkdaşı xəstəliyi, böyrəküstü şişlər, sidik və cinsiyyət orqanlarının anomaliyası, böyrək və sidik kisəsi şişləri, kəskin xroniki böyrək çatışmazlığı və s. onlarla elmi əsərin müəllifidir. Azərbaycan dilində yazılmış urologiya dərsliyinin müəllifidir.

Zaqafqaziyada ilk dəfə olaraq böyrək köçürməsi aparmış, Azərbaycanda dəfələrlə SSRİ və dünya uroloq, nefroloq və dərman istehsalçılarının beynəlxalq konfranslarının və qurultaylarının keçirilməsini təşkil etmişdir.

Cavadzadə Mirməmməd Cavad oğlu ümumittifaq uroloqlar elmi cəmiyyətinin sədr müavini olmuşdur. Azərbaycan uroloqlar cəmiyyətinin sədri və beynəlxalq uroloqlar cəmiyyətinin üzvü olmuşdur. Urologiya, nefrologiya, anesteziologiya, cərrahiyyə sahəsində onlarla elmlər doktorları və namizədlər yetirmişdir. Dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, 18 may 2007-ci ildə “İstiqlal”ordeni ilə təltif olunmuşdur.

7 avqust 2008-ci ildə vəfat etmişdir.

**Fuad Əfəndiyev**
(1909-1963)



Fuad Ələddin oğlu Əfəndiyev 1909-cu il fevralın 23-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Onun valideynləri Gürcüstanın Axıska bölgəsinin Azğur kəndindən olmuşdur. Alim-cərrah, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycanın əməkdar həkimi, Azərbaycan EA-nın müxbir üzvü.

Orta təhsilini Bakıda almışdır. 1927-1932-ci illərdə indiki Azərbaycan Dövlət Tibb Universitetində təhsil almışdır. 1934-cü ildə dissertasiya müdafiə edib tibb elmləri namizədi, 1943-cü ildə tibb elmləri doktoru elmi dərəcəsi almışdır. Fuad Əfəndiyev pedaqoji sahə ilə yanaşı elmi işlə də məşğul olmuşdur. 1944-cü ildən ömrünün sonunadək Azərbaycan Dövlət Tibb Universitetində 2-ci fakültə cərrahlığı kafedrasının müdiri işləmişdir. O, hematologiya və qanköçürmə sahəsində də tədqiqat işləri aparmış, 1957-ci ildə onun təşəbbüsü ilə 4 saylı klinikada köks cərrahlığı şöbəsi yaradılmışdır. 1961-ci ildə Azərbaycan Ekspertimental və Klinik Tibb İnstitutunun təşkilatçısı və ömrünün sonunadək onun direktoru olmuşdur. F. Ə. Əfəndiyev köks cərrahiyyəsi problemləri qanköçürmə və periferik damarların patoloji hematologiyasından bəhs edən 160-dan çox elmi əsərin müəllifidir. Plevra boşluğunda qanın infeksiyalaşmasını asanlıqla təyin etməyə imkan verən orijinal üsul təklif etmiş, ağciyər əməliyyatlarını asanlaşdırmaq üçün alətlər yaratmış, hemotoraks və hemartrazların, ekspress üsulla yanıqların üzərinə novakain, furasilin çəkməklə 16-18 saat ərzində yanıq üzərində germetik təbəqə - plyonka əmələ gətirməklə müalicəni asanlaşdırmışdır. F. Əfəndiyev üsulunda hətta qapalı hemotoraks zamanı sitoloji nümunə tətbiq edilmişdir. Xlorlu-kalsiumu, qanın konservantı kimi işlətməyi təklif etmişdir.

Fuad Ələddin oğlu Əfəndiyev Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

1963-cü ildə Bakıda vəfat etmişdir. Bakıdakı 4 saylı xəstəxana onun adını daşıyır.

**Əhməd Cəfəroğlu**
(1899-1975)

Əhməd İsmayıl oğlu Cəfərzadə 1899-cu ildə Gəncədə doğulmuşdur. Filologiya elmləri doktoru, professor. İbtidai təhsilini Səmərqənddə, orta təhsilini Gəncədə almışdır. 1916-17-ci illərdə Kiyev Kommersiya İnstitutunda, 1919-cu ildə ADU-da oxumuşdur. Rusiyadakı inqilabi hərəkatla bağlı Kiyevdə təhsilini yarımçıq saxlayan Ə. Cəfəroğlu Gəncəyə qayıdıb könüllü olaraq müsəlman ordusunda artilleriya zabiti kimi xidmət edir.



1920-ci ildə Bakıda kommunist rejimi qurulduqdan sonra Ə. Cəfəroğlu Türkiyəyə getmiş, burada təhsilini davam etdirmişdir. 1924-cü il İstanbul Universitetinin dil və ədəbiyyat fakültəsini bitirmişdir.. Əmək fəaliyyətinə İstanbul universitetində başlamışdır. Uzun illər türk dili tarixi kafedrasına rəhbərlik etmişdir. 40 monoqrafiyanın, 500-dən çox elmi işin müəllifidir. O, Nizami, Xaqani, Füzuli, Nəsimi, Vaqif, Vidadi, Cəlil Məmmədquluzadə, Məmmədəmin Rəsulzadə, Ömər Seyfəddin, Tofiq Fikrət, Rəşad Nuri, Xalidə Edip, Aka Gündüz, Yaqub Qədri və bir sıra başqa Azərbaycan, türk və fars yazıçı və şairlərin həyat və yaradıcılığını tədqiq etmişdir. "Yurd bilgisi" jurnalını təsis edərək onun ilk redaktoru olmuşdur. O, öz əsərlərini mükəmməl bildiyi macar, Azərbaycan, alman, fransız, rus, ispan, fars, italyan, polyak və türk dillərində yazmışdır. Ə. Cəfəroğlu bir sıra Avropa və Asiya yazıçı və şairlərinin əsərlərini türk dilinə tərcümə etmişdir.

Əhməd İsmayıl oğlu Cəfərzadə Macarıstanın və Polşanın Elmlər Akademiyalarının müxbir üzvü və bir sıra beynəlxalq türkoloji cəmiyyətlərin üzvü olmuşdur. O, İspaniyanın "De Alfonso Sabio" və Türkiyənin bir sıra ordenləri ilə təltif olunmuşdur. 1975-ci il yanvarın 16-da İstanbulda vəfat etmişdir.

Hazırda Sabancı Muzeyinin başında bulunan Nazan Ölçər, Türkiyənin ilk və ən önəmli türkologlarından biri Prof. Əhməd Cəfəroğlunun qızıdır.

**Əli Cavan**
(1926-1970)

1926-cı ildə Tehranda doğulmuşdur. Amerika alimi, fizik, ABŞ Milli Elmlər Akademiyasının üzvü.



Milliyyətcə azərbaycanlıdır. Bir il Tehran Universitetinin fizika fakültəsində oxumuşdur. 1948-ci ildə ABŞ-a köçmüş, burada ali təhsil, sonra fəlsəfə elmləri doktoru elmi dərəcəsi almışdır.

1958-61-ci illərdə Bell-Telefon laboratoriyalarında işləmişdir. 1960-cı ildən Massaçusets Texnologiya İnstitutunda işləyir. Əli Cavanın tədqiqatları kvant elektronikası və onun tətbiqi, habelə lazer elektroskopiyası sahələrinə aiddir. Qeyri-xətti spektroskopiyanın əsasını qoymuşdur. 1960-cı ildə qaz lazerini Amerika alimləri U. Bennet və C. Erritonla birlikdə təklif etmişdir. Lazerin güclənmə mərkəzində lazerin daxilolma gərginliyinin enmə rezonansı hadisəsini U. Bennet və C. Lembomla birlikdə kəşf etmişdir. 1966-cı ildə mod kəsişmələrinin effekti nəzəriyyəsini yaratmış və bunu 1969-cu ildə müşahidə etmişdir. 1970-ci ildə işıq hərəkəti tezliklərinin absolyut ölçülməsi hərəkəti və qeyri xətti flyuressensiyaların metodlarını işləmişdir. O, həm də spektral xətlərin itələyici daralmasını kəşf etmişdir.

**Cəmil Əliyev**
(1946)

Cəmil Əziz oğlu Əliyev 1946-cı ildə Bakıda doğulmuşdur. 1968-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir.



1968-1978-ci illərdə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun onkologiya kafedrasında laborant, assistent, elmi işçi, böyük elmi işçi işləmişdir.

1979-cu ildə yazdığı monoqrafiyaya ("Dərinin bədxassəli şişlərində plastik operasiyalar") görə SSRİ Tibb Elmlər Akademiyasının N.N.Petrov adına mükafatına layiq görülmüşdür.

1979-1990-cı illərdə Azərbaycan Səhiyyə Nazirliyinin rentgenologiya şöbəsinin müdiri və elmi məsələlər üzrə direktor müavini vəzifəsində işləmişdir. 1990-cı ildən Azərbaycan Səhiyyə Nazirliyinin Onkologiya Mərkəzinin direktoru, 1994-cü ildən eyni zamanda Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun onkologiya kafedrasının müdiridir. C. Ə. Əliyev 10 monoqrafiyanın, 200-dən artıq elmi nəşrlərin müəllifidir. 80-ə yaxın elmi əsəri xaricdə çap olunub. 2001-ci ildə Azərbaycan MEA-nın həqiqi üzvü seçilmişdir.

Nyu-York Elmlər Akademiyasının üzvü, Rusiya Tibb Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Federasiyasının Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, Gürcüstan Milli Elmlər Akademiyasının həqiqi üzvü, İngiltərə Kral Universitetinin professoru, Anderson Xərçəng Əleyhinə Mərkəzin professorudur.

Azərbaycanda tibb elminin inkişafındakı xidmətlərinə görə Cəmil Əziz oğlu Əliyev «Şöhrət» və "Şərəf" ordenləri ilə təltif edilmişdir.

**Həsən Əliyev**
(1907-1992)

Həsən Əlirza oğlu Əliyev 1907-ci ildə Yelzavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının



Qarakilsə nahiyəsinin (sonralar Sisyan rayonu) Comərdli kəndində doğulmuşdur. Torpaqşünas və coğrafiyaşünas alim. Azərbaycan EA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda elmi işlər üzrə direktor müavini, APİ-də müəllim, Azərbaycan EA Botanika İnstitutunun direktoru (1949-52), Azərbaycan KP MK katibi (1952), Azərbaycan EA-nın akademik katibi (1952-57) olmuşdur. 1968-ci ildən ömrünün sonunadək Azərbaycan EA Coğrafiya İnstitutunun direktoru, eyni zamanda 1975-ci ildən Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin sədri olmuşdur. ABŞ-da, Yunanıstanda, Rumıniyada, İsveçrədə, Polşada və bir sıra başqa ölkələrdə keçirilən beynəlxalq simpoziumların iştirakçısı olmuşdur. H. Ə. Əliyevin Azərbaycanda meşə zolaqlarının və üzümlüklərin salınmasında böyük xidmətləri olmuşdur. Meşələrin qorunması üçün var qüvvəsini səfərbər etmiş, təbiətin mühafizəsi ilə bağlı "Həyəcan təbili" adlı kitabını yazmış, hamını təbiətin mühafizəsinə çağırmışdır. Yüzlərlə elmi əsərin müəllifidir. Dəfələrlə Ali Sovetə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

1992-ci ildə vəfat etmişdir. Xatirəsi əbədiləşdirilərək adı küçə, məktəb və elmi tədqiqat müəssisəsinə verilmişdir.

**İqrar Əliyev**
(1924-2004)

İqrar Həbib oğlu Əliyev 1924-cü ildə Bakıda doğulmuşdur. Tarixçi, alim, tarix elmləri doktoru, professor, Azərbaycanın əməkdar elm xadimi, Azərbaycan EA-nın akademiki olmuşdur. 1945-ci ildə ADU-nun tarix fakültəsini bitirmişdir.



Azərbaycanın Qədim tarixi üzrə yeni elmi məktəbin yaradıcısıdır və ilk dəfə Qədim Şumer, Assur, Babil, İran və o cümlədən, digər Qədim Şərq mənbələrini elmi dövriyəyə cəlb etmişdir.

1945-74-cü illərdə İ. Əliyev ADU-da dərs demiş, Azərbaycan EA tarix institutunun elmi işçisi, kafedra müdiri olmuşdur. 1978-ci ildən Azərbaycan EA-nın tarix institutunun direktorudur. O, 1980-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilib. İ. H. Əliyev 150-yə yaxın elmi işin, yeddi monoqrafiyanın, yeddicildlik "Azərbaycan tarixi"nin müəlliflərindən biridir. Bir sıra beynəlxalq elmi konfransların və simpoziumların iştirakçısıdır.

"Şöhrət ordeni" ilə təltif olunmuşdur.

İqrar Həbib oğlu Əliyev 2004-cü il iyunun 11-də vəfat etmişdir.

**Məmmədbağır Əliyev**
(1955)

Məmmədbağır Cavad oğlu Əliyev 1955-ci ildə Bakıda doğulmuşdur. Həkim-alim, ictimai xadim, tibb elmləri doktoru, professor, Rusiya Federasiyası dövlət mükafatı laureatı. 1979-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir.



1979-91-ci illərdə M. Əliyev xəstəxana və onkoloji mərkəzlərdə həkim işləmişdir. 1992-ci ildə Rusiya TEA-nın Onkoloji Mərkəzində doktorluq müdafiə edərək burada hərəkət dayaq aparatının şişləri şöbəsində aparıcı mütəxəssis kimi işləməyə başlamışdır. Elmi tədqiqatları hərəkət dayaq aparatında radikal müalicə aparılmış xəstələrdə sonrakı reabilitasiya ilə bağlıdır. 1998-ci ildən professordur. 2000-ci ildə dövlət mükafatına layiq görülmüşdür. 150-dən artıq elmi işin, iki monoqrafiyanın bir sıra səmərələşdirici təkliflərin müəllifidir. Rəhbərliyi altında bir çox elmlər namizədi və doktor yetişmişdir. M. Əliyev bir sıra beynəlxalq elmi-tibbi cəmiyyətlərin üzvüdür.

Əliyev Məmmədbağır Cavad oğlu Ümumrusiya Azərbaycanlılar Konqresinin ilk prezidenti seçilmişdir. O, bu vəzifədə azərbaycanlıların Rusiya Federasiyası qarşısında duran vəzifələrinin yerinə yetirilməsinə cəlb olunması, Rusiya-Azərbaycan münasibətlərinin genişlənməsi və möhkəmlənməsi yolunda böyük əmək sərf edir.

**Musa Əliyev**
(1908-1985)

Əliyev Musa Mirzə oğlu 11 aprel 1908-ci ildə Şamaxı şəhərində anadan olmuşdur.

1950-58-ci illərdə Azərb. SSR EA-nın Prezidenti seçilmişdir.



1950-ci ildə Azərb. SSR EA-nın həqiqi üzvü, 1957-ci ildə geologiya-mineralogiya elmləri doktoru adını almışdır. 1939-41-ci illərdə M.Əzizbəyov adına Sənaye İnstitutunun (indiki Neft Akademiyası) direktoru olmuşdur.

Paleontologiya və stratiqrafiya şöbəsinin rəhbəri, Rusiya EA Yanar Faydalı Qazıntıların Geologiyası və Kəşfiyyatı İnstitututunun direktor müavini və Neftli-qazlı vilayətlərin stratiqrafik tədqiqi laboratoriyasının rəhbəri olmuşdur.

Təbaşirin inoseram faunası, sistematika və biostratiqrafiya sahəsində tanınmış mütəxəssisdir. Qafqazın, Orta Asiyanın, Qərbi Sibirin neft-qazlı komplekslərinin stratiqrafik tədqiqini aparmış, həmçinin Əlcazair Saxarası və Atlasların, Yaxın və Orta Şərqin regional geologiyası və neftliliyi ilə məşğul olmuşdur. Mezozey üzrə Bakı paleontoloq və stratiqraflar məktəbinin yaradıcısıdır. Lenin ordeni, iki Qırmızı Əmək Bayrağı ordeni, "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdir.

O, 40 elmlər doktoru və namizədi yetişdirmişdir. 210 elmi əsərin, o cümlədən 15 monoqrafiyanın müəllifidir.

Musa Əliyev 1985-ci ildə vəfat etmişdir.

**Əbdulkərim Əlizadə**
(1906-1979)

Əbdülkərim Əli oğlu Əlizadə 1906-cı ildə Bakının Bilgəh kəndində doğulmuşdur. Şərqşünas-alim, tarix elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan EA-nın akademiki, SSRİ Dövlət mükafatı laureatıdır. 1930-cu ildə Leninqrad Şərqşünaslıq İnstitutunu bitirmişdir.



1931-1944-cü illərdə Ə. Əlizadə Leninqrad Şərqşünaslıq İnstitutunda və Leninqrad Dövlət Universitetində ADU-da SSRİ EA-nın Şərqşünaslıq Institutunda baş elmi işçi olmuşdur. 1944-50-ci illərdə Azərbaycan EA-nın Tarix Institutunun direktoru olmuşdur. 1950-57-ci illərdə qədim və orta əsrlər tarixi şöbəsinin, şərqşünaslıq şöbəsinin müdiri, ictimai elmlər üzrə akademik katib olmuşdur. 1958-79-cu illərdə Şərqşünaslıq Institutunun direktoru, mətnşünaslıq və məxəzləri çapa hazırlama şöbəsinin rəhbəri olmuşdur. 60-a qədər əsəri nəşr olunmuşdur. ASE Baş Redaksiyasının üzvü olmuşdur. Ə. Əlizadə Yaxın şərq ölkələrinin səlcuqlar və monqollar dövrünün tədqiqatçısıdır. Nizaminin "İsgəndərnamə" əsərinin "Şərəfnamə" hissəsini, "Sirlər xəzinəsi", Rəşid-əd-dinin "Cami Ət-Təvarix" Məhəmməd ibn Hinduşah Naxçıvaninin "Dəstur Əl katib fı təyin əl məratib", A. A. Bakıxanovun "Gülüstani irəm" və bir sıra başqa əsərlərinin çapa hazırlanması onun rəhbərliyi və iştirakı ilə olmuşdur. Ə. Əlizadənin əsərləri ingilis, alman, ərəb, türk, fars və bir sıra başqa dillərə tərcümə olunmuşdur.

Əbdülkərim Əli oğlu Əlizadə bir sıra orden və medallarla təltif olunmuşdur.

1979-cu ildə Bakıda vəfat etmişdir.

**Ələşrəf Əlizadə**
(1911-1980)

Ələşrəf Əbdülhüseyn oğlu Əlizadə 1911-ci ildə Şamaxıda doğulmuşdur. Geoloq-alim, geologiya-mineralogiya elmləri doktoru, professor, Azərbaycan EA-nın akademiki, SSRİ Dövlət mükafatı laureatı Türkmənistanın əməkdar elm və texnika xadimi.



1937-ci ildə Azərbaycan sənaye institutunun geoloji fakültəsini bitirmişdir. 1938-40-cı illərdə Ə. Əliyev Azərbaycan sənaye institutunda dərs demiş, respublikada geoloji kəşfiyyatla məşğul olmuşdur. 1942-44-cü illərdə Azərbaycan KP MK katibi, 1944-cü ildə Azərbaycan KP MK ikinci katibi, 1946-48-ci illərdə "Azərneft" və Azərneftkəşfiyyat" birliklərinin rəisi, 1949-54-cü illərdə Türkmənistan Dövlət Universitetində kafedra müdiri və Türkmənistan SSR EA faydalı qazıntılar bölməsinin müdiri, 1959-77-ci illərdə Azərbaycan Dövlət Neft Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutunun direktoru, 1977-ci ildən Azərbaycan SSR EA-nın M. Qubkin adına Geologiya İnstitutunda regional geologiya və tektonika şöbəsinin rəhbəri olmuş, bir sıra neft yataqlarının açılmasında iştirak etmişdir. Çox sayda elmi əsərlərin, monoqrafiyaların müəllifdir. Mezozoy çöküntülərinin neftlilik problemi ilə məşğul olmuş, Türkmənistanda Pliosen çöküntülərinin strotirafik sxemini tərtib etmişdir. "Yer və zəlzələlər", "Azərbaycanın Açıqgölü", "Türkmənistanın Açıqgölü", "Azərbaycanın Sarmatı", "Azərbaycanın paleogen yataqları" və s əsərlərin müəllifidir.

Ələşrəf Əbdülhüseyn oğlu Əlizadə SSRİ Ali Sovetinin deputatı seçilmiş, orden və medallarla təltif olunmuşdur.

1980-ci illərin sonunda Bakıda vəfat etmişdir.

**Əli Əmiraslanov**
(1900-1962)

Əli Ağamalı oğlu Əmiraslanov 1900-cü ildə Qubadlının Balahəsənli kəndində anadan olmuşdur.



Geoloq-alim, geologiya-mineralogiya elmləri doktoru, professor, SSRİ EA-nın müxbir üzvü. 1930-cu ildə Moskva Mədən Akademiyasını bitirmişdir.

Ə. Əmiraslanov 1930-1938-ci illərdə Uralda, Qazaxıstanda, Orta Asiyada və Qafqazda əlvan metallar – sink, mis, qalay və s. yataqlarının öyrənilməsi ilə məşğul olmuş, bir sıra yataqların açılmasında iştirak etmişdir. 1938-1954-cü illərdə müxtəlif elmi-tədqiqat geologiya institutlarında işləmiş, Moskva geologiya institutunda dərs demiş, "Sovetskaya Qeoloqiya" elmi jurnalının baş redaktorunun müavini olmuşdur. Ə. Əmiraslanov 1954-1962-ci illərdə SSRİ-nin əlvan metallurgiya, geologiya və Yer təkinin mühafizəsi nazirliklərində rəhbər vəzifələrdə çalışmışdır. "Qurğuşun və sink yataqlarının əsas tipləri" (axtarış metodları kəşfiyyat və qiymətləndirmə) "Avstraliyanın qurğuşun-sink yataqları. Yerləşmə qanunauyğunluğu və geoloji xarakteri". "Faydalı qazıntıların axtarılmasının proqressiv metodları" və s. onlarla elmi əsərlərin müəllifidir.

Əli Ağamalı oğlu Əmiraslanov orden və medallarla təltif olunmuşdur.

1962-ci ildə Moskvada vəfat etmiş Novodeviçye qəbiristanlığında dəfn olunmuşdur.

## Heydər Hüseynov
(1908-1950)

Heydər Nəcəf oğlu Hüseynov 1908-ci ildə İrəvanda doğulmuşdur. Alim-filosof, ədəbiyyatçı, ictimai xadim. Azərbaycan EA-nın akademiki, SSRİ dövlət Mükafatı laureatı, 1931-ci ildə ADU-nu bitirmişdir.



H. N. Hüseynov 1936-40-cı illərdə SSRİ EA-nın Ensiklopediya və Lüğətlər İnstitutu filialının direktoru olmuşdur. 1939-45-ci illərdə SSRİ EA Azərbaycan filialının sədr müavini, eyni zamanda Azərbaycan KP(b) MK nəzdində Partiya Tarixi Institutunun direktoru olmuşdur. Uzun illər ADU-da kafedraya rəhbərlik etmişdir. Yüzlərlə elmi işin müəllifidir. "M. F. Axundovun fəlsəfi görüşləri", "Nizaminin sosial görüşləri", "Azərbaycanın böyük alimi A. Bakıxanov", bundan başqa onun Füzuli, M. Kazımbəy, Zərdabi, Vazeh, S. Vurğun, C. Cabbarlı, Ə. Şıxlinski və onlarla dahi şəxsiyyətlərin həyat və yaradıcılığından bəhs edən əsərlər yazmışdır. Onun ən dəyərli əsərlərindən biri Bağırov rejiminin süqutundan sonra 1949-ci ildə işıq üzü görmüş, 733 səhifəlik "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsəridir ki, burada Azərbaycan xalqının ictimai siyasi və fəlsəfi fikrinin inkişaf mərhələləri göstərilmişdir. H. Hüseynov "Rus-Azərbaycan" və Azərbaycan-rus" lüğətlərinin əsas tərtibçisi və redaktorlarındandır. O, Qafqaz xalqlarının qəhrəman Şeyxi - Şeyx Şamil haqqında monoqrafiya yazmış, monoqrafiya hazır olanda hətta Stalin mükafatına təqdim edildikdən sonra sanki birdən-birə işıqlı, günəşli bir gündə ildırım çaxdı. M. C. Bağırov "Pravda" və "Bakinski raboçi" qəzetlərində Şeyx Şamili Qafqaz xalqlarının azadlığı uğrunda vuruşan qəhrəman deyil, Türkiyənin və İngiltərənin casusu kimi qələmə verərək yazırdı ki, guya Şamil Qafqazı Türkiyəyə birləşdirməyə cəhd göstərirmiş. Beləliklə, XX əsrdə Azərbaycanın ən böyük aliminə qarşı iftiralar baş qaldırdı.

Heydər Nəcəf oğlu Hüseynov özünün həbs olunmağını gözləməyib, 1950-ci ildə böhtanlara dözməyərək venasını açaraq intihar etmişdir.

**Əlibəy Hüseynzadə**
(1864-1940)

Əlibəy Molla Hüseyn oğlu Hüseynzadə 1864-cü ildə Salyanda doğulmuşdur. Şair, alim, publisist, həkim, rəssam, maarifçi. Nurlu bir insan olmuşdur. İlk təhsilini mollaxanada, orta təhsilini Tiflis şəhər gimnaziyasında almışdır. Peterburq Universitetinin fizika-riyaziyyat fakültəsində təhsil almışdır. 1895-ci ildə İstanbulda Ali Hərbi Tibb Məktəbini bitirmişdir. 1900-cü ildən İstanbulda Ali Hərbi Tibb Məktəbində professorun köməkçisi olmuş, tibbə, siyasətə dair məqalələrlə mətbuatda çıxış etmişdir. "İttihad və Tərəqqi" partiyasının yaradıcılarından biri olmuşdur.



Ə. Hüseynzadə 1904-cü ildə Bakıya gələrək "Həyat" və "Kaspi" qəzetlərini, sonra isə "Füyuzat" jurnalını redaktə edir. "Səadət" cəmiyyəti nəzdindəki məktəbin direktoru olur. Ə. Hüseynzadə ədəbiyyatda romantik axına rəhbərlik etmiş, lirik şeirlər yazmış, türk milli ideyalarını təbliğ etmiş, türk xalqlarının özünüdərk səviyyəsinin yüksəlişi yolunda çalışmışdır. O, "Molla Nəsrəddin" jurnalının böyük maarifpərvər rolunu yüksək qiymətləndirmiş və burada öz rəsmləri ilə çıxış etmişdir. Onun çəkdiyi "Bibi Heybət məscidi", "Şeyxülislamın portreti" əsərləri Bakıda R. Mustafayev adında Azərbaycan Dövlət Incəsənət Muzeyinin daimi eksponatıdır.

Əli bəy Hüseynzadə 1911-ci ildə İstanbula qayıdıb. İstanbulda yenidən həkimlik sənətini davam etdirən Əli bəy Hüseynzadə İstanbul Universitetinin tibb fakültəsində dəri-zöhrəbi xəstəlikləri üzrə professor köməkçisi, sonralar professoru seçilir. Bu vəzifədə 1933-cü ilə qədər, yəni universitet bağlanana qədər pedaqoji fəaliyyətlə məşğul olur.

1918-ci il mayın 28-də Tiflisdə qurulan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti müvəqqəti olaraq Gəncədə fəaliyyət göstərdiyi dövrdə (16 iyun 1918 - 17 sentyabr 1918) Osmanlı dövlətindən hərbi yardım istəmiş və Nuru Paşanın rəhbərliyi altında türk ordusu Azərbaycana - Gəncəyə gəlmişdi. Bu dövrdə Əhməd bəy Ağayev (Ağaoğlu), Axund Yusif Talıbzadə ilə yanaşı, Əli bəy Hüseynzadə də Türkiyədən Azərbaycana göndərilmiş, dövlət quruculuğu məsələlərini Azərbaycanın siyasi və hökumət rəhbərləri ilə müzakirə etmiş, müəyyən məsləhətlər vermişdi. Əli bəy Gəncə səfərindən qayıtdıqdan sonra qələmə aldığı və "Qızıl ay" qəzetinin 24 iyul 1918-ci il tarixli nömrəsində çap etdirdiyi "Azərbaycanda düşündüklərim" məqaləsindən öyrənirik ki, o, Gəncəni iyulun ortalarında tərk edərək, Qafqaz məsələsini müzakirə etmək məqsədilə Məhəmmədəmin Rəsulzadə ilə birlikdə İstanbula qayıdıb...

Əli bəy Hüseynzadə Azərbaycan sovet hökumətinin xüsusi dəvəti ilə bir də 1926-cı ildə Vətənə dönüb, Bakıda keçirilən I Beynəlxalq Türkoloji qurultayda iştirak edib. Qurultaya məruzə adı ilə gətirdiyi, əslində isə Xalq Cümhuriyyətinin süqutu və Sovet Rusiyası tərəfindən Azərbaycanın işğalı məsələlərinə həsr olunmuş "Qərbin iki dastanında türk" əsərinin Bakıda nəşrinə nail olub. Onun

beynəlxalq miqyaslı belə bir qurultaya dəvət olunması əslində Sovetlər Birliyində də böyük türkoloq kimi tanınması kimi dəyərləndirilməlidir...

Türkoloji qurultay başa çatdıqdan sonra 1926-cı il martın 25-də doğma Vətənindən sonuncu dəfə ayrılan Əli bəy Hüseynzadə bir müddət Atatürkə sui- qəsddə iştirak gərəkçəsi ilə Ankarada İstiqlal Məhkəməsi qarşısında dayanmalı olmuş, az sonra bu işdə günahsızlığı sübut edilərək sərbəst buraxılsa da, fəaliyyətində bir durğunluq mərhələsi başlanmışdı. Bu hadisədən sonra sakit həyat tərzi keçirən Əli bəy 1940-cı il martın 17-də İstanbulda dünyasını dəyişib və şəhərin Qaracaəhməd məzarlığında haqq dünyasına qovuşub...

Əli bəy nisbətən gec, yəni 48 yaşında 1912-ci ildə İstanbulda əslən çərkəz olan suvari zabiti Şəmsəddin bəyin qızı Ədhiyyə xanımla (1890-1944) evlənmiş, bu izdivacdan üç övladı- Səlim Turan adlı oğlu, Saidə və Feyzavər adlı iki qızı dünyaya gəlmişdi. Yüksək təhsil almış övladlarının heç birinin uşağı olmayıb. Böyük qızı Saidə bəyim (1914-2002) 2002-ci ildə rəhmətə gedib. Oğlu Səlim Turan (1915-1994) məşhur rəssam idi. Parisdə yaşayıb, 1994-cü ildə orada dünyasını dəyişib. Üçüncü övladı 1920-ci ildə doğulmuş Feyzavər bəyim bu yaxınlarda İstanbulda haqq dünyasına qovuşub. Əli bəyin nəsil davamı bu övladlarla bitir...

Əlibəy Hüseynzadə 1940-cı ildə İstanbulda vəfat etmiş, Qaracaəhməd qəbiristanlığında dəfn olunmuşdur. Salyanda abidəsi qoyulmuşdur.

# İbrahim Xəlil
(1892-1938)

İbrahim Xəlil İbrahim oğlu 1892-ci ildə Şuşada doğulmuşdur. Tanınmış jurnalist, tənqidçi və tərcüməçi. 1914-cü ildə ədəbi-bədii fəaliyyətə başlamışdır.



1914-19-cu illərdə "Azərbaycan", "İqbal" qəzetlərində ictimai-siyasi məqalələrlə çıxış etmişdir. Birinci Dünya müharibəsi illərində, beynəlxalq məsələlərə, müharibənin dəhşətlərinə həsr olunmuş "Dəhşətli yanğın qarşısında", "Avropa müharibəsi nə qədər baha ilə bitəcəkdir", "Alban inqilabı", "Kənd həyatından səhnələr" və bir sıra ictimai-siyasi publisistik məqalələrlə çıxış etmişdir. 1919-cu ildə Xəlil İbrahim "Azərbaycan" qəzetinin yaradıcılarından biri və baş redaktoru olur. Bu illərdə o, Azərbaycan milli teatr və mədəniyyətinin inkişafı və problemlərilə bağlı onlarla məqalə və resenziyalarla çıxış edir, dil islahatı, terminoloji lüğətlərin hazırlanması Azərbaycan əlifbası problemləri, Azərbaycan (türk) ədəbi lüğətinin hazırlanmasında fəal iştirak edir. 1918-20-ci illərdə Xəlil İbrahim Azərbaycan Xalq Cümhuriyyətinin formalaşmasında böyük fəaliyyət göstərmiş, Məmmədəmin Rəsulzadənin yaxın silahdaşı və məsləhətçilərindən olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və respublikada kommunist rejimi qurulduqdan sonra Xəlil İbrahim müxtəlif vəzifələrdə çalışmaqla Azərbaycan xalqının inkişafı ilə bağlı müxtəlif problemlər haqqında 1923-30-cu illərdə məqalələrlə qəzetlərdə çıxış etmişdir. Xəlil İbrahim AXC-nin və Müsavat partiyasının qabaqcıl xadimlərindən olduğu üçün 1923-cü ildə kommunist rejimi tərəfindən həbs olunur, bir qədər sonra günahı sübut olunmadığından azad olunur.

Xəlil İbrahimin tərcüməçi kimi Azərbaycan ədəbiyyatı qarşısında xidmətləri böyükdür. O, Şekspirin, Şillerin, A. Tolstoyun və bir sıra başqa Qərbi Avropa və rus yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Bütün bu illər ərzində Xəlil İbrahim Fövqaladə Komissiyanın (ÇK) nəzarətində olmuş, 1937-ci ilin noyabr ayında xalq düşməni kimi həbs olunmuş, 4 ay sonra 1938-ci ildə güllələnmişdir. Stalinin ölümündən sonra bəraət almışdır.

Xəlil İbrahimin oğlu: Elxan Xəlil oğlu İbrahimov (1921-1981) jurnalist-tərcüməçi olmuşdur. 1925-ci ildə doğulmuş qızı Solmaz Xəlil qızı İbrahimova Moskva Dövlət Pedaqoji Universitetinin ingilis dili kafedrasının professorudur. 40 ildən artıqdır ki, burada dərs deyir. SSRİ Jurnalistlər və Yazıçılar Birliyinin üzvüdür. 1934-cü ildə doğulmuş ikinci qızı Gülər Xəlil qızı İbrahimova Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun hidrotexnik qurğular kafedrasının dosentidir.

## Rövşən Xəlilov
(1952)

Xəlilov Rövşən İbrahimxəlil oğlu 1952-ci ildə Ucarın Qəzyan kəndində doğulmuşdur.



1969-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Fizika fakültəsinə daxil olmuş, təhsildəki müvəffəqiyyətlərinə görə 1972-ci ildə Moskva Dövlət Universitetinə köçürülmüş və 1976-cı ildə biofizika ixtisası üzrə təhsilini orada başa çatdırmışdır. Elə həmin il o, Moskva Dövlət Universitetində məşhur sovet alimi, professor L.A.Blümenfeldin rəhbərlik etdiyi biofizika kafedrasının əyani aspiranturasına daxil olaraq böyük əzm və bacarıqla elmi-tədqiqat işlərini davam etdirmişdir.

R.Xəlilov 1979-cu ildən Bakı Dövlət Universitetində əmək fəaliyyətinə başlayaraq assistent (1979-1984), dosent (1984-1992) vəzifələrində çalışmış və 1992-ci ildən indiyə qədər "Biofizika və molekulyar biologiya" kafedrasında professor kimi fəaliyyət göstərir.

Rövşən Xəlilov 1992-ci ildə Moskvada ixtisaslaşdırılmış müdafiə şurasında "Ultrabənövşəyi şüaların ali bitki hüceyrə membranlarına təsir mexanizmi" mövzusunda ekologiya və biofizika ixtisasları üzrə doktorluq dissertasiyası müdafiə edərək Rusiya Ali Attestasiya Komitəsi tərəfindən 1992-ci ilin may ayında fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

2004 - hal-hazıra qədər AMEA-nın Radiasiya Problemləri İnstitutu, Radioekologiya laboratoriyası

1994-cü ildə professor elmi adını almışdır.

O, 100-dən artıq çap olunmuş elmi işin, metodik dərs vəsaitlərinin müəllifidir. Onun rəhbərliyi altında doktorluq və namizədlik dissertasiyaları müdafiə olunmuşdur. Öz elmi nəticələrilə Bolqariya, Almaniya, İran, ABŞ, Türkiyə, Yaponiya və Çində keçirilən elmi konfranslarda iştirak etmişdir. 1990-cı ildə altı ay Çində elmi ezamiyyətdə olmuşdur. 1994-95-ci illərdə Ankara universitetində, 1998-ci ildə Berlinin Humbold universitetində mühazirələr oxumuşdur.

Professor MDU-nun və Saarland Universitetinin alimləri ilə birlikdə nanobiotexnologiya sahəsində müasir fiziki-kimyəvi üsullarla (EPR spektroskopiya, Elektron Keçirici Mikroskopları, Polimeraza Zəncir Reaksiyası, fluoressensiya və s.) canlı sistemlər üzərində elmi tədqiqatlar aparır.

Rövşən Xəlilov Beynəlxalq Elektromaqnit Paramaqnit Rezonansı Cəmiyyətinin və biofizika, biokimya, bitkilərin fiziologiyası ilə bağlı dünya elmi cəmiyyətlərinin və Beynəlxalq Energetika Akademiyasının həqiqi üzvüdür.

## Fazil İrəvani
(1817-1888)

İrəvan müsəlman şəhəri olmuş, buradan dünya şöhrətli İslam alimləri çıxmışdır. Onlardan biri də mərhum Ayətullahu'l-uzma Fazil İrəvanidir.



«Fazil İrəvani» ləqəbi ilə şöhrət tapmış Ayətullahu'l-uzma Molla Məhəmməd ibn Məhəmməd Baqir hicri 1817-ci ildə qədim Azərbaycan şəhəri İrəvanda doğulmuşdur. Vətənində ibtidai dini təhsil aldıqdan sonra Məhəmməd daha yüksək səviyyəli bilik əldə etmək məqsədilə İraqa gedir. O, əvvəlcə Kərbəla şəhərinə yola düşərək, təhsilinin birinci mərhələsini burada keçir. Kərbəlada qaldığı 4 il müddətində Fazil İrəvaninin əsas ustadı «Zəvabitu'l-usul» kitabının müəllifi mərhum Seyyid İbrahim Musəvi Qəzvini olmuşdur. Həmin müddət ərzində Fazil İrəvani fiqh və üsuli-fiqh elmlərinin incəliklərinə yiyələnir.

Sonra Fazil öz dövründə cəfəri məzhəbinin elm paytaxtı sayılan Nəcəfi-Əşrəfə köçür və böyük müctəhidlərin dərslərində iştirak edir. Şeyx Həsən Kaşifu'l-Qita, «Cəvahiru'l-kəlam» kitabının müəllifi Şeyx Məhəmməd Həsən İsfahani Nəcəfi və müctəhidlərin şeyxi Mürtəza Ənsari kimi elm nəhəngləri Fazil İrəvaninin səylərini lazımi istiqamətə yönəldərək, onun bacarıqlı müctəhid kimi yetişməsinə köməklik göstərirlər. Tarixçilərin yazdığına görə, Fazil İrəvani təhsilinin son mərhələsində yalnız Şeyx Ənsarinin dərslərində iştirak edirmiş. Uzunmüddətli təhsil və tədqiqatlardan sonra Fazil İrəvani öz ustadları Şeyx Mürtəza Ənsari və Şeyx Məhəmmədhəsən İsfahani Nəcəfidən ictihad icazəsi alır, özünü hərtərəfli müctəhid kimi sübuta yetirərək, Nəcəf elm mərkəzində dərs deməyə başlayır. Fazil İrəvaninin fiqh və üsuli-fiqh dərsləri öz əhatə dairəsinə və tutumuna görə yüksək qiymətləndirilir, çoxlu tələbə cəlb edirdi. Bu böyük şəxsiyyət, sonralar məşhur alim kimi tanınacaq bir neçə müctəhidin yetişməsində əvəzsiz xidmət göstərmişdir. Şimali və Cənubi Azərbaycandan dini təhsil almaq məqsədi ilə Nəcəfə gedən tələbələrin çoxu Fazil İrəvaninin dərslərində iştirak edirdi.

Təqribən 1881-ci ildə Nəcəfin adlı-sanlı alimlərindən olan Ayətullahu'l-uzma Seyyid Hüseyn Kuhkəməri vəfat edir və həmin vaxtdan etibarən Fazil İrəvani mərcəi-təqlid kimi daha da məşhurlaşır. Fazilin həyatını qələmə alan biblioqraflar onu «füru və üsul elmlərini bütöv əhatə edən, mə'qul (ağla və məntiqə əsaslanan) və mənqul (rəvayətə əsaslanan) elmlərin bilicisi» kimi səciyyələndirmişlər. «Reyhanətu'l-ədəb» kitabında onun haqqında yazılıb:

«Şeyx Ənsari və Seyyid Hüseyn Kuhkəmərindən sonra Nəcəf elm hövzəsində tədris və dini rəyasət ona verildi və o, bilik sahiblərinin müraciət mənbəyi oldu. Onun mə'qul və mənqul elmlər sahəsindəki mütəxəssislik və əhatəliliyini heç kim inkar etmirdi. O, Hindistan, İran, Türkiyə, Qafqaz və Rusiyada böyük şöhrətə malik idi və əksər şiələrin mərcəi-təqlidi sayılırdı».

Fazil İrəvani Nəcəf şəhərindəki Şeyx Tusi məscidində camaat namazına imamlıq edirdi. Deyilənlərə görə, bu namazlar həddən artıq izdihamlı keçirmiş.

Bu böyük şəxsiyyət ölçüyəgəlməz dərəcədə dərin dini biliyə malik olmaqla yanaşı, əxlaq və mənəviyyat, iman və təqva baxımından da çox yüksək səviyyədə dururdu. Zahidanə həyat tərzi sürən Fazil İrəvani, ona göndərilən xüms-zəkat pullarını son qəpiyinə kimi dini elmləri öyrənən tələbələrə və başqa şər'i istiqamətlərə sərf edirdi.

Fazil İrəvani İslam maarifini yaymaq yolunda bütün ömrü boyu səylə çalışmış, qiymətli kitablar yazmışdır. Mənbələrdə ona aid edilən 15-ə yaxın kitabın adı çəkilir. Fazil İrəvaninin qələmindən çıxmış aşağıdakı əsərlər daha məşhurdur: «Beyzavi təfsirinə haşiyə», «İctihad və təqlid», «Üsulu'l-fiqh», Şeyx Mürtəza Ənsarinin «Məkasib» və «Rəsail» kitablarına haşiyə, «İstishab» və s.

Fazil İrəvaninin Şeyx Cavad, Şeyx Mahmud və Şeyx Mürtəza adlı oğulları da mükəmməl ruhani təhsili almışlar.

Ömrünü İslam maarifinin çiçəklənməsinə və təbliğinə həsr etmiş Ayətullahu'l-uzma Fazil İrəvani 1888-ci il noyabrın 3-də Nəcəf şəhərində haqqa qovuşmuş və elə orada da dəfn olunmuşdur.

## Hacı Süleyman İrəvani
(XVIII əsr)

Hacı Süleyman ibn Salman Qacar İrəvani XVIII əsrdə yaşamış görkəmli Azərbaycan həkimi və alimidir. 600-dən artıq dərman bitkisi növünü təsvir etmişdir.

Hacı Süleyman Qacar İrəvani Azərbaycanın siyasi və mədəni tarixində mühüm rol oynayan və İrəvan xanlığını idarə edən Qacar türk nəslinin nümayəndəsi idi. O, orta əsrlər zamanı Azərbaycanın məşhur mədəniyyət mərkəzi olmuş İrəvan xanlığının paytaxtı İrəvan şəhərində anadan olmuşdur. Onun fars dilində yazdığı «Fəvaidül-hikmət» («Hikmətin faydası») əsəri nəinki Azərbaycanda, eləcə də Orta Asiyada və İranda böyük şöhrət qazanmışdır. Bu kitab orta əsr əczaçılıq ensiklopediyasıdır və minlərcə dərman bitkisinin, heyvan və mineralın müalicəvi keyfiyyətlərindən bəhs edir. «Fəvaidül-hikmət» əsərinin nadir əlyazma nüsxələri Azərbaycan MEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və eləcə də İran və Misirdə saxlanılır. Bəzi kataloqlarda onun adı "Kitabül-hikmət" ("Hikmət kitabı") kimi də göstərilir. Kitab iki hissədən ibarətdir. Birinci hissədə dərman xassələrinin əlifba sırası ilə siyahısı verilib. İkinci hissə isə orta əsr farmakoloji terminlərinin izahlı lüğətidir. Burada bitki, heyvan və mineralların Azərbaycan, türk, ərəb, fars, yunan, çin, hind və başqa dillərdə adları verilmişdir.

# Əhməd İsgəndərov
(1927-2017)

Əhməd Əhməd oğlu İsgəndərov 1927-ci ildə Bakının Mərdəkan kəndində doğulmuşdur. Tarixçi-şərqşünas. Tarix elmləri doktoru, professor, Rusiya EA-nın müxbir üzvü, Rusiyanın əməkdar elm xadimi. Ümumittifaq Xarici Dillər İnstitutunun yapon dili və MDU-nun fəlsəfə fakültəsini bitirmişdir.



1957-1958-ci illərdə Ə. İsgəndərov SSRİ EA-nın Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi, 1958-1960-cı illərdə "Problemı mira i sosializma" jurnalında məsləhətçi redaktor, şöbə müdirinin müavini, 1960-63-cü illərdə SSRİ EA-nın Asiya Xalqları İnstitutunda böyük elmi işçi, 1963-65-ci illərdə "Problemı mira i sosializma" jurnalında şöbə müdiri, 1965-1969-cu illərdə Sov. İKP MK informasiya şöbəsində məsləhətçi, 1969-70-ci illərdə SSRİ Xarici İşlər Nazirliyində məsləhətçi-ekspert, 1970-1972-ci illərdə SSRİ EA-nın Beynəlxalq Fəhlə Hərəkatı İnstitutunun direktor müavini, 1972-1987-ci illərdə SSRİ EA-nın Ümumi Tarix İnstitutunda baş elmi işçi, direktor müavini, 1987-ci ildən "Voprosı istorii" jurnalının baş redaktoru olmuşdur. Ə. İsgəndərov 100-dən artıq nəşr olunmuş elmi əsərin müəllifidir. Onun işləri dünyanın bir sıra xarici dillərinə tərcümə olunmuşdur.

Əhməd Əhməd oğlu İsgəndərovun əsas elmi işləri: "XVI yüzilliyin feodal Yapon şəhəri", "Afrika, siyasət, iqtisadiyyat, ideologiya", "Toetomi Xideyosi", "Tarix və cəmiyyət", "Portuqaliyanın Yaponiyaya girməsi tarixindən", "Rusiya monarxiyası: islahatlar və inqilab" əsərləridir.

13 oktyabr 2017-ci ildə Moskvada vəfat etmişdir.

## Kərim M. Kərimov
(1933-2020)

Kərim Məmmədxan oğlu Kərimov 1933-cü ildə Ağdamda doğulmuşdur. 1957-ci ildə Azərbaycan Sənaye İnstitutunu dağ mühəndisliyi geofizikası ixtisası üzrə bitirmişdir. Geologiya-mineralogiya elmləri doktoru, professor, Beynəlxalq Energetika Akademiyasının üzvü, Azərbaycan əməkdar elm və texnika xadimi.



İnstitutu bitirdikdən sonra K. M. Kərimov Dərin Neft-Qaz Yataqları Problemləri Elmi-Tədqiqat İnstitutunda kiçik elmi işçi, kəşfiyyat ekspedisiyanın rəhbəri olmuşdur. 1992-ci ildən K. Kərimov Geofizika və Mühəndis Geologiyasi İstehsalat Birliyinin direktoru olmuşdur. K. Kərimov elmi nəticələrə əsaslanaraq yer qabığında seysmik sərhədlərin çoxunu stratifikasiya edərək, əsaslı şəkildə onlara dəyişikliklər etmişdir. Bu işlərdən sonra Kür və Cənubi Xəzər çökəkliyində neftqazdaşıyıcılıq məsələsinə yenidən baxmağa imkan yaratdı. K. Kərimov birmənalı şəkildə sübut etmişdir ki, Azərbaycanda və Xəzərin Azərbaycan hissəsində neft və qaz ehtiyatları 8 milyard tondan artıqdır.

K. Kərimov 350-dən artıq elmi işin, habelə bir sıra monoqrafiyaların, atlas, xəritə və ixtiraların müəllifidir.

K. Kərimov həm də rəssam-karikaturaçı kimi tanınırdı. Onun qələmindən və fırçasından 2500 dən artıq karikatura çıxmışdır. K. Kərimovun siyasi plakatları Bakıda, Moskvada, Sankt-Peterburqda, İstanbulda sərgilərdə nümayiş etdirilmişdir.

Kərim Məmmədxan oğlu Kərimov dünyanın bir sıra ölkələrinin geologiya və geofizika cəmiyyətlərinin üzvü, Azərbaycan Milli Geofizika Cəmiyyətinin prezidenti olomuşdur.

Kərim Kərimov 15 aprel 2020-ci ildə vəfat etmişdir.

**Mahmud Kərimov**
(1948-2013)

Kərimov Mahmud Kərim oğlu 1948-ci ildə doğulmuşdur. Fizika-riyaziyyat elmləri doktoru, professor, AMEA-nın akademikidir. 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir. 1973-cü ildən Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda, 1974-cü ildən Radiasiya Tədqiqatları Sektorunda, 1984-cü ildən isə həmin sektorun direktoru işləmişdir.



Professor M. Kərimovun molekulyar bərk cisimlər əsasında informasiya çeviriciləri fizikasının inkişafı ilə bağlı elementar elektron və molekulyar proseslərin yeni elmi əsaslarının yaradılmasında və həmçinin molekulyar elektronika və informatika sahəsindəki aktual istiqamətlərin formalaşmasında xidmətləri var. Onun tərəfindən ilk dəfə olaraq yüksəkmolekulyar sistemlərdə güclü elektrik və maqnit sahəsinin təsiri ilə baş verən elementar elektron və molekulyar proseslər, elektrik və fotoelektrik keçiriciliyinin maqnit spin effektləri tədqiq edilmişdir ki, bu da öz növbəsində materialların xassələrinin elektrik və maqnit sahəsi ilə idarə edilməsinə yollar açmışdır və makromolekulların informasiya yaddaşı və çevrilməsi mexanizmlərini aydınlaşdırmışdır. M. K. Kərimov 100-dən artıq elmi əsərin və ixtiraların müəllifidir ki, onların böyük əksər çoxluğu keçmiş SSRİ, Rusiya və xarici elmi jurnallarda nəşr edilmişdir. O, müntəzəm olaraq elmi konfranslarda, simpoziumlarda və seminarlarda iştirak edir.

M. K Kərimov həmçinin bir sıra elmi forumların təşkilatçılarından biri olmuşdur. MDB ölkələri üzrə Atom Enerjisinin Sülh Məqsədi ilə İstifadəsi Komissiyasında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsidir. 1999-cu ildə isə "Atom Enerjisindən Sülh Məqsədləri üçün İstifadə üzrə" Türkdilli Dövlətlərin Komitəsinin üzvü seçilmişdir. O, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Azərbaycandakı bəzi proqramlarının milli koordinatorudur. Hazırda AMEA-nın prezidentidir.

Akademik Mahmud Kərimov Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeninə layiq görülüb.

Mahmud Kərimov 10 fevral 2013-cü ildə ürək tutmasından dünyasını dəyişib.

I Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Tofiq Köçərli**
(1929-2007)



Tofiq Qasım oğlu Köçərli 1929-cu il fevralın 11-də Gədəbəy rayonunun İsalı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ali təhsilini 1945-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində almışdır. Əmək fəaliyyətinə 1950-1951-ci illərdə Quba Müəllimlər İnstitutunda müəllim kimi başlayan Tofiq Köçərli 1952-1953-cü illərdə Ağdam Müəllimlər İnstitutunda kafedra müdiri, 1953-1956-cı illərdə Həsən bəy Zərdabi adına Gəncə Pedaqoji İnstitutunda müəllim, baş müəllim və dosent işləmişdir. Tofiq Köçərli 1957-1965-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi yanında Partiya Tarixi İnstitutunda baş elmi işçi, 1965-1972-ci illərdə Bakı Ali Partiya Məktəbinin kafedra müdiri, 1972-1990-cı illərdə rektoru, 1990-1991-ci illərdə isə professoru olmuşdur. O, 1993-2001-ci illərdə Azərbaycan Elmlər Akademiyasının İctimai-Siyasi Tədqiqatlar İnstitutunun elmi işçisi, 2002-ci ildən ömrünün sonunadək Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi vəzifəsini tutmuşdur.

O, 1981-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir.

Tofiq Köçərli müasir Azərbaycan tarixinin aktual problemlərinin araşdırılması ilə ardıcıl məşğul olmuş, bu sahədə bir çox kitab və monoqrafiyanın, 120-dən çox məqalənin müəllifi kimi tanınmışdır. Azərbaycan tarixşünaslığına töhfələr verən alimin əsərləri ölkəmizdə, eləcə də onun sərhədlərindən kənarda elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin təşkili və fəaliyyətinin öyrənilməsi, Naxçıvanın və Qarabağın tarixinin ən mühüm məsələlərinin tədqiqi onun əsas elmi nailiyyətləri sırasındadır.

Tofiq Köçərli tarix və siyasi elmlər sahəsində fəaliyyəti ilə yanaşı, dövlət idarəçiliyi üzrə yüksək ixtisaslı kadrların hazırlanması işində də uzun illər səmərəli xidmət göstərmişdir.

Köçərli Tofiq Qasım oğlu Azərbaycan Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

T. Q. Köçərlinin qardaşı Firudin Köçərli (1920-2005) filosof-alim, fəlsəfə elmləri doktoru, Azərbaycan MEA-nın akademiki olmuşdur.

Tofiq Köçərli 31 Oktyabr 2007-ci ildə Bakı şəhərində vəfat etmişdir.

**Xalıq Koroğlu**
(1919-2002)

Xalıq Hüseyn oğlu Koroğlu 1919-cu ildə Cənubi Azərbaycanın Sərab şəhərindən Türkmənistanın Aşqabad şəhərinə gedən yolda doğulmuşdur. Filoloq-alim, ədəbiyyatçı. Filoloji elmlər doktoru, professor. 1946-cı ildə Moskva tibb institutunu bitirmişdir. 1956-cı ildə MDU-nun filologiya fakültəsini bitirmişdir.

1944-48-ci illərdə X. Koroğlu Moskva Şərqşünaslıq İnstitutunda, 1948-58-ci illərdə Moskva Xarici Ticarət İnstitutunda dərs demişdir. 1958-71-ci illərdə Böyük Sovet Ensiklopediyasında xarici şərq ədəbiyyatı şöbəsinin müdiri, 1971-86-cı illərdə SSRİ EA-nın Dünya Ədəbiyyatı İnstitutunda baş elmi işçi, 1986-cı ildən MDU-nun filologiya fakültəsinin professoru.

Mətbuatda 1946-cı ildən çap olunur. 150-dən artıq elmi əsərin müəllifidir. İlk kitabı "Fars-rus, rus-fars ümumiqtisadi və xarici ticarət lüğəti" 1957-ci ildə çap olunmuşdur. Orta və ali məktəblər üçün "Uzbekskaya literatura", "Turkmenskaya literatura" dərsliklərinin, "Oğuz qəhrəmanlıq eposu", "Eposun orta Asiya, İran və Azərbaycan xalqları ilə əlaqəsi", "Müasir fars ədəbiyyatı" monoqrafiyalarının və bir sıra başqa ədəbiyyatşünaslıq əsərlərinin müəllifidir. "Quran" və "İncil" əsasında, şamançılıqdan islama qədər (altı dindən) bəhs etdiyi "Ruhani mədəniyyət və bədii ədəbiyyat" mühazirələr silsiləsi dinləyicilərdə xüsusi maraq yaratmışdır.

Koroğlu Xalıq Hüseyn oğlu MDU-nun əməkdar professoru fəxri adını daşıyırdı. O, beynəlxalq türk akademiyasının üzvü, Əl Buxari adına beynəlxalq mükafatın laureatı olmuşdur.

## Qulamrza Səbri Təbrizi
(1934-2020)

1934-cü ildə Təbrizdə doğulmuşdur. Filologiya elmləri doktoru, professor. Təbriz Universitetinin dil və ədəbiyyat fakültəsini bitirmişdir. 1960-cı ildə İngiltərənin Edinburq Universitetində magistr dərəcəsini almışdır.



S. T. Qulamrza 1969-cu ildə Edinburq Universitetində doktorluq dissertasiyası müdafiə edərək "Orta Asiya, İran və Azərbaycan xalqlarının ədəbiyyatı" kafedrasında professor olmuşdur. O çoxsaylı elmi publisistik əsərlərin müəllifi, habelə "Vilyam Bleykin dialektik düşüncələri" (Tanınmış ingilis şairi, rəssam, ədəbiyyatçı, filosof) monoqrafiyasının və "İranlı oğlan və kişinin sərgüzəştləri" adlı povestinin müəllifidir. Nizaminin "Leyli və Məcnun", Xaqaninin "Mədain xərabələri" əsərlərini ingilis dilinə tərcümə etmişdir.

80-ci illərin sonlarında Qulamrza Səbri Təbrizi Azərbaycan və fars dillərində "Odlar ölkəsi" adlı aylıq qəzet çap etdirmişdir.

Qulamrza Səbri Təbrizi 2020-ci il martın 8-də Bakıda vəfat edib.

## Valeh Quliyev
(1943-2018)

Valeh Cəfər oğlu Quliyev 1943-cü ildə Salyan rayonunun Şorsulu qəsəbəsində doğulmuşdur.



Fizika-riyaziyyat elmləri doktoru, professor. Beynəlxalq Mineral Resurslar və Çuvaşiya Mühəndis Texniki Akademiyalarının akademiki, SSRİ Nazirlər Sovetinin mükafatı laureatı. 1969-cu ildə ADU-nun mexanika-riyaziyyat fakültəsini bitirmiş, MDU-nun aspiranturasında oxumuş, Moskva Aviasiya İnstitutunda böyük elmi işçi, bölmə müdiri olmuşdur.

Valeh Quliyev Moskva Avrasiya İnstitutunda böyük elmi işçi, daha sonra bölmə müdiri vəzifəsində çalışıb. Eyni zamanda 1979-1989-cu illərdə Azərbaycan Elmlər Akademiyası Elmi-Tədqiqat Mexanika və Riyaziyyat İnstitutunda xüsusi konstruktor bürosuna rəhbərlik edib. 1980-ci ildə Moskva Dövlət Universitetinin elmi şurasında "Möhkəmlik mexanikasının bəzi tətbiqi və nəzəri problemləri" mövzusunda disertassiya müdafiə edərək elmlər doktoru, 1987-ci ildə isə professor adını alıb. O, Moskva Dövlət Açıq Universitetində ali riyaziyyat kafedrasının müdiri, 1998-ci ildən tətbiqi riyaziyyat kafedrasının müdiri və Moskva Dövlət Açıq Universitetin filial direktoru kimi vəzifələrdə çalışıb. 1996-cı ildə Çuvaşiya Respublikası Mühəndis Texnologiyası Akademiyasının həqiqi üzvü, akademiki seçilib.

2005-ci ildə kosmonavtika sahəsində xidmətlərinə görə Valeh Quliyevə general-mayor rütbəsi verilib. O, "Kosmik texnikanın əməkdar sınaqçısı", "Kosmonovtika veteranı" fəxri adlarına, 1-ci dərəcəli Böyük Pyotr, 3-cü dərəcəli "Vətənin müdafiəsi"nə görə orden və medallara layiq görülüb.

Onun redaktorluğu altında 30-dan çox elmi-metodoloji vəsait nəşr olunub. O, Rusiyada öz geniş riyaziyyat və məktəbini yaratmışdır. Onun rəhbərliyi ilə 5 fizika-riyaziyyat və texniki elmlər doktoru, həmçinin 11 elmlər namizədi hazırlanmışdır.

V.Quliyev 175 elmi əsərin, 7 dərsliyin, 2 monoqrafiyanın məllifidir.

5 yanvar 2018-ci ildə Moskvada vəfat etmişdir.

**Rafiq Qurbanov**
(1937-2004)

Rafiq Osman oğlu Qurbanov 1937-ci ildə Bakıda doğulmuşdur. Fəlsəfə, elm və texnika sahəsində alim, fəlsəfə elmləri doktoru, professor. Orta və ali təhsilini Bakıda almışdır. 1960-cı ildə ADU-nun fizika fakültəsini bitirmişdir. Şair Osman Sarıvəllinin oğludur.



1960-61-ci illərdə R. Qurbanov Azərbaycan EA-nın kimya institutunda kiçik elmi işçi, 1961-64-cü illərdə SSRİ EA-nın təbiət elmləri şöbəsində fəlsəfə bölməsinin aspirantı olmuşdur. 1964-69-cu illərdə R. Qurbanov Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi, 1970-99-cu illərdə SSRİ EA-nın (REA) Fəlsəfə İnstitutunda işləmiş, 1972-99-cu illərdə müəllimlik etmişdir. 1994-96-cı illərdə R. O. Qurbanov Türkiyədə olmuş, Bursanın Uludağ universitetində elmin fəlsəfəsi, fəlsəfə tarixi, tarixin fəlsəfəsi, ədəbiyyatın fəlsəfəsi, dövlət və cəmiyyət mövzularında mühazirələr oxumuşdur. R O. Qurbanov 200-dən artıq elmi işin, habelə xarici və daxili mətbuatda yüksək qiymətləndirilmiş "Fizikada fəlsəfi əlaqələr kateqoriyası" monoqrafiyasının müəllifidir.

Qurbanov Rafiq Osman oğlu hərtərəfli inkişaf etmiş, fitri istedada malik olmuş, xarici müəlliflərin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Azərbaycanlıların Rusiyada Milli-Mədəni Muxtariyyəti Federal Şurasının üzvü olmuşdur.

R. Qurbanovun oğlu 1967-ci ildə doğulmuş Ercan Rafiq oğlu Qurbanov sosiologiya doktoru, Merlin Universitetinin professorudur. ABŞ-da yaşayır.

Rafiq Qurbanov 7 dekabr 2004-cü ildə Moskvada vəfat etmişdir.

**Lütfi Zadə**
(1921-2017)

Lütfi Ələsgərzadə

Lütfi Zadə 4 fevral 1921-ci ildə Bakı şəhərində juranlist Rəhim Ələsgərzadə və pediatr Faniya Korimanın ailəsində dünyaya gələn görkəmli alim 10 yaşınadək Bakıda yaşamışdır. 1931-ci ildə Lütfi Zadənin ailəsi İrana köçmüşdür. Tehranda elektrik mühəndisliyi üzrə dərəcə alan Lütfi Zadə 1944-cü ildə ali təhsilini davam etdirmək üçün Birləşmiş Ştatlara getmişdir.



L. Zadə 1944-cü ildən 1959-cu ilə qədər Massaçusets Texnologiya İnstitutunda (ABŞ) və Kolumbiya Universitetlərində magistr, doktorluq elmi dərəcələrini almışdır.1959-cu ildən Berkli Universitetində professor, 1963-cü ildən isə "Elektrik mühəndisliyi və kompüter elmləri" kafedrasına rəhbərlik etmişdir. Hal-hazırda prof. L.Zadə həmin universitetdə ömürlük professor və Soft Computing İnstitutunun direktoru kimi fəaliyyət göstərir.

L.Zadə 5 fundamental elmi nəzəriyyə təklif etmişdir. ABŞ-ın Berkli şəhərində İnformasiya Texnologiyası üzrə Zadə İnstitutu yaradılmışdır (ZIFIT İnstitutu).

L.Zadənin elmdə Z-çevirmə kimi tanınan işi diskret və rəqəmli idarəetmə, informasiya və kommunikasiya sistemlərinin yaradılmasının əsasını qoymuş bir elmi nəzəriyyədir.

Onun məşhur vəziyyətlər fəzası, dinamik sistemlərin idarəolunma və müşahidəolunma nəzəriyyələri müasir idarəetmə elminin əsasını təşkil edir. ABŞ-ın Milli Kosmik Tədqiqatlar Mərkəzi (NASA) bu nəzəriyyələr əsasında idarəetmə sistemlərini tədqiq edir, layihələndirir və tətbiq edir.

L.Zadənin ən böyük nəzəriyyəsi qeyri-səlis məntiq nəzəriyyəsidir. Bu nəzəriyyə riyaziyyatın əsası olan ikili çoxluq anlayışına yeni ifadə vermişdir: qeyri-səlis çoxluq. Elmdə qeyri-səlis ölçünün daxil edilməsi təbiətdə və cəmiyyətdə gedən proseslərin qeyri-müəyyənliyini daha adekvat nəzərə almağa imkan yaratdı.

Alimin Soft Computing nəzəriyyəsi qeyri-səlis məntiq, süni neyron şəbəkələri, genetik alqoritmlər, xaos nəzəriyyəsi və ehtimal nəticəçıxarma paradiqmilərinin intellektual kombinasiyalarını özündə əks etdirərək yeni texnologiyaların əsasını təşkil edir. L.Zadənin sözlə işləyən kompüterlər nəzəriyyəsi əsasında işləyən kompüterlərdə informasiyanın qranulyasiyası kimi sözlər, cümlələr istifadə olunur. Bu tip kompüterlər təxmini məntiqi nəticə çıxarma qabiliyyətinə malik olan və təəssürat əsasında informasiyanı işləyə bilən insan beyninə ən adekvat texniki modeldir. Onun təəsürat nəzəriyyəsi dəqiq ölçmə aparmadan ətraf aləm haqqında tez və dolğun informasiya almaq üsullarını verir. Bu nəzəriyyənin məqsədi insanda mövcuda oxşar sün'i təəssürat sistemini yaratmağın prinsip və üsullarını verməkdir.

Qeyri-səlis məntiq, idarəetmə və Soft Computing sahəsində 54 beynəlxalq jurnalın elmi redaktoru və ya redaksiya heyətinin üzvü olan L. Zadə dünyada əsərlərinə ən çox istinad edilən alim sayılır. Təkcə 1990-2000-ci illərdə onun əsərlərinə 36000-dən çox istinad edilmişdir.

L.Zadə bir çox xarici ölkə akademiyalarının üzvüdür. O, çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülmüş, medallarla təltif edilmişdir. Onlarla xarici dövlət və ictimai təşkilatların fəxri doktorudur.

Lütfi Zadə AMEA-nın fəxri üzvü seçilmişdir.

Azərbaycan prezidenti İlham Əliyev 2008-ci il noyabrın 10-da “Bakutel-2008” XIV Azərbaycan beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan dünya şöhrətli həmyerlimiz Lütfi Zadəni qəbul etmişdir.

Elm və texnologiyaların inkişafına verdiyi töhfələrlə mədəniyyətlərarası dialoqun qurulmasında göstərdiyi görkəmli xidmətlərinə görə Lütfi Zadə 7 fevral 2011-ci ildə Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə “Dostluq” ordeni ilə təltif edilmişdir.

Lütfi Zadə 6 sentyabr 2017-ci ildə ABŞ-ın Kaliforniya ştatında 97 yaşında dünyasını dəyişmişdir. Sentyabrın 29-da Bakıdakı I Fəxri Xiyabanda dəfn edilmişdir.

**Arif Mehdiyev**
(1934-2016)

Arif Şəfaət oğlu Mehdiyev 1934-cü ildə Bakı şəhərində anadan olmuşdur. Moskvada Rabitə Elektrotexnika İnstitutunu bitirmişdir. Fizika-riyaziyyat elmləri doktoru, professor, Azərbaycan EA-nın həqiqi üzv olmuşdur. 140-dan artıq çap olunmuş elmi işin müəllifidir. 85 əsəri xaricdə çap olunmuşdur. 19 müəlliflik şəhadətnaməsi, 11 patenti var. Yerin kosmosdan tədqiqinin texniki vasitələrinin işlənib



hazırlanmasının elmi prinsiplərini müəyyənləşdirmişdir. Yaratdığı avtomatlaşdırılmış yerüstü məlumat ölçü kompleksləri Yerin peykaltı tədqiqinin elmi-texniki bazasının təminatlılığını təşkil edir.

Arif Mehdiyev 1973-cü ildən etibarən Azərbaycan Elmlər Akademiyasının sonralar Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutuna çevrilmiş "Xəzər" Elmi Mərkəzində elmi işlər üzrə direktor müavini vəzifəsində işləməyə başlamışdır. 1979-cu ildə o, həmin Mərkəzin əsasında yaradılmış Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutunda baş direktorun birinci müavini vəzifəsinə keçirilmişdir. Arif Mehdiyev Birliyin bazasında yaradılmış Azərbaycan Milli Aerokosmik Agentliyinin ilk baş direktoru olmuşdur.

Sualtı obyektlərin, boru kəmərlərinin və kommunikasiyaların aşkar edilməsi və vəziyyətinə nəzarət edən avtonom hidroakustik informasiya sisteminin yaradılması və istifadəyə verilməsinə görə 1990-cı ildə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüşdür.

Arif Mehdiyev 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti seçilmişdir. 2002-ci ildən etibarən ömrünün sonunadək o, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri vəzifəsində çalışmışdır.

Akademik Arif Mehdiyev 19 dekabr 2016-cı ildə 82 yaşında Bakıda dünyasını dəyişmişdir. İkinci Fəxri xiyabanda dəfn edilmişdir.

**İren Melikoff**
(1917-2009)

1917-ci ildə Peterburqda doğulmuşdur. Ailəsilə birlikdə Fransaya köçmüşdür. Atası azərbaycanlı, anası rusdur. Filologiya elmləri doktoru, professor. Parisdə ingilis dilində litsey bitirmişdir. Sorbonna Universitetində təhsil almaqla eyni zamanda, Şərq Dilləri İnstitutunda oxumuş, ərəb, fars və türk dillərini öyrənmişdir.




1940-cı ildə universiteti bitirdikdən sonra İ. Melikoff yeddi il Türkiyədə ərinin vətənində yaşamış qızlarını böyütmüşdür. 1947-ci ildə Fransaya qayıdaraq "Orta əsrlər Türkiyə eposları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və Strasburq Universitetində professor yeri almışdır. Onun elmi maraq dairəsi çox əhatəlidir. O, 400-ə qədər elmi işin müəllifidir. "Koroğlu", "Umur paşa", "Məlik Danişmənd", "Seyid Batddal", Babək hərəkatı, Qızılbaşlar tarixi, Əbu Hüseyn Xorasaninin yaradıcılığı, Xətai, M. F. Axundov və bir sıra başqa monoqrafiyaların və ədəbiyyatşünaslıq tədqiqatlarının müəllifidir. İ. Melikoffun səyi nəticəsində Strasburq universitetində türk şöbəsi yaradılmış, tezliklə İren xanımın direktor olduğu elmi-tədqiqat institutuna çevrilmişdir. Bu institutda Azərbaycan mədəniyyətini öyrənən mərkəz yaradılmışdır. 1966-cı ildə İ. Melikoff "Türkika" adlı jurnal nəşr edərək burada fransız oxucularını türk xalqlarının tarixi, ədəbiyyatı və mədəniyyəti ilə tanış edir. Bu jurnalda Anarın, Çingiz Hüseynovun, Sara Aşurbəylinin, Tofiq Məlikovun və bir sıra başqa azərbaycanlı müəlliflərin əsərləri çap olunmuşdur.

Azərbaycan həqiqətlərinin yorulmaz təbliğatçısı, görkəmli türkoloq alim İren Melikoff 2009-cu ildə ömrünün 92-ci ilində vəfat etmişdir.

Melikoff İren xanım Fransa və Azərbaycan mədəniyyət əlaqələri mərkəzinin sədri olmuşdur. İren xanımın üç qızından biri Səyyar Şirin bu cəmiyyətin katibidir. Böyük qızı Bilqeyis filoloji elmlər doktoru, Strasburq universitetinin professorudur, burada rus dilindən mühazirələr oxuyur.

İrenn xanımın digər qızı Şirin «Əfsanədən operaya. Sovet Azərbaycanında Koroğlu mövzusunun təkamülü» adlı monoqrafiya yazmışdır. Paris Şərq Dilləri Milli İnstitutu tərəfindən nəşr edilən bu monoqrafiyanın rus dilinə tərcüməsi 1985-ci ildə Bakıda çap olunmuşdur.

**Tofiq Məlikov**
(1942)

Tofiq Davud oğlu Məlikov 31 avqust 1942-ci ildə Şəmkirdə doğulmuşdur. Filologiya elmləri doktoru, professor. 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir.



T. Məlikov 1966-91-ci illərdə SSRİ EA-nın Şərqşünaslıq İnstitutunda elmi işçi, 1992-94-cü illərdə İstanbul Universitetinin rus dili və ədəbiyyatı kafedrasına rəhbərlik etmiş, eyni zamanda Boğaziçi Universitetində Azərbaycan dili və ədəbiyyatından dərs demişdir. 1995-ci ildən T. Məlikov Moskva Dövlət Dilçilik İnstitutunda şərq dilləri kafedrasının müdiridir. O, eyni zamanda REA-nın Dünya Ədəbiyyatı İnstitutunda elmi işçi işləmişdir. T. Məlikovun elmi maraq dairəsi - türk xalqlarının dili, ədəbiyyatı və mədəniyyəti təşkil edir. O, yüzdən artıq nəşr olunmuş elmi işin, habelə dörd monoqrafiyanın müəllifidir. T. Məlikov 1988-ci ildə Moskvada azərbaycanlıları birləşdirmək, onlara və doğma xalqına kömək etmək məqsədilə "Ocaq" cəmiyyəti yaradaraq onun sədri olmuşdur. 90-cı illərdə rus qoşunları Bakının dinc əhalisini qanına qəltan edəndə "Ocağ"ın üzvlərini bir yerə toplamış, birlikdə Moskvada yaşayan azərbaycanlıları və Azərbaycanın dostlarını öz xalqının müdafiəsinə qaldırmışdı.

Tofiq Davud oğlu Məlikov Rusiya Türkoloqları Komitəsi sədrinin müavini, “Türkologiya” jurnalının redaksiya şurasının üzvüdür.

1991-ci ildən Beynəlxalq Türkoloji və Mədəniyyət Fondunun vitse-prezidentidir. 2011-ci ildən Azərbaycanın Əməkdar elm xadimidir. O, həmçinin Azərbaycan Yazıçılar Birliyinin Moskva şöbəsinin və “Ocaq” Cəmiyyətinin rəhbəri, Rusiya türkoloqları komitəsi sədrinin müavinidir. 2003-cü il oktyabr ayının 25-də Moskvada Azərbaycan Yazıçılar Birliyinin Moskva Bölməsi yaranarkən bölmənin sədri seçilmişdir.

**Arif Məmməd**
(1904-1975)

Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə 1904-cü ildə Bakıda doğulmuşdur. Ədəbiyyatçı, publisist, ictimai xadimdir. Filoloji elmlər doktoru, professordur. Azərbaycan EA-nın akademiki, əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı olmuşdur. 1930-cu ildə ADU-nu bitirmişdir.



1939-59-cu illərdə - xalq maarif komissarının müavini, ADU-da kafedra müdiri, Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun direktoru. 1923-cü ildən çap olunmağa başlamışdır. "Cəfər Cabbarlının yaradıcılıq yolu", "Səməd Vurğunun dramaturgiyası" monoqrafiyalarının, "Vladimir Mayakovski", "Vissarion Belinski", "Krılov və Azərbaycan ədəbiyyatı" kitablarının, ali məktəblərin filoloji fakültələri üçün "Azərbaycan ədəbiyyatı" dərs vəsaitinin müəllifidir. "Azərbaycan ədəbiyyatı tarixi" kitabının redaktoru və müəlliflərindən biridir. Ç. Bexer, Evripid, Servantes, Remark, N. Qoqol, L. Tolstoy, A. Çexov və bir sıra başqa müəlliflərin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Məmməd Arifin əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur.

Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə (Məmməd Arif) Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, Ali Sovetin sədri olmuşdur. Orden və medallarla təltif olunmuşdur. Kitabxanalardan biri onun adını daşıyır.

1975-ci ildə Bakıda vəfat etmişdir.

## Yusif Məmmədəliyev
(1905-1961)

Yusif Heydər oğlu Məmmədəliyev 1905-ci ildə Ordubad şəhərində doğulmuşdur. Kimya elmləri doktoru, professor, Azərbaycan EA-nın akademiki, SSRİ EA-nın müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı olmuşdur. 1926-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir.



Ali məktəbi bitirdikdən sonra Y. Məmmədəliyev Gəncə Pedaqoji Texnikumunda və İrəvan Pedaqoji İnstitutunda müəllim işləmişdir. 1932-33-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda, 1933-45-ci illərdə Elmi-Tədqiqat Neftayırma İnstitutunda işləmişdir. 1945-51-ci illərdə bu institutun direktoru olmuşdur. 1951-54-cü illərdə Y. Məmmədəliyev Azərbaycan EA-nın fizika, kimya və neft bölməsinin elmi katibi olmuşdur. 1954-58-ci illərdə ADU-nun rektoru, 1958-61-ci illərdə Azərbaycan EA-nın prezidenti olur. Onun elmi işləri əsasən kimya, neft və təbii qazın emalına, problemlərinə həsr olunmuşdur. O, reaktiv mühərriklər üçün yeni növ yanacaq yaratmışdır. "Azərbaycanın təbii qazı və onun kimyada tətbiqi", "Alkilləşdirmə və dealkelləşdirmə yolu ilə aromatik karbohidratlardan toluolun sintezi", "Azərbaycanda elmin inkişafı" və bir sıra elmi əsrlərin müəllifidir.

Yusif Heydər oğlu Məmmədəliyev Azərbaycan və SSRİ Ali Sovetlərinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

1961-ci ildə Bakıda vəfat etmişdir.

Azərbaycan EA-nın elmi tədqiqat Neft-Kimya Prosesləri İnstitutu, Ordubad ipəkçilik kombinatı, Bakı küçələrindən biri onun adını daşıyır. Azərbaycanın paytaxtında və Ordubadda ona abidə qoyulmuş, Ordubadda ev-muzeyi açılmışdır.

**Xudu Məmmədov**
(1927-1988)

Xudu Surxay oğlu Məmmədov 14 dekabr 1927-ci ildə Ağdam rayonunun Mərzili kəndində anadan olmuşdur. Azərbaycan kristalloqrafı. Geologiya-mineralogiya elmləri doktoru. (1970), professor (1973), Azərbaycan Elmlər Akademiyası müxbir üzvü (1976). Xudu Surxay oğlu Məmmədov 1946-cı ildə Azərbaycan Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsinə daxil olub. 1957-ci ildən Azərbaycan Elmlər Akademiyası Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun struktur kimya laboratoriyasının müdiridir. Əsas elmi işləri kristallokimya sahəsinə aiddir.



Silikat birləşmələrindən bir çoxunun quruluşunu müəyyənləşdirmiş, həmin birləşmələr sinfi ilə boratlar, karbonatlar, yarımkeçiricilər və s. arasında kristallokimyəvi qohumluq olmasını aşkara çıxarmış, 50-dən çox üzvi liqandlı kompleks birləşmənin molekul və kristall quruluşunu öyrənmiş, tədqiqatlarında elektronoqrafiya, rentgen-spektral analiz və hidrotermal sintez üsullarından geniş istifadə etmişdir. Yüksəkixtisaslı elmi kadrlar hazırlanmasında xidməti var. «Şərəf nişanı» ordeni və medallarla təltif edilmişdir.

15 oktyabr 1988-ci ildə Bakıda vəfat etmişdir.

## Mirəsədulla Mirqasımov
(1883-1958)

Mirəsədulla Mirələsgər oğlu Mirqasimov 1883-cü ildə Bakıda doğulmuşdur. Alim, cərrah, tibb elmləri doktoru, professor, Azərbaycan EA-nın akademiki. Azərbaycanın əməkdar elm xadimi. 1913-cü ildə Novorosiysk (Odessa) Universitetinin tibb fakültəsini bitirmişdir.



1913-16-cı illərdə M. Mirqasımov Odessada həkim olmuş, 1916-19-cu illərdə Bakıda hərbi hospitalda həkim-cərrah işləmişdir. 1919-29-cu illərdə ADU-nun tibb fakültəsinin dosenti, 1929-58-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun hospital-cərrahiyyə fakültəsinin professoru, kafedra müdiri olmuşdur. 1945-47-ci illərdə M. Mirqasımov Azərbaycan EA-nın ilk prezidenti seçilmişdir. O, tibb sahəsində böyük alim olmuş, ümumi cərrahiyyə, öd yollarının cərrahiyyəsi, urologiya, qarın boşluğu və torokal cərrahiyyə, sidik daşı xəstəliyinin etiologiyası sahəsində elmi tədqiqatlar aparmışdır. Operativ müalicənin bir sıra diaqnostik metodlarını təklif etmişdir. M. Mirqasımov 1933-cü ildə ana dilində çap olunmuş ilk ümumi cərrahiyyənin qısa kursu kitabının müəllifidir. O, ümumdünya Cərrahlar Assosiasiyasının həqiqi üzvü olmuş, "Azərbaycanda böyrək daşı xəstəliyinin öyrənilməsi materialları", "Qarın boşluğu cərrahiyyəsi" (iki kitabda), "Ölkənin müdafiəsində cərrahiyyənin rolu" kimi çox dəyərli elmi monoqrafiyaların elmi məqalələrin müəllifi olmuş və bu materialları Azərbaycan dilində çap etdirmişdir.

Mirəsədulla Mirələsgər oğlu Mirqasımov dəfələrlə SSRİ Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1958-ci ildə Bakıda vəfat etmişdir. Bakıdakı Respublika xəstəxanası və küçələrdən biri onun adını daşıyır.

M. M. Mirqasımovun oğlu Rüfət Mirəsədulla oğlu Mirqasımov fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki, Moskvanın Dubna Atom Mərkəzində aparıcı elmi işçilərdən biridir. 70-dən çox əsərin və monoqrafiyaların müəllifidir.

**Mirzə Kazım bəy**
(1802-1870)



1802-ci il iyunun 22-də Cənubi Azərbaycanın Rəşt şəhərində dünyaya göz açıb. Peterburq universitetinin fəxri doktoru, professor. Peterburq EA-nın akademiki. Şərqşünas-alim. Elmə görə üç dəfə Demidov mükafatının laureatı.Mirzə Kazım bəy hələ uşaq olarkən, ailəsi Dərbəndə köçüb. Və o, 8 yaşından etibarən, Dərbənddə yaşayıb. İlk təhsilini atasından alan Mirzə Kazım bəy 1821-ci ildə Həştərxana gedib. Öncə ərəb, fars, müxtəlif türk dillərini, sonralar rus, alman, ingilis və franısız dillərini öyrənib. Bu dillərin hamısında da yazmış və nəşr olunmuşdur.

O, Həştərxanda şotland missionerlərindən ingilis dilini öyrənərək xristianlığı qəbul etmişdi. 1826-49-cu illərdə Kazan Universitetində şərq dillərindən dərs demişdir. 1949-cu ildən ömrünün sonuna qədər Peterburq Universitetinin professoru olmuşdur. Rus şərqşünaslığının banilərindən biridir. O burada şərq dilləri fakültəsi yaradaraq onun ilk dekanı olmuşdur. Akademik V. Bartold yazırdı ki, "Senkovskiy və Kazım bəy özlərinin mühazirələrilə rus şərqşünaslığını yaratdılar. Bütün sonrakı rus oriyentalistləri bu iki alimin tələbələri və ya tələbələrinin tələbəsi olmuşlar". Kazım bəy "Peterburq Universitetinin "Əməkdar professoru", İngiltərə, Fransa, Hollandiya, ABŞ və dünyanın bir sıra başqa ölkələrinin şərqşünaslıq cəmiyyətlərinin üzvü olmuşdur. O, altı dildə yazırdı. "Müxtəsərül vikayət və ya qısa vikayət Müsəlman şəriəti kursu", "İslam tarixi" "Müridizm və Şamil", "Bab və babilər", "Dərbəndnamə", "Türk-tatar dillərinin ümumi qrammatikası" və onlarla başqa əsərlərin müəllifi olmuşdur. Kazım bəy Mirzə Məhəmməd Əli Hacı Qasım oğlu Rus imperiyasının bir çox ordenləri ilə təltif olunmuşdur.

Mirzə Kazım bəy 1870-ci ildə Peterburqda vəfat etmişdir.

**Azad Mirzəcanzadə**
(1928-2006)

1928-ci ildə Bakıda doğulmuşdur. Neftçi alim, texnika elmləri doktoru, professor, Azərbaycan EA-nın akademiki, əməkdar elm xadimi Azərbaycan Dövlət mükafatı laureatı. 1949-cu ildə Azərbaycan Sənaye İnstitutunun neft sənayesi fakültəsini bitirmişdir.



1948-ci ildə əmək fəaliyyətinə baş laborant kimi başlayan A. Mirzəcanzadə müasir dövrün ən görkəmli neft alimi, Azərbaycan EA-nın akademiki, Nazirlər Kabineti nəzdində Elm Və Texnika Komitəsinin sədri vəzifəsinə qədər yüksəlmişdir. A. Mirzəcanzadənin elmi fəaliyyəti neft sahəsində olan bütün elmləri əhatə edir, onun elmi tədqiqatlarının xarakterik cəhətlərindən biri, neft sənayesinin əməli tələblərilə sıx əlaqədə olub, sahənin perspektiv və aktual problemlərinin fanatikcəsinə həllidir. A. Mirzəcanzadənin rəhbərliyi altında, neft və qazın istehsalında qeyri-bərabər proseslərdə, fiziki sahələrin geterogen sistemlərin hidravlik xüsusiyyətlərinə təsiri öyrənilir. Onun təşəbbüsü ilə neft və qaz sənayesinin kəşfiyyatdan qazın nəqlinədək olan bütün sahələrdə riyazi eksperiment nəzəriyyəsi geniş tətbiq olunmağa başlamışdır. A. Mirzəcanzadə neftçıxarma sahəsində yeni istiqamətin, radiotexnologiyanın yaradıcısı və inkişaf etdirilməsinin təşəbbüsçüsüdür. Onun məktəbində ilk dəfə olaraq nenyuton neft yataqlarının işlənməsi nəzəriyyəsi hazırlanmışdır. A. Mirzəcanzadə 400 dən artıq nəşr olunmuş elmi işin, 60-dan artıq monoqrafiyanın müəllifidir. O, Əlcəzairdə, Bolqarıstanda, Vyetnamda, Almaniyada, Kanadada, Yaponiyada və bir sıra başqa ölkələrdə mühazirələr oxumuşdur. Onun əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. "Fiziki proseslərin mexanikası", "Qərbi Sibir neft yataqlarının işlənməsi və istismarı" (başqa müəlliflərlə birgə) "Neft fizikasının paradoksları" və bir sıra başqa işlər Mirzəcanzadənin ən dəyərli işləridir.

Azad Xəlil oğlu Mirzəcanzadə dünyanın bir sıra akademiyalarının fəxri akademiki, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri olmuşdur.

Beynəlxalq Şərq Neft Akademiyasının prezidentidir, bir sıra orden və medallarla təltif olunmuşdur.

Azad Xəlil oğlu Mirzəcanzadə 2006-cı il iyulun 17-də ömrünün 78-ci ilində vəfat etmişdir.

**Rauf Munçayev**
(1928-2021)

Rauf Məhəmməd oğlu Munçayev 1928-ci il 23 sentyabr tarixində Zaqatala şəhərində anadan olub.



Onun uşaqlıq və yeniyetməlik illəri bu şəhərdə keçmişdir. Zaqatalada rus dilində orta təhsil alıb. 1945-1949-cu illərdə Dağıstan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsində təhsil alıb.

1953-1955-ci illərdə SSRİ EA-nın Dağıstan filialının Ədəbiyyat, Dil və Tarix İnstitutunda işləyib.

1960-1964-cü illərdə "Sovet Arxeologiyası" jurnalının məsul katibi olub.

1968-1991-ci illərdə SSRİ EA-nın Arxeologiya İnstitutunun əməkdaşı kimi kiçik elmi işçi, böyük elmi işçi və direktor müavini vəzifələrini icra edib.

1971-ci ildən tarix elmləri doktorudur. 1986-cı ildə professor elmi adını alıb. Elmi fəaliyyətinin, çöl tədqiqatlarının əsas istiqamətlərindən birini Dağıstan, Şimali Osetiya, Çeçenistan, İnquşetiya, Qaraçay-Çərkəz, Stavropol və Şimali Qafqazın digər ərazilərində e.ə. IV-III minilliklərə aid arxeoloji abidələrin öyrənilməsi təşkil edir. O, bir neçə Azərbaycan aliminin dissertasiyalarının elmi rəhbəri olub.

1985-1999-cu illərdə tarix elmləri üzrə AAK-nın ekspert şurasının üzvü olub.

1985-ci ildən Alman Arxeoloji İnstitutunun müxbir üzvüdür.

1987-1999-cu illərdə tarixə qədərki dövrün tarixçilərin beynəlxalq ittifaqının icraedici komitəsinin və daimi şurasının üzvüdür.

1990-ci ildən Afrika və Şərq İtalyan İnstitutunun müxbir üzvüdür.

1991-1994-cü illərdə Rusiya EA-nın Arxeologiya İnstitutunun direktoru vəzifəsini icra etmiş, 1994- 2003-cü illərdə isə həmin institutun direktoru vəzifəsində işləmişdir..

1994-cü ildən İctimai və humanitar elmlər üzrə Rusiya EA-nın Koordinasiya Şurasının üzvüdür.

1995-2006-cı illərdə Rusiya EA-nın Tarix Elmləri (sonralar Tarix və Filologiya elmləri) Bölməsininin Büro üzvü olub.

2000-ci il 26 may tarixindən Rusiya Elmlər Akademiyasının Tarix üzrə (Ümumi Tarix) müxbir üzvüdür.

2003-cü ildən Rusiya EA-nın müşaviridir.

Rusiya EA-nın Arxeologiya İnstitutunun Dissertasiya Şurasının sədridir.

2004-cü ildən tarix, arxeologiya və etnoqrafiya üzrə Rusiya Humanitar Elmləri Fondunun ekspertlər şurasının sədridir.

2009-cu ildə Qafqaz Arxeologiyasının tədqiqi üzrə qrupun rəhbəri olub.

2009-cu ildən Dağıstan Dövlət Universitetinin fəxri professorudur.

"Arxeologiya SSSR" çoxcildliyi nəşrinin redaksiya şurasının sədri, baş redaktor müavinidir.

Müxtəlif vaxtlarda "Vorld Arxeoloci", "Sovetskaya Etnoqrafiya", "Rossiyskaya arxeologiya", "Vestnik drevney istoriyi", "Problemı İstoriyi, Filologiyi i kulturı" və "Obşestvennıe i qumanitarnıye nauki. Seriya. "İstoriya" jurnallarının redaktorlar kollegiyasının və şurasının tərkibinə daxil olumuşdur.

Rauf Munçayev Qafqazın neolit, eneolit və erkən tunc dövrlərinin, o cümlədən də dolmen mədəniyyətinin tədqiqatçısı, Əfqanıstanda, Bolqarıstanda, Stavropol diyarında və Yaxın Şərqdə kompleks arxeoloji tədqiqatların rəhbəri kimi tanınır.

Görkəmli alim Qədim Mesopotamiyanın tədqiqində göstərdiyi xüsusi xidmətlərə görə 1999-cu ildə Rusiya Federasiyasının elm və texnika üzrə Dövlət Mükafatına layiq görülüb.

2015-ci il oktyabr ayının 27-də Azərbaycan-Rusiya elmi əlaqələrinin inkişafındakı böyük xidmətlərinə görə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun fəxri doktoru adına layiq görülüb.

## Vaqif Nağıyev
(1941-1992)

Vaqif Mirəsgər oğlu Nağiyev 1941-ci ildə Lənkəranda doğulmuşdur. Texnika elmləri doktoru, professor, SSRİ EA-nın və SSRİ Tibbi-Texniki Elmlər Akademiyasının akademiki, tibb xidməti general-mayoru.

V. Nağıyev 1963-cü ildə Neft-Kimya İnstitutunu elektromexanik-mühəndis ixtisası üzrə bitirdikdən sonra bir ilə yaxın Azərbaycan EA-da işləyir. Bir qədər sonra Moskvaya gedir. 1965-ci ildə yarımkeçiricilərlə bağlı namizədlik dissertasiyası müdafiə edir, Moskva Aviasiya Texnologiya İnstitutunda radioelektron aparatların istehsalı texnologiyası kafedrasında işləyir. 1986-cı ildə kosmosda istifadə olunmaq üçün tibbi diaqnostik aparatların hazırlanma texnologiyası ilə məşğul olmuş, SSRİ Səhiyyə Nazirliyinin tibbi texnika üzrə Ümumittifaq Elmi Tədqiqat Sınaq İnstitutunda ultrasəs diaqnostik tibbi aparatların hazırlanması və koordinasiyası şöbəsinin müdiri və həm də SSRİ Səhiyyə Nazirliyində bu sahənin rəhbəri olmuşdur. 5 monoqrafiyanın, 23 ixtiranın, 200-dən artıq elmi məqalənin müəllifidir. V. Nağıyev həm də SSRİ Müdafiə Nazirliyində kosmosda diaqnostik tədqiqatlarla bağlı mühüm vəzifə daşımışdır. Ultrasəs vazolokator, elektron qurğularının termoelektrik sərinləşdirilməsi, inteqral sxemlərin tədqiqi və sınağı üçün termoelektrik cihazlar, allergiyalı dermotozların müalicə üsulları və ultrasəs texnologiyalarının perspektiv inkişafı ilə bağlı tədqiqatlar aparmışdır. Tədqiqatlarının əsas yönümü kosmosla bağlı olmuşdur.

Azərbaycanda kosmik diaqnostik tibbi tədqiqat mərkəzi institutunu açmaq arzusunu yerinə yetirə bilmədi. Amansız ölüm böyük alimi 51 yaşında, yaradıcılığının çiçəkləndiyi dövrdə aramızdan apardı. Romaya elmi konfransa gedərkən təyyarə limanında vəfat etdi. Cənazəsi Bakıya gətirilərək burada qohumlarının yanında dəfn olunmuşdur.

**Adilə Namazova**
(1926-2020)

Adilə Əvəz qızı Namazova 1926-cı ildə Ağdamın Seyidli kəndində doğulmuşdur. Pediator-kardioloq həkim, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan EA-nın və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, 1949-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir.



1965-ci ildən A. Namazova Azərbaycan Dövlət Tibb İnstitutunun klinik pediatriya kafedrasının müdiridir. Ürək çəpərinin anadangəlmə qüsurlarının klinik xüsusiyyətlərini öyrənmiş, süni qan dövranı şəraitində cərrahi müalicəyə göstəriş və göstəriş kriteriyasını müəyyənləşdirmiş, həmin qüsurların təsnifatını təklif etmişdir. A. Namazova ürək damar və endokrin sistemi, qaraciyər və öd yollarına həsr olunmuş 150-dən artıq çap olunmuş elmi əsərin müəllifidir. Habelə, ürək çəpərinin cərrahiyyəsi, "Uşaqlarda qara ciyər və öd yolları xəstəliklərinin müalicə üsulları" (digərlərilə birlikdə) "Azərbaycanda uşaqlarda endokrin xəstəliklər", "Uşaq və gənclərdə ilkin arterial hipotoniya" və "Uşaq xəstəlikləri" (dərslik) xarici dillərə tərcümə olunmuşdur. Namazova Adilə Əvəz qızı - Azərbaycan Səhiyyə Nazirliyinin elmi şurasının və respublika uşaq xəstəlikləri cəmiyyətinin sədridir. Yaponiyada, Avstriyada, Hindistanda və başqa ölkələrdə pediatr və kardioloqların beynəlxalq konqreslərində elmi məruzələrlə çıxış etmişdir.

Adilə Əvəz qızı Namazova 15 dekabr 2020-ci ildə Bakıda vəfat etmişdir.

**Bəkir Nəbiyev**
(1930-2012)

Bəkir Əhməd oğlu Nəbiyev 1930-cu ildə Ağdaşın Üçqovaq kəndində doğulmuşdur. Tənqidçi ədəbiyyatşünas, filologiya elmləri doktoru professor, Respublika Dövlət mükafatı laureatı Z. A. Tağıyev adına, "Dədə Qorqud" və "Məmməd Araz" mükafatlarının laureatıdır. Əməkdar elm xadimi, Azərbaycan EA-nın akademikidir. 1954-cü ildə ADU-nun filologiya fakültəsini bitirmişdir.



B. Nəbiyev 1951-ci ildə ədəbi-yaradıcılıq fəaliyyətinə başlamışdır. 500-dən artıq ədəbi-tənqidi məqalə və resenziyaların, 30 monoqrafiya və dərsliyin müəllifidir. "Firudin bəy Köçərli", "Əhməd Cavad", "Almas İldırım", "Ölməzliyin sirri", "Roman və müasir qəhrəman", "Ədəbiyyat" (5-ci sinif dərsliyi) daha çox tanınmışlar.

Nəbiyev Bəkir Əhməd oğlu Azərbaycan EA-nın "Xəbərlər" jurnalının baş redaktorudur. (dil, ədəbiyyat və incəsənət seriyası).

2000-ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

15 mart 2012-ci ildə Bakı şəhərində vəfat etmişdir.

**Əhməd Rəcəbli**
(1898-1963)

Əhməd Cabbar oğlu Rəcəbli 1898-ci ildə İrəvanda doğulmuşdur. Seleksiyaçı genetik alim, professor, Kənd Təsərrüfatı Akademiyasının (VASXNİL) akademiki. 1923-cü ildə İtaliyada Ali Eksperimental Aqrar Kral İnstitutunu bitirmişdir. Rus, alman, fransız, ispan, italyan, fars və yunan dillərini bilmişdir.



Ə. Rəcəbli 1924-30-cu illərdə genetika elminin yaradılması ilə məşğul olmuş, 1930-36-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda kafedra müdiri olmuşdur. 1947-ci ildə Stalin repressiyasının qurbanı olmuş, 8 il Kolımda sürgündə olmuş, burada istilik təsərrüfatı yaradaraq tərəvəz yetişdirmiş və yeni sortlar almışdır. 1945-ci ildə Ə. Rəcəbli respublikaya qayıtmış, müəllimlik və elmlə məşğul olmuşdur. 1950-ci ildə təkrarən repressiya olunaraq Qazaxıstana sürgün olunmuşdur. Stalinin ölümündən sonra bəraət alaraq Vətənə qayıdıb elmlə məşğul olmuşdur. O, yüzdən artıq elmi işin, 24 monoqrafiyanın müəllifidir. "Azərbaycanda məhsuldarlıq" kitabı iki dəfə nəşr olunmuşdur. Ə. Rəcəblinin apardığı elmi təcrübələr nəticəsində subtropik bitkilərin, qozun, çəyirdəkli və dənli, qozmənşəli meyvələrin yeni sortları əldə edilmişdir.

Əhməd Cabbar oğlu Rəcəbli 1963-cü ildə Moskvada vəfat etmiş, Bakıda dəfn edilmişdir.

**Əhəd Rəhmanzadə**
(1939)

Əhəd Əliəhməddin oğlu Rəhmanzadə 1939-cu ildə Tehranda doğulmuşdur. İqtisad elmlər doktoru, professor. Bonn Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdir. Rəhmanzadənin ailəsi 30-cu illərdə sovet vətəndaşlığı olmadıqlarına görə Bakıdan İrana deportasiya olunmuşdur. Əhəd burada doğulub təhsil almışdır. 1959-cu ildə Köln şəhərinə gələrək bir il hazırlıq kursunda oxuduqdan sonra ali məktəbə qəbul olunmuşdur.

Universiteti fərqlənmə ilə bitirdikdən sonra ona Bonn və Kassel universitetlərinin iqtisad fakültələrində dərs demək təklif olunmuşdur. 1974-79-cu illərdə Ə. Rəhmanzadə eyni zamanda Almaniya federativ respublikasının iqtisadi inkişaf nazirliyində baş ekspert olur. O, çoxsaylı elmi əsərlərin, habelə "İnkişaf edən ölkələrin iqtisadiyyatı", "Dünya ərzaq balansı", "Üçüncü dünya ölkələri iqtisadi razılaşma axtarışları", "Üçüncü dünya ölkələrinin sosial-iqtisadi inteqrasiyası", "Üçüncü dünya ölkələrinin siyasi razılaşma axtarışları" kimi 10-dan artıq monoqrafiyanın müəllifidir.

Əhəd Əliəhməddin oğlu Rəhmanzadənin qardaşlarından biri, Rəhim Əliəhməddin oğlu görkəmli alman alimi, həkim-cərrah, tibb elmləri doktoru, professor, Ümumalman Cərrahlar Cəmiyyətinin prezidenti olmaqla, Berlində yaşayır. İkinci qardaşı Səməd Londonda jurnalistdir. Bi-Bi-Si direktorlar şurasının üzvüdür, üçüncü qardaşı Cümşüd Dallasda yaşayır, mühəndisdir, böyük sənaye korporasiyasının rəhbəridir.

# Eldar Salayev
(1933-2022)

Eldar Yunus oğlu Salayev 1933-cü ildə Naxçıvanda doğulmuşdur. Alim-fizik, fizika-riyaziyyat elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki. Azərbaycan Dövlət mükafatı laureatıdır.



E. Salayev elmin istedadlı təşkilatçısıdır. Uzun illər elmi-tədqiqat fizika və fotoelektronika institutuna rəhbərlik etmişdir. 1983-97-ci illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. Yarımkeçiricilər fizikası ilə bağlı onlarla elmi əsərin və monoqrafiyaların müəllifidir. Rəhbərliyi altında onlarla elmlər namizədləri və doktorları yetişmişdir.

Salayev Eldar Yunus oğlu SSRİ Ali Sovetinə deputat, 1995-ci ildə Milli Məclisə üzv seçilmişdir. Orden və medallarla təltif olunmuşdur.

20 iyun 2022-ci ildə vəfat etmişdir.

**Fərman Salmanov**
(1931-2007)

Fərman Qurban oğlu Salmanov 1931-ci ildə Şəmkirdə doğulmuşdur. Geoloq alim, ictimai xadim, geologiya-mineralogiya elmləri doktoru, REA-nın müxbir üzvü, Lenin mükafatı laureatı, Sosialist Əmək Qəhrəmanı. 1954-cü ildə Azərbaycan Sənaye İnstitutunu bitirmişdir.



F. Salmanov 1954-59-cu illərdə Novosibirsk geologiya idarəsində geoloq, baş geoloq, neft-kəşfiyyat ekspedisiyasının rəisi, 1959-62-ci illərdə Surqut Neft-kəşfiyyat ekspedisiyasının rəisi, 1969-70-ci illərdə Tümen Baş geologiya idarəsinin baş geoloqu, 1978-ci ildən bu baş idarənin rəisi olur. 80-ci ilin sonu 90-cı illərin əvvəlində F. Q. Salmanov SSRİ Geologiya Nazirinin birinci müavini işləyir. Onun rəhbərliyi altında Surqutda, Salımskda, Pravdinskda, Mamontovskda, Somotlorda, Urenqoyda, Qərbi Sibirin başqa yerlərində 20 Neft və Qaz yatağı aşkar edilmişdir. F. Q. Salmanov neft və qaz Geologiyası məsələləri ilə bağlı bir sıra elmi işlərin müəllifidir. Habelə "Neft və Qaz yataqlarının formalaşma şəraiti və paylanma qanunauyğunluğu", "Qərbi Sibir Neft və Qazının Geologiyası", "Böyük Neft və Qaz yataqlarının yer qabağında paylanma qanunauyğunluğu", "Axtarışın sürətləndirilməsi" onun fundamental əsərləridir.

Salmanov Fərman Qurban oğlu RSFSR Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

Fərman Salmanov 26 iyul 2001-ci ildə Azərbaycan dövlətinin nüfuzlu mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Görkəmli soydaşımız, əfsanəvi neftçi Fərman Salmanov uzun sürən xəstəlikdən sonra 2007-ci il martın 31–də Moskvada 79 yaşında vəfat etmişdir.

Fərman Salmanov Moskvanın Vaqankov məzarlığında torpağa tapşırılmışdır.

**Məhəmməd ağa Şahtaxtlı**
(1846-1931)

Məhəmmədtağı Sultan oğlu Şahtaxtinski 1846-cı ildə Naxçıvanın Şahtaxtı kəndində doğulmuşdur. Publisist, şərqşünas, filoloq, müəllim, ictimai xadim. İbtidai təhsilini Naxçıvanda, orta təhsilini Tiflis gimnaziyasında almışdır. 1869-cu ildə Leypsiq universitetinin fəlsəfə, tarix və hüquq işləri fakültəsini bitirmişdir.



Şahtaxtlı 1870-ci ildə Almaniyada elmi publisistik fəaliyyətə başlamışdır. Qəzet və jurnallarda şərq ədəbiyyatı və tarixi ilə bağlı oçerk və məqalələrlə çıxış etmişdir. 1879-cu ildə Tiflisdə "Təkmilləşdirilmiş müsəlman əlifbeyi" adlı kitabını çap etdirir. Burada öz fikirlərini elmi şəkildə əsaslandıraraq türk xalqlarına bu əlifbaya keçməyi təklif edirdi. Şahtaxtlı bütün ömrü boyu bu problemlə məşğul olmuşdur. XX əsrin 80-ci illərindən İstanbulda "Moskovskiye vedemosti" qəzetinin xüsusi müxbiri, 1891-93-cü illərdə isə "Kaspi" qəzetinin redaktoru olur. 1902-ci ildə Şahtaxtlı Avropaya qayıdır. Paris xarici dillər institutunda şərq dillərindən dərs deyir. Fransa Maarif Nazirliyinin "Fəxri fərman"ı ilə təltif olunmuşdur. 1902-ci ildə təkrarən Tiflisə qayıdaraq burada "Qeyrət" mətbəəsini yaradır. 1903-cü ildə "Şərqi-Rus" qəzetini nəşr edir. 1907-ci ildə İrəvan quberniyasından II Dövlət Dumasına deputat seçilir. Peterburqda "Rossiya" qəzeti ilə əməkdaşlıq edir. 1908-18-ci illərdə Şahtaxtlı İranda, İraqda, Türkiyədə yaşayır. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası elan olunduqdan sonra Vətənə gələrək Azərbaycan Dövlət Universitetinin yaradılmasında fəal iştirak edir. Universitetin professoru kimi şərq xalqlarının tarixi, dili və ədəbiyyatı haqqında mühazirələr oxuyur. Azərbaycanda kommunist rejimi qurulduqdan sonra "Bakinski raboçi" və Moskvanın "Krasnıy Vostok" qəzetləri ilə əməkdaşlıq edir. Türk xalqlarının və taciklərin latın əlifbasına keçməsi üzrə ümumittifaq komitəyə daxil idi. 1899-cu ildən ümumdünya fonetika cəmiyyətinə 1900-cü ildən - ümumdünya Asiya cəmiyyəti, 1903-cü ildən rus imperatorluğu coğrafiya cəmiyyətinin Qafqaz bölməsinin üzvü idi.

Məhəmmədağa Məhəmmədtağı Sultan oğlu Şahtaxtinski (Şahtaxtlı) öz dövrünün qabaqgörən adamlarından olmuş, Azərbaycanda ədəbiyyatşünaslıq elminin və publisistikanın səviyyəsini yüksəklərə qaldırmışdır.

1931-ci ildə Bakıda vəfat etmişdir.

## Şəmsədin Təbrizi
(XIII əsr)

Tanınmış Azərbaycan şairi və mütəfəkkiri, öz dövrünün ən nüfuzlu sufilərindən biri sayılan Şəms əd-Din Məhəmməd ibn Əli ibn Məlikdad Təbrizi Təbrizdə doğulub. Onun həyatı barədə məlumatlar olduqca azdır. Məlum olanlar da müəmmalıdır. Yüksək erudisiyasına, hazırcavablığına və müəllimlik bacarığına görə Şəms hələ gənc yaşlarından "mürşidi-kamil" adını almışdır. O, qeyri-adi fiziki gözəlliyi və mənəvi təmizliyi ilə seçilmişdir.

Şəmsin müridləri çox olub. Onların arasında Əbu Bəkr Sələbaf Təbrizi, Rüknəddin Səcasi və başqaları da vardı. O, həmişə qara rəngli keçə libas geyərmiş. Çoxlu səyahətlərə çıxmış, əsasən, karvansaralarda yaşamışdır.

1244-cü ilin iyirmi altı noyabrında Türkiyənin Konya şəhərində Düyüsatanların karvansarasında Şəms sonralar ən məşhur şairlərdən olan Cəlal əd-Din Rumi ilə görüşür və bu tanışlıq möhkəm dostluğa çevrilir. Onların bu görüşünü müasirləri iki dənizin qovuşması kimi qiymətləndirir. Həmin gün dünya üçün yer üzünün ən böyük dahilərindən biri- Cəlaləddin Rumi yenidən doğuldu. Ruminin atası məscidə rəhbərlik edir və buradakı mədrəsədə dərs deyirdi. Onun çoxlu sayda müridləri vardı. Ruminin dünyagörüşü də burada formalaşmışdı. Atasının vəfatından sonra Cəlaləddin mədrəsədə onun yerini tutur. O, maddi cəhətdən yaxşı tə'min olunmuşdu, evli idi və sufi nəzəriyyəsi ilə məşğul olurdu. Məşhur Seyid Bürhanəddin Mühəqqiq Termezi Konyaya gəldikdən sonra onu özünə mürşid seçən Rumi bir müddət sonra təhsilini artırmaqdan ötrü Dəməşqə yola düşür.

Konyaya qayıtdıqdan sonra yenə mürşidinin yanında məşğul olur. Ancaq tezliklə Termezi rəhmətə gedir və Rumi özü mübəlliqliyə başlayır. Şəmsəddin Təbrizi ilə onların görüşü də məhz həmin dövrə düşür. Bu tanışlıq Ruminin həyatında dönüş nöqtəsinə çevrilərək, onun dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.

Şəmsin zahiri və daxili gözəlliyi, yüksək insani keyfiyyətləri, sufi ideyalarına dərindən sədaqəti Rumini cəlb edir. Onun Şəmsəddinə məhəbbəti adi insan duyğularından yüksəkdə dayanır. Rumi onu özünün mürşidi e'lan edərək, elmi fəaliyyətini dayandırır, mədrəsədəki işini buraxır və özünü bütünlüklə duyğularının ixtiyarına verir. Onlar bütün vaxtlarını Şəmsin digər müridləri ilə birlikdə sufi məclislərində keçirirlər. Bu məclislərin əsasını musiqi və xüsusi dərviş rəqsləri tuturdu. Şəmsin varlığı Rumiyə Allaha qovuşmaqda bir yardımçı olur. Rumi Şəmsə sevgilərini izhar edən şerlər də həsr edir.

Ruminin doğmaları və xüsusilə də müridləri onun bu halından təşvişə düşüb, bu ruh qardaşlarını hər vəchlə ayırmaq istəyirlər. Şəmsəddin 1246-cı ildə Rumidən xəbərsiz Konyanı tərk etməli olur. O, Dəməşqə köçərək, özü barədə Rumiyə heç bir xəbər vermir. Lakin Şəmsin bu gedişi vəziyyəti düzəltmir. Rumi ayrılığı çox ağır keçirir. O, cəmiyyətdən üz çevirib, özünə qapılır.

Nəhayət, Rumi Şəmsin harada olduğunu öyrənir və sanki bu xəbər onu yenidən həyata qaytarır. Bunu görən dostları Ruminin oğlu Sultan Vələddən Şəmsəddin Təbrizinin ardınca Dəməşqə yola düşməsini rica edirlər. Rumi oğlu vasitəsilə ona bu şeri göndərir:

Şeri oxuyan Şəms Konyaya qayıdır. Burada onu böyük şərəflə qarşılayır və onun şəninə təntənəli ziyafətlər verirlər. Şəmslə Ruminin dostluq münasibətləri əvvəlki qaydasına düşür.

Rumi yenə də bütün vaxtını Şəmslə keçirərək, ondan bir an belə ayrılmır. Şəmsəddin Təbrizi Ruminin bacısı Kimiya ilə ailə qurur.

Bütün bünlara baxmayaraq, bədxahlar yenə də Şəmsi rahat buraxmırlar. Və o, yenidən, bu dəfə isə həmişəlik, Konyanı tərk edir. Onun birdən-birə yoxa çıxması indiyə qədər də müəmmalıdır. Ola bilər ki, Şəmsi Ruminin müridləri aradan götürmüş, ya quyuya tullamış, ya da öldürüb, atasının yanında basdırmışlar.

Səhər tezdən mədrəsəyə gələn Rumi orada heç kəsi tapmır. Şairin ruhi sarsıntıları hüdudsuz olsa da, birdən-birə möcüzə baş verir. Rumi Şəmsi özündə yenidən yaratmaq üçün güc və qüvvə tapır. O, dünya məhəbbət lirikasının ən heyrətamiz nümunələrindən birini yaradır və "Şəms Təbrizinin divanı" adlanan bu toplunu öz mürşidinin adına bağlayır.

Gənc alim sufi axtarışlarını biryolluq tullayaraq, özünü tamamilə Şəmsəddin Təbrizi adlı bir şairə çevirir. M. İ. Zənd yazır ki, "Divan"ın və bura daxil olan hər bir şerin Şəmsəddin Təbrizinin adından yaradılması heç vəchlə Cəlaləddin Rumi üçün poetik fənd, yaxud itkin düşmüş dostunun xatirəsinə hörmət kimi qəbul edilə bilməz:

Şəmsini gerçək dünyanın makrokosmunda itirmiş mütəfəkkir onu öz qəlbinin mikrokosmunda tapmış olur. Və şairin özündə, könlündə duyduğu bu mürşid həmin nəğmələri ona diqtə edir, Rumi isə bu məqamda onları qələmə alandan (katib), oxuyandan, rəvayət edəndən (ravi) başqa heç bir rol oynamır.

Ancaq bu "obyekt"in yalnız mürəkkəb rəmzi qavrayış planında anlaşılması mümkündür. Şəmsədiin Təbrizi ilə ünsiyyəti Rumiyə mistik idrakın yeni bir yolunu tapmaqda kömək etmişdi. Buna baxmayaraq, onun təriqəti yalnız Rumi öldükdən sonra Mövləvilik adı ilə formalaşır. Mövlana ("bizim müəllim") onun titullarından biri idi. Rumi yaradıcılığı və mövləvilik təriqəti Şərq xalqlarının dini-fəlsəfi və poetik düşüncə tərzinin inkişafına böyük təkan vermişdir.

"Bu deyilənlərdən başqa, həmin təriqət həm də hələ Şəmsəddinin yaratdığı dərviş rəqsləri ilə məşhurdur. Avropalılar bu təriqətin dərviş rəqslərinə böyük maraq göstərmişlər.

Şəms Təbrizinin şagird və müridləri onun əsərlərini "Məqalat" adı altında toplayıb yaymışlar.

## Hacı Zeynalabdin Şirvani
(1780-1838)

1780-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. Onun beş yaşı tamam olanda Axund İskəndərin ailəsi Bağdad yaxınlığındakı Kərbəla şəhərinə köçür və gələcək səyyahın atası mədrəsədə dərs deməyə başlayır. Zeynalabdin də ilk təhsilini elə burada alır.



1796-cı ildə o, təhsilini başa vurmaqdan ötrü Bağdad şəhərinə gedir. Zeynalabdin Bağdadda fəlsəfə, tibb, astronomiya və riyaziyyatı, habelə dilləri öyrənməkdə davam edir. Bağdad kitabxanalarında olan səyahətnamələr, bütün Şərq dünyasından buraya axışıb gəlmiş alimlərin, müqəddəs şəhərin ziyarətinə gələn zəvvarların söhbətləri bu gənc oğlanın nəzərlərində yeni bir dünya açır. Dünyanı görmək və onun möcüzələri ilə həmyerlilərini tanış etmək elə həmin vaxtdan gənc Zeynalabdinin həyat məqsədinə çevrilir və o, tərəddüd etmədən səyahətə çıxmaq qərarına gəlir. 60 min kilometr uzanmış və 40 il davam etmiş bu yol Kiçik Asiyadan, İran yaylasından, Orta Asiya, Ərəbistan və Cənubi Afrika səhralarından, Sudanın meşə və cəngəlliklərindən, Hindistanın tropik meşələrindən, Hind okeanı adalarından keçib. O, Hindquş, Zaqros, Süleyman dağlarından, Pamirdən adlamışdır. Bu yol Asiya və Afrikanın bir çox digər vilayətlərindən uzanmışdır." Şirvani öz əsərində səyahətini hissələrə bölmür. Onun birinci səyahətinin marşrutu belə göstərilir: Bağdad, İraqi-Əcəm, Gilan, Şirvan, Muğan, Talış, Cənubi Azərbaycan, Xorasan, Herat, Zabul, Pəncab, Hind adaları, Dəkən, Benqal, Qucarat, Hind okeanındakı adalardan Sind və Multandan keçən səyyah dağ yolları ilə Kəşmirə, Müzəffərabada çatmış, sonra Kabul yolu ilə Tatarıstana, oradan Turana və Bədəxşan dağları ilə Xorasana, nəhayət, "İran yolu" ilə Farsa gəlmişdir. Bir qədər istirahətdən sonra Şirvani ikinci səyahətə çıxır. Bu dəfə yol Şirazdan (Fars) başlayır, oradan Daraba, sonra Bəndər Abbas limanından Hörmüz yolu ilə Hədramaut və Yəmənə, sonra Həbəşistan və Sudana, buradan Ərəbistan yarımadasında olan Ciddəyə, oradan da Hicaz, Mədinə və Məkkəyə uzanır. Bundan sonra o, dəniz yolu ilə "Səidlər ölkəsinə" (əs-Səidə -Nil çayı sahillərinə) gedir, Misirdən Yaxın Şərqə "Şam-Rum"a (Anadoluya), Diyarbəkirə, Qaraman və Aydına keçir. Hacı Zeynalabdinin Atlantik okeanına və geriyə üçüncü səyahətin marşrutu belə idi: Bəhre-Əhzər adaları ("Yaşıl dəniz" - şərq coğrafiyaçıları Atlantik okeanını belə adlandırırdılar), Rumeli (o vaxt Osmanlı imperiyasının Avropa hissəsinə belə deyirdilər), Anadolu, Azərbaycan, Tehran, Həmədan, İsfahan, Kirman, Şiraz, Bağdad. İndi artıq bir çoxu sıradan çıxmış beş yüzdən artıq əlyazma və mətbu qaynağın və səyahətlər zamanı etdiyi şəxsi müşahidələri nəticəsində Şirvani ona dünya şöhrəti gətirən üç kitab yazır: 1822-ci ildə "Riyazüs-səyahət" ("Səyahət bağçaları"), 1827-ci ildə "Hədaiqüs-səyahət" ("Səyahət bağları") və nəhayət, 1833-cü ildə "Bustanus-səyahət" ("Səyahət gülzarı") Bu əsərlərdə o, bir çox ölkələrin coğrafiyası, tarixi, etnoqrafiyası, arxitekturası, ədəbiyyatı və görkəmli ictimai xadimləri barədə dəyərli məlumatlar verir. Səyyah yer kürəsinin iqlim qurşaqlarının təsvirinə xüsusi yer ayırır. Şərqin digər alim və səyyahları kimi o da Yeri yeddi iqlim qurşağına bölür. Olduğu bir çox yerlərdə onu saraya dəvət etmişlər. Bunlardan Misir hakimi

İbrahim bəyi, İran şahı Fətəli şah Qacarı, Türkiyə sultanı Mahmudu və başqalarını göstərmək olar. Olduğu saraylarda müzakirə və söhbətlərdə iştirak edən Şirvani həmişəlik burada qalmaq dəvətlərinə nəzakətlə rədd cavabı verir. Şirvani həmişə macəralar və məhrumiyyətlərlə dolu səyyah həyatını saraydakı rahat həyatdan üstün tutur.

Zeynalabdin eyni zamanda şair olmuş və Təmkin təxəllüsü ilə şerlər yazmışdır. Həmin şerlər onun səyahətnamələrinə səpələnmiş və əlyazması Tehran mərkəzi kitabxanasında saxlanan "Divan"ında toplanmışdır. Bu nadir şəxsiyyətin digər əsərlərinin əlyazmaları Britaniya muzeyində, Paris Milli kitabxanasında, Sankt-Peterburqda və İranda saxlanır. Şirvaninin əsərləri bir çox Azərbaycan, İran, rus və Avropa tədqiqatçıları tərəfindən öyrənilib. Bu alimlərdən Abbasqulu ağa Bakıxanovun, Məmmədəli Tərbiyətin, Əskər Həmid Rəbbaninin, B. A. Dornun, N. V. Xanıkovun, E. Braunun, S. Stornun, E. Bloşenin və başqalarının adlarını çəkmək mümkündür.

1838-ci ildə həmin səfəri zamanı Zeynalabdin Şirvani yolda xəstələnmiş və Middə şəhəri yaxınlığında dünyasını dəyişmişdir. Hacı Zeynalabdin elə buradaca da dəfn olunub.

## Mirzə Cəfər Topçubaşov
(1770-1869)

Mirzə Cəfər Əlimərdan bəy oğlu Topçubaşov 1770-ci ildə, başqa bir məlumata görə 1784-cü ildə Gəncədə doğulmuşdur. Şair, şərqşünas alim. Mədrəsə təhsili almışdır. Rus, ərəb, fars, türk, erməni və gürcü dillərini bilmişdir.



M. Topçubaşov 1817-ci ildə İran elçiləri arasında Peterburqa gəlmişdir. Burada ona xarici işlər nazirliyinin departamentində tərcüməçi vəzifəsi təklif olunmuşdu. Beləliklə, o rus imperiyasının paytaxtında qaldı. O, həm də Peterburq baş müəllimlər institutunda ərəb, fars, və türk dillərindən dərs deyirdi. 1823-cü ildə o Peterburq universitetinin professoru olur. 1835-49-cu illərdə Rusiya xarici işlər nazirinin Asiya departamentinin Şərq dilləri institutunda fars dili və ədəbiyyatı kafedrasının müdiri olur. M. C. Topçubaşov Rusiya arxeologiya və numizmatika cəmiyyətinin yaradıcılarından olub, 1852-57-ci illərdə onun şərq şöbəsinin müdiri işləmişdir. Şöbə onun rəhbərliyi ilə "İzvestiya" (Xəbərlər) adlı jurnal nəşr edərək burada Şərq arxeologiyası, habelə Azərbaycan haqqında məqalələr nəşr edirdi. O, "Dədə Qorqud" və 50-dən artıq şairin əsərlərini rus dilinə tərcümə etmişdi. Jurnaldakı məqalələrin əksəriyyətini M. C. Topçubaşov özü yazırdı. Onun rəhbərliyi altında bir sıra rus şərqşünasları və diplomatları hazırlanmışdı. A. S. Qriboyedov ondan fars, A. Mitskeviç isə türk dilini öyrənmişdi. O, Mitskeviçlə dost olmuş və onun "Krım sonetləri" adlı əsərini fars dilinə tərcümə etmişdi. M. Topçubaşovun elmi fəaliyyətini V. Belinski, İ. Kraçkovski, O. Senkovski kimi, rus elm və mədəniyyət xadimləri yüksək qiymətləndirmişdilər. Rus imperiyası qarşısındakı xidmətlərinə görə imperatorun razılığı və senatın qərarı ilə ən yaxşı şərqşünaslıq əsərlərinə 100 rubl verməklə "Topçubaşov mükafatı" təsis olunmuşdu.

Mirzə Cəfər Əlimərdan bəy oğlu Topçubaşov I dərəcəli Stanislav, II və III dərəcəli Anna, İranın "Şiri-Xurşid" ordenləri ilə mükafatlandırılmışdı.

1869-cu ildə Peterburqda vəfat etmişdir.

## Mustafa Topçubaşov
(1895-1981)

Mustafa Aağabəy oğlu Topçubaşov 1895-ci ildə İrəvanda doğulmuşdur. Cərrah, ictimai xadim, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan EA-nın və SSRİ tibb EA-nın həqiqi üzvü, Bolqarıstan EA-nın müxbir üzvü, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı. Orta təhsilini İrəvanda almış, Kiyev Dövlət universitetinin tibb fakültəsini bitirmişdir.



M. A. Topçubaşov 1920-30-cu illərdə Azərbaycan Dövlət tibb universitetində cərrahiyyə klinikasında ordinator və assistent olmuşdur. 1930-75-ci illərdə Azərbaycan Dövlət tibb universitetinin cərrahiyyə kafedrasının müdiri, eyni zamanda 1945-48-ci illərdə EA-nın Eksperimental təbabət institutuna rəhbərlik etmişdir. M. Topçubaşov 7 monoqrafiya, 5 cilddə "Xüsusi cərrahlıq" dərsliklərinin, ümumilikdə 160 elmi işin müəllifidir. Onun redaktəsi ilə kombinasiyalı ağrısızlaşdırma ilə bağlı üç elmi iş toplusu çap olunmuşdur. M. Topçubaşov öd yollarının cərrahiyyəsi, ağrısızlaşdırma, qarın boşluğu və tarokal cərrahiyyə, bərpa cərrahiyyəsi, neyrocərrahiyyə, ortopediya, urologiya sahəsində tədqiqatlar aparmışdır. O, bir sıra orijinal diaqnostik və operativ müalicə metodları təklif etmişdir. Əsas elmi tədqiqatları "Ürək damar xəstəlikləri və onların profilaktikası", "Xüsusi cərrahlıq", "Yad cisimləri çıxaran aparat və onun tətbiqi", "Normal hipertenziya və onun cərrahi müalicəsi", "Uzunmüddətli analgeziyanın tibbdə tətbiqi" əsərləridir. M. Topçubaşov ümumittifaq cərrahlar cəmiyyətinin, Azərbaycan cərrahlar və uroloqlar cəmiyyətinin fəxri sədri olmuşdur. Dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, 1955-59-cu illərdə Ali Sovetin sədri olmuşdur. Bir sıra orden və medallarla təltif olunmuşdur.

Mustafa Ağabəy oğlu Topçubaşov 1981-ci ildə Bakıda vəfat etmişdir.

Azərbaycan EA-nın Elmi-Tədqiqat Eksperimental-Klinik Təbabət İnstitutuna və küçələrdən birinə onun adı verilmişdir.

## Turxan Gənceyi
(1925-2005)

Turxan Gənceyi 1925-ci ildə Şimali Azərbaycandan köçmüş emiqrantların ailəsində, Təbrizdə doğulmuşdur. Əsilən Gəncədən olan atası və Naxçıvandan olan anası Londonda tanış olmuşlar. Filoloq alim, filologiya elmləri doktoru, professor. Orta təhsilini Təbrizdə, ali təhsili İstanbul universitetinin ədəbiyyat fakültəsində almışdır.

Əmək fəaliyyətinə Neapol universitetinin şərqşünaslıq fakültəsində dərs deməklə başlamışdır. Eyni zamanda Frankfurt na Mayne və Hamburq universitetlərinin şərqşünaslıq universitetlərində dərs demişdir. 1959-cu ildən London universitetində tələbələrə türk xalqlarının ədəbiyyatı və "Dədə Qorqud" eposu haqqında mühazirələr oxumuşdur. Kembric universitetinə dəvət alıb, burada, 1984-cü ildə Turxan üçün məxsusi olaraq fars və türk ədəbiyyatı kafedrası açılır. O, Xətai, M. F. Axundov, C. Məmmədquluzadə, Hüseyn Cavid, Mikayıl Müşfiq, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov və bir sıra başqaları haqqında ədəbiyyatşünaslıq məqalələrinin müəllifidir. Azərbaycanın şair və yazıçılarının əsərlərini ingilis dilinə çevirmişdir. 1985-ci ildə Üzeyir Hacıbəyovun 100 illiyində və 1987-ci ildə Mirzə Fətəli Axundovun 175 illiyiilə bağlı Azərbaycanda olmuşdur.

Turxan Gənceyi böyük Azərbaycanın şairi Xətai haqqında (I Şah İsmayıl) monoqrafiya yazarkən Britaniya muzeyində saxlanılan əlyazmalardan istifadə etmişdir.

T. Gəncəyi 2005-ci ildə vəfat etmişdir.

**Nəsirədin Tusi**
(1201-1274)

Məhəmməd Nəsrəddin Tusi Həsən oğlu 17 fevral 1201-ci ildə Həmədanda (bəzi mənbələrə görə Tus şəhərində) anadan olmuşdur. Azərbaycan ensiklopediyaçı alimi, dövlət xadimi. "Tusi" ləqəbi təhsil aldığı Tus şəhərinin adındandır. İlk müəllimi atası, sonrakı müəllimləri isə Bəhmənyar və İbn Sina



məktəbinə mənsub alimlər olmuşdur. Nəsrəddin Tusinin təsis etdiyi Marağa Astronomiya Rəsədxanası qısa müddətdə astronomiya cihazlarına və zəngin kitabxanaya malik böyük elmi mərkəzə çevrilmiş, bir çox məşhur riyaziyyatçı və astronomlar buraya cəlb edilmişdir. Onun rəhbərliyi ilə elmin müxtəlif sahələrinə aid bir sıra qiymətli əsərlər yaradılmışdır. "Zici Elxani" əsərində planetlərin geosentrik orbitinin əsas elementləri verilmiş, onların sutkalıq orta hərəkəti öz dövrünə və hətta 17-ci əsr astronomiya müşahidələrinə nisbətən daha dəqiq təyin edilmişdir. Tusinin rəhbərliyi ilə yerin fırlanma oxunun illik presessiyasının qiyməti 51"4 tapılmışdır (müasir qiyməti 51"2). "Zici Elxani" əsərində çoxlu riyazi, astronomik və coğrafi cədvəllər də verilir. Ən mühümləri sinus və tangensin altmışlıq say sistemində 3 rəqəmli triqonometriya cədvəlləri, 13-cü əsrdə məşhur olan 256 şəhərint coğrafi koordinatları cədvəlidir. Kolumbun müəllimi Toskanelli bu cədvəldən istifadə etmişdir. Jədvəl Londonda (1652) və Oksfordda (1652) ərəb və latın dillərində çap edilmişdir. Tusinin "Təhriri-Öqlidis" (Evklidin şərhi) əsəri həndəsənin inkişafına təkan vermiş, Romada ərəb (1594) və latın (17-ci əsr) dillərində nəşr olunmuş, A. Lecandarın, ingilis riyaziyyatçısı J. Vallisin və italyan alimi J. Sakkerinin işlərinə böyuk təsir östərmişdir. Nəsrəddin tusi bu əsərdə və "Həndəsənin əsasları"nda Evklidin 5-ci postulatı haqqında öz nəzəriyyəsini vermiş 56 üçbucağın daxili bucaqlarının cəmi arasında əlaqəni tapmışdır. Arximedin "Kürə və silindr" və "Dairənin kvadratlanması" əsərlərindəki nisbətlər nəzəriyyəsini Tusi inkişaf etdirmişdir. Tusinin ədəd anlayışı müasir təsəvvürə uyğun gəlir və o, bu sahədə Avropa riyaziyyatçılarını 400 il qabaqlamışdır. Onun "Şəklül-qita" (Tam dörd tərəfli traktat) əsəri müstəvi və sferik triqonometriyadan bəhs edir. O, əsərdə Menelay teoremini, müasir triqonometriyanın əsas teorem və düstürlarını vermiş, sferik üçbucağın üç bucağına görə tərəflərini təyin etmişdir. Əsər 1891-ci ildə İstanbulda ərəb və fransız dillərində nəşr olunmuşdur. "Jəleul-hesab" ("Taxta və qum vasitəsilə hesablama") əsərində müsbət ədəddən istənilən dərəcədə kökalma qaydası, binominal hədlərin on iki dərəcəli həddədək əmsalları verilir. "Təhrir ül-Məcəsti" əsəri "Almagest"in işlənmiş variantı, "Təzkireyi-Nəsiriyyə" isə Tusinin oricinal əsəridir. Hər iki əsər Ptolomeyin geosentrik sistemi daxilində planetlərin hərəkət nəzəriyyəsinə və onun təshihinə aiddir. Nəsrəddin Tusi hesaba aid əsərində tam ədəddən ixtiyari dərəcədən kökalma əməlini 4V2441 40626 kökünün nümunəsi kimi izah etmiş (riyaziyyat tarixində ilk dəfə), ədəd üçbucağını əmələ gətirən binomial əmsalları və onlar arasında qanunauyğunluqları göstərmiş, Nyuton binomunu sözlə ifadə etmişdir. Nəsrəddin Tusi fizikaya dair əsərlərində təbiətdə maddənin saxlanması və çevrilməsi haqqında

ilk fikir söyləmişdir. Nəsrəddin Tusi 13-cü əsrin 30-cu illərində Kuhistana gəlmiş və yerli ismaililərin başçısı Nasirin təklifi ilə 1236-cı ildə tərbiyə, əxlaq və pedaqogikaya aid "Əxlaqi-Nasiri"(Nasirin əxlaqa aid kitabı) əsərini yazmışdır. Kuhistanda Tusi həbs olunub Ələmut qalasında salınmış, monqol sərkərdəsi Hülaku xan bu qalanı aldıqdan sonra Tusini azad edib özünə məsləhətçi təyin etmiş və bu zaman Nəsrəddin Tusi minlərlə günahsız alim və bacarıqlı şəxsləri monqol qılıncından xilas edə bilmişdir. Hülaki xanın vəfatından sonra (1265) isə Tusi onun oğlu Abaqa xanın vəziri olmuşdur.Nəsrəddin Tusinin fəlsəfi görüşləri Bəhmənyarın təsiri ilə formalaşmışdır. "İbn Sinanın fəlsəfəsi və məntiqinə şərhlər", "Səhifələrində ər-Razinin qeydləri" ("Şərh ul-İşarət"), "Teologiya və metafizikaya dair risalə"("Təcrid əl-kənan"), "Əxlaqi-Nasiri", "Alicənab insanların xarakterləri və keyfiyyətləri" ("Övsafül-əşrəf") və b. əsərlərində İbn Sinanın fəlsəfi görüşlərini şərh etmişdir. Tusi Ayın və günəşin tutulmasını, işığın sınmasını, göy qurşağının yaranmasını izah etmişdir. Nəsrəddin Tusi Azərbaycan siyasi fikri tarixində ilk dövlət nəzəriyyəçisi olmuşdur. O həm də şair olmuşdur. Tusi Bağdada səfəri zamanı 25 iyun 1274-cü ildə vəfat etmiş, Jame Məscidində dəfn olunmuşdur. Qəbrinin üstündə "Elmin köməkçisi, elm ölkəsinin şahıbi, Dövr anası belə oğul hələ doğmamışdır " yazılmışdır. Tusi irsi əsaslı tədqiq edilir. Bu tədqiqatlarda Tehranda keçirilən (1956) Nəsrəddin Tusi konqresinin də böyük təsiri olmuşdur. 1981-ci ildə Nəsrəddin Tusinin Bakıda, Naxçıvanda, Gəncədə və Şamaxıda 780 illik yubleyi keçirilmişdir. Şamaxı Astrofizika Rəsədxanası və Azərbaycan Dövlət Pedaqoji Universiteti Nəsrəddin Tusinin şərəfinə adlandırılmışdır.

**Mikayıl Useynov**
(1905-1993)



Mikayıl Ələsgər oğlu Useynov 1905-ci ildə Bakıda doğulmuşdur. Memar, memarlıq tarixi mütəxəssisi, memarlıq doktoru, professor, əməkdar elm xadimi. Azərbaycan EA-nın, SSRİ Memarlıq akademiyasının akademiki. SSRİ-nin əməkdar memarı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan SSR Dövlət mükafatları laureatı. 1929-cu ildə Azərbaycan politexnik institutunun tikinti fakültəsini bitirmişdir. M. Useynov Bakı Politexnik institutunda dərs demiş, Azərbaycan memarlar ittifaqının sədri, SSRİ memarlar ittifaqı rəyasət heyətinin katibi, Azərbaycan EA-nın elmi tədqiqat memarlıq və incəsənət institutunun direktoru olmuşdur. "Nizami" kinoteatrı, Bakıda alimlər evi, Konservatoriya, Nizami adına muzey, Moskva XTS salonunun Azərbaycan bölməsi, Bakıda, Gəncədə, Moskvada Nizaminin heykəlləri M. Useynovun ən gözəl işlərindəndir. 1946-cı ildən sonra M. Useynov M. F. Axundov adına kitabxana, Bakı metrosunun bir neçə stansiyası, Bakı poçtamtının və bir sıra yaşayış evlərinin layihələrini vermişdir. M. Useynov "Bakı və Azərbaycanın memarlığı", "Bakının memarlıq abidələri", "Azərbaycan memarlığı III - XVIII əsrlərdə", "Müasir Azərbaycanın memarlığı", "Bakıda şirvanşahlar sarayları" (S. A. Dadaşovla birgə) "Azərbaycan memarlıq tarixi" (L. Bretanitski və A. Salamzadə ilə birgə) "Azərbaycan memarlıq abidələri" və bir sıra başqa əsərlərin müəllifidir.

Useynov Mikayıl Ələsgər oğlu dəfələrlə SSRİ və Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

M. Ə. Useynov 1929-cu ildən 1946-cı ilə qədər tanınmış Azərbaycan memarı, memarlıq tarixçisi, professor, Azərbaycan EA-nın akademiki, SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı Sadıq Əkbər oğlu Dadaşovla (1905-1946) birgə işləmişdir.

1993-cü ildə Bakıda vəfat etmişdir.

## Süleyman Vəzirov
(1910-1973)

Süleyman Azad oğlu Vəzirov 1910-cu ildə Bakıda doğulmuşdur. Neft sənayesinin böyük təşkilatçılarındandır. Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın elm və texnika xadimidir. 1932-ci ildə Bakı Politexnik İnstitutunu bitirmişdir.



S. Vəzirov 1932-ci ildən neft mədənlərində usta, baş mühəndis, direktor olmuşdur. 1940-1942-ci illərdə "Azərneftkombinat"ın baş mühəndisi olmuş, 1942-46-cı illərdə Azərbaycan neft sənayesinə rəhbərlik etmişdir. S. Vəzirovun yüksək istedadı sovet-alman müharibəsi dövründə üzə çıxmışdır, belə ki, o, bu illər ərzində döyüşən ordunu fasiləsiz olaraq yanacaqla və sürtgü yağları ilə təmin olunmasına nail ola bilmişdi. Buna görə o, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. S. Vəzirov neftçıxarma və neftin emalı işində yüksək ixtisaslı bir mühəndis kimi xidməti vəzifəsində müstəqil qərarlar çıxarırdı. Belə hərəkətlər o vaxtkı rəhbərliyin xoşuna gəlmirdi. Belə hallarda adətən M. C. Bağırovla onun arasında fikir ayrılığı və mübahisələr olurdu. Ona görə də S. Vəzirov o vaxtlar SSRİ neft sənayesi naziri olan N. Baybakovun köməyi ilə Moskvaya gedib, orada SSRİ neft sənayesi nazirliyinin Cənub və Qərb rayonları neftçıxarma üzrə baş idarəsinin rəisi təyin olunur. 1949-53-cü illərdə S. Vəzirov "Türkməneft" birliyində rəis işləyir. Burada o, Nebit-Dağda, Çələkəndə və Qumdağda neft və qaz yataqlarının aşkara çıxarıb işlənməsində böyük işlər görür. Türkmənistanda böyük hörmət qazanır. M. C. Bağırov hakimiyyətdən getdikdən sonra 1953-cü ildə S. Vəzirov Bakıya qayıdıb, Azərbaycanın neft sənayesi naziri təyin olunur. 1958-70-ci illərdə Nazirlər Sovetinin sədrinin müavini, 1956-1965-ci illərdə eyni zamanda Xalq Təsərrüfatı Şurasının (Sovnarxozun) sədri olur. 1972-1973-cü illərdə Ali Soveti sədrinin müavini işləmişdir.

Süleyman Azad oğlu Vəzirov dəfələrlə SSRİ və Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

1973-cü ildə Bakıda vəfat etmişdir.

**Həsən bəy Zərdabi**
(1842-1907)

Həsən bəy Səlim bəy oğlu Məlikov 1842-ci ildə Göyçayın yaxınlığında Zərdabda anadan olmuşdur.



İlk təhsilini Zərdab kəndindəki mədrəsədə almışdır. Burada ərəbcə və farsca öyrənən Zərdabi 1852-ci ildə Şamaxı şəhərində açılan rusca dünyəvi təhsil verən məktəbə yazılmışdır.

1858-ci ildə I Tiflis məktəbinin V sinfinə qəbul olmuşdur. 1861-ci ildə həmin məktəbi uğurla bitirən Zərdabi elə eyni ildə dövlət təqaüdü ilə Moskva Universiteti fizika-riyaziyyat fakültəsində təbiət elmləri üzrə təhsil almağa göndərilmişdir. 1865-ci ildə bu universiteti fərqlənmə diplomu ilə bitirmişdir.

Ali təhsil ocağında oxuduğu müddətdə tələbələr arasında xüsusi olaraq seçildiyinə görə fakültəni əla qiymətlərlə başa vurduqdan sonra elmi iş üçün universitetdə saxlanılması qərarı qəbul edilmişdir. Lakin vətəninə olan sonsuz məhəbbəti, xalqına, millətinə xidmət etmək arzusu onu Azərbaycana çəkib gətirmişdir.

Zərdabi universiteti bitirdikdən sonra Tiflisdə Torpaq İdarəsində (Mejovoy Plata) işləməyə başlayır. Bu vəzifədən ayrıldıqdan sonra 28 fevral 1868-ci ildə Qubada məhkəmə katibi olaraq işləməyə başlamışçddır. 4 oktyabr 1868-ci il tarixində işinə son verildikdən sonra bir müddət müstəqil məhkəmə vəkilliyi etmişdir. 18 noyabr 1869-cu ildə Bakı realni məktəbində təbiət elmlərindən dərs demişdir.

Həsən bəy Zərdabi Azərbaycan peşəkar teatrının yaradıcılarındandır. Onun rəhbərliyi və dramaturqlardan Nəcəf bəy Vəzirov ilə Əsgər ağa Adıgözəlovun fəal iştirakı ilə 1873-cü ildə M. F. Axundovun "Hacı Qara" və "Lənkəran xanının vəziri" komediyaları tamaşaya qoyulmuşdur.

Zərdabi "Əkinçi"ni yaratmaqla milli mətbuatın əsasını qoymuşdur. 1875-ci ilin 22 iyulundan 1877-ci ilin 29 sentyabrına qədər çapını davam etdirən "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr olunmuşdur. Bu illər ərzində qəzetin 56 nömrəsi işıq üzü görmüşdür.

Bu qəzetdə M. F. Axundov, S. Ə. Şirvani, N. B. Vəzirov və Azərbaycanın bir sıra görkəmli xadimləri çıxış edirdilər.

Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzetinin dəsti-xətti əsasən bir ideya üzərində qurulmuşdur. Zərdabi və onunla birlikdə bu qəzetdə çalışan bir sıra maarifpərvər, demokratik naşirlər şərqin geriliyini, ətalət və süstlüyünü həqiqi azadlığın olmamasında görürdülər. Onlar öz sözlərini dolayı yolla olsa belə, bu qəzet vasitəsi ilə xalqa çatdıra bilirdilər. O dövrdə xalqın başa düşəcəyi sadə dildə yazılan bu qəzetdə belə fikirlərin səslənməsi Azərbaycanı əsarət altında saxlayan imperiya məmurlarını ciddi narahat edirdi.

1877-ci il sentyabrın 29-da "Əkinçi" öz nəşrini dayandırmağa məcbur oldu. Azərbaycan milli mətbuatının ilk qaranquşu olan bu qəzet iki illik ömür yaşasa da xalqın milli və müasir ruhda tərbiyə

olunmasında çox böyük rol oynadı. Maarifçi və demokratik ideyaların carçısı olan "Əkinçi" realist Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərdi. Məhz buna görə də belə tərəqqipərvər qəzet mürtəce, işğalçı bir rejimin əsarəti altında çox yaşaya bilmədi.

Bundan sonra Zərdabi doğulduğu rayona gedərək 20 il orada müəllimlik etdi. 1896-cı ildə Bakıya qayıdıb "Kaspi" qəzetinə redaktorluq etməyə başladı. O, "Torpaq, su və hava", "Fiziki sağlamlığın saxlanması metodları" və bir sıra elmi pedaqoji əsərlərin müəllifi idi. 1901-ci ildə ilk qızlar məktəbinin təşkilində və 1906-cı ildə müəllimlərin ilk qurultayının işində iştirak edir. Bakı şəhər dumasına deputat seçilir.

Həyatının son illərində Həsən bəy Zərdabi Bakı Şəhər Dumasında maarif şöbəsində rəsmi vəzifədə çalışaraq Bakı və ətraf kəndlərdəki məktəblərə başçılıq etmişdir.

Gərgin elmi fəaliyyətlə məşğul olan Həsən bəy Zərdabi həddindən artıq işləyib özünü yorduğu üçün iflic olmuş və 1907-ci il noyabr ayının 28-də vəfat etmişdir. O, 1907-ci ildə köhnə Bibiheybət məscidinin yaxınlığında dəfn olunsa da, 1937-ci ildə həmin ərazi dağıdılmış, mərhumun sümükləri bir neçə il evdə ailəsinin yanında qalmışdır. 1957-ci ildə Həsən Bəy Zərdabinin vəfatının 50 illiyi qeyd olunarkən onun sümükləri Fəxri Xiyabanda dəfn olunmuşdur.

Qızı Pəri xanım Əlimərdan bəy topşubaşovun həyat yoldaşı idi.

Azərbaycan Təbiət Tarixi Muzeyi, doğulduğu rayon  Həsən bəy Zərdabinin adını daşıyır.

# Yazıçılar və şairlər

## Abbas Səhhət
(1874-1918)

Abbas Əlabbas oğlu Mehdizadə 1874-cü ildə Şamaxıda doğulmuşdur. Azərbaycan şairi, ilk təhsilini Şamaxıda almışdır. 1900-cü ildə Tehran Universitetinin tibb fakültəsini bitirmişdir. Rus, ərəb, fars və fransız dillərini bilmişdir.



1901-ci ildə Vətənə qayıdan Abbas həkimliklə yanaşı şeir yazmaqla da məşğul olmuş, ilk şeirləri 1904-cü ildə "Şərqi-Rus" qəzetində çap olunmuşdur. M.Ə.Sabirin yaxın dostu olmaqla onun ilk naşiri olmuşdur. Gənc yaşlarında lirik şeirlər yazmış, romantizmə meyl etmişdir. İctimai-siyasi görüşləri püxtələşdikcə şairin yaradıcılığında realist meyillər artmış, zamanın tələbinə uyğun, habelə uşaqlar üçün şeirlər yazmışdır. Təbiəti son dərəcə gözəl təsvir etməklə onu əkinçi məişəti ilə əlaqələndirərək mərdliyi, əməyi, zəhməti vəsf etmişdir. Abbas Səhhət "Şair, şeir pərisi və şəhərli" poemasında şairlər qarşısında xalq həyatı ilə bağlı yazmaq tələbini qoyurdu. Şəhərlinin diliylə şairə məsləhət görərək deyirdi: "Ya ər ol, ortaya çıx, gəl kömək et qardaşına"... Əgər sən şairsənsə qalx ayağa, xalqın içində axtar, ara, onların qəlbinin içindən qopar, gör vətənin dərdi nədir...

*Atəşli ürəkdən çıxan əfkarın ilə,*
*İldırımlar saçaraq fırtınalar icad et*

Abbas Səhhət uşaqlar üçün yazılmış "Yay", "Ata və oğul", "Quşlar" və onlarla başqa şeir, mahnı, təmsillərin müəllifidir. "Volqa səyahəti", "Əli və Aişə" əsərlərinin əlyazmaları itmişdir. O, tərcüməçi kimi, A. S. Puşkinin, M. Y. Lermontovun, İ. A. Krılovun, V. Hüqonun, V. Götenin və bir sıra başqa şair və yazıçıların əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Abbas Səhhət Əlabbas oğlu Mehdizadə (Abbas Səhhət) 1918-ci ildə Gəncədə vəfat etmişdir.

**Çingiz Abdullayev**
(1959)

Çingiz Akif oğlu Abdullayev 1959-cu ildə Bakıda doğulmuşdur. Yazıçı, publisist, hüquq elmləri doktoru. 1981-ci ildə ADU-nun hüquq fakültəsini bitirmişdir.



Yaradıcılıq fəaliyyətinə tələbəlik illərində başlamışdır. Detektiv mövzularda məqalə və oçerklər yazmışdır. XX əsrin 80-90-cı illərdə "Qolubıye Anqelı" (Mavi mələklər), "Oxota na çeloveka"(Adam ovu), "Zakon neqodyayev" (Əclafların qanunu), "Oxota na prezidenta" (Prezidentin ovlanması), "Mrak pod solntsem" (Günəş altında zülmət), "Alternativa dlya qreşnikov" (Günahkarlar üçün alternativ) "Den lunı" (Ay günü) və s. adlarla 80-dən artıq kitabı nəşr olunmuşdur. Əsərləri xarici dillərə tərcümə olunmuşdur. Çap olunmuş əsərlərinin ümumi tirajı 20 milyondan çoxdur.

Çingiz Abdullayev Azərbaycan Yazıçılar Birliyinin katibi, H. Z. Tağıyev adına Xeyriyyə Cəmiyyətinin sədri, Krakov Universitetinin fəxri professorudur.

Azərbaycanın ədəbi həyatında fəal iştirakına görə Çingiz Abdullayev 2009-cu il aprel ayının 7-də "Şöhrət" ordeni ilə təltif edilmişdir.

# Şaiq Abdulla
(1881-1959)

Abdulla Şaiq Talıbzadə 1881-ci il fevralın 25-də Tiflisdə ruhani ailəsində anadan olmuşdur Romantik, gözəl nasir, dramaturq, tərcüməçi, sayımlı pedaqoq, maarif və mədəniyyət xadimi, ədəbiyyatşünas-folklorçu kimi tanınmışdır. 1883-cü ildə ailə durumu ilə bağlı anası Mehri xanım oğlanları Yusifi və Abdullanı da götürüb Xorasana getmiş, burada Yusif dini məktəbdə, Abdulla isə Mirzə Yusif adlı ziyalının üsuli-cədid məktəbində oxumuşdur. Azərbaycan və rus dillərində apardığı kitabları oxumaqla bərabər, fars ədəbiyyatını, məntiq, psixologiya və başqa elmləri də öyrənmiş, şərq ədəbiyyatına həvəs göstərmişdir. İ.A. Krılovun bir neçə təmsilini fars dilinə çevirdikdən sonra özü lirik qəzəllər yazmağa başlamışdır.



A. Şaiq 1901-ci ildə həmişəlik Bakıya köçmüşdür. N. Nərimanovun köməyi ilə Birinci Aleksandrovski gimnaziyasında imtahan verərək müəllimlik hüququ qazanmış və ömrünün otuz ildən çoxunu maarif və məktəb işinə bağlamışdır.

A. Şaiq yaradıcılığına tərcümə və qəzəllə başlasa da, ilk mətbu əsəri "Laylay" adlı uşaq şeridir. O, 1906-cı ildən başlayaraq silsilə şerləri ilə milli uşaq poeziyamızın incilərini yaratmışdır. "Uşaq gözlüyü", "İkinci il", "Gülzar" kimi bir çox yeni tipli dərsliklər meydana gətirmişdir. Xalq ədəbiyyatının gözəl bilicisi olan, onu hələ uşaq ikən Sarvanda əmiləri Əlidən və Məmmədən öyrənən, sonralar toplayıb araşdıran A. Şaiq bu örnəklər əsasında "Tıq-tıq xanım", "Tülkü həccə gedir", "Yaxşı arxa" kimi mənzum nağıllar da yazmışdır. Azərbaycan uşaq dramaturgiyasının, uşaq teatrının yaranma və inkişafında böyük xidməti olmuşdur. O, 1910-cu ildə yazdığı "Gözəl bahar" pyesi ilə milli uşaq teatrının özülünü qoymuşdur.

Nəsr yaradıcılığına 1905-ci ildə romantik "İki müztərib və ya əzab və vicdan" yarımçıq romanı ilə başlayan Şaiq "Məktub yetişmədi", "Köç", "Daşqın", "İntiharmı, yaşamaqmı", "Göbələk", "İblisin huzurunda", "Dursun", "Əsrimizin qəhrəmanlar"ı kimi bir çox dəyərli hekayə, povest və romanlar yazmışdır.

O, həm də qadınlar üçün jurnal çıxarmaq, uşaq bağçası açmaq, kitabxana yaratmaq, kasıb uşaqları pulsuz oxutmaq kimi xeyirxah təşəbbüslər irəli sürmüşdür.

Ədib ADR dövründə maarif və məktəb yönümündəki işini daha da canlandırmış, bir neçə məktəbi milliləşdirmiş, rus məktəblərində Azərbaycan türkü sinifləri yaratmışdır. "Türk çələngi", "Türk ədəbiyyatı", "Milli qiraət" kimi dərsliklər hazırlamışdır. Dövlətin yaratdığı proqram və dərsliklər yaradan komissiyasının üzvü kimi çalışmışdır.

"Vəzifə", "Özü bilsin, mənə nə?", "Anabacı", "Əsəbi adam" kimi silsilə hekayələri, "Araz" inqilabi-tarixi mövzulu romanı, elm, maarif və mədəniyyət haqqında bir sıra məqalələri ədəbi mühitdə maraqla qarşılanmışdır. O, həm də "Tənqid-Təbliğ" teatrı üçün əsərlər yazmışdır.

Azərbaycan Gənc Tamaşaçılar Teatrının, Uşaq və Gənclər nəşriyyatının işi birbaşa Şaiqin adı ilə bağlıdır. Uzun müddət bu teatrda çalışan ədib "Xasay", "Eloğlu", "Vətən", "Fitnə", "Qaraca qız" kimi çeşidli pyeslər yazmışdır.

A. Şaiq türk, rus fars, tatar, litvalı, özbək, gürcü, tacik və başqa millətlərin ziyalıları ilə dostluq etmiş, bütün xalqların ədəbiyyatından seçimli əsərləri dilimizə çevirmişdir. Firdovsinin "Şahnamə"sindən bir parça, Şekspirin "Maqbet", C. Sviftin "Qulliverin səyahəti", Puşkin, Lermontov, Krılov, Qorki, Nekrasov və başqa yazıçıların əsərləri dilimizdə A. Şaiqin çevirməsində səslənmişdir.

. Ədib 1959-cu ildə iyulun 24-də dünyasını dəyişmişdir.

# İldırım Almas
# (1907-1952)



İldırım Almaszadə 1907-ci ildə Bakının qədim Çəmbərəkənd məhəlləsində tacir ailəsində anadan olmuşdur. Onun adını atası Əbdülməhəmməd kişi Əbdülhəsən qoymuşdu. Lakin oğlunu öz atasının adı ilə "Almas" çağırarmış. Tale elə gətirib ki, sonralar hamı ikinci ada üstünlük verib. Şer yazmağa başlayanda İldırım təxəllüsünü qəbul edən gənc "Almas İldırım" kimi tanınmağa başlayıb.

O zaman Bakıda "İttihat" adlı məktəb fəaliyyət göstərirdi. İran hökuməti tərəfindən maliyyələşdirilən bu məktəbdə dərslər Azərbaycan dilində keçirilsə də onun proqramında fars dili geniş yer tuturdu. 1925-ci ildə bu məktəbi bitirən Almas İldırım sonra Abdulla Şaiqin məktəbində oxuyub. O vaxt bu məktəb müəllimlik sənəti üzrə mütəxəssislər hazırlayırdı. Məktəbdə dərs deyən müəllimlər arasında Abdulla Şaiqin özü, Seyid Hüseyn və başqa məşhur ziyalılar var idi. Məktəbdə oxuyarkən dövrü mətbuatda şeirləri ilə çıxış edən Almas İldırım 1927-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinə daxil olub. Lakin burada təhsilini tamamlamaq ona qismət olmayıb. Tacir övladı olduğunu bəhanə gətirərək gənc tələbəni ali məktəbdən qovublar. Bir faktı xatırlayaq ki, Almas İldırım Mikayıl Müşfiq, Rəsul Rza, Hüseyn Cavid, Seyid Hüseyn, Cəfər Cabbarlı, Abdulla Şaiq, Tağı Şahbazi, Hacıkərim Sanılı kimi qələm sahibləri ilə birlikdə ədəbi fəaliyyətlə məşğul olurdu. Almas İldırım yurduna bağlı, vətənini, millətini çox sevən istedadlı qələm sahibi idi. Lakin o dövr cəmiyyətdə gedən münaqişələr onun da taleyinə çox əzablı məqamlar bəxş etdi. Ona əvvəlcə, "millətçi" damğası vuraraq Dağıstana sürgün etdilər. Bununla yanaşı Almas İldırımı "xırda burjua" yazıçısı adlandıraraq Azərbaycan Proletar Yazıçılar Cəmiyyətindən xaric etdilər. Dağıstandan sonra onu Türkmənistana sürgün ediblər. Orada bir müddət məktəb direktoru vəzifəsində çalışır. Təzyiqlərə dözməyib 1933-cü ildə İrana qaçmaq qərarına gəlir. Məşhəddə İran hərbçiləri tərəfindən saxlanılaraq 25 gün məhbəs həyatı keçirir. Azadlığa çıxdıqdan sonra Türkiyəyə köçür və burada jurnalist kimi çalışır. 1952-ci ildə Şərqi Anadolunun Elazığ şəhərində dünyasını dəyişir.

1991-cü ildə şairin oğlu Azərbaycana baş çəkərkən qəflətən vəfat edir və Abşeronun Şüvəlan kəndində dəfn olunur.

# Anar
(1938)

Anar Rəsul oğlu Rzayev 1938-ci ildə Bakıda doğulmuşdur. Yazıçı, dramaturq, ssenarist və kinorejissor. Azərbaycanın əməkdar incəsənət xadimi, xalq yazıçısı, respublika Dövlət mükafatı laureatı. 1960-cı ildə ADU-nun filologiya fakültəsini bitirmişdir. 1964-cü ildə Ali ssenaristlər kursunu, 1974-cü ildə Ali rejissorluq ustalığı kursunu bitirmişdir. Xalq şairləri Rəsul Rzanın və Nigar Rəfibəylinin oğludur.



Anar 1960-cı ildən çap olunur. 50-dən artıq kitabın müəllifidir. Onun "Ağ liman", "Dantenin yubileyi", "Beşmərtəbəli evin altıncı mərtəbəsi" povestləri, "Keçən ilin son gecəsi", "Şəhərin yay günləri" pyesləri sevinclə, kədərlə, qayğılarla yaşayan böyük şəhərin sakinlərinə həsr olunmuşdur. "Əlaqə" adlı elmi-fantastik əsəri Azərbaycan ədəbiyyatında bu janrda yazılmış ən yaxşı əsərlərdən biridir. Anar bir sıra bədii əsərlərin müəllifidir. O, "Yer, su, od, hava", "Gün keçdi", "Sönmüş ocaqların işıqları" və s. Rejissor kimi Y. Əzimzadə ilə birlikdə özünün "Dantenin yubileyi", "Üzeyir Hacıbəyov. Uzun ömrün akkordları", "Qəm pəncərəsi" əsərlərini lentə almışdır. Anarın ssenarilərində müasir tematika üstünlük təşkil etməklə, kəskin mənəvi problemlər tədqiq olunur. O, dəfələrlə tarixi keçmişə müraciət etmişdir. Anar habelə ədəbiyyatşünaslıq, incəsənət və bir sıra başqa sahədə oçerklərin, məqalələrin müəllifidir. Əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur.

Anar Rəsul oğlu Rzayev (Anar) 1987-ci ildə Azərbaycan Yazıçılar İttifaqının birinci katibi seçilmiş, 1991-ci ildən Azərbaycan Yazıçılar Birliyinin sədridir. Dəfələrlə SSRİ və Azərbaycan SSR Ali sovetlərinə və Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmişdir. Bir sıra orden və medallarla təltif olunmuşdur.

**Həmid Araslı**
(1909-1983)

Həmid Məmmədtağı oğlu Araslı 1909-cu ildə Gəncədə doğulmuşdur. Şərqşünas alim. Filologiya



elmləri doktoru, professor, Azərbaycan EA-nın akademiki, ədəbiyyatçı, tənqidçi. İlk təhsilini mollaxanada almış, sonra Gəncədə gimnaziyanı bitirmişdir. 1932-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini bitirmişdir. Özbəkistanın əməkdar elm xadimi, Türk Dil Qurumunun və İraq EA-nın fəxri üzvü olmuşdur.

H. Araslı Azərbaycan Dövlət Pedaqoji İnstitutunda və Azərbaycan Dövlət Universitetində dərs demişdir. Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, Yaxın və Orta Şərq Xalqları İnstitutunun elmi işçisi, 1969-83-cü illərdə isə direktoru olmuşdur. Nizami, Xaqani, Şirvani, Füzuli, Nəsimi, Saib Təbrizi, Nəvai, Xətai, Vaqif, Vidadi və bir sıra başqa görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığından bəhs edən 500-dən artıq əsəri çap olunmuşdur. "Kitabi Dədə Qorqud", "Koroğlu" dastanları və aşıq yaradıcılığı ilə bağlı onlarla məqalənin müəllifidir. H. M. Araslı ali və orta məktəblər üçün ədəbiyyat dərsliklərinin tərtibçisidir. Əsərləri ingilis, rus, ərəb, fransız, türk və özbək dillərində nəşr olunmuşdur.

Həmid Məmmədtağı oğlu Araslı orden və medallarla təltif olunmuşdur. 1983-cü ildə Bakıda vəfat etmişdir.

Oğlu Elman Araslı (1934-2014) şərqşünas alim, filologiya elmləri doktoru kimi bir sıra qiymətli əsərlərin müəllifiidir. O, 1980-1984-cü illərdə SSRİ-nin İordaniya, Yəmən səfirliyində çalışmışdır. Azərbaycanın Səudiyyə Ərəbistanı və İordaniyada səfiri olmuşdur.

# Aşıq Ələsgər
(1821-1926)

Ələsgər Alməmməd oğlu 1821-ci ilin baharında İrəvan xanlığının Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. Atası Alməmməd əkinçiliklə məşğul olan, kənddə sayılan adamlardan olmuş, həm də ilhamlı şair kimi tanınmışdır.



Güclü şairlik istedadı olan Aşıq Ələsgər böyük ustad Aşıq Alıya şəyirdlik etmiş,ondan aşıqlıq sənətinin sirlərini öyrənmiş, klassik və milli şeirilərin forma və məzimun zənginliyinə yiyələnimişdir.

Aşıq Ələsgər özündən əvvəl və sonra yaşamış ustad aşıqların fövqünə qalxmış və sənətin əlçatmaz zirvəsinə dönmüşdür. Onun qoşma, gəraylı, təcnis, müxəmməs və başqa formada yazdığı şeirlər Azərbaycan poeziyasının qızıl incilərindəndir.

Aşıq Ələsgər dərin biliyə, böyük zəkaya, geniş dünyagörünüşə malik bir sənətkar olmuşdur.

1915-ci ildə ailə həyatında baş verən faciələrdən sonra əlinə saz alıb çalıb-çağırmamışdır

Aşıq Ələsgər aşıqlıq etdiyi müddətdə 12 nəfər kamil sənətkar yetişdirmişdir. Bu sənətkarlar arasında məşhur Aşıq Nəcəf (1919-cu ildə ermənilər tərəfindən öldürülüb) və Aşıq Əsəd də olmuşdur.

Məşhur rus şairi Yakov Polonski 19-cu əsrin 40-cı illərində Aşıq Ələsgərlə görüşmüş və bu görüşün təsiri altında "Закавказский Вестник" qəzetində xüsusi bir məqalə dərc etdirmişdir.

Onun dillər əzbəri olan şeirlərinin müəyyən hissəsini ilk dəfə Hümmət Əlizadə toplayıb 1934, 1935, 1937-ci illərdə nəşr etdirmişdir. Sonralar isə onun əsərlərinin mükəmməl nəşrini nəvəsi İslam Ələsgərov hazırlamışdır.

Aşıq Ələsgər 1926-cı ildə vəfat etmişdir. Məzarı Ağkilsə kəndinin qəbiristanlığındadır. Qəbirinin üstündə abidə ucaldılmışdı.

# Mirzə Fətəli Axundov
(1812-1878)

Mirzə Fətəli Mirzə Məhəmmədtağı oğlu Axundov 1812-ci ildə Şəkidə doğulmuşdur. Yazıçı-maarifçi, filosof, dramaturq. Fətəli iki yaşı olanda atası vəfat etmiş, anası oğlu ilə Təbrizə köçmüşdür. Burada ilk ruhani təhsili alaraq fars və ərəb dillərini öyrənmişdir. 1825-ci ildə onlar Şəkiyə qayıdırlar. Fətəli burada yenicə açılmış rus məktəbində təhsilini davam etdirir.



1834-cü ildə Axundovlar ailəsi Tiflisə köçür. Burada qəza məktəbində türk və fars dillərindən dərs deyən M. F. Axundov, A. A. Bakıxanovla və onun vasitəsilə Qafqaza sürgün olunmuş dekabrist yazıçı Bestujev-Marlinski ilə tanış olur. Sonuncunun baxışları M. F. Axundova böyük təsir göstərir. 1834-1861-ci illərdə M. F. Axundov çar canişininin dəftərxanasında tərcüməçi işləməklə polkovnik rütbəsinə qədər yüksəlir. M. F. Axundovun ilk əsəri "Puşkinin ölümü" mənzum poeması 1837-ci ildə Moskvanın "Nablyudatel" jurnalında çap olunmuşdur. M. F. Axundov inkişaf edən milli burjuaziyanın qızğın tərəfdarı olmaqla yanaşı, Azərbaycan həyatının Avropa həyat tərzinə yaxınlaşması uğrunda çalışırdı. Bu ideyaları "Müsyö Jordan və dərviş Məstəli şah", "Hacı Qara", "Lənkəran xanının vəziri", "Aldanmış kəvakib" və başqa əsərlərində həyata keçirirdi. Özünün fəlsəfi baxışlarını "Kəmalüddövlə məktublarında" və "Filosof ingilis Yuma cavab" və başqa elmi traktatlarında inkişaf etdirmişdir. M. F. Axundovun əsərlərinin Azərbaycan və Yaxın Şərq xalqlarının ictimai fikrinin və ədəbiyyatının inkişafına böyük təsiri olmuşdur. Onun əsərləri ingilis, alman, rus, fransız, fars, türk və bir sıra başqa dillərə tərcümə olunmuşdur.

Mirzə Fətəli Mirzə Məhəmmədtağı oğlu Axundov 1878-ci ildə Tiflisdə vəfat etmişdir. Onun haqqında onlarla məqalələr, poemalar, dram əsərləri, monoqrafiyalar yazılmışdır. Azərbaycanın bir çox şəhərlərində küçə, məktəb və mədəniyyət ocaqlarına onun adı verilmişdir. Tiflisdə qəbiri üstündə abidəsi qoyulmuş, ev muzeyi açılmışdır.

Respublika Milli Kitabxanası və Azərbaycan Opera və Balet teatrı onun adını daşıyır. Bakı kinostudiyasında haqqında "Səbuhi" adlı bədii filmi çəkilmişdir. Əsərləri dəfələrlə səhnəyə qoyulmuş, filmə çəkilmişdir.

# Süleyman Sani Axundov
(1875–1939)



Azərbaycan dramaturqu, mühərriri, uşaq ədəbiyyatı yazıçısı və müəllimi. Ədəbiyyatda həmsoyadı Mirzə Fətəli Axundovdan fərqlənmək üçün ərəbcə "ikinci" mənasını daşıyan Sani sözünü özünə ləqəb götürmüşdür.

Süleyman Sani Axundov 3 oktyabr 1875-ci ildə Şuşada bəy ailəsində dünyaya gəlib və 1894-cü ildə Qori Müəllimlər Seminariyasını bitirib. Ömrünün axırınadək tədris və jurnalistika ilə məşğul olub. O, 1906-cı ildə işıq üzü görən və "İkinci il" adlanan Azərbaycan dili dərsliyinin müəllifidir. Sovet İttifaqının yaranmasından sonra qısa müddət ərzində Dağlıq Qarabağ Muxtar Vilayətinin təhsil naziri vəzifəzində çalışıb. İlk bədii əsərini - "Tamahkar"ı 1899-cu ildə qələmə alıb. 1912–1913-cü illərdə Süleyman Sani Axundov beş hissədən ibarət "Qorxulu nağıllar" kitabını yazıb. Kasıbçılıqdan və haqsızlıqlardan bəhs etdiyinə görə bu nağıllar Sovet zamanı uşaq ədəbiyyatı aləmində böyük şöhrət qazanıb. 1920-ci ildən sonra yazılan əsərlərdə, Axundov qəddarlığı, köhnə mühafizəkar ənənələri və geriliyi tənqid atəşinə tutmağa davam edib.

Süleyman Sani Axundov 29 mart 1939-cu ildə Bakıda vəfat edib

## Cəfər Cabbarlı
(1899-1934)

Cəfər Qafar oğlu Cabbarlı 1899-cu ildə Bakı yaxınlığındakı Xızı kəndində doğulmuşdur. Yazıçı şair, dramaturq, musiqiçi, teatr xadimi, Azərbaycanın əməkdar incəsənət xadimidir. İlk təhsilini rus-tatar məktəbində, sonra isə sənaye və teatr texnikumunda oxumuş, Azərbaycan Dövlət Universitetinin şərq fakültəsini bitirmişdir.



İlk "Bahar" şeirini 1915-ci ildə "Məktəb" jurnalında dərc etmişdir. 1915-16-cı illərdə "Babayi-Əmir" jurnalında bir sıra satirik şeirlərini, habelə duma üzvlərini tənqid edən felyetonlar dərc etdirmiş və buna görə bir neçə gün jandarmeriyanın qazamatında yatmışdır. Onun ilk pyesləri "Vəfalı Səriyyə", "Solğun çiçəklər", hekayələri "Aslan və Fərhad", "Mənsur və Sitarə" sosial bərabərsizliyə, geriliyə, qadın hüquqsuzluğuna, haqsızlığa, çörəkitirən, qaniçən namussuzlara qarşı yönəlmişdi. "Nəsrəddin şah" tarixi dramında İrandakı feodalizm ifşa olunur. "Aydın" və "Oqtay Eloğlu" pyesində rəzil, qurdlu, ikiüzlü, vicdansız, qaniçən olan varlıları tənqid etməklə sadə qəlbli zəhmət adamlarının faciəsinə, halına acıyır. "Od gəlini" tarixi romantik dramı feodal zülmünə qarşıdır. Bəstəkar Ə. Bədəlbəylinin eyni adlı əsərə balet yazdığı "Qız qalası" poeması feodal şərqində qadın hüquqsuzluğuna qarşı yazılmışdır. Ümumiyyətlə, C. Cabbarlı qadın hüquqsuzluğuna qarşı bir sıra əsər, "Sevil", "Dilarə", "Dilbər", "Gülzar" dramatik pyes və hekayələr yazmışdır. "Sevil" pyesinin motivləri əsasında F. Əmirov opera yazmış, səhnədə oynanılmış, film-balet lentə alınmış və bədii film çəkilmişdir. C. Cabbarlının "Almas" və "Yaşar" pyeslərində Azərbaycan kəndinin o dövrkü real həyatı öz əksini tapmışdır. "1905-ci ildə" əsərində xalqlar dostluğu çox incə şəkildə tərənnüm olunur. Cəfər Cabbarlı Azərbaycan teatrının bədii rəhbəri və rejissor kimi Azərbaycan teatrının işində yaradıcı şəkildə fəal işləməklə onun inkişafına kömək edirdi. Onun tənqidi məqalələri Azərbaycan teatrı və dramaturgiyasının inkişafını istiqamətləndirmişdir. C. Cabbarlı Qliyerin "Şahsənəm" operasına libretto və bir sıra filmlərə kinossenari yazmışdır. O, F. Şillerin, J. Bomarşenin, A. Afinoqenovun və V. Şekspirin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. C. Cabbarlının özünün əsərləri dünyanın bir sıra dillərinə tərcümə olunmuş, pyesləri ən böyük səhnələrdə oynanılmışdır. O, öz dram əsərində oxunan mahnılara musiqi bəstələmişdir.

Cəfər Qafar oğlu Cabbarlı (Cəfər Cabbarlı) 1934-cü ildə Bakıda vəfat etmişdir. Xızıda və Bakıda ev muzeyi açılmış, Bakıda və Sumqayıtda heykəlləri qoyulmuşdur. Bakı kinostudiyası, Gəncə Dövlət Dram Teatrı, İrəvan Azərbaycanlı Dram Teatrı, Respublika Teatr Muzeyi, məktəb və kitabxana, Azərbaycanın bir sıra şəhərlərində küçələr və s. mədəni müəssisələr onun adını daşıyır.

**Əzizə Cəfərzadə**
(1921-2003)

Əzizə Məmməd qızı Cəfərzadə 1921-ci il dekabrın 29-da Bakıda doğulmuşdur. Yazıçı, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor.



"Ölüm mələyi" adlı ilk povestini 16 yaşında yazmışdır. "Aləmdə səsim var mənim", "Vətənə qayıt", "Xatırla məni", "Anamın nağılları" və başqa tarixi roman və povestlərin müəllifidir. Görkəmli Azərbaycan şairi və qüdrətli sərkərdə I Şah İsmayıl Xətainin həyat və yaradıcılığına həsr olunmuş "Bakı 1501-ci ildə" əsəri Azərbaycan tarixi ilə bağlı yazılmış ən yaxşı romanlardan hesab olunur. Roman habelə Azərbaycanın XVI əsr tarixindən və səfəvilərin şiəliyi güclü şəkildə inkişaf etdirməklərindən bəhs edir. Ə. Cəfərzadə həm də ədəbiyyatşünaslıqla bağlı bir sıra əsərlərin müəllifidir.

Əzizə Cəfərzadənin Azərbaycan elmi və ədəbiyyatı qarşısında göstərdiyi xidmətlər yüksək qiymətləndirilmişdir. O, dönə-dönə müxtəlif fəxri fərmanlar, "Xalqlar dostluğu" ordeni və müstəqil Azərbaycanın "Şöhrət" ordeni ilə təltif edilmişdir. Azərbaycan Respublikası prezidentinin fərdi təqaüdçüsü idi. Azərtelefilm birliyi onun həyat və yaradıcılığı haqqinda 2 telefilm çəkmişdir. Əzizə xanımın ən böyük mükafatı isəxalqin ona qarşı olan böyük məhəbbəti idi. Bu sevginin məntiqi nəticəsi kimi, o 2001-ci ildə "Azərbaycan Anası" və "Xalq Yazıçısı" kimi yüksək adlara layiq görülmüşdür. Əzizə Cəfərzadə 2003-ci il sentyabrin 4-də ömrünün 82-ci ilində uzun sürən ağır xəstəlikdən sonra haqqin dərgahına qovuşmuş və vəsiyyətinə əsasən Hacıqabul rayonunun Tağılı kəndində valideynləri, həyat yoldaşı və qardaşları ilə bir məzarlıqda dəfn edilmişdir. Görkəmli yazıçı və ədəbiyyatşünas, əsl vətəndaş və qayğıkeş insan olan Əzizə Cəfərzadənin işiqlı xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

## Yusif Vəzir Çəmənzəminli
(1877-1943)

Yusif Mirbaba oğlu Vəzirov 1877-ci ildə Şuşanın Çəmənzəminli kəndində doğulmuşdur. 1915-ci ildə Kiyev Universitetinin hüquq fakültəsini bitirmişdir. On bir dil bilmişdir. Y. V. Çəmənzəminli 1906-cı ildən çap olunmağa başlamışdır. "Ağsaqqal", "Qoz ağacı", "Cənnətə vəsiqə", "Şahqulunun xeyriyyə işi" adlı və s. Hekayələri "Keçmişin səhifələri" adlı topluda sonralar çap olunmuşdur. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın şəhər və kəndlərinin həyatını burada əlvan boyalara əks etdirmişdir. "Polis şineli", "Zeynal bəy" kimi əsərləri çarizmin Azərbaycanda apardığı qəddar siyasətə həsr olunmuşdur. Y. V. Çəmənzəminli universiteti bitirdikdən sonra Simferopol, Odessa, Saratov, İstanbul və Parisdə yaşamışdır.



Yusif Vəzir bir müddət Bakıda qaldıqdan sonra Azərbaycan Xalq Cumhuriyyətinin Nazirlər Çurasının sədri Nəsibbəy Usubbəyovun təklifi ilə 1919-cu ildə yeni yaranmış Respublikanın səfiri kimi İstanbula göndərilir. Yusif Vəzir İstanbulda diplomatik işlə məşğul olmaqla yanaşı, öz ədəbi fəaliyyətini də davam etdirir. Belə ki, Azərbaycanı və Azərbaycan ədəbiyyatını türk aləminə tanıtmaq üçün elmi müşahidələrlə zəngin olan "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi "coğrafi və iqtisadi Azərbaycan" adlı kitablarını yazıb 1921-ci ildə onları İstanbulda çap etdirir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Yusif Vəzir tutduğu vəzifəsini artıq bitmiş olduğunu elan edib, Parisdə siyasi elmlər institutunun diplomatika fakültəsində təhsil alan kiçik qardaşı Mirinin (Mirabdulla) yanina gedir.

Ümumittifaq İcraiyyə Komitəsinin 18 yanvar 1926-cı il tarixli qərarına əsasən Yusif Vəzir sovet vətəndaşlığına daxil olur. Həmin il Vətənə qayıdıb yaradıcılıqla məşğul olmuş, qəzet və jurnallarla əməkdaşlıq etmişdir.

Yusif Vəzir ilk əvvəl "Bakı işçisi" nəçriyyatında bədii şöbənin redaktoru, sonralar Dövlət Plan Komitəsinin ictimai-mədəni bölməsində ixtisası üzrə vəkil işləmiş və eyni zamanda müəllimliklə də məşğul olmağa başlamışdı. Əvvəlcə, Azərbaycan Dövlət Universitetinin şərqşunaslıq və pedaqoji fakültəsində, sonralar isə Pedaqoji, Tibb və Neft institutlarında Azərbaycan və rus dilləri kafedrasında dərs demişdi. Eyni zamanda Yusif Vəzir Ruhulla Axundovun redaktəsi ilə çıxmış "Rusca-Azərbaycanca lüğət"in müəlliflərindən biri olmuşdu. Azərbaycan dilində terminologiyanın yaradılmasında da Yusif Vəzir Çəmənzəminlinin böyük xidməti olmuşdur.

Yusif Vəzir 1930-35-ci illərdə Azərbaycan Neft İnstitutunda işləyən zaman, həmin institutda çıxan "Əzizbəyov adına Azərbaycan qızıl Bayraqlı Neft İnstitutunun əxbarı" jurnalında "Neft və onun tarixi" adlı məqaləsi ilə bərabər bir çox məqalələr yazıb çap etdirmişdir.

1937-ci ildə cürbəcür bəhanələrlə işdən kənar edilir.i

1938-ci ildə “Kommunist” qəzetində çıxan bir elanda bildirilirdi ki, Özbəkistan SSR-nin Urgənc şəhərindəki Xorəzm Vilayət Pedaqoji institutunda rus dilində dərs deməyə meəllim yeri tutmaq üçün müsabiqə elan olunur. Yusif Vəzir sənədlərini toplayıb Urgənc şəhərinə göndərir. Müsabiqədən keçib rektorluqdan dəvət alır. 1938-ci ilin avqust ayında Yusif Vəzir Urgəncə yola düşür. O, Urgənc pedaqoji instituta baç müəllim və eyni zamanda institut kitabxanasına müdir təyin olunur.

Yusif Vəzir Çəmənzəminli Stalin repressiyasının qurbanı olmuşdur. 1937-38-ci illərdə represiyaya məruz qalan Azərbaycanın bir qrup elm və mədəniyyət xadimlərindən B.Çobanzadə, N.Şahsuvarov, H.Zeynallı, H.Nəzərli və başqalarının verdikləri ifadələr əsasında 1940-cı il yanvar ayının 25-də Yusif Vəzir Urgəncdə həbs edilib Bakıya gətirilir. O, altı aya yaxın Keşlə həbs düşərqəsində saxlanıldıqdan sonra 1940-cı ilin iyul ayının 3-də Nijni Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərqəsinə göndərilir və1943-cü il yanvar ayının 3-də həbs düşərgəsində vəfat edir.

Çəmənzəminlinin ilk “Studentlər” romanının mövzusu yazıçının Kiyev həyatından götürülmüşdür. 1936-37-ci illərdə Qarabağ xanının vəziri böyük şair Vaqifin həyatından bəhs edən “Qan içində” və 1961-ci ildə çap olunmuş “İki od arasında” əsərlərini yazır. “Qızlar bulağı” “Həzrəti Şəhriyar” və bir sıra başqa roman, komediya və ssenarilər onun qələminin məhsuludur. Y. V. Çəmənzəminlinin əsərləri dilinin sadəliyi, yumşaq bədii təsviri və özünəməxsus lirik çalarlarıyla seçilir. Onun əsərləri Parisdə, İstanbulda nəşr olunmuşdur.

Bakıda və Şuşada küçə, məktəb, kitabxana, respublikada bir sıra başqa mədəni-maarif müəssisələri onun adı ilə adlandırılmışdır.

## Əhməd Cavad
(1892-1937)

Cavad Məmmədəli oğlu Axundzadə 1892-ci ildə Şəmkir rayonunun Seyfəli kəndində doğulmuşdur. İbtidai təhsilini evdə almış, 18 yaşında Gəncə mədrəsəsi adlanan ruhani seminariyasını bitirmişdir. Səkkiz yaşında atasını itirən Əhməd Cavad onun çox böyük varidatının varisi olmuşdur.



1914-18-ci illərdə Rus-alman müharibəsi dövründə xeyriyyə fondu yaradaraq müharibədə yaralanan və həlak olanların ailələrinə, yetimlərə yardım etmişdir. 1912, 1916, 1918-ci illərdə Türkiyədə olmuşdur. Ermənilər azərbaycanlılara qarşı soyqırım törədəndə türk ordusunu yardıma çağıranların ilk təşəbbüsçülərindən olmuşdur. Əhməd Cavad 13 yaşından çap olunmağa başlamışdır. İlk şeirlər məcmuəsi 1916-cı ildə çap olunmuşdur. Azərbaycan dövlət himninin mətninin müəllifidir. (Musiqisi Üzeyir Hacıbəyovundur). "Azərbaycan, Azərbaycan", "Can Azərbaycan", "Yaralı quş", "Biz qardaş deyilikmi", "Bir gün", "Bayram", "Mən olaydım", "Kür", "Dünən" və bir sıra onlarla gözəl şeir və mahnıların müəllifidir. Ə. Cavad Şekspirin "Otello" əsərini, A. Puşkinin, Ş. Rustavelinin və bir sıra başqa xarici müəlliflərin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Azərbaycanda sovet hakimiyyətinin ilk illərində Əhməd Cavad Qubada və Bakıda müəllimlik etmiş, proletar yazıçıları cəmiyyətinin sədri, Bakı kinostudiyasında redaktor olmuşdur. Kollektivləşmə dövründə Ə. Cavad özünün bütün mülkiyyətini kənddəki kolxoza bağışlamışdı.

Cavad Məmmədəli oğlu Axundzadə (Əhməd Cavad) Stalin repressiyasının qurbanı olmuş, 1937-ci ildə üçüncü dəfə həbs olunduqdan sonra oktyabrın 12-dən 13-nə keçən gecə güllələnmiş, ailəsi sürgün olunmuşdur. Beləcə, Azərbaycanın ən yaxşı oğullarından birinin həyatına son qoyuldu. Bakı küçələrindən biri onun adı ilə adlandırılmışdır.

## Məhəmməd Füzuli
(1494-1556)

1494-cü ildə Kərbəlada doğulmuşdur. Şair-filosof. Doğma türk-azərbaycan, ərəb və fars dillərində yazmışdır. Hərtərəfli təhsil almışdır.



Qəzəl və qəsidələri, dördlükləri təkcə Azərbaycan ədəbiyyatında deyil, bütün türkdilli xalqların poeziyasında yeni parlaq bir səhifə açmışdır. Azərbaycan dilində yazdığı "Leyli və Məcnun" poeması bütün Yaxın Şərq ölkələrində ən populyar kitab olmuşdur. Ərəb dilində yazılmış "Mətlə-ül-etiqad" adlanan fəlsəfi əsəri habelə ərəb və fars divanları geniş vüsət tapmışdı. Füzuli poeziyasının qeyri-adiliyi insanın daxili aləminə yaxınlığında idi. Şeirlərindəki qəm, kədər, iztirab, sevgilisinin gözəlliyi ilə heyrətlənərək kamil məhəbbətə, sevgisinə əbədi əlçatmazlıq Füzuli lirikasının əsasını təşkil edirdi. Füzuli hesab edirdi ki, məhəbbət qəhrəmanlıq tələb edir, onunçün mübarizə aparmaq lazımdır. Məhəbbət qanunlara, adət-ənənələrə, doğmalara qarşı durur, onlar tərəfindən sıxışdırılır, alçaldılır, təhqir olunur. Ancaq böyük qəlbə və mənəvi gücə malik insan həyatın ağır zərbələrinə davam gətirə bilər, çünki məhəbbət hər şeydən əvvəl iztirabdır. Füzuli hesab edir ki, kim sevirsə, o iztirablarından mənəvi zövq alır.

*Ya Rəbb bəlayi eşq ilə, qıl aşina məni,*
*Bir dəm bəlayi eşqdən, qılma cüda məni.*

Füzulinin poeziyası hər cür zorakılığa qarşı nifrət hopmuş humanist poeziyadır. Onun "Ənisül-qəlb" qəsidəsi antifeodal haqsızlığa qarşı çıxan sosial kəskinliyi ilə fərqlənir. O, aldadıcı həyata uymamağı sağlam həyat tərzi keçirməyi tövsiyə edir. "Şikayətnamə" əsəri Azərbaycan bədii nəsrinin ilkin nümunəsi olmaqla, özünəməxsus siyasi satiradır. Bu əsər taledən şikayətlə bərabər, Bağdadı işğal etmiş türk sultanı I Süleymanın sarayında hökm sürən rüşvətxorluğu, haqsızlığı və hərcmərcliyi özündə təcəssüm etdirir. Sosial-fəlsəfi tematika Füzuli yaradıcılığında alleqorik poema olan "Bəngü Badə", "Meyvələrin söhbəti", "Şikayət kitabı", habelə fəlsəfi-etik tematika isə "Səhhət və Mərəz", "Rindü Zahid" kimi əsərlərində öz əksini tapmışdır.

Füzulinin bütöv bir epoxa təşkil edən, Azərbaycan dilçiliyi və ədəbiyyatını zənginləşdirib inkişaf etdirdiyi romantik poeziyası həqiqi, həyati və dünyəvi poeziyadır. Füzuli epoxasında ərəb və xüsusən də fars dilləri poeziyada hörmətdə idi. Bu dillərdə yazan Azərbaycan şairləri çoxdan qəbul edilmiş ştamplar, obraz və metaforalardan istifadə edirdilər. O vaxt Azərbaycan dilində qəzəl yazmaq çətinliyini Füzuli etiraf edərək deyirdi: "Əgər mənim gücüm çatsa, mən bu çətinliyi asanlaşdıraram". O, bu işin öhdəsindən məharətlə gəldi. İndi artıq dörd yüz ildir ki, Füzulinin qəzəlləri türkdilli xalqlar arasında yaşayır və uğur qazanır. Onun yaradıcılığı təkcə Azərbaycan ədəbiyyatına deyil, bütün Yaxın Şərq xalqlarının ədəbiyyatına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Füzulinin əsərləri bir çox xarici dillərə tərcümə olunmuş, dörd əsrdir ki, nəşr olunur. Onun əsərlərinə tanınmış fırça ustaları heyrətamiz miniatürlər yaratmışlar. Bəstəkarlardan Üzeyir Hacıbəyov "Leyli və Məcnun" operasını, Arif Məlikov və Cahangir Cahangirov simfonik poemalar, romanslar və mahnılar yazmışlar. "Leyli və Məcnun", "Məhəbbət əfsanəsi" filmləri çəkilmişdir. Füzuli haqqında monoqrafiyalar, poemalar, ədəbiyyatşünaslıq məqalələri və oçerklər yazılmışdır. Füzulinin əlyazmaları dünyanın ən zəngin London, Berlin, Qahirə, Paris, Sankt-Peterburq, İstanbul və Tehran kitabxanalarının və muzeylərinin qızıl fonduna daxil edilmişdir.

Məhəmməd Süleyman oğlu (Füzuli) 1556-cı ildə Kərbəlada vəfat etmişdir. Sonrakı nəsil onu unutmamışdır. Azərbaycan Respublikasının rayonlarından biri onun adını daşıyır. Bakıda onun adına olan meydanda həyatının və yaradıcılığının əsas qayəsini əks etdirən monumental heykəli ucaldılmışdır. Meydan, kitabxana, küçə və bir sıra mədəni-maarif ocaqları onun adıyla adlandırılmışdır. 1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti H. Ə. Əliyevin fərmanı ilə Füzuli adına beynəlxalq mükafat təsis edilmişdir.

**Ceyhun Hacıbəyli**
(1891-1962)

Ceyhun Əbdül Hüseyn oğlu Hacıbəyli 1891-ci ildə Şuşada doğulmuşdur. Publisist, ədəbiyyatşünas, ictimai xadimdir. Üzeyir Hacıbəyovun kiçik qardaşıdır. İlk təhsilini Şuşada, orta təhsilini Bakıda almışdır. Peterburq və Sarbonna universitetlərində təhsil almışdır.



Gəncliyində musiqi və teatrla maraqlanmış sonra əsaslı şəkildə ədəbiyyat və publisistika ilə məşğul olmuşdur. Parisdə yaşayaraq "Revyu de Monde musulman" jurnalında Azərbaycan türklərinin mədəniyyəti ilə bağlı mütəmadi olaraq məqalələrlə çıxış edir. Parisdən "Baku" və "Kaspi" qəzetlərinə məqalələr göndərir. 1918-ci ildə ADR bərqərar olduqda C. Ə. Hacıbəyli Bakıya qayıdaraq rusdilli "Azərbaycan" qəzetinə redaktorluq edir. 1919-cu ildə Azərbaycan nümayəndə heyətinin tərkibində Versal sülh konfransında iştirak edir. Parisdə "Azərbaycan ilk müsəlman Respublikası" kitabını nəşr etdirir, "Revyu de Monde musulman" jurnalında Andranikin başçılıq etdiyi erməni millətçi şovinist bandasının Azərbaycanda törətdiyi genosiddən 30 min insanı vəhşicəsinə qətlə yetirməsindən bəhs edən böyük məqalə ilə çıxış edir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan, Bakıda kommunist rejimi qurulduqdan sonra, C. Hacıbəyli Parisdə qalır. Fransız oxucularını Azərbaycan musiqisi, incəsənəti və ədəbiyyatı ilə tanış edir. Üzeyir Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasını fransız dilinə tərcümə edərək səhnəyə qoyuluşunda iştirak edir. Azərbaycan teatrı, ədəbiyyatı, Hüseyn Cavid, Cəfər Cabbarlı haqqında məqalələr yazır. 1928-ci ildə "Aziatik" jurnalında böyük azərbaycanlı ensiklopedist alim-filosof Abbasqulu Ağa Bakıxanov haqqında bir sıra məqalələr dərc edir. 1933-cü ildə "Aziatik-revyu" jurnalında bu gün də əhəmiyyətini itirməyən "Qarabağ azərbaycanlılarının dialekti" adlı elmi məqalə dərc etdirir. C. Hacıbəyli fransız şərqşünasları A. Beniqsen və T. Kelkejeninlə "Rusiyada 1920-ci ilədək müsəlman nəşriyyat işinin tarixi" adlı monoqrafiyanın hazırlanmasında iştirak edir (1964-cü ildə nəşr olunmuşdur)

Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli 1962-ci ildə Parisdə vəfat etmiş, Sen-Klu qəbiristanlığında dəfn olunmuşudur. Bakı küçələrindən biri onun adınadır.

## Məhəmməd Hadi
(1879-1920)



Ağaməhəmməd Hacı Əbdülsəlim oğlu - şair, ədəbiyyatşünas, tərcüməçi. 1879-cu ildə Azərbaycanda Şamaxı şəhərində tacir ailəsində anadan olmuşdur. Atasını kiçik yaşlarında itirdiyindən nənəsinin himayəsində yaşamışdır. İlk təhsilini dini mədrəsədə almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Şamaxı zəlzələsindən sonra Kürdəmirə köçmüş, burada məktəbdarlıq etmişdir (1902-1905). Həştərxanda çıxan «Bürhani-tərəqqi» qəzetinin əməkdaşı, sonra redaktoru, Bakıda «həyat» qəzeti və «Füyuzat» jurnalı redaksiyalarında müxbir olmuşdur. Azərbaycan mətbuatında şerlə ədəbi-tənqidi və publisist məqalələrlə müntəzəm çıxış etmişdir. İstanbulda çıxan «Tənin», «Sərvəti-fünun» redaksiyalarında işə dəvət olunmuş, türk ədəbi mühiti ilə sıx əlaqə saxlamışdır. Siyasi baxışlarına görə Yunanıstanın Saloniki şəhərinə sürgün edilmişdir (1912-1914). İkinci Dünya müharibəsində müsəlman alayı tərkibində ön cəbhədə olmuşdur. Ordudan tərxis edilib Gəncəyə qayıtsa da, iş tapa bilməmiş, ruhən düşkün, böhranlı həyat keçirmişdir. Bakıda «Bəsirət», «Azərbaycan» və s. qəzetlərdə əməkdaşlıq etmişdir (1918-1920). İctimai-siyasi məzmunlu şerlərində və məqalələrində elmi, maarifi təbliğ edir, dövrün haqsızlıq və rəzalətlərinə qarşı çıxır, azadlıq mübarizəsinə, Səttar-xan hərəkatına rəğbət bəsləyirdi. Əruz vəznində yazdığı şerlər və məqalələrində ərəb, fars tərkibli sözlər işlətmişdir. Milli ədəbiyyatda mütərəqqi romantizmin görkəmli nümayəndəsi hesab edilir. Nizami Gəncəvi, Ömər Xəyyam, Hafiz və b. sənətkarların poeziyasından tərcümələr etmişdir.

1920-ci ilin mayında vəfat etmişdir.

# Əbdürrəhim Haqverdiyev
(1870-1933)

Əbdürrəhim Əsəd bəy oğlu Haqverdiyev 1870-ci ildə Şuşada doğulmuşdur. Yazıçı, dramaturq, ədəbiyyatşünas, ictimai xadimdir. Azərbaycanın əməkdar incəsənət xadimidir. İlk təhsilini Şuşada, orta təhsilini Tiflis realnı məktəbində almışdır. 1899-cu ildə Peterburq Yol Mühəndisləri Institutunu bitirmişdir. İnstitutda oxuyarkən azad dinləyici kimi Peterburq Universitetinin şərq fakültəsində ədəbiyyat dərslərində mühazirələri dinləmişdir.



Ə. Haqverdiyev 1892-ci ildə "Yeyərsən qaz ətini, bilərsən ləzzətini" ilk əsərini yazır. Dramaturq kimi Azərbaycan teatr sənətinin inkişafında böyük xidmətləri olmuşdur. "Dağılan Tifaq" əsərində o, dövrdə haqsızlıqları, rəzaləti, sələmçilərin orta təbəqənin var-dövlətinin ələ keçirməsi öz əksini tapmışdır. "Bəxtsiz cavan" əsərində kəndlilərin ağır əməyi, təhsil alıb kəndə gələn bəyin öz təbəqələrini müdafiə etməsi öz əksini tapır. "Pəri cadu" əsərində əyalət həyatı bütün çılpaqlığı ilə canlanır, qadınların hüquqsuzluğu, hakim sinfin haqsızlıqları tənqid olunur. Əsər uzun müddət səhnədən düşməmişdir. "Marallarım", "Xortdanın cəhənnəm məktubları", "Şeyx Şaban", "Diş ağrısı", "Mirzə Səfər" kimi əsərlərində avamlığı, cəhaləti, ikiüzlülüyü, yaltaqlığı kəskin satira atəşinə tutur.

1905-ci il inqilabından sonra Rusiya Dövlət Dumasına Gəncə quberniyasından nümayəndə seçilmiş, Peterburqa getmişdir. Burada dövlət kitabxanasında yeni əsərinə (Ağa Məhəmməd şah Qaçar) materiallar toplamış, İrana - Mazandaran vilayətinə səyahət etmişdir (1907). "Leyli və Məcnun" operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyulduğu zaman ilk Azərbaycan dirijoru kimi xor və orkestri, tamaşanı idarə etmişdir. "Nicat" cəmiyyətində və Kür-Xəzər gəmiçiliyi idarəsində işlədiyi dövrdə Zaqafqaziyanı, Dağıstanı, Orta Asiyanı və Volqaboyunu səyahət etmiş, "Ceyranəli", "Xortdan". "Həkimi-nuni-səqir", "Lağlağı", "Mozalan", "Süpürgəsaqqal" və s. imzalarla "Molla Nəsrəddin" jurnalında hekayə, felyeton çap etdirmişdir.

Həştərxanda yaşadığı müddətdə şəhərin mədəni-ictimai həyatında ciddi çalışmışdır (1910). Sonra Ağdama köçüb orada yaşamışdır (1911-1915). Tiflisdə "Şəhərlər ittifaqının Qafqaz şöbəsi xəbərləri" adlı aylıq məcmuənin müdiri olmuş (1916-1917), fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsinə və onun mərkəzi şurasına üzv seçilmişdir (1917). Həmin ilin martında Borçalı qəzasına müvəkkil təyin olunmuşdur (1918). Gürcüstan dövlət müstəqilliiyni elan etdikdən sonra Borçalıdan parlamentin üzvü seçilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə əvvəlcə Dağlı Respublikasında, sonra isə Ermənistanda Azərbaycan hökumətinin diplomatik nümayəndəsi olmuşdur.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonda dövlət teatrlarına müfəttiş təyin olunmuşdur. Azərbaycan milli teatrının yaranmasının 50 illiyi münasibəti ilə keçirilən yubileyə başçılıq etmişdir.

Azərbaycan Dövlət Universitetində ədəbiyyatdan mühazirələr oxumuş, elmi kadrların hazırlanmasında iştirak etmişdir. Burada yerli komitənin sədri (1922), Azərbaycanı Tədqiq və Təbliğ Cəmiyyətinin sədr müavini və sonra sədri (1923-1925) olmuşdur.

XX əsrin 30-cu illərində yazdığı "Ağac kölgəsində", "Köhnə dudman", "Qadınlar bayramı", "Çox gözəl", "Yoldaş Koroğlu" o dövrdə xüsusi şöhrət qazanmışdı. Ə. Haqverdiyev əsrin əvvəlində rejissor və istedadlı musiqiçi kimi tanınmış, Ü. Hacıbəyovun "Leyli və Məcnun"un ilk tamaşasında dirijorluq etmişdir. 1905-ci ildə Gəncə şəhər Dumasına deputat seçilir. 30-cu illərdə teatrların dövlət müfəttişliyində işləmiş, ADU-da mühazirələr oxumuşdur. Ə. Haqverdiyev "Azərbaycanda teatr", “M. F. Axundovun həyat və yaradıcılığı", "M. Qorkinin həyat və yaradıcılığı", "Bizim ədəbi dilimiz" kimi ədəbi publisistik yazıların müəllifidir. Ə. Haqverdiyev V. Şekspirin, F. Şillerin, E. Zolyanın, M. Qorkinin, A. Çexovun, V. Korolenko və başqalarının əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Əbdürrəhim bəy Haqverdiyev 1933-cü ildə Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

Ağdam Dram Teatrı onun adını daşıyır. Azərbaycanın müxtəlif rayonlarında küçələr onun adı ilə adlandırılmışdır.

**Hüseyn Cavid**
(1882-1937)

1882-ci ildə Naxçıvanda doğulmuşdur. Şair dramaturq. İlk təhsilini mollaxanada, orta təhsilini Naxçıvanda və Təbrizdə almışdır. 1909-cu ildə İstanbul universitetinin ədəbiyyat fakültəsini bitirmişdir.



1909-15-ci illərdə Hüseyn Cavid Naxçıvanda, Gəncədə, Tiflisdə və Bakıda müəllim işləmişdir.

1913-cü ildən çap olunmağa başlamışdır. Hüseyn Cavid Azərbaycan romantizminin görkəmli nümayəndələrindən olub haqsızlığa qarşı etiraz etmiş, humanizmi təbliğ etmişdir. "Keçmiş günlər", "Bahar şehi", "Ana" dramı, "Maral", "Şeyda", "Şeyx Sənan", "İblis" əsərləri yaradıcılığında görkəmli yer tutur. Azərbaycanda kommunist rejiminin qurulması onda sanki gələcəyə inamı bir az da artırır. Hüseyn Cavid bu inamı "Azər" dastanında, sonra "Məsud və Şəfiqə" dramında əks etdirdi. Ancaq tezliklə açıqcasına kommunizmin, kommunizm ideyalarının nağıldan başqa bir şey olmadığına heyfsiləndi. Hüseyn Cavid "Peyğəmbər", "Topal Teymur", "Siyavuş", "Xəyyam" və s. tarixi dramların müəllifidir. "Peyğəmbər" və "Topal Teymur" dramlarına görə şair kəskin tənqid olunmağa başlandı ki, guya "Peyğəmbər"də islamın yaradıcısı Məhəmmədi ideallaşdırmaqla islam ideyalarını, "Topal Teymurda" isə feodal işğalçını təbliğ etmişdir. Şərqin işıqlı simalarından biri şair və filosof Xəyyam obrazı Şərqin orta əsrlər fonunda geniş təsvir olunmuşdur. Sənətkarlar və tələbələr, saray əyanları, ikiüzlü din xadimləri xalq, saray, xəlifə, övliyalar, bütün bunlar işıqlı boyalarla aydın təsvir edilmişdir. Romantik şair olan Hüseyn Cavid mahnılar, musiqi, aforizmlərdən canlı şəkildə istifadə etməklə insanın obrazını yaratmış, onu həyatsevər, hikmətli, ağıllı və mərhəmətli təsvir etmişdir. Xəyyamın həyatı faciəli olsa da, obrazı cəzbedici və gözəldir. "Simli saz" və "Kor neyçalan" poemaları Cənubi Azərbaycan xalqının faciəli taleyinə həsr olunmuşdur.

Hüseyn Abdulla oğlu Rasizadə (Hüseyn Cavid) 1937-ci ildə Stalin repressiyasının qurbanı oldu. O, 5 dekabr 1941-ci ildə İrkutsk vilayətində həbs düşərgəsində vəfat etdi. Hüseyn Cavidin cəsədinin qalıqları vətənə gətirilərək Naxçıvandakı ev muzeyinin həyətində dəfn edilmiş, üzərində məqbərə ucaldılmışdır. Bakıda və respublikanın başqa şəhərlərində kitabxanalar, məktəblər, küçələr onun adını daşıyır. 1982-ci ildə Azərbaycan xalqı Hüseyn Cavidin 100 illik yubileyini təntənə ilə geniş qeyd etdi. Naxçıvanda "Hüseyn Cavid poeziyası" teatrı açılmış, haqqında monoqrafiyalar, poemalar, şeirlər və məqalələr yazılmışdır.

1982-ci il oktyabrın 26-da Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin tapşırığı ilə Hüseyn Cavidin nəşi İrkutsk vilatyətinin Tayşet rayonunun Şevçenko kəndindən Bakıya gətirilir. Sonra cənazə xüsusi təyyarə ilə Naxçıvana aparılır. Əvvəl ata evinə gətirilən şairin nəşi noyabrın 3-də Naxçıvanda ev muzeyinin yanında, uşaqlıqda çox sevdiyi tut ağacının altında dəfn olunur.

1996-cı ildə Naxçıvanda böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin qəbri üzərində möhtəşəm memarlıq-xatirə kompleksi ucaldılmışdır. Kompleks Azərbaycan prezidenti Heydər Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə tikilmişdir. Məqbərə üst və aşağı - sərdabə hissələrindən ibarətdir. Hüseyn Cavidin həyat yoldaşı Müşkinaz xanımın, oğlu Ərtoğrulun qəbirləri (hər iki qəbir 1996-cı ildə, sərdabə tikilərkən buraya köçürülmüşdür) və qızı Turan xanımın qəbiri sərdabədədir. Burada Hüseyn Cavidin büstü qoyulmuşdur. Abidənin layihəsinin müəllifi Azərbaycan Respublikasının əməkdar memarı Rasim Əliyev, heykəltəraşı xalq rəssamı Ömər Eldarovdur. Məqbərə Türkiyənin "Star" inşaat şirkəti tərəfindən tikilmişdir və açılışı 29 oktyabr 1996-cı ildə olmuşdur.

Adına Bakıda, Naxçıvanda və respublikanin digər şəhər və rayonlarında küçə, bağ, məktəb, kitabxana, kinoteatr və s. mədəni-maarif müəssisələri var. Bakıda əzəmətli abidəsi ucaldılmışdır.

**Xaqani Şirvani**
(1120-1199)

Bədil Əfzədəddin İbrahim Əli Nəcəf oğlu 1120-ci ildə Şamaxının Məlhəm kəndində doğulmuşdur. Şair, mütəfəkkir. Bədil uşaq yaşlarından Şamaxıda həkimlik, münəccimlik, astronomiya və metafizika ilə məşğul olan əmisinin yanında tərbiyə almışdır. Əmisi Bədilin dünyagörüşünün formalaşmasına böyük təsir göstərmişdir. Xaqaninin biliyi heyrətamiz dərəcədə rəngarəng idi. O, doğma Azərbaycan dilindən başqa fars, ərəb, gürcü, latın dillərini sərbəst bilirdi. Xaqaninin elmi məşğuliyyəti qrammatika, leksika, fəlsəfə, astrologiya, riyaziyyat, həndəsə, natiqlik, məntiq, qanunçuluq, ruhanilik və Quranın təfsiri idi. Xaqani müsəlman və xristian dinlərinin əsaslarını mükəmməl bilməklə, zərdüştlüyün də hikmətlərindən xəbərdar idi.



Bədil hələ lap gənc yaşlarında poetik yaradıcılıqda yüksək qabiliyyət göstərməklə öz şeirlərilə dövrünün ədəbi ictimaiyyətinin diqqətini cəlb etmişdi. Gənc Bədilin bu istedadını görən Şirvanşah sarayının məclisi şüərası Əblüla Gəncəvi onu saraya gətirərək Şirvanşaha təqdim etmiş və sonra qızını ona ərə vermişdi. Mədhiyyələr yazan saray şairi olduqdan sonra Xaqani təxəllüsü götürərək II Mənuçöhrə, onun ölümündən sonra isə I Axsitana sədaqətlə xidmət etmişdi.

Xaqani yaradıcılığı və istedadı nə qədər yüksək olsa da, əgər o, mədhiyyə və qəsidələrdən əlavə başqa əsərlər yazmasaydı yəqin ki, xalq tərəfindən belə sevilməzdi. Həm müasirləri, həm də ki sonrakı nəsil Xaqanini gözəl qəzəl və avtobioqrafiq şeirlərin ustadı kimi tanıyırlar.

1156-cı ildə Xaqani şah sarayından bütün müsəlmanların ən müqəddəs ziyarətgahı olan Məkkəyə getməyə icazə alır. Yolda o yaxın Şərq ölkələrinə də səyahət edir. Geri qayıtdıqdan sonra özünün "Mədain xərabələri" adı ilə tanınan fəlsəfi əsərini yazır.

1157-ci ildə Yaxın və Orta Şərq poeziyasının ən gözəl incilərindən olan "Töhfətül İraqeyn" əsərini başa çatdırır. Demək olar ki, poema poetik lirikanın özünəməxsus incisinə çevrildi. Burada şair təəssüratlarını, özünün yüksək əxlaqi baxışlarını, əks etdirir. Poemada "Günəşə müraciət və qızılın töhmətləndirilməsi" şeirində çox maraqlı nəsihətamiz sətirlər var:

*Qızılın dalınca getməməlidir,*
*Qəlbində həqiqət biliyi olan.*
*Hər gün qızıl yığıb töksə kisəyə,*
*Kisə tək boğazı keçər ilməyə.*

Birinci həccdən bir neçə il keçdikdən sonra Xaqani ikinci dəfə həccə getməyə icazə istəyir. O, bundan istifadə edərək şah sarayını həmişəlik tərk etmək, müstəqil olmaq istəyirdi. Ancaq bu çox çətin idi. Şair I Axsitanın müştəbehliyi, qabalığı və şıltaqlıqlarından əziyyət çəkirdi. Ancaq Xaqaniyə saraydan getməyə icazə verilmir. Onda o, Şamaxıdan gizli qaçır. Onu tutub Şabran qalasına salırlar.

Xaqani zindanda ağrı acılarla dolu şeirlər yazır:

*Rahiblərin paltarı tək, gündüzüm olmuş qara,*

*Hər gecə mən rahib kimi başlaram ahu-zara.*

Sonralar Şabranda yazılmış şeirlər "Həbsiyyə" adı ilə tanınır. 1171-ci ildə Xaqani ikinci həcc ziyarətinə gedir. Şirvana qayıtdıqdan sonra orada çox qalmayıb oranı həmişəlik tərk edir. Ailəsilə birlikdə Təbrizə köçür. Ancaq bu illər şair üçün faciəli olur. Özünün mərsiyələrində o, qızının, oğlunun və arvadının ölümünə ürək ağrısı ilə ağlayır. Vətən üçün darıxır.

Xaqani güclü poetik irsə malikdir. Şeirlərin anlaşıqlığı, zəriflik, bədii boyaların zənginliyi, forma və məzmun bitkinliyilə müqayisəyəgəlməzdir. Onun yaradıcılığından çox deyilir və yazılır, onu filosof-şair kimi haqlı olaraq Yaxın və Orta Şərq şairlərinin müəllimi və ustadı sayırlar.

Bədil Əfzələddin İbrahim Əli Nəcəf oğlu (Xaqani Şirvani) 1199-cu ildə Təbrizdə vəfat etmiş, Söhrab qəbiristanlığında basdırılmışdır. Onun əsərləri dünyanın bir çox dillərinə tərcümə olunaraq səkkiz əsrdir ki, oxunur, sevilir, çap olunur. Onun haqqında Şərqin, Avropanın və Amerikanın böyük alimləri ədəbiyyatşünaslıq əsərləri yazmışlar. Məmməd Rahim onun haqqında "Xaqani" pyesi, Əbdül Hüseynov "Şirvanlı səyyah" adlı roman yazmışdır. Xaqaninin şeirlərinə Azərbaycan bəstəkarları mahnılar, romanslar bəstələmişlər. Azərbaycanın müxtəlif yerlərində küçə və mədəni-maarif müəssisələri onun adıyla adlandırılmışdır.

## Xəlil Rza Ulutürk
(1932-1994)

Xəlil Rza Ulutürk 1932-ci il oktyabr ayının 21-də Azərbaycanda Salyan rayonunun Pirəbbə kəndində Rza kişinin ailəsində ilk körpə dünyaya göz açdı. Gəlişi ilə ailəyə sevinc bəxş edən uşağa babası Xəlil öz adını verdi. Körpə qayğı və nəvazişlə böyüdü. Onu yeddi yaşından məktəbə göndərdilər.



İki saylı Salyan şəhər orta məktəbində təhsil aldığı ilk illərdən Xəlil öz çalışqanlığı, fərasəti və davranışı ilə müəllimlərin rəğbətini qazandı. O, Salyan şəhər kitabxanasının ədəbiyyat dərnəyinin üzvü idi. 1939-1949-cu illərin məktəb həyatı Xəlilin bədii ədəbiyyat aləminə, necə deyərlər, poeziyanın əzablı, romantik yaradıcıhq meydanına çıxması üçün hazırhq dövrü oldu. Onun ilk mətbu şeiri "Kitab" 1948-ci ildə "Azərbaycan pioneri" qəzetində dərc olunmuşdur.

1949-cu ildə Xəlilin Azərbaycan Dövlət Uiversitetinin filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olması, Bakı ədəbi mühiti onun yaradıcılıq imkanlarına geniş yol açdı: universitetdə ədəbiyyatşünas-alim Cəfər Xəndanın, sonralar şair Bəxtiyar Vahabzadənin rəhbərlik etdiyi ədəbi dərnəkdə, istərsə də Azərbaycan Yazıçılar Birliyində xalq yazıçısı Mirzə İbrahimovun başçılığı ilə keçirilən "Gənclər günü" məşğələlərində fəal iştirak etməsi Xəlil Rzanın şair kimi püxtələşməsinə ciddi təsir göstərdi.

1954-cü ildə Azərbaycan Dövlət Universitetini bitirən Xəlil Rza əmək fəaliyyətinə "Azərbaycan qadını" jurnalı redaksiyasında başlamışdır. O burada ədəbi işçi vəzifəsində çalışdığı iki ildə (1955-1957) dövri mətbuatda çap etdirdiyi məqalə və şeirlərlə ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. 1954-cü ildə Xəlil Rza SSRİ Yazıçılar ittifaqının üzvü seçilir. Onun ilk şeirlər toplusu - "Bahar gəlir" (1957) kitabı da nəşr olunur. 1957-ci ilin avqust ayında Azərbaycan Yazıçılar İttifaqı Xəlil Rzanı Moskvaya, M.Qorki adına Dünya Ədəbiyyat İnstitutu nəzdində olan ikiillik Ali Ədəbiyyat kurslarına göndərməsi də gənc şairin gələcəyinə inamla bağlı idi.

1959-cu ildə Xəlil Rza Bakıya qayıtdıqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. O, 1963-cü ildə "Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950)" mövzusunda yazdığı dissertasiyanı uğurla müdafiə etmiş, filologiya elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür. Xəlilin antisovet, antiimperiya çıxışlarına dəlilik kimi baxanlar, onun səsini kəsməyə çalışan, yüksək kürsülərə yolunu bağlayan, onu kiçiltmək istəyənlər Xəlil Rza istedadının Allah vergisi olduğunu, şairin Allah hökmü ilə danışdığını dərk edə bilmirdilər" Xəlil Rza Azərbaycan Dövlət Pedaqoji İnsti-tutundan uzaqlaşdırır. Onu Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutuna dəvət edirlər. Burada Xəlil Rza bütün qüvvəsini elmi-tədqiqat işinə və bədii yaradıcılığa həsr edir. Azərbaycan-Özbək ədəbi əlaqələri, Maqsud Şeyxzadənin həyat və yaradıcılığı haqqında monoqrafik əsərlər üzərində çalışır. Buna baxmayaraq, Xəlil

Rza yenə də "şübhəli şəxs" kimi təqib olunur, onun imkanlarını məhdudlaşdırır, "təhlükəli ictimai mübarizə" yolundan çəkindirməyə çalışırlar. 1985-ci ildə "Maqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-Özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edir. 1986-cı ildə Azərbaycan ədəbiyyatnın inkişafındakı xidmətlərinə görə ona əməkdar incəsənət xadimi fəxri adı verilir.

80-ci illərin axırlarında xalq azadlıq hərəkatı genişləndiyi zaman Xəlil Rzanın gur səsi Azərbaycanın bütün regionlarında eşidilirdi. O, bütün varlığı ilə xalq hərəkatına qoşulmuşdu, hər yerdə rus şovinist siyasətini, Dağlıq Qarabağ torpağına təcavüz edən erməni daşnaklarını odlu-alovlu çıxışları ilə ifşa edirdi.

Son günlərini yaşayan sovet imperiyası ömrünü uzatmaq üçün 1990-cı ilin yanvarında Azərbaycanın paytaxtı Bakıda dinc əhaliyə vəhşicəsinə divan tutdu. Bu qətliam, soyqırım siyasəti Qorbaçovun və onun əlaltılarının iradəsi ilə icra edilirdi. Bütün dünyanın açıq fikirli adamları bu aksiyanı, bəşər tarixində misli görünməmiş qətliamı lənətlə qarşıladılar. Sovet ordusu tərkibində zirehli tanklarla, hərbi gəmilər və müasir silah növləri ilə yaraqlanıb xüsusi tapşırıqla Bakını güllələbaran edənlərin törətdiyi ci-nayətlər Xəlil Rzanı sarsıtmışdı. O, bütün qüvvəsi ilə gecə-gündüz dinclik bilmədən, ürəyini məşələ çevirib xalqı düşmənlərə qarşı mübarizəyə səsləyirdi: xarici ölkə jurnalistlərinə verdiyi müsahibələrdə 20 Yanvar hadisələrini, Qorbaçovun və onun əlaltılarının qanlı əməllərini dünya ictimaiyyətinə çatdırmağa çalışırdı.

1990-cı il yanvann 26-da Xəlil Rza SSRİ Dövlət Təhlükəsizliyi əməkdaşlan tərəfindən həbs edilib Moskvaya Lefortovo həbsxanasına göndərilir. Aramsız sorğu-sual, ağır ittiham şairin iradəsini qıra bilmir, o, zindanda da mübarizəsini davam etdirir. 8 ay 13 gün öz mühitindən təcrid olunmuş şair odlu-alovlu qəlbinin işığında "Lefortovo gündəliyini, 200-dən çox, şeir, poema və məktubunu qələmə alır. Bu əsərlər mübariz şairin ictimai-siyasi dünyagörüşünü əks etdirməklə yanaşı, öz siqləti, bədii dəyəri, məzmunu cəhətdən milli poetik fikri zənginləşdirən misilsiz abidədir. "Lefortovo gündəliyi" şairin qəbul etdiyi Ulutürk təxəllüsünün vəsiqəsidir.

Xəlil Rza 1990-cı il yanvarın 29-dək - 40 illik ədəbi-bədii yaradıcılığı dövründə öz əsərlərini "Xəlil Xəlilov", "Xəlil Xəlilbəyli", "Xəlil Odsevər", "Xəlil Rza" təxəllüsləri ilə çap etdirmişdi. "Xəlil Rza Ulutürk" təxəllüsü isə şairin keçdiyi mübarizə yolunun, ədəbi-mənəvi axtarışlarının məntiqi nəticəsi idi. Lefortovo həbsxanasında şəkər xəstəliyi olan Xəlil Rzanın səhhəti pozulmuşdu. 1990-cı il oktyabrın 9-da yatab qatarında Moskvadan Bakıya gətirilən Xəlil Rza, bir ay davam edən məhkəmə prosesindən sonra azadlığa buraxıldı.

1991-ci il mayın 6-da Xəlil Rza "Türk milləti mükafatı laureatı" fəxri adına layiq görülür. Bir ildən sonra, 1992-ci ildə ona Azərbaycan Respublikasının Xalq şairi fəxri adı verilir. Süleyman Dəmirəlin tapşırığı ilə cərrah Paşa adına Şəfa evində onun şəkərini və gözlərini müalicə edirlər. May ayının 19-da Həsaki Qəlb xəstəxanasında Xəlil Rzanın ürəyində cərrahiyyə əməliyyatı aparılır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fransaya rəsmi səfəri zamanı Xəlil Rza və Firəngiz xanım da nümayəndə heyətinin tərkibinə daxil edilmişdi. Bu tarixi səfər Xəlil Rzanın son səfəri oldu. Fransa səfərindən sonra tez-tez ön cəbhə bölgələrində, məktəb və mədəniyyət ocaqlarında, görüşlərdə çıxışlar edib şeirilər oxuması, narahat həyat tərzi, yaradıcılıqla ciddi məşğıl olması onu haldan salıb vəziyyətini ağırlaşdırdı. Sonrakı müalicə nəticə vermədi. 1994-cü il iyunun 22-də bədii yaradıcılığının barlı-bəhərli çağında şairin vətən eşqi, xalq məhəbbəti ilə çırpınan ürəyi döyünməkdən qaldı.

Xəlil Rza Ulutürk Fəxri Xiyabanda dəfn olundu, onun məzari üstündə şairin əzəmətli heykəli yüksəldildi.

Azərbaycan xalqının milli mübarizəsində xüsusi xidmətlərinə görə xalq şairi Xəlil Rza Ulutürk (ölümündən sonra) "İstiqlal" ordeni ilə təltif edilmişdir.

## Mirzə İbrahimov
(1911-1993)

Mirzə Əjdər oğlu İbrahimov 1911-ci ildə Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığında İvə kəndində doğulmuşdur. Yazıçı dramaturq, ictimai və dövlət xadimi. Azərbaycanın əməkdar incəsənət



xadimi, xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan SSR Dövlət Mükafatı laureatı və C. Nehru adına Beynəlxalq mükafatın laureatı, Azərbaycan EA-nın akademiki. Bakıda və Leninqrad Şərqşünaslıq İnstitutunda təhsil almışdır.

M. Ə. İbrahimov 1918-ci ildə ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Ədəbi fəaliyyətə 1938-ci ildən başlamış, "Qazılan buruq" şeirini çap etdirmişdir, sonra o, vaxtkı Azərbaycan kəndinin həyatından bəhs edən "Həyat" pyesini yazmışdır. İspaniyada başlayan vətəndaş müharibəsindən bəhs edən "Madrid" pyesini, 1941-45-ci illər sovet-alman müharibəsi dövründə "Kəndçi qızı", "Yaxşı adam" komik pyeslərini yazmışdır. Konfliktlərin kəskinliyi və hadisələrin reallığı onun dramaturgiyasına xasdır.

Cənubi Azərbaycan silsiləsindən yazdığı "Cənub hekayələri", "Gələcək gün" romanında İranda baş verən milli azadlıq hərəkatından bəhs olunur. "Böyük dayaq" romanı müharibədən sonrakı kənd həyatından bəhs edir. "Pərvanə" roman-epopeyası Nəriman Nərimanovun həyat və yaradıcılığına həsr olunmuşdur. M. Ə. İbrahimov dramaturgiya və dillə bağlı məqalələr və publisistik yazılarla da çıxış etmişdir. C. Məmmədquluzadə haqqında monoqrafiyanın müəllifidir. A. Ostrovski, A. Çexov və Şekspirin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Mirzə Əjdər oğlu İbrahimov Azərbaycan Yazıçılar İtifaqının sədri, SSRİ Yazıçılar İtifaqının katibi, Azərbaycanın maarif naziri, Azərbaycan Nazirlər Sovetinin sədr müavini olmuş, dəfələrlə SSRİ və Azərbaycan Ali Sovetlərinə deputat seçilmiş, 1954-58-ci illərdə Azərbaycan Ali Soveti Rəyasət heyətinin sədri və SSRİ Ali Sovetini sədrinin müavini olmuşdur. Orden və medallarla təltif olunmuşdur.

1993-cü ildə Bakıda vəfat etmişdir.

## İzzəddin Həsənoğlu

(XIII əsr)

XIII əsrdə doğulmuş İzzəddin Həsənoğlu doğma Azərbaycan dilində şeirləri hifz olunmuş ilk şairlərimizdəndir. Azərbaycan dilində yazılmış və bu gün əlimizdə olan üç şerində Həsənoğlu, farsca şeirlərində Puri-Həsən təxəllüsünü işlətmişdir. Belə bir ehtimal irəli sürülmüşdü ki, İzzəddin Pur Həsən (Həsənoğlu) azəri türkcəsində hətta ilk divanın müəllifidir və onun "Apardı könlümü bir xoş qəmərüz canfəza dilbər" mətləli qəzəli də həmin divandan bizə gəlib çatan tək nümunədir. Lakin sonralar daha bir qəzəli aşkar edildi və beləliklə, elm aləmində – filologiyada Həsənoğlunun doğma ana dilimizdə ilk şekilər yazan bir müəllif olduğu fikri sözsüz qəbul olunmağa başladı.

Həsənoğludan ilk dəfə XV əsr təzkirəçisi Dövlətşah Səmərqəndi söz açmış, onun kifayət qədər məşhur bir şair olduğunu, farsca və türkcə (Azərbaycanca) şeirlər yazdığını qeyd etmişdir. Dövlətşah onun Əfsəraində doğulduğunu da yazır ki, bu da Xorasandadır. Elmi ədəbiyyatda isə Həsənoğludan bir şair kimi ilk dəfə M.F.Köprülü söz açmışdır. Bütün tədqiqatlarda şairin ədəbi irsindən cəmi iki qəzəli haqqında danışılırdı.

Həsənoğlunun ikinci qəzəlini (azəricə) isə çox-çox sonralar alman şərqşünası B.Fleminq elm aləminə tanıtmışdır.

Birinci qəzəldə Azərbaycan, fars və ərəb sözləri çox qəribə bir tərzdə birləşib "qohum" olmuşlar. Bu, onu göstərir ki, ədəbi təfəkkür öz milli stixiyasını göstərməyə başlayır. Lakin bu milli stixiya hələ aparıcı mövqedə duran ərəb-fars poetikasının güclü təsiri altındadır.

*Apardı könlümü bir xoş qəmərüz canfəza dilbər,*
*Nə dilbər? Dilbəri-şahid. Nə şahid? Şahidi-sərvər.*

*Mən ölsəm, sən büti-şəngül, sürahi eyləmə, qül-qül,*
*Nə qülqül? Qülqüli-badə. Nə badə? Badeyi-əhmər…*

*Başımdan getmədi hərgiz səninlə içdigim badə,*
*Nə badə? Badeyi-məsti. Nə məsti? Məstiyi-sağər.*

*Əzəldə canım içində yazıldı surəti-məni,*
*Nə məni? Məniyi-surət. Nə surət? Surəti-dəftər.*

İzzəddin Həsənoğlu tanınmış sufi şeyxlərindəndir.

# Qabil İmamverdiyev
(1926-2007)

Qabil Allahverdi oğlu İmamverdiyev 1926-cı ildə Bakıda doğulmuşdur. Azərbaycanın xalq şairi, əməkdar incəsənət xadimi. 1948-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini bitirmişdir. 1954-56-cı illərdə Qorki adına Moskva Ədəbiyyat İnstitutunun ali kurslarında təhsil almışdır.



Ali məktəbi bitirdikdən sonra Yardımlıda müəllimlik etmiş, Bakıda radio və qəzetlərdə, jurnallarda ədəbi işçi olmuşdur. 1944-cü ildən çap olunur. "Nəsimi" poemasının (Azərbaycan və rus dillərində) müəllifidir. Qabil "Mehparə", "Sübh çağı", "Ömür boyu", "Küləkli havada", "Qoy təbiət danışsın", "Mən hara gedim" kimi onlarla şeir və poemaların müəllifidir.

İmamverdiyev Qabil Allahverdi oğlu (Qabil) Azərbaycan Yazıçılar İttifaqı Ağsaqqallar Şurasının sədri olmuşdur. Orden və medallarla təltif olunmuşdur.

Azərbaycan Dövlət mükafatları laureatı, əməkdar incəsənət xadimi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, xalq şairi Qabil 2007-ci il aprelin 4-də ömrünün 81-ci ilində vəfat etmişdir.

## Qasım bəy Zakir
(1784-1857)

Qasım bəy Əli bəy oğlu Cavanşir 1784-cü ildə Şuşada doğulmuşdur. Şair, mollaxanada təhsil almışdır. Klassik şərq ədəbiyyatını, ərəb və fars dillərini mükəmməl bilmişdir.



Qasım bəy Zakir gəncliyində Qarabağ süvarilərinin tərkibində çar ordusunda xidmət edərək hərbi əməliyyatlarda iştirak etmişdir. Sonralar Qarabağın Xındırstan kəndində kənd təsərrüfatı ilə məşğul olmuşdur. Qasım bəy Zakir çox gənc yaşlarında şeir yazmağa başlamışdır. Onun poeziyası janr rəngarəngliyilə fərqlənir. O, məhəbbəti vəsf edən lirik qoşmalar, gəraylılar, qəzəllər yazmışdır. Onun lirik məhəbbət poeziyası həyatsevər, melodik və əlvandır, saflığı və sadəliyi ilə cəzbedicidir. Qasım bəy Zakir satirik əsərlərilə şöhrət qazanmışdı. Onun satiralarında XIX əsrdə Azərbaycan xalqının müxtəlif təbəqələrinin məişətinin əhəmiyyətli tərəfləri, bu təbəqələr arasında münasibətlər və adət ənənələr öz əksini tapırdı. "Tülkü və şir", "Aslan, qurd və çaqqal", "Dəvə, ilan və tısbağa", "Dəvə və eşşək" təmsillərində güclü dünyanın iç üzünü açaraq, yaltaqlığı, həsədi, yalançılığı ifşa edir. Şeirlə yazdığı "Dərviş və qız", "Qoca və onun gənc arvadı", "Sonuncu arvad" əsərlərində orta əsrin qalıqları olan ailə həyatını acı gülüşlə tənqid edir. Şair Azərbaycanın Qarabağ torpaqlarında ermənilərin məskunlaşdırılmasına qarşı çar imperiyasının siyasətini ifşa edir. Qasım bəy Zakir çar məmurlarının utanıb-çəkinmədən rüşvət almalarını qamçılayırdı.

*Yüz təşnələbi-qəhr olsan, xadimi dövlət,*
*Verməz bir içim su sənə, ta almaya dərya*
*Simuzər ilə doldurasan ta gərək ovcun,*
*Ondan sora zahir qıla şayəd yədi beyza.*

Qasım bəy Zakir XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Poetik vasitələrindəki hamının dərk edə bildiyi sadəlik və həqiqətin canlı səhnələri müasirliyi və sonrakı nəslin diqqətini cəlb etmişdir. Azərbaycan poetik ədəbiyyatının inkişafında Qasım bəy Zakirin böyük xidməti olmuşdur.

Qasım bəy Zakir 1857-ci ildə Şuşada vəfat etmişdir.

**Qətran Təbrizi**
(1012-1088)

Azərbaycanın bütün Şərqdə şöhrət qazanan şairlərindən biri, saray ədəbiyyatının ilk görkəmli nümayəndəsı Qətran Təbrizidir. Qətran Təbrizi 1012-ci ildə Təbriz yaxınlığındakı Şadi-abad kəndində anadan olmuşdur. Şairin tam adı Əbu Mənsur Qətran Cili Azərbaycanidir. İlk təhsilini Şadi-abadda almış, sonra Təbrizdə oxumuşdur.



O zaman Azərbaycanda bir neçə feodal dövlət qurumu vardı. Bunlardan biri də paytaxtı Gəncədə olan Şəddadilər dövləti idi. Ərəb xilafətinin çiçəkləndiyi dövrlərdə Gəncə müsəlman aləminin şimalında iri mədəniyyət mərkəzinə çevrilir. Burada universitetlər, məktəblər, fərdi və ictimai kitabxanalar, rəsədxana və tibb mərkəzləri fəaliyyət göstərir. Müsəlman mədəniyyəti qonşu xristian dövlətlərinə məhz buradan yayılır. Şərqin bir çox ölkələrindən alimlər, şairlər, memarlar, sənətkarlar Gəncəyə axışır. Qətran da təhsilini başa vurduqdan sonra buraya gəlir. O, tezliklə Gəncədə Şəddadilərin sarayına dəvət olunur və az bir vaxtda böyük nüfuz qazanır. Həmin dövrdə ölkənin başında Əbdülhəsən Ləşkəri dururdu və təbii ki, Qətran da bir çox şeirlərini ona və onunla əlaqədar baş vermiş hadisələrə həsr edir. Bu şeirlərdən çıxış edərək, Qətranın Gəncədə yaşadığı dövrü müəyyənləşdirmək mümkündür. Şerlərindən birində Qətran Rəvvadilər dövlətinin başçısı Əbu Mansur Vəhsudanın Əbdülhəsən Ləşkərinin qonağı kimi Gəncəyə gəlişindən danışır. Qətran yaradıcılığını araşdıran alimlərin fikrincə, bu görüş 1035-1040-cı illər arasında baş verə bilərdi. 1042-ci ildə isə şair artıq Təbrizdə şəhərin yarısını yerlə yeksan etmiş dəhşətli zəlzələnin şahidi olmuşdu. Deməli, Qətran Təbrizə bu təbii fəlakətdən əvvəl qayıtmışdı. Lakin bir çox tədqiqatçılar Qətranın Gəncəyə zəlzələdən sonra gəldiyini iddia edirlər. Görünür, şairin yenidən Gəncəyə dönüşünü də istisna etmək olmaz. 1046-cı ildə Qətran Təbrizdə böyük İran şairi və filosofu Nasir Xosrovla görüşür. Nasir Xosrov özünün məşhur "Səfərnamə" əsərində Qətran adlı gözəl bir şairlə görüşdüyünü qeyd edir.

Qətran bir müddət Naxçıvanda, yerli hakimlərin saraylarında yaşadıqdan sonra vətəni Təbrizə dönür. Qətran Təbrizi hələ sağlığında ikən istedadlı şair, müdrik filosof və alim kimi bir çox ölkələrdə şöhrət qazanır. Özünün yazdığına görə, onu Xorasanda və İraqda yaxşı tanıyır və sevirdilər.

Qətran "Tövsnamə", "Quşnamə", "Vamiq və Əzra" adlı əsərlərin, habelə əsasən qəsidələrdən ibarət iri həcmli divanın müəllifidir.

XII əsrdə yaşamış Orta Asiya şairi Rəşid Vətvat yazır ki, o ömrü boyu bircə həqiqi şair tanımışdır-həkim (müdrik) Qətran Təbrizini.

Qətran poeziya ilə gənc yaşlarından məşğul olmağa başlamış və bu sahədə böyük yaradıcılıq uğurları qazanmışdı. Şeir yaradıcılığında əsas yeri dövrün müxtəlif hökmdarlarını tərif edən qəsidələr tutur. Bu əsərlər müasir oxucu və tədqiqatçılar üçün qəsidələrdə mədh olunan qəhrəmanların saraylarında baş verən tarixi hadisələri öyrənmək və anlamaq baxımından çox qiymətlidir. Misal üçün, Qətran

Təbrizinin şerlərində oğuzların Azərbaycana bir neçə yürüşü öz əksini tapmışdır ki, həmin məlumatlar indi bizim üçün böyük əhəmiyyət daşıyır. Onun Təbriz zəlzələsinə həsr olunmuş şeri Qətrana şöhrət gətirmişdir.

Orta əsr mənbələrinə əsaslanan Azərbaycan tədqiqatçıları qeyd edirlər ki, Qətran Təbrizi fars leksikoqrafiyası tarixində fars dilinin ilk izahlı lüğətinin yaradıcısı olmuşdur. Bu barədə "Lüğəti-fürs" ("Fars lüğəti") müəllifi, şair və tərtibçi Əsədi Tusi (XI əsr), "Sihahül-fürs" müəllifi Məhəmməd ibn Hinduşah Naxçıvani (XIII əsr) və başqaları yazmışlar.

Orta əsr müəlliflərinin əksər qismi bu lüğəti yaradıcısının adı ilə sadəcə "Lüğəti-Qətran", yaxud "Fərhəngi-Qətran" (hər iki ifadə "Qətranın lüğəti" anlamına gəlir) kimi qeydə alır. Sonralar isə bu lüğət "Təfasir fi lüğatül-fürs" ("Fars dili sözlərinin izahları"), yaxud da qısa şəkildə "Təfasir" ("İzahlar") adlandırılır.

Qətran Təbrizi Azərbaycan və İran xalqlarının poeziya və leksikoqrafiya tarixində dərin izlər buraxmışdır.

Qətran 1088-ci ildə Təbrizdə dünyasını dəyişmiş və Surxab məhəlləsindəki məşhur şairlər qəbristanlığında dəfn olunmuşdur.

**İsmayıl bəy Qutqaşınlı**
(1806-1869)

İsmayıl bəy Nəsrullah Sultan oğlu Qutqaşınlı 1806-cı ildə Qutqaşendə doğulmuşdur. Yazıçı, hərbi və ictimai xadim. İlk təhsilini evdə, orta təhsilini Şamaxıda almış, Peterburqda hərbi piyada məktəbində oxumuşdur.



İ. Qutqaşınlı 30 il çar ordusunda xidmət etdikdən sonra 1851-ci ildə general-mayor rütbəsində Şamaxıya gəlmişdir. O, burada məmur işləmiş, M. F. Axundov və Qasım bəy Zakirlə dostluq əlaqələri saxlamışdır. XIX əsrin 30-cu illərindən yaradıcılığa başlamışdır. 1835-ci ildə Varşavada fransız dilində, "Rəşid bəy və Səadət xanım" adlı aşiqanə povestini çap etdirir. Əsər Şərq əfsanələri "Leyli və Məcnun" və "Əsli və Kərəm"in təsiri altında yazılmış və avropalı oxucular arasında böyük rəğbət qazanmışdır. 1825-ci ildə İ. Qutqaşınlı Məkkəyə həcc ziyarətinə gedir. Azərbaycandan, Gürcüstandan və yolboyu ərəb ölkələrindən keçən zəvvar burada yaşayan insanların, xalqların həyatı, məişəti, tarixi, etnoqrafiyası haqqında zəngin material toplayır. 1876-cı ildə topladığı materialları "Səfərnamə" adlı kitabında çap etdirir. Bu ensiklopedik iş XX əsrin sonlarında da öz əhəmiyyətini, aktuallığını itirməmişdir.

İsmayıl bəy Nəsrulla Sultan oğlu Qutqaşınlı bir sıra elmi əsərlərin müəllifidir. O, rus Coğrafiya Cəmiyyətinin Qafqaz bölməsinin üzvü olmuşdur. Rus imperiyasının ordenləri ilə təltif olunmuşdur.

O, 1869-cu ildə Şamaxıda vəfat etmişdir.

# Mehdi Hüseyn
(1909-1965)

Mehdi Əli oğlu Hüseynov 1909-cu ildə Qazaxda doğulmuşdur. Yazıçı, dramaturq, ədəbiyyatşünas. Azərbaycan xalq yazıçısı, SSRİ Dövlət mükafatı laureatı. 1929-cu ildə ADU-nun filologiya fakültəsinin tarix şöbəsini bitirmişdir.



M. Hüseyn Azərbaycan kəndinin həyatından bəhs edən "Qoyun qırxımı" əsərini 1927-ci ildə dərc etdirmişdir. Özünün "Bahar suları" və "Tərlan" poemalarında Azərbaycan kəndinin həyatından daha ətraflı bəhs edib bunu inkişaf etdirir. 1941-45-ci il sovet-alman müharibəsi illərində "Fəryad" povestini və tarixi mövzuya həsr olunmuş "Cavanşir" pyesini yazır. "Abşeron" və "Qara daşlar" romanlarında neftçilərin əməyini geniş və parlaq boyalarla əks etdirir. "Səhər" və "Yeraltı çaylar dənizə axır" tarixi romanlarında şəxsiyyətin formalaşmasından bəhs edir. Mehdi Hüseyn "Qardaşlar", "Şamil", "Nizami" və başqa məhşur pyeslərin müəllifidir. Ə. Məmmədxanlı ilə birgə "Fətəli xan", "Səhər", "Qara daşlar" filmlərinə ssenari yazmışdır.

Mehdi Hüseyn uzun illər publisistika ilə də məşğul olmuşdur. O, ədəbiyyat haqqında bir sıra məqalələr, resenziyalar yazmış, teatr və kinofilmlərinə quruluş vermişdir.

Mehdi Hüseyn Azərbaycan Yazıçılar Birliyinin sədri, SSRİ Yazıçılar Birliyinin katibi olmuş, Azərbaycan və SSRİ Ali sovetlərinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. Mehdi Hüseyn 1965-ci ildə Bakıda vəfat etmişdir.

Qazax rayonunda məktəb, Bakıda küçələrdən biri onun adı ilə adlandırılmışdır.

## Məhsəti Gəncəvi
(1089- ?)

XI əsrin sonunda Gəncədə doğulmuşdur. Azərbaycanın böyük şairəsi, Nizaminin müasiri olmuşdur. Evdə təhsil almış, yüksək düşüncə qabiliyyəti istedadı və bacarığı ilə poeziyada və musiqidə şöhrət tapmışdır.



Məhsəti haqqında biblioqrafik məlumat çox azdır. Məlumdur ki, o, Səlcuq Sultanının, Sultan Mahmud Səncərin saray şairəsi və müğənnisi olmuşdur. 200 rübaisi və bir neçə lirik şeirləri bizə gəlib çatmışdır. Məhsətinin şeirləri əsasında yaradılmış Cövhərinin poeması qorunub saxlanılmışdır. Poema əsasında demək olar ki, Məhsəti istedadlı şairə olmuşdur. Azadfikirli şeirlər yazaraq qadın azadlığını vəsf etmişdir.

*Bizi nə ox gücü bir an saxlayar,*
*Nə də kədər dolu quru dörd divar.*
*Zülflərin boynunda zəncir olanı*
*Zəncirlə heç evdə bənd etmək olar?*

Şeir o dövr üçün ənənəvi olan həqiqi ehtirasla səslənir. Məhsəti Gəncəvi XII əsrin ortalarında Gəncədə vəfat etmişdir. Ona çoxlu şeirlər, pyeslər, monoqrafiyalar və başqa ədəbi əsərlər həsr olunmuşdur. Onun haqqında E. Bertels, Frits Meyer və başqaları yazmış, Azərbaycanda adına mədəni-maarif müəssisələri verilmişdir. Gəncədə ona abidə qoyulmuş, ev muzeyi açılmışdır.

2013-cü ildə UNESCO-nun Baş Konfransının 36-cı sessiyasında Məhsəti Gəncəvinin 900 illik yubileyinin dünya səviyyəsində qeyd edilməsi haqqında qərar qəbul edilmişdir.

**Məmməd Araz**
(1933-2004)

İbrahimov Məmməd İnfil oğlu 14 oktyabr 1933-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu, Nurs kəndində anadan olmuşdur.



1940-cı ildə Şahbuz rayonunun Nurs kəndinin 1-ci sinfində təhsilə başlamışdır. 1945-ci ildə Atası İnfil kişi «xalq düşməni» adı iləSibirə sürgün olunmuşdur.

1950-ci ildə Azərebaycan Pedaqoji institutunun coğrafiya fakültəsinə daxil olmuş və eyni zamanda yaradıcılığını da davam etdirmişdir. 1954-cü ildə APİ-ni bitirmişdir.

1955-56-cı illərdə Şahbuz rayonunun Nurs kəndində müəllim işləmişdir. 1957-ci ildə Azərbayçan Nazirlər Soveti yanındakı Baş Mətbuat İdarəsində müvəkkil vəzifəsinə işə qəbul edilmişdir. Həmin ildə Azərbayçan Yazarlar Birliyinin üzvü olmuşdur. 1959-cu ildə «Sevgi nəğməsi» adlı ilk şerlər kitabı «Azərnəşr»də çap olunmuşdur.

1959-cu ildə Moskva SSRİ Yazıcılar İttifaqı nəzdindəki M.Qorki adına ikiillik Ali Ədəbiyyat kursuna daxil olmuşdur. 1963-cü ildə Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat redaksiyasının müdiri vəzifəsinə irəli çəkilmişdir.

Məmməd Araz 1971-ci ildən 1981-ci ilə qədər Azərbayçan Yazıcılar İttifaqının poeziya bölməsinə rəhbərlik etmişdir.

1974-cü ildən ömrünün sonuna qədər «Azərbayçan təbiəti» jurnalının baş redaktoro olmuşdur.

Məmməd Araz 7 dekabr 1991-ci ildə Azərbayçan Respublikasının Xalq şairi fəxri adına layiq görülmüşdür. 1995-ci ildə müstəqil Azərbayçanın ən yüksək mükafatı – «İstiqlal» ordeninə lyiq görülmüşdür.

1995-ci ildə dövlət tərəfindən Almaniyaya müalicəyə göndərilmişdir. 1997-ci ildə «Yol ayrıcında söhbət» kitabı, 2001-ci ildə «Sənətdə son mənzil olmur» publisist kitabı nəşr olunmuşdur.

2002-ci ildə «Qayalara yazılan səs» kitabı Təbrizdə ərəb əlifbası ilə çap olunmuşdur. 2004-cü ildə dövlətin qərarı ilə ikicildliyi çap edilmişdir.

Məmməd Araz 2004-cü il dekabrın 1-də vəfat etmişdir.

# Cəlil Məmmədquluzadə
(1866-1932)

Cəlil Hüseynqulu oğlu Məmmədquluzadə 1866-cı ildə Naxçıvanda doğulmuşdur. Yazıçı, dramaturq, publisist, ictimai xadim. İlk təhsilini mollaxanada, orta təhsilini Naxçıvanda almışdır. 1887-ci ildə Qori Müəllimlər Seminariyasını bitirmişdir.



1887-97-ci illərdə C. Məmmədquluzadə Azərbaycanın İrəvan mahalının Uluxanlı qəsəbəsində müəllimlik etmişdir. XIX əsrin sonunda Moskvada, sonra da Peterburqda olmuşdur. 1898-ci ildə İrəvana, 1903-cü ildə Tiflisə köçmüşdür. 1904-cü ildən M. Şaxtaxtlının redaktə etdiyi "Şərqi-rus" qəzeti ilə əməkdaşlıq edir. Burada "Poçt qutusu", "Kişmiş oyunu" satirik hekayələrini yazır. L. Tolstoyun "Zəhmət,

ölüm və naxoşluq" hekayəsini tərcümə edib çap etdirir. "Kaspi" və "Tiflisskiy listok", "Vozrojdeniye", "Kafkazskiy raboçiy listok" qəzetlərində felyetonlarını çap etdirir. "Qeyrət" və "Novruz" qəzetlərini nəşr etdirir. Tiflisdə Azərbaycan zadəganları üçün məktəb və pansion təşkil edir. 1905-ci ildə tanınmış jurnalist Ömər Faiq Nemanzadənin və tacir M. Bağırzadənin köməyilə mətbəə alır. 1906-ci ilin aprelindən "Molla Nəsrəddin" satirik jurnalının nəşrinə başlayır. Hakimiyyət tərəfindən sıxışdırılsa da jurnal xalq arasında ziyalılar arasında geniş şöhrət tapır. 1894-cü ildə yazdığı ilk povesti olan "Eşşəyin itməkliyi" - "Danabaş kəndinin əhvalatları" ancaq 1936-cı ildə ölümündən sonra işıq üzü görmüşdür. Əsərdə yazıçı despotik feodal qaydaları kəskinliyilə tənqid olunur.

C. Məmmədquluzadə kiçik hekayələr müəllifi kimi də tanınmışdır. Bu janrda onun satirik məharəti bütün parlaqlığı ilə üzə çıxır: "Usta Zeynal", "İranda konstitusiya", "Qurbanəli bəy", "İki kişi" "Anamın kitabı" belə hekayələrdəndir. "Ölülər", "Dəli yığıncağı" kimi komediyaları fanatizmin köklərinin amansız tənqidinə yönəlmişdir.

1920-ci ildə C. Məmmədquluzadə ailəsiylə birgə Təbrizə köçür. Burada "Molla Nəsrəddin" jurnalının altı nömrəsini nəşr etdirir. 1922-ci ildə Bakıya qayıdan Cəlil Məmmədquluzadə 1931-ci ilə qədər "Molla Nəsrəddin" jurnalını nəşr edir. Jurnalın adı kommunistlər tərəfindən dəyişdirilib "Allahsız" qoyulduqda o, redaktorluqdan imtina edir. Jurnal cəmi bir nömrə çıxır. Beləliklə əsrin əvvəlində dünyanın 42 ölkəsində sevilə-sevilə hörmətlə oxunan bir məcmuə bağlanır. C. Məmmədquluzadə Bakıda "Yeni yol" qəzetini redaktə edir, başqa qəzetlərlə əməkdaşlıq edir. Yaradıcılığının son illərində "Bəlkə də qaytardılar", "Konsulun arvadı", "İki yastıq" və s. əsərlərini yazır. Onun əsərləri bir sıra xalqların dillərinə tərcümə olunmuş, dram əsərləri Gürcüstanda, İranda, Türkiyədə, Tatarıstanda, İrəvanda dəfələrlə səhnəyə qoyulmuşdur. C. Məmmədquluzadə yaradıcılığı Azərbaycan ədəbiyyatının və ictimai fikrin formalaşmasında böyük rolu olmuşdur. Onun həyatına və əsərlərinə filmlər çəkilmiş, haqqında monoqrafiyalar, məqalələr yazılmışdır.

Cəlil Hüseynqulu oğlu Məmmədquluzadə 1932-ci ildə Bakıda vəfat etmişdir. C.Məmmədquluzadənin əsərləri bir sıra dillərə tərcümə edilmişdir. Azərbaycan Respublikasında bir sıra küçə və mədəni-maarif müəssisəsinə (o cümlədən Naxçıvan Dövlət Musiqili Dram Teatrına, Naxçıvan Muxtar Respublika Dövlət Ədəbiyyat Muzeyinə) C.Məmmədquluzadənin adı verilmişdir. Keçmiş Astraxan rayonu və şəhəri 1967-ci ildə onun şərəfinə Cəlilabad, vaxtilə müəllimlik etdiyi Baş Noraşen kəndi isə Cəlilkənd adlandırılmışdır. Naxçıvanda və Cəlilabadda heykəli qoyulmuşdur. Bakıda və Naxçıvanda ev-muzeyləri, Nehrəm və Cəlilkənd kəndlərində xatirə muzeyləri açılmışdır.

# İmadəddin Nəsimi
(1369-1417)

İmadəddin Nəsimi Seyid Əli 1369-cu ildə Şamaxıda doğulmuşdur. Şair, mütəfəkkir. Sənətkarlar arasında böyümüş, ilk təhsilini Şamaxıda almışdır. Tarixi, ədəbiyyatı, dini elmləri, məntiqi, riyaziyyatı,



astronomiyanı yaxşı bilmişdir. Riyazi poetikanın bilicisi olmuş, Azərbaycan, ərəb, fars dillərində yazmışdır.

Nəsimi Yaxın Şərq ölkələrində dərvişlik etmiş, Təbrizdə və Anadoluda yaşamışdır. Panteizmin təbliğatçısı olmuşdur. Gözəlliyi əhatə edən aləmdə və insanın özündə axtarmağa, insanı ən gözəl yaradan qüvvə kimi görməyə çağıraraq deyirdi: Allah insanın üzündə təcəlla tapıb, onun vasitəsilə təzahür edir.

*Ey daşlar və dəmirlər içrə xəzinə axtaran,*
*İnsandan böyük xəzinə gəlməmiş cahana!*

Nəsiminin əsərləri Yaxın Şərqdə və Orta Asiyada böyük şöhrət qazandı. O, sosial haqsızlığa qarşı çıxır, fanatizmi, mövhumatı tənqid edir, düzlüyə, ağlın qələbəsinə çağırırdı. Poeziyasında sufi mistik motivlər güclüdür. Allahla vəhdətləşməyə cəhd edir. Nəsiminin humanizmi Nizaminin humanist ənənələrilə vəhdət təşkil edir. Nəsimi sözün əsl ustadı olub, qəzəl, rübai, müxəmməs, qəsidə və s. janrlarda yazıb yaratmışdır.

*Ey cəmalın səhifəsində xətmi Quran buldum uş.*
*Saçının hər tarəsində küfrü iman buldum uş.*
*Çün hidayət eyləmiş həqq üzünə nuri-əzəl,*
*Ol səbəbdən kim üzündə nuri-burhan buldum uş.*
*Surətin müsfəhdir ey dilbər, üzün bədri munir,*
*Tələtin şəmsiz zühadır, mahi-taban buldum uş.*
*Ey səkkiz cənnəti ədni ərz edən zahid, mana*
*Mən bu gün yarın cəmalində gülüstan buldum uş*
*Cövrünə qaldım təhəmmül, səbr edib, yarın müdam,*
*Dərdə dərman ondan oldu, dərdə dərman buldum uş*
*Ey Nəsimi, vəchi-Allahın kəlamidir üzün*
*Kim, bu vəchilillah içində fəzli-rəhman buldum uş.*

Öz baxışlarına görə Nəsimi dəfələrlə həbs olunmuşdur. 1417-ci ildə isə Hələbdə Misir sultanının fərmanına əsasən dəhşətli edama məruz qalıb - dərisi diri-diri soyulmuşdur.

*Zahidin bir barmağın kəssən dönüb haqqdan qaçar,*
*Amma bu miskin aşiqi sərpa soyalar ağlamaz.*

Seyid Əlinin (İmadəddin Nəsimi) yaradıcılığı Yaxın və Orta Şərqdə poeziyanın inkişafına böyük təsir göstərmişdir.

Əsərləri dünyanın bir çox dillərinə tərcümə edilərək çap olunmuşdur. Haqqında monoqrafiyalar, şeirlər, poemalar, romanlar, musiqi əsərləri yazılmış, Bakının mərkəzində ona abidə qoyulmuş, abidə qoyulduğu rayon Nəsimi adlanır, adına elmi-tədqiqat institutu var. Haqqında ikiseriyalı “Nəsimi”bədii filmi çəkilmişdir. Hələbdə qəbrinin üstündə mavzoley tikilmiş, küçələrdən birinə adı verilmişdir.

## Mir Cəlal Paşayev

(1908-1978)

Paşayev Mir Cəlal Əli oğlu 1908-ci ildə Cənubi Azərbaycanın Ərdəbil kəndində yoxsul kəndli ailəsində doğulmuşdur. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçmişdir. 1918-ci ildə atası vəfat etmiş, böyük qardaşının himayəsində yaşamışdır. 1918–1919-cu illərdə xeyriyyə cəmiyyətinin köməyi ilə ibtidai təhsil almışdır. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəlliminə daxil olmuşdur (1924–28).



Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində (1930–32), Azərbaycan Dövlət Elmi-Təqiqat İnstitutunun aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik etmişdir (1932–35). «Füzulinin poetikası» mövzusunda namizədlik dissertasiyası (1940), «Azərbaycanda ədəbi məktəblər» mövzusunda doktorluq dissertasiyası (1947) müdafiə etmişdir.

1928-ci ildən ədəbi fəaliyyətə başlamışdır. İlk hekayə və oçerkləri 1930-cu ildə çap olunmuşdur. «Kommunist» qəzetində şöbə müdiri, «Gənc işçi» qəzetində məsul katib, həm də Azərbaycan Elmlər Akademiyası Nizami ad. Ədəbiyyat İnstitutunda elmi işçi olmuşdur (1932–35). Azərbaycan Dövlət Universitetində dosent, 1948-ci ildən professor kimi fəaliyət göstərmişdir. Azərbaycan ədəbiyyatı kafedrasının müdiri olmuşdur (1961-ci ildən).

SSRİ yazıçılarının II, III, IV qurultaylarının iştirakçısı (1954, 1959, 1967) olmuşdur.

Mir Cəlal həm də istedadlı romançı idi. Onun qələmindən «Dirilən adam» (1935), «Bir gəncin manifesti» (1939), «Açıq kitab» (1941), «Yaşıdlarım» (1952), «Təzə şəhər»(1950), «Yolumuz hayanadır» (1957) kimi romanlar çıxmışdır.

Mir Cəlal 1978-ci il sentyabrın 28-də vəfat etmiş, ikinci Fəxri Xiyabanda dəfn edilmişdir. Bakının küçələrindən birinə onun adı verilmişdir.

**Mirzə Şəfi Vazeh**
(1794-1852)

1794-cü ildə Gəncədə doğulmuşdur. Şair-mütəfəkkir, maarifçi. Gəncə mədrəsəsində təhsil almışdır. Dünyagörüşünün formalaşmasında ona atalıq etmiş böyük din alimi Hacı Abdullanın böyük rolu olmuşdur.



Mirzə Şəfi Vazeh fəaliyyətinin əvvəlində məktəbdə hüsnxət və rəsmxətdən dərs demişdir. XIX əsrin 30-cu illərində böyük yazıçı, filosof M. F. Axundovla tanış olmuşdur. 1840-cı ildə Tiflisə köçmüş, qəza məktəbində Azərbaycan və fars dillərindən dərs demişdir. Burada yerli ədəbiyyatçılar, şairlərlə tanış olur, onlara öz şeirlərini oxuyur. Onun dostlarından fars dilindən dərs dediyi adamlardan biri də alman ədəbiyyatşünası Fridrix Bodenştetd olur. Bodenştetd Mirzə Şəfinin şeirlərinə vurularaq onların üzünü köçürür, sonra alman dilinə çevirərək 1850-ci ildə Almaniyada "Şərqdə min bir gün" adı ilə məcmuədə çap etdirir. 1851-ci ildə isə "Mirzə Şəfinin şərqiləri" adı altında ayrıca kitabçada çap etdirir. Şeirlər son dərəcə şöhrət qazanaraq ingilis, fransız, holland, yəhudi, polyak, norveç dillərinə tərcümə olunur. Mirzə Şəfinin şeirlərinin belə qeyri-adi şöhrət qazandığını görən Bodenştetd özünü onların müəllifi elan etməyi qərara alır və Mirzə Şəfi adının elə belə düşünülmüş personaj kimi qələmə verir. Beləliklə, Mirzə Şəfinin şöhrəti bir müddət oğurlanmış olur. 1855-ci ildə Mirzə Şəfinin şeirləri onu şəxsən tanımış rus şairi və inqilabçısı T. İ. Mixaylov tərəfindən rus dilində çap olunduqdan sonra, Bodenştetd biabırcasına ifşa olunur.

Mirzə Şəfinin şeirləri zərif və oxunaqlı Şərq ahəngdarlığına malikdir. Onun əsərləri aforizm kimi mənzum hekayətləri, hədisləri andırır. Mirzə Şəfinin təbii ahəngdar qəzəllərinin, ikiliklərinin, rübailərinin sətirlərində maarifçilik hikməti çox asanlıqla dinləyicilərin qəlbinə hopurdu.

*Sənin ol sərv boyun, bil nə zaman yada düşər,*
*Gözümün yaşı axar, qəlb evi fəryada düşər.*
*Yarımın gül üzünə baxmağı mən eyləmə, şeyx,*
*Bixəbərsən, bu savab eşqdə ustada düşər.*
*Ay ilə gün kimiyik yar görünən anda mənim,*
*Sanasan ki, vücudum tufana ya oda düşər...*

Bu sətirlərdəki pafos qadın azadlığının müdafiəçisi, "Sovremennik" jurnalının redaktoru və naşir M. İ. Mixaylovun diqqətini cəlb edir. Tezliklə Mirzə Şəfinin şeirləri N. İ. Eyfert, İ. S. Predan, P. F. Yakuboviç və başqaları tərəfindən rus dilinə tərcümə olunaraq nəşr edilir. A. Rubenşteyn Mirzə Şəfinin şeirlərinə 12 romans yazmışdır. "Şərq nəğməsi" adlanan bir romans F. İ. Şalyapinin repertuarına daxil idi. Mirzə Şəfi Şərq dilləri müəllimi İ. Qriqoryevlə birlikdə Tiflisin rus məktəblərində uzun illər istifadə olunan "Kitabi türk" dərsliyini yazmışdı.

Şəfi Sadıq oğlu (Mirzə Şəfi Vazeh) 1852-ci ildə Tiflisdə vəfat etmişdir. Onun adı Azərbaycanda küçə, kitabxana və başqa mədəni-maarif müəssisələrinə verilmişdir.

**Mikayıl Müşfiq**
(1908-1938)

Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadə 1908-ci ildə Bakıda doğulmuşdur. 1931-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini bitirmişdir.



Müşfiq çox gənc yaşlarında seirlər yazmışdır. "Bir gün" adlı ilk şeirini 1916-cı ildə, "Küləklər" adlı ilk şeirlər kitabını 1930-cu ildə çap etdirmişdir. Cəmi 31 il yaşamışdır. Ömrünün 13 ilini poeziyaya həsr etmişdir. Bu illər ərzində "Vuruşmalar", "Pambıq", "Şəngülüm, şüngülüm, məngülüm", "Günün səsləri", "Buruqlar arasında" v s. on bir kitabını çap etdirə bilmişdi. Az ömür sürməsinə baxmayaraq, Müşfiqin qayəsi çağlayan zamanın hər hadisəsinə müdaxilə etmək, səsinə səs vermək idi. O, zəhmətkeşdən, məhəbbətdən, təbiətdən yazırdı. Xalqın həyatı - Füzuli yaradıcılığındakı məhəbbət kimi, Nəsimi yaradıcılığındakı fəlsəfi dərinlik kimi Müşfiq yaradıcılığına təbii şəkildə daxil olmuşdu. Onun bütün şeirləri aydın, rəvan, təbii idi.

Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadə (Müşfiq) uşaqlar üçün bir sıra əsərlər yazmış, Ə. Firdovsi, Ömər Xəyyam, A. S. Puşkin, M. Y. Lermontov, T. Şevçenko və Marşakdan tərcümələr etmişdir. Onun şeirləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. Yalan məlumata əsasən repressiya olunmuş, 1938-ci ildə güllələnmişdir.

Azərbaycanın şəhər və kəndlərində adı küçə, məktəb, qəsəbə, kitabxana və s. mədəni maarif müəssisələrinə verilmişdir. Bakıda və Xızıda ona abidə qoyulmuşdur.

**Xurşidbanu Natəvan**
(1832-1897)

Xurşidbanu Mehdiqulu qızı 1832-ci ildə Şuşada doğulmuşdur. Şairə. Axırıncı Qarabağ xanı İbrahim xanın nəvəsi. Evdə təhsil almışdır. Bibisi Gövhər xanım dövrünün təhsil görmüş xanımı olmuş,



Xurşidbanuya yazmağı, oxumağı, şəkil çəkməyi, musiqi alətlərində çalmağı və s. öyrətmişdi. Natəvan ərəb fars və türk dillərini bilirdi.

Mətbuatda ilk şeirləri XIX əsrin ortalarında çap olunmağa başlamışdır. Şuşada "Məclisi-üns" şeir məclisinə rəhbərlik etmişdir. Məclis Azərbaycanın müxtəlif yerlərində olan analoji dərnəklərlə yaradıcılıq əlaqələri saxlayırdı. Natəvan analığın ali hisslərini təcəssüm etdirən lirik şeirlərin, həyatdan çox gənc getmiş 16 yaşlı oğlunun həsrətinə həsr etdiyi qəsidələrin, həyat və əbədilik və s. haqqında onlarla şeirin müəllifi olmuşdur. Qəzəllərinin əksəriyyəti dərd ələm qoxuyur, bu qəzəllər dərin hisslərlə yazılmış olsa da, həyati realist detallarla əhəmiyyətlidir.

*Mümkün olmaz mənə vəslin bilirəm həşrə kimi,*
*Ol səbəb məskənimi küyi biyaban etdim.*
*Eşq sultanı mənim qətlimə dərman gətirib,*
*Etmədim tərki vəfa, taəti dərman etdim.*
*Səri küyində qoyub başımı bir uf demədim.*
*Ya təbib adını tərk eylə, təbabət etmə,*
*Ya mənim dərdimi tap, gör niyə tüğyan etdim.*

Natəvan həm də istedadlı rəssam olmuşdur. Özündən sonra "Gül dəftəri" adlanan albomda toplanmış bir sıra bədii rəsm əsəri saxlamışdır. Xeyriyyə işlərilə məşğul olmuşdur. 1873-cü ildə Şuşaya çəkdirdiyi bu günə qədər işləyən su xətti "Xan qızı bulağı" adlanır. Azərbaycanda olan Aleksandr Düma Şuşada Natəvanın qonağı olmuş, ondan əl işi olan hədiyyə almış və öz xatirələrində bunu minnətdarlıq kimi qeyd etmişdir.

Xurşidbanu Mehdiqulu qızı Natəvan 1897-ci ildə Şuşada vəfat etmiş, Ağdamdakı "İmarət" qəbiristanlığında dəfn edilmişdir. Onun adı əbədiləşdirilmiş, Bakının mərkəzində abidəsi ucaldılmışdır.

**Nəbi Xəzri**
(1924-2007)

Nəbi Ələkbər oğlu Babayev 1924-cü ildə Bakının Xırdalan kəndində doğulmuşdur. Şair, ictimai xadim, əməkdar incəsənət xadimi, Azərbaycanın xalq şairi, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, 1952-ci ildə Moskva Ədəbiyyat İnstitutunu bitirmişdir.



1944-cü ildən çap olunur, 1950-ci ildə "Çiçəklənən arzular" adlı ilk şeirlər kitabı çap olunmuşdur.

Onun onlarla lirik melodik şeirlərinə mahnılar bəstələnmişdir. "Günəşin bacısı" poeması kənd əməkçilərinə "İki Xəzər" poeması isə dəniz neftçilərinə həsr olunmuşdur. "Bakının səhəri", "Dəniz, səma və məhəbbət", "Dərələr", "Ulduzlar karvanı" və başqa əsərləri dərin həyati motivlərlə zəngindir. Nəbi Xəzri "Ana", "Bacı", "İnam", "Əfsanələrin oğulları" və başqa poemaların müəllifidir. O, dramaturq kimi də tanınmışdır. "Əgər sən yanmasan", "Mirzə Şəfi Vazeh", "Əks-səda", "Burla Xatun" və başqa əsərləri tamaşaçıların rəğbətini qazanmışdır. Poemalarının süjet xətti və səhnə qəhrəmanlarına çevrilmiş təbiət qüvvələri, yüksək romantik stil, əhvali-ruhiyyəsinin uca mərsiyə tonu, şairin duyğularını əks etdirərək qalibləri vəsf, şəhidləri isə ağlayır. Buna baxmayaraq Nəbi Xəzrinin şeirləri heç vaxt pessimistik tonları əks etdirməmişdir.

"İllər və sahillər" (1969), "Ulduz karvanı" (1979), "Nəsillər-əsrlər" (1985), "Ağ şimşəklər" (1986), "Torpaq sənə and içirəm" (1989), "Ömür çinarından yarpaqlar" (1995), "Əsrin qanlı laləsi" (1996) və s. kitabların müəllifidir.

O, 1958–1965-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi, 1965–1971-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi sədrinin, 1971–1974-cü illərdə isə Azərbaycan mədəniyyət nazirinin müavini vəzifələrində işləmişdir. 1974-cü ildən etibarən Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyətinin rəyasət heyətinə sədrlik edən Nəbi Xəzri 1992-ci ildən "Azərbaycan Dünyası" Beynəlxalq Əlaqələr Mərkəzi adı altında fəaliyyət göstərən həmin təşkilatın prezidenti olmuşdur.

O, Azərbaycan Respublikasının ali dövlət təltiflərinə — "Şöhrət" və "İstiqlal" ordenlərinə layiq görülmüşdür.

Xalq şairi Nəbi Xəzri 16 yanvar 2007-ci ildə vəfat etmişdir. 1-ci Fəxri Xiyabanda dəfn edilmişdir.

## Nizami Gəncəvi
(1141-1209)

İlyas Yusif oğlu 1141-ci ildə Gəncədə doğulmuşdur. Evdə və Gəncə mədrəsəsində təhsil almışdır. Azərbaycan-türk dilindən başqa ərəb, fars və yunan dillərini bilmiş, tarixi, tibbi, fəlsəfəni, astronomiyanı, tibbi psixologiyanı və məntiqi tədqiq etmişdir.



70-ci ilin əvvəllərində Dərbənd hakimi Seyfəddinin hədiyyə kimi göndərdiyi Afaq adlı qıpçaq qızı ilə evlənmişdir. Şair onu şeirlərində vəsf etmişdir. Şərq təzkirəçilərinin məlumatlarına görə, Nizami Gəncəvi 20 mindən artıq beyt yaratmışdır. Bizim zamana kimi onun 6 qəsidəsi, 116 qəzəli, 2 qitəsi, 30 rübaisi gəlib çatmışdır. Yaratdığı ən qiymətli əsərləri "Xəmsə" - beşlik beş poemadan ibarətdir. "Sirlər xəzinəsi", “Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İsgəndərnamə". "Sirlər xəzinəsi" əsərində Nizami yaratdığı nəsihətamiz şeirlərində hakimlərə öz təbəqələri ilə ədalətlə rəftar etməyi təbliğ etmişdir. Mövzunun mənasına görə lirik poema ;olan "Xosrov və Şirin" əsərində Xosrov şahın gözəl Şirinə olan məhəbbətindən danışılır. Şirvanşah I Axsitanın sifarişi ilə yazdığı üçüncü poeması "Leyli və Məcnun"da Məcnun - dəli adlandırılan gəncin, nakam Qeysin gözəl Leyliyə məhəbbəti vəsf olunur. Dördüncü - "Yeddi gözəl" poeması Bəhram şahın yeddi şahzadə, yeddi gözəl - olan arvadları və onların məhəbbət qayğılarından bəhs edir. Beşinci - "İsgəndərnamə" poemasında Nizami özünün ideal cəmiyyət haqqında utopik fikirlərini açır. Poemanın qəhrəmanı İsgəndər (böyük sərkərdə Makedoniyalı İsgəndər) uzun səfərlərdən sonra yoxsul və varlının, ağa və nökərin olmadığı qəribə, gözəl bir ölkəyə gəlib çıxır. Burada haqsızlığın, yalançılığın fitnə-fəsadın, hiylənin, şöhrətpərəstliyin nə olduğunu bilmirlər. Bu ölkənin vətəndaşlarının hakim, idarəediciyə ehtiyacları yoxdur. İsgəndər sevinib axır ki, arzuladığım torpağa gəlib çıxdım deyir. Nizaminin fikrincə, əgər insanlar ədalət qanunlarını rəhbər tutaraq yaşaya bilirlərsə, bir-birini sevib hörmət edirlərsə, onda şəksiz ki, hökmdara ehtiyac olmayan belə bir cəmiyyət yarada bilərlər. Şairin utopik ideyaları xalqın geniş kütlələrinin arzularının ifadəsi idi. Qeyd etmək lazımdır ki, Nizami Gəncəvi Avropa utopistləri ingilis Tomas Moru və italyan Kampanellanı altı əsr qabaqlamışdı.

İlyas Yusif oğlu (Nizami Gəncəvi) Gəncədən çıxmamış, burada yaşamış və 1209-cu ildə vəfat etmişdir. Nizami Gəncəvi dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermişdir. Onun əsərləri dünyanın bir çox dillərinə tərcümə olunmuş və dönə-dönə nəşr olunur. 1947-ci ildə YUNESKO-nun qərarı ilə Nizami Gəncəvinin 800 illiyi Bakıda, Gəncədə, Peterburqda geniş qeyd edilmişdi.

Qəbiri üstündə ona abidə qoyulmuş, Gəncədə, Bakıda muzey yaradılmış, memorial kompleks – “Yeddi gözəl” bulağı, Gəncədə adına teatr, Bakının və Gəncənin rayonlarından birinə Nizami adı verilmiş, Azərbaycan EA-nın Ədəbiyyat İnstitutu və Ədəbiyyat Muzeyi onun adı ilə adlandırılmışdır. 1981-ci ildə Nizami adına medal təsis edilmiş, bu medalla ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsində ən

böyük nailiyyətlər əldə etmiş, şairlər, yazıçılar, tənqidçilər mükafatlandırılır. Nizami haqqında yüzlərlə əsərlər yazılmış, səhnə əsərləri qoyulmuş, bədii film çəkilmişdir. Şeirlərinə mahnılar yazılmışdır.

## Məmməd Səid Ordubadi
(1872-1950)

Məmməd Səid Hacıağa oğlu Ordubadi 1872-ci ildə Ordubadda doğulmuşdur. Yazıçı, şair, dramaturq, ədəbiyyatçı. Azərbaycanın əməkdar incəsənət xadimi. Evdə təhsil almışdır.



Çox erkən yaşlarında atasını - şair Hacıağa Fəqiri itirmişdir. 14 yaşında ipək kombinatında işləməyə başlamışdır. İlk şeirini 1903-cü ildə "Şərqi-Rus" qəzetində dərc etdirmişdir. İlk şeirlər kitabını "Qəflət", 1906-cı ildə nəşr etdirmişdir. O dövrün qəzetləri - "İrşad", "Tərəqqi", "Tazə həyat", "Birlik" və "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq etmişdir. Satirik şeirlər, felyetonlar yazmışdır. "Vətən və hürriyyət" kitabında azadlığa çağırış aşkar hiss olunurdu. "İki çocuğun Avropaya səyahəti" və "Bədbəxt milyonçu" romanlarında İrandakı feodal rejimini kəskin tənqid etməklə, xalq kütlələrinin maariflənməsinə çağırır. "Dumanlı Təbriz", "Döyüşən şəhər" və "Gizli Bakı" romanlarında Azərbaycanda gedən xalq azadlıq hərəkatından bəhs olunur. "Qılınc və qələm" romanı orta əsrlər Azərbaycanında şərqin böyük şairi Nizami Gəncəvinin həyatından bəhs edir. M. S. Ordubadi bir sıra dramatik əsərlərin opera və operetta librettolarının, habelə ədəbi publisistik yazıların müəllifidir. A. S. Puşkinin "Bağçasaray fontanı" və "Boris Qodunov" əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. M. S. Ordubadinin əsərləri dünyanın bir sıra dillərinə tərcümə olunmuşdur. Şeirlərinə F. Əmirov və S. Rüstəmov mahnı və romanslar yazmışlar.

Məmməd Səid Hacıağa oğlu Ordubadi dəfələrlə Azərbaycan Ali sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

1950-ci ildə Bakıda vəfat etmişdir. Respublikada onun adı küçə, kitabxana, və məktəbə verilmiş, Ordubadda ev muzeyi yaradılmış, Ordubadda və Naxçıvanda büstləri qoyulmuşdur.

# Rəsul Rza
(1910-1981)

Rzayev Rəsul İbrahim oğlu 1910-cu ildə Göyçayda doğulmuşdur. Şair, ictimai xadim, Azərbaycanın əməkdar incəsənət xadimi və xalq şairi, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı. Orta təhsilini Göyçayda almışdır. Ayrı-ayrı illərdə Zaqafqaziya kommunist universitetində, Moskva Millətlər İnstitutunda, Ümumittifaq Kinematoqrafiya İnstitutunda təhsil almışdır. 1941-45-ci illərdə sovet-alman müharibəsində müxbir kimi iştirak etmişdir.



R. Rza 1927-ci ildən çap olunmağa başlamışdır. XX əsrin 30-cu illərinin əvvəllərində "Qadınlar", "Çinar", "Almaniya", "Madrid", "İnqaleyso" adlı antifaşist şeirlər yazaraq oxucuların rəğbətini qazanmışdır. 1941-45-ci illərdə sovet-alman müharibəsinə qarşı şeirləri və hekayələri ilə çıxmış, "Ölməz qəhrəmanlar", "Qəzəb və məhəbbət" adlı məcmuələri nəşr etdirmişdir. Cənubi Azərbaycanda olan qardaşlara "Hilal" adlı poema həsr etmişdir. 50-ci illərdə R. Rza yaradıcılığı rəngarəng fəlsəfi motivlər daşıyıcısına çevrildi. 1961-ci ildə Nəriman Nərimanova həsr etdiyi "Xalq həkimi" poemasını, 70-ci illərdə "Dünən, bu gün və sabah", "1418", "Üzü küləyə" poemalarını yazdı. Rəsulzadə uşaqlar üçün də şeir və hekayələrin, elmi publisistik məqalə və oçerklərin müəllifidir. H. Lonqfello, C. Bayron, Lope de Veqa, Ş. Petefi, A. Blok, P. Elyuar, A. Puşkin, M. Lermontov, N. Nekrasov, T. Şevçenko, M. Mayakovski və bir sıra başqa şairlərin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Rəsul Rzanın əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur.

Rəsul İbrahim oğlu Rzayev (Rəsul Rza) Azərbaycan Yazıçılar İttifaqına rəhbərlik etmiş, SSRİ Yazıçılar İttifaqı İdarə heyətinin üzvü, Azərbaycan kinematoqrafiya naziri, Azərbaycan Ensiklopediyasının baş redaktoru və bir sıra başqa yaradıcılıq birliklərinə rəhbərlik etmişdir. Dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1981-ci ildə Bakıda vəfat etmişdir.

Rəsul Rzanın həyat yoldaşı **Rəfibəyli Nigar Xudadat bəy qızı** (1913-1981) məşhur Rəfibəylilər nəslindəndir. "Ana səsi" (1969), "Günəşdən gənclik istədim" (1974), "Bir həzin axşamda düşsəm yadına" (1982), "Şanlı nəsillərin yadigarıyam" (1993) kitablarının müəllifidir. 1993 və 2004-cü illərdə "Seçilmiş əsərləri" çapdan çıxmışdır. Azərbaycanın Xalq şairi adına layiq görülmüşdür.

Onların 1938-ci ildə doğulmuş övladları Anar tanınmış yazıçı, dramaturq, ssenarist və kinorejissor, Azərbaycan Yazıçılar Birliyinin sədridir.

**Mirzə Ələkbər Sabir**
(1862-1911)

Ələkbər Zeynalabdin oğlu Tahirzadə 1862-ci ildə Şamaxıda doğulmuşdur. Satirik-şair-maarifçi. Mollaxanada, sonra Seyid Əzim Şirvaninin məktəbində oxumuşdur.



M.Ə. Sabir 8 yaşında ilk şeirini yazmışdır. Gənc yaşlarından lirik qəzəllər, sifarişlə mədhiyyələr, növhə və mərsiyələr yazmış, ilk dəfə 1903-cü ildə "Şərqi-Rus" qəzetində çap olunmuşdur. 1903-05-ci illərdə "Dəbistan", "Zənbur", "İrşad", "Həqiqət", "Həyat", qəzetləri və 1906-cı ildən isə "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq etmişdir. Satirik obrazlarında ya avam müsəlmanı, ya geridə qalmış ailə başçısını və ya xalqdan ayrılmış ikiüzlü ziyalıları tənqid atəşinə tuturdu. Sabir inkişafa mane olan hər şeyi qamçılayırdı. O, maarifçiliyə çağırır, qadın azadlığını və söz azadlığını təbliğ edirdi. O, "Bizə nə", "Cəllad", "Dilənçi", "Əkinçi" və bu kimi sosial həyatdan yazdığı şeirlərində Azərbaycan ədəbiyyatında cəmiyyətdəki sosial bərabərsizlikdən bəhs etmişdir. Əmək adamları bu şeirlərdə tapdanmış hüquqlarının müdafiəsinə çağırışı eşitdilər.

Özünün siyasi satiralarında İrandakı azərbaycanlıların milli azadlıq hərəkatının qarşısını almağa çalışan rus imperiyasının despotizmi qamçılanırdı. Özünün bir sıra əsərlərini Cəlil Məmmədquluzadə ilə birgə yaratmışdır. Onların şeirləri satirik ədəbiyyatın ən yaxşı nümunələri olmaqla bu sahədə yazan bir sıra şairlər ordusunun yaranmasına zəmin yaratdı. Sabir mətbuatda əvvəl, "Hop-hop" (Şanapipik) imzasıyla, çıxış etmiş, sonra tez-tez imzasını dəyişməli olmuşdur. Gah "Əbubəkr Şeybani", "Əyriboyun", "Ağlar güləyən", ya da "Sevdayi" və b. imzalarla çap olunurdu. Öz imzasını gizlətməklə onu istəməyənlərin təqiblərindən qorunurdu.

Mirzə Ələkbər Zeynalabdin oğlu Tahirzadə (Sabir) xırda tacir, müəllim, nəşriyyatlarda korrektor işləmiş, ömrü boyu çətinlik içində yaşamışdır. Vərəm xəstəsi idi, 1911-ci ildə Şamaxıda vəfat etmiş, Şah-Xəndan qəbiristanlığında dəfn olunmuşdur. Davamçıları istedadını yüksək qiymətləndirmişlər. Onun həyat və yaradıcılığına roman, pyes, ədəbi əsərlər, oçerk və monoqrafiyalar həsr olunmuşdur. Sabirin adı rayon, məktəb, kitabxana küçə və s. mədəni-maarif ocaqlarına verilmiş, Bakıda və Şamaxıda heykəli qoyulmuşdur. Hər il respublikada “Sabir poeziya günləri” keçirilir.

# Saib Təbrizi
(1601-1677)

XVII əsr Şərqinin ən görkəmli şairlərindən biri Azərbaycan və fars dillərində gözəl şerlər müəllifi Saib Təbrizidir. Mirzə Məhəmməd Əli Saib Təbrizi 1601-ci ildə Təbriz şəhərində doğulmuş və ibtidai təhsilini də burada almışdır. Atası Mirzə Əbdürrəhim tacir idi və məşhur təzkirəçi Nəsrabadinin yazdığına görə, dərin etibar qazanmışdı. Ata babası Şəms əd-Din Məhəmməd Təbrizi bütün şərq dünyasında "Qələmi şirin" adı ilə tanınmış çox mahir xəttat idi.



On altıncı əsrin axırlarında, şah Təhmasibin zamanında Təbriz osmanlılar tərəfindən işğal olunmuşdu. Şəhər azad edildikdən sonra şah Abbas bir çox təbrizliləri İsfahana köçürür. Saibin atası da köçürülənlərin arasında idi. Saib öz təhsilini və poetik fəaliyyətini İsfahanda davam etdirir. O, dövrün görkəmli alimlərindən Kaşi və Şəfaidən dərs alır. Təhsilini bitirəndə artıq onu İsfahanda savadlı ziyalı və istedadlı şair kimi yaxşı tanıyırdılar. Bundan sonra Saib dövrünün ənənələrinə uyğun olaraq, təhsilini səyahətlərdə davam etdirir. O, Məkkə və Mədinə ziyarətində olur, buradan da Türkiyəyə gedir. Burada o, ölkənin tanınmış şair və alimləri ilə tanış olur, yaradıcılıq söhbətləri aparır. Az sonra yenidən İsfahana qayıdan Saib burada soyuq qarşılandığından 1625-ci ildə Hindistana gedir. Yolüstü Kabula dönür. Kabul hökmdarı, şer aləmində Zəfərxan təxəllüsü ilə tanınan Mirzə Əhsənulla Nəvvab Saibi əziz bir dost kimi qarşılayaraq, öz sarayında qonaq saxlayır. 1630-cu ildə Zəfərxan Saibi də özü ilə birlikdə moqol hökmdarı Şahcahanın sarayına aparır. (Şahcahan sonralar bütün dünyada öz arvadının şərəfinə tikdirdiyi Tac Mahal məqbərəsi ilə tanınıb.)

Sarayda Saib görkəmli həkim və şair, Azərbaycan dilində yazılmış məşhur "Vərqa və Gülşa" poemasının müəllifi Məsihi ilə rastlaşır. Məsihi burada şahın həkimi kimi çalışırdı. Bir çox təzkirəçilərin Məsihini Saibin tələbəsi hesab etmələrinə baxmayaraq onların dostluğu hər iki şairin yaradıcılığına müsbət təsir edir və uzun müddətli olur. Saib Məsihinin yaradıcılığını yüksək qiymətləndirir və onun ölümündən sonra dostunun "Divan"ının ilk tərtibçilərindən olur. Təzkirəçi Mirzə Tahir Nəsrabadinin yazdığına görə, Saibin evində Məsihinin on "Divan"ı varmış.

Saib Təbrizinin atası onun dalınca Hindistana gəlib, İsfahana aparmaq üçün icazə istəyir. 1633-cü ildə artıq Kəşmir hökmdarı olan Zəfərxan Sahibin vətənə dönmək arzusunu yerinə yetirir. Lakin bir sıra səbəblər ucundan şair İsfahanda çox duruş gətirə bilmir və yenə səyahətə yollanır. 0, Məşhəd, Qum, Qəzvin, Yəzd, Ərdəbil şəhərlərini gəzərək yenidən İsfahana dönür. Bu dəfə II şah Abbas (1642-1666) şairi ehtiramla qarşılayır və sarayına dəvət edir. Saib sarayda məlik-üş-şüəra şairlərin başçısı olur. O, burada lirik qəzəllər və qəsidələr yaradır.

Saib Təbrizi İran tədqiqatçılarının "İsfahan üslubu" adlandırdıqları yeni poetik cərəyan yaradır. Qeyd olunmalıdır ki, Hindistanda onu farsdilli poeziyanın "Hindistan məktəbi"nin banisi kimi tanıyırlar. Sarayda ikən Saib öz qəsidə və epik əsərlərində şahın hərbi hünərlərini tərənnüm edir. "Qəndəharnamə"

poeması bunların arasında bədii dəyərinə görə xüsusi yer tutur. Bu poema II şah Abbasın Əfqanıstan yürüşünə və 1649-cu ildə Qəndəharı tutmasına həsr olunub.

Şah Süleyman (1666-1694) hakimiyyətə gəldikdən sonra sarayda Saibə münasibət pis tərəfə doğru ciddi surətdə dəyişməyə başlayır və o, sarayı tərk edir.

Saib ömrünün son on ilini öz əsərlərinin sistemləşdirilməsinə və qaydaya salınmasına həsr edir. O, öz şerlərini mövzular üzrə ayıraraq, "Mir′atül-camal", "Arayişe-nigar" və "Vacibül-hifz" adlı toplular təşkil edir.

Saib böyük bir poetik irs qoyub getmişdir. Bə'zi tədqiqatçılar belə hesab edirlər ki, onun irsi təqribən 300 min beyt təşkil edib. Görkəmli Azərbaycan alimi Məhəmməd Əli Tərbiyət özünün "Azərbaycanın görkəmli adamları" kitabında yazır ki, o özü Saibin 120 min beytlik "Divan"ını (poemaları daxil olmadan) gözü ilə görüb.

Saib Təbrizi 1677-ci ildə İsfahan şəhərində vəfat edib və orada da dəfn edilib.

## Osman Sarıvəlli
(1905-1990)

Osman Abdulla oğlu Qurbanov 1905-ci ildə Qazax rayonunun İkinci Şıxlı kəndində doğulmuşdur. Azərbaycanın xalq şairi, 1926-cı ildə Qazaxda Müəllimlər Seminariyasını, 1932-ci ildə MDU-nun filologiya fakültəsini bitirmişdir. 1944-45-ci illər Sovet-Alman müharibəsində iştirak etmişdir.



O. Sarıvəlli gənc yaşlarında ağır əməyə qatlaşmış, muzdurluq etmiş, qoyun otarmış, özünə bir tikə çörək qazanmışdır. Şairin gəncliyində keçən ağır həyatı "Bənövşə", "Mənim tərcümeyi-halım", "Qocanın hekayəti", "İşıq" şeirlərində öz əksini tapmışdır. Sarıvəlli öz şair yaradıcılığında aşıq poeziyasına söykənmişdir. Aşıq şeirinin zəngin ənənələrindən bəhrələnərək müasirlərinin arzu və istəklərini, qayğılarını, düşüncələrini əks etdirmişdir. "Avey dağı", "Mənim həmyerlilərimə", "Varis", "Hər kəs yüz il yaşamasa", "Sabahı yaradanlar", "Mən sabaha gedirəm" əsərlərində məhəbbət, gözəllik, yaxşılıq və əməyi tərənnüm etmişdir. 1939-45-ci illərdə, sovet-fin və sovet-alman müharibələri illərində yazdığı "Qan qardaşı", "Müharibənin ilk günü", "Bütün bunlar yaşayacaq", "Təbrik edirəm" kimi müharibə illərinin ağır həyatını əks etdirən və qələbəyə səsləyən şeirləri Azərbaycan poeziyasının ən yaxşı nümunələrindəndir. O. Sarıvəlli Cənubi Azərbaycan mövzusunda "Dəvə karvanı", "Birinci dərs", "Son qar" və s. əsərlər yazmışdır. Bu şeirlər azadlıq arzusu ilə yanan insanların həyatından narahat şairin qəlb çırpıntılarıdır. Müharibədən sonrakı illərdə onun daha bir istedadı üzə çıxdı, o, qəzet səhifələrində satirik şeirlərlə çıxış edərək boşboğazları, tənbəlləri qamçılayırdı. Ədəbiyyatşünaslıq sahəsində bir sıra əsərlərin müəllifidir. O həm də gözəl tərcüməçi kimi tanınmışdır. Onun sayəsində Sofoklın "Antiqona"sı, Musa Cəlilin, A. Puşkinin, K. Simonov və başqa şairlərin bir sıra əsərləri Azərbaycan dilinə tərcümə olunmuşdur.

Osman Abdulla oğlu Qurbanov (Sarıvəlli) orden və medallarla təltif olunmuş, 1990-cı ildə Bakıda vəfat etmiş, doğma yurdunda dəfn olunmuşdur. Kəndindəki orta məktəb onun adını daşıyır.

Oğlanları: 1937-ci ildə doğulmuş Qurbanov Babək Osman oğlu, sənətşünas, fəlsəfə elmləri doktoru, professordur.1939-cu ildə doğulmuş Qurbanov Rafiq Osman oğlu fəlsəfə elmləri doktoru idi.

## Səməd Vurğun
(1906-1956)

Səməd Yusif oğlu Vəkilov 1906-cı ildə Qazax rayonunun Yuxarı Salahlı kəndində doğulmuşdur. Şair, ictimai xadim, Azərbaycanın xalq şairi, əməkdar incəsənət xadimi, SSRİ Dövlət mükafatı laureatı,



Azərbaycan EA-nın akademiki. 1924-cü ildə Qazax Müəllimlər Seminariyasını bitirmiş, 1929-1931-ci illərdə MDU-da, 1931-1933-cü illərdə Bakıda aspiranturada oxumuşdur.

1924-29-cu illərdə S. Vurğun Qazaxda, Qubada, Gəncədə müəllim işləmişdir. 1924-cü ildən çap olunmağa başlamışdır. Azərbaycanda yeni poeziya məktəbinin banisidir.

Onun yaradıcılığı Azərbaycan poeziyasının inkişafına böyük təkan vermişdir. S. Vurğun Nizami Gəncəvi, M. P. Vaqif, A. S. Puşkin, V. V. Mayakovski, M. Qorki və bir sıra başqa ədəbi məqalələrin müəllifidir. O, A. S. Puşkinin "Yevgeni Onegin", M. Qorkinin "Qız və ölüm", Taras Şevçenkonun "Katerina", Ş. Rustavelinin "Pələng dərisi geymiş pəhləvan", İ. Çavçavadzenin "Cambul" və bir sıra başqa əsərləri Azərbaycan dilinə tərcümə etmişdir. S. Vurğunun əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. Uzun illər Azərbaycan Yazıçılar İttifaqına rəhbərlik etmiş, dəfələrlə Azərbaycan və SSRİ Ali Sovetlərinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

Lui Araqon, A. Fadeyev, N. Tixonov, K. Simonov, K. Xeonidze, V. Luqovskoy və başqaları onun yaradıcılığını yüksək qiymətləndirmiş, haqqında monoqrafiyalar, məqalələr yazılmışlar.

Səməd Vurğun təkcə məşhur şair deyil, eyni zamanda böyük alim, əvvəzsiz təşkilatçı və nəzəriyyəçi idi. 1945-ci ildə o, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki seçilmişdir. 1954-cü ildə Səməd Vurğun Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsinə təyin edilir.

1954-cü ildə Sovet Yazıçıların İkinci Ümumittifaq Qurultayında "Sovet poeziyası haqqında" məruzəni Səməd Vurğun etmişdi.

1955-ci ilin oktyabr ayında Səməd Vurğun SSRİ nümayəndə heyəti tərkibində Vyetnama gedərkən yolda xəstələnir və səfərini yarımçıq saxlamalı olur. Çində onu Pekin xəstəxanalarından birində müayinə edirlər. Bir neçə həftədən sonra şair vətənə qayıdır. Onun xəstəliyi şiddətlənir.

1956-cı ilin martında Səməd Vurğunun 50 yaşı tamam olur. Şairin yubileyinin keçirilməsinə hazırlıqlar çərçivəsində Azərbaycan SSR rəhbərliyi tərəfindən "Azərbaycanın xalq şairi" adı təsis edilir və ilk dəfə bu ada Səməd Vurğun layiq görülür. May ayının 12-də Opera və Balet Teatrında şairin təntənəli yubiley gecəsi keçirilir. Bundan iki həftə sonra - 1956-cı il may ayının 27-də şairin gözləri əbədi yumulur. May ayının 28-dən 30-na kimi şairin cənazəsi Azərbaycan Dövlət Filarmoniyasının binasında qoyulur. Şair may ayının 30-da Bakıda Fəxri Xiyabanda dəfn edilir.

Adına məktəb, küçə, bağ var. Heykəli Bakının ən gözəl yerində ucalır. Yuxarı Salahlıda və Bakıda ev muzeyi açılmışdır. 1981-ci ildə onun şərəfinə medal buraxılmışdır.

Səməd Vurğunun oğlanları Yusif Səmədoğlu (1935-1998) Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi olmuşdur. Vaqif Səmədoğlu (1939-2015) publisist, dramaturq, Xalq şairi, Əməkdar incəsənət xadimi idi.

**Seyid Əzim Şirvani**
(1835-1888)

Seyid Əzim Məhəmməd oğlu 1835-ci ildə Şamaxıda doğulmuşdur. Şair, ədəbiyyatçı, maarifçi. 7 yaşı olanda atası vəfat etmiş, anası ilə Dağıstanın Aksay kəndinə, ana babası Molla Hüseynin yanına köçmüşdür. Burada ibtidai təhsil alaraq ərəb və fars dillərini öyrənmişdir. 1853-cü ildə Şamaxıya qayıdaraq təhsilini burada davam etdirmişdir. 1857-ci ildə İraq şəhəri Şamda (Dəməşqdə) ali ruhani məktəbini bitirmişdir.



1869-71-ci illərdə Seyid Əzim Şirvani Şamaxıda rus-azərbaycan ümumtəhsil məktəbi açaraq dini elmlərlə bərabər burada şagirdlərə təbiət elmlərini öyrətmiş və rus dilinə məhəbbət aşılamışdır. Seyid Əzim ədəbi fəaliyyətə 1855-ci ildə başlamışdır. "Oğlum" şeiri onun yaradıcılıq fəaliyyəti üçün xarakterikdir.

*Cəfər, ey nuri-dideyi-seyyid!*
*Qönçeyi-novrəsidəyi-seyyid*
*Üləma haqqında rəayət qıl,*
*Əhli elmə həmişə hörmət qıl.*
*Demə bu kafər, ol müsəlmandır,*
*Hər kimin elmi var o insandır.*

"Qaz və Leylək", "Şah və əkinçi", "Eşşəyin ölməkliyi", "Xoruz və çaqqal", "Pələng və iki öküz" kimi satirik təmsil və şeirlərində Seyid Əzim Şirvani varlılara gülərək gerilik və cəhalətə qarşı çıxmış, cəmiyyəti maarifə, mədəniyyətə çağırmışdır. 1885-ci ildə Azərbaycanın 270 şairindən bəhs edən "Biblioqrafik lüğət" nəşr etdirir. 1887-ci ildə ümumtəhsil məktəbləri üçün "Uşaqların baharı" adlı dərslik yazır, ancaq çar senzurası kitabın nəşrinə icazə vermir.

Seyid Əzim Məhəmməd oğlu (Seyid Əzim Şirvani) 1888-ci ildə Şamaxıda vəfat etmişdir. Müasiri olan şairlər onu özlərinin müəllimi sayırdılar. Haqqında roman yazılmış, kitabxana, məktəblər və Şamaxıda küçələrdən biri onun adı ilə adlandırılmışdır.

# Süleyman Rüstəm
(1906-1989)

Süleyman Əliabbas oğlu Rüstəmzadə 1906-cı ildə Bakıda doğulmuşdur. Şair, dramaturq, ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatı laureatı, əməkdar incəsənət xadimi, Azərbaycanın xalq şairi. Bakıda və Moskvada Dövlət universitetlərində təhsil almışdır.



S. Rüstəm əmək fəaliyyətinə 20-ci illərin sonunda "Gənc işçi", "Komsomol", "Gənc bolşevik", "Maarif və mədəniyyət" qəzetlərində ədəbi işçi kimi başlamışdır. 1937-38-ci illərdə Azərbaycan dövlət dram teatrının direktoru, 1955-56-cı illərdə "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktor olmuşdur. İlk "Çimnaz xanım yuxudadır" şeirini 1922-ci ildə yazmış 1923-cü ildə çap etdirmişdir. "Ulduz", "Ələmdən nəşəyə", "Gecənin romantikası", "Addımlar" şeirləri gənclərə həsr olunmuşdur. 1941-45-ci il sovet-alman müharibəsi illərində məşhur "Qafurun qəlbi", "Gün o gün olsun ki", "Qolsuz qəhrəman", "Partizan Əli", "And", "Ana və poçtalyon" və s. şeirlərini yazır. Cənubi Azərbaycan mövzusu onun yaradıcılığında ayrıca yer tutur. Bu şeirlər "Təbriz şeirləri" və "İki sahil" kitablarında toplanmışdır. 60-70-ci illərdə S. Rüstəm "Günəşli səhər", "Xəzərimin səhəri", "Bir az da məhəbbətdən", "Mənim günəşim" və s. əsərlərini yazır. O, şeirlə yazılmış "Qaçaq Nəbi" pyesinin və Azərbaycan kəndindən danışan "Durna" komediyasının müəllifidir. S. Rüstəm Ş. Rustaveli, A. S. Qriboyedov, A. S. Puşkin, T. Şevçenko, U. Uitmen, Nazim Hikmət və başqa şairlərin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur.

Süleyman Əlabbas oğlu Rüstəmzadə dəfələrlə Azərbaycan Ali Sovetinin deputatı, 1971-89-cu illərdə Ali Sovetin sədri olmuşdur. Orden və medallarla təltif olunmuşdur. 1989-cu ildə vəfat etmişdir.

Bakı küçələrindən biri onun adını daşıyır.

**Məhəmmədhüseyn Şəhriyar**
(1900-1988)

Məhəmmədhüseyn Haci Mirağa oğlu Şəhriyar 1900-cü ildə Təbrizdə doğulmuşdur. Orta təhsilini Təbrizdə almış, Tehran universitetinin tibb fakültəsində oxumuşdur.



Yaradıcılığa çox gənc yaşlarından başlamış, ilk şeirlər kitabını 1931-ci ildə nəşr etdirmişdir. Bunun ardınca dördcildlik divanı və ikicildlik seçilmiş əsərləri çap olunmuşdur. M. H. Şəhriyar yaradıcılığının əsas qayəsini şeirlərində humanizmə çağırış, azadlıqsevərlik və ədalət təşkil edir. Ailə vəziyyətinin ağırlığı ilə əlaqədar 1932-ci ildə universitetin son kursunda təhsilini yarımçıq qoyaraq müxtəlif şirkətlərdə, sonra isə Tehranda bankda işləmişdir. Şəhriyar yaradıcılığının zirvəsi Cənubi Azərbaycan xalqının ağır həyatını, keçmiş ənənələri, yaxşı əməlləri vəsf edən "Heydərbabaya salam" poemasıdır. Poemadan bir bəndi vermək yerinə düşər:

*Heydərbaba, alçaqların köşk olsun,*
*Bizdən sora qalanlara eşq olsun,*
*Keçmişlərin gələnlərə məşq olsun*
*Evladımız məzhəbini danmasın,*
*Hər içiboş sözlərə aldanmasın.*

1941-45-ci illərdə sovet-alman müharibəsi dövründə azərbaycanlı qəhrəmanlarına həsr etdiyi "Stalinqrad qəhrəmanları" poemasını yazır. Şairin əsərləri İraqda, Türkiyədə və Azərbaycan Respublikasında dəfələrlə çap olunmuşdur.

Məhəmmədhüseyn Hacı Mirağa oğlu Şəhriyar 1988-ci ildə Təbrizdə vəfat etmişdir.

İranda və Azərbaycan Respublikasında bir sıra mədəni maarif ocaqları onun adını daşıyır. Bakıda ən böyük saraylardan birinə onun adı verilmişdir.

# Məqsud Şeyxzadə
(1908-1990)

Məqsud Məsim oğlu Şeyxzadə 1908-ci ildə Ağdaşda doğulmuşdur. Yazıçı alim, müəllim. 1925-ci ildə Bakıda müəllimlər məktəbini bitirmiş, 1933-cü ildə Azərbaycan dövlət pedaqoji institutunun qiyabi şöbəsini bitirmişdir.



M. Şeyxzadə 1925-27-ci illərdə Dağıstanın Buynaksk və Dərbənd şəhərlərində müəllim işləmişdir.

1929-cu ildən ömrünün sonunadək Özbəkistanda yaşamışdır. 1933-35-ci illərdə Daşkənd universitetinin aspirantı, 1935-38-ci illərdə dil və ədəbiyyat institutunun elmi işçisi olmuşdur. 1938-ci ildə Nizami adına Daşkənd pedaqoji institutunda özbək ədəbiyyatı tarixindən dərs demişdir. Ədəbi fəaliyyətə hələ 1921-ci ildə başlamışdı. Əvvəlcə Azərbaycan dilində yazırdı. "Nəriman Nərimanov haqqında şərq masalı" ilk qələm təcrübəsidir. 1929-cu ildən M. Şeyxzadə ancaq özbək dilində yazmağa başlayır. "Üçüncü kitab", "Ağsaqqal", "İllər və yollar", "Daşkəndnamə" və s. onun ən yaxşı əsərləridir. "Cəmaləddin" pyesi özbək xalqının monqol işğalçılarına qarşı mübarizəsinə həsr olunmuşdur. M. Şeyxzadə Nizami, Füzuli, M. F. Axundov, A. S. Puşkin, M. Lermontov, V. Şekspir, İ. Höte, C. Bayron, Ş. Rustaveli və bir sıra başqa dünya klassiklərini özbək dilinə tərcümə etmişdir. M. Şeyxzadənin əsərləri bir sıra dünya dillərinə tərcümə olunmuşdur.

Məqsud Məsim oğlu Şeyxzadə 1967-ci ildə Daşkənddə vəfat etmiş, orada da dəfn olunmuşdur. Onun kiçik qardaşı Şıxıyev Fuad Məsim oğlu hidrotexniki qurğular sahəsində böyük alim, mütəxəssisdir. Texnika elmləri doktoru, professor, uzun illər Odessa dəniz gəmiçiliyi mühəndisləri institutunda elmi işlər üzrə prorektor olmuşdur. 90-cı illərdə vəfat etmişdir.

Ağdaş rayon mədəniyyət evində Məqsud Şeyxzadə adına muzey yaradılmışdır.

**Um-Əl-Banu (Banin)**
(1905-1992)

Um-Əl-Banu Mirzə qızı Əsədullayeva 1905-ci ilin yanvar ayında anadan olub. Məşhur Azərbaycan milyonçuları Şəmsi Əsədullayevin və Musa Nağıyevin nəvəsi, Azərbaycan Demokratik Respublikasının nazirlərindən biri, milyonçu Mirzə Əsədullayevin ailəsində dünyaya göz açıb.



Banin yazırdı: "Mən doğma anamı tanımırdım. 1905-ci ildə inqilabi gərginliyi aradan qaldırmaq istəyən hakimiyyət Qafqazı millətlərarası qarşıdurmaya təhrik etdi. Anamı qəddarlıqdan və ağlasığmaz talanlardan qorumaq, eyni zamanda doğmaq üçün atam onu doğma Bakıdan uzaqda yerləşən bir kəndə göndərir. Doğuş çox ağır keçir, yaxınlıqda həkim olmadığından anam həyatla vidalaşır, mən isə sağ qalıram". Bu hadisədən sonra anasının şərəfinə qızını Um-Əl-Banu adlandırırlar. Doğulduğu kimi, Um-Əl-Banunun sonrakı həyatı heç də rəvan keçmir. Um-Əl-Banu (Banin) atasını həbsxanadan azad etmək, xarici pasport alıb Türkiyəyə qaçmaq üçün istəmədiyi, lakin hörmətli bir şəxsə ərə gedir. O, 19 yaşında Türkiyədə əri Balabəy Qocayevdən ayrılaraq Parisə doğmalarının yanına yollanır. Məlumatlara görə, Banin bir müddət maneken, sonra mağazada satıcı, dəftərxanada katibə, tərcüməçi işləyir.

İmkanı çatan bütün peşələrə yiyələnən Banin fransalı dostlarının məsləhəti ilə xatirələrini qələmə almağa başlayır. 1946-cı ildə dərc olunan “Qafqaz günləri” kitabı Baninə müvəffəqiyyət qazandırır. Kitab işıq üzü gördükdən sonra Andre Marlo, İvan Bunin, Mikos Kazaçakis, Anri Monterlen Ernst Yungen və başqaları Baninə riqqətli məktublar yazırlar. İkinci dünya müharibəsinin iştirakçısı, alman yazıçısı və filosofu Ernst Yungenlə Baninin dostluğu yarım əsrdən çox davam edib. Banin Yungenə bir neçə kitab həsr edib. Onlar 1943-cü ildə - Baninin Azərbaycanda sosial düzümün faciəsinə özündə əks etdirən "Bizimlə" romanı işıq üzü gördükdən sonra tanış olublar. Romanın təəssüratı altında olan Yungen Baninə zəng vurur, özünü təqdim edir, növbəti gün isə cazibədar azərbaycanlı yazıçı ilə tanış olmaq üçün onun evinə görüşə gedir. Baninə şöhrət gətirən "Qafqaz günləri" kitabından sonra onun "Paris günləri" (1947), "Ernst Yungenlə görüş" (1951), "Mən opiumu seçdim" (1959), "Sonra" (1961), "Xarici Fransa" (1968), "Sonuncu ümidin çağırışı" (1971), "Ernst Yungenin portreti" (1971), "Ernst Yungen müxtəlif sifətlərdə" (1989) romanları geniş oxucu kütləsi qazanır. Baninin sonuncu dərc olunmuş kitabı - "Mariya mənə nə danışdı" romanı 1991-ci ildə ölümündən bir il əvvəl işıq üzü görüb.

Banin Fransada təkcə romanları ilə deyil, həm də rus, ingilis, alman dillərindən gözəl bədii ədəbiyyat tərcüməçisi kimi məşhur idi. Banin Buninin və Dostoyevskinin yaradıcılığının ən yaxşı bilicilərindən biri sayılırdı. Baninin yaxın rəfiqəsi rus imperator sarayının freylini, Romanovlar ailəsinin yaxını Canet Andronikova olur. Onun digər rəfiqəsi isə Rusiyada məşhur olan yazıçı-satirik Teffi idi. Məhz Teffinin yanında Um-Əl-Banu bir çox məşhur rus yazıçıları ilə xüsusilə də İvan Buninlə tanış olur.

Banin mühacirətdə olan yazıçılarla birlikdə tez-tez görüşlərdə iştirak edərmiş. Çox vaxt bu tədbirlərə İvan Bunin sədrlik edərmiş. Axı o, rus ədəbiyyatında əldə etdiyi nailiyyətlərə görə Nobel mükafatına layiq görülmüşdü.

Baninlə Bunin 13 iyun 1946-cı ildə tanış olublar. Onların söhbətlərinin sonu olmurmuş. İlk dəfə olaraq Um-Əl-Banu Bunini Teffinin evində qonaq olarkən fotoşəkildə görmüşdü. Bir müddət keçəndən sonra onlar görüşürlər. 75 yaşı olmasına baxmayaraq, Buninin belə şux dayanması Banini heyrətə salır. Bunin Baninin şərq gözəlliyinə heyran olur. Bunin onu “Şamaxı şahzadəsi” adlandırarmış.

Onunla ilk görüşən azərbaycanlı diplomat Ramiz Abutalıbov olub. Bu hadisə 1981-ci ilə - Parisdə Azərbaycan xalçalarının sərgisinin keçirildiyi vaxta təsadüf edir. Yaşının çox olmasına baxmayaraq, Banin cavan görünürmüş.

Fransız ədəbiyyatına qaynayıb-qarışmasına baxmayaraq, Banin öz xalqını heç vaxt yaddan çıxarmamışdır. O, Dağlıq Qarabağda baş verən hadisələrdən olduqca dərin həyəcan keçirərmiş. Banin Parisdə "Azərbaycan evi" assosiasiyasının üzvü idi. O, Fransanın kütləvi informasiya vasitələrində mütəmadi olaraq Qarabağ hadisələri ilə bağlı öz xalqını müdafiə edən məqalələrlə çıxış etmişdir. 1992-ci il oktyabrın 29-da "Fiqaro" qəzeti olduqca kədərli bir məlumat yayır: “İlk fransızdilli azərbaycanlı yazıçı Banin vəfat edib...”.

## Molla Pənah Vaqif
(1717-1797)

Molla Pənah Vaqif 1717-ci ildə Qazaxın Salahlı kəndində doğulmuşdur. Şair, dövlət xadimi. Mədrəsə təhsili almışdır. Ərəb, fars dillərini bilmiş, astronomiya və memarlıqla məşğul olmuşdur. Atası Mehdi ağa nüfuzlu adam idi.



Adı Pənah, təxəllüsü Vaqifdir. Hörmətli şəxs olduğu üçün Molla adlandırılmışdır. Mollaxana təhsilini bitirdikdən sonra Vaqif həm müəllimlik etmiş, həm də aşıq şeiri üslubunda «Vaqif» təxəllüsü ilə şeirlər yazmağa dəvət etmişdir.

XVIII əsrdə Gürcüstan sərhədində baş verən münaqişələr bir sıra ailələr kimi, onun da ailəsinin oradan köçməsini zəruri edir. Onlar əvvəl Gəncəyə, sonra Qarabağa, oradan da xanlığın mərkəzi olan Şuşa şəhərinə köçürlər.

Vaqif iki arvad alıb. Birinin adı Qızxanım, o birininki Mədinə olub. Qızxanım Durbənd bəyin qızı idi və gənc yaşlarında özündən çox-çox yaşlı olan Vaqifə ərə getmişdi. Xalq arasında onun qeyri-adi gözəlliyi barədə rəvayətlər dolaşırdı. Vaqifin bir oğlu, iki qızı olub. Onların hamısı Mədinə xanımdan olmuş uşaqlar idilər. Oğlunun adı Əliağa idi, "Alim" təxəllüsü ilə şerilər yazmış və yetkin çağlarında qətlə yetirilmişdi.

İbrahim xan Vaqifi saraya dəvət edir, onu əvvəl eşikağası, sonra isə baş vəzir təyin edir.

Vaqif Vidadi, Hüseyn xan Müştaq, Ağqız oğlu Piri kimi şairlərlə dostluq etmişdir. Onun ən yaxın dostu isə heç şübhəsiz, həmyerlisi və bəzi mənbələrə əsasən, uzaq qohumu Vidadi olub. Vaqif öz qızlarını Vidadinin oğlanlarına ərə vermişdir. Onların müşairəsi (şeirləşməsi) hər iki şairin yaradıcılığında mühüm yer tutur

Gürcüstan və Rusiya ilə Qarabağ xanlığının siyasi münasibətinin yaxşılaşdırmaq məqsədi ilə Tiflisə səfərə getmişdir. İranın siyasi, hərbi təzyiqlərinə qarşı fəal müqavimət göstərmişdir.

1795-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşaya hücum edir, qalanı 33 gün mühasirədə saxlayır. Amma ala bilmir. Qacar 1797-ci ildə Qarabağ xanlığını cəzalandırmaq üçün yenidən Qarabağa hücum edir. İbrahim xan Balakənə qaynının yanına qaçır, Vaqif isə Şuşada qalır.

Şair həbs edilərək zindana salınır. Lakin Qacar öldürülür, İran qoşunu geri çəkilir. Vaqif həbsdən azad edilir. Məhəmməd bəy Cavanşir hakimiyyəti ələ alır.

1797-ci ildə Vaqifi oğlu Əli bəylə birlikdə edam etdirir. Vaqifin evi talanmış, əlyazmaları itmışdır.

Vaqif şərq poeziyasının bütün klassik formalarından istifadə edib. O, qəzəl, təcnis, müxəmməs, müstəzad, müəşşərə, müşairə, məsnəvi və mərsiyələr yazıb. Ancaq onun yaradıcılığının böyük bir qismi, aşıq poeziyasından götürülmüş qoşma növündə yazılmış şerlər təşkil edir. Həmin şerlərin dili xalqın canlı danışığına çox yaxındır. Vaqif ərəb və fars mənşəli sözlərdən bacardıqca az istifadə etmişdir.

Molla Pənah Vaqifin əsərləri bir sıra dillərə tərcümə olunmuş, haqqında romanlar, dramatik poema və opera yazılmışdır. Azərbaycanın müxtəlif yerlərində adı küçə, məktəb və başqa mədəni-maarif müəssisələrinə verilmişdir. Şuşada və Qazaxda büstü qoyulmuş, ev-muzeyi açılmışdır.

**Bəxtiyar Vahabzadə**
(1925-2009)

Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci ildə Şəkidə doğulmuşdur.



XX əsr Azərbaycan ədəbi fikrinin görkəmli nümayəndəsi olan Bəxtiyar Vahabzadənin adı təkcə respublikamızda deyil, onun hüdudlarından çox-çox uzaqlarda tanınır. Şairin əsərləri - şer kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən ingilis, fransız, alman, fars, polyak, ispan, macar, keçmiş Sovetlər Birliyi xalqlarının dillərinə tərcümə edilib.

Bəxtiyar Vahabzadə 1934-cü ildə ailəsi ilə bərabər Bakıya köçüb. 1942-ci ildə orta məktəbi bitirib, Azərbaucan Dövlət Universitetinin filologiya fakültəsinə, 1947-ci ildə isə Universitetin nəzdində aspiranturaya qəbul olunub. 1951-ci ildə "S.Vurğunun lirikası" mövzusunda namizədlik, 1964-cü ildə isə "S.Vurğunun həyat və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, filologiya elmləri doktoru alimlik dərəcəsi alıb.

Bəxtiyar Vahabzadə bədii yaradıcılığa İkinci Dünya Müharibəsi illərində başlayıb, 1945-ci ildə Yazıçılar İttifaqının üzvlüyünə qəbul olunub. Bədii yaradıcılıqla məşğul olmaqla yanaşı B.Vahabzadə 1940-cı ildən Universitetdə dərs deyib, 1990-cı ildə təqaüdə çıxıb. 1980-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilib.

B.Vahabzadə 70-dən artıq şer kitabının, 2 monoqrafiyanın, 11 elmi publisist kitabın və yüzlərlə məqalənin müəllifidir. Bakı Akademik Dövlət Dram Teatrının səhnəsində onun "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya?", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı" pyesləri tamaşaya qoyulub. O, tarixi və müasir mövzuda 20-dən artıq irihəcmli poemanın müəllifidir.

O, 1974-cü ildə əməkdar incəsənət xadimi adına, 1975-ci ildə respublika, 1984-cü ildə isə SSRİ Dövlət Mükafatlarına layiq görülüb. 1985-ci ildə ona Azərbaycanın Xalq şairi fəxri adı verilib, 1995-ci ildə Azərbaycan xalqının milli azadlıq mübarizəsində xüsusi xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif edilib. Bədii, elmi, publisistik yaradıcılığını ictimai-siyasi fəaliyyətilə üzvi surətdə əlaqələndirən B.Vahabzadə 4 dəfə Azərbaycan Ali Sovetinə(1980-1995), 1 dəfə isə Azərbaycan Respublikası Milli Məclisinə millət vəkili seçilib (1995-2000).

Bəxtiyar Vahabzadə 2009-cu il fevralın 13-də 84 yaşında vəfat edib. Fəxri xiyabanda dəfn olunmuşdur.

**Əliağa Vahid**
(1895-1965)

Əliağa Məmmədqulu oğlu İsgəndərov 1895-ci ildə Bakıda doğulmuşdur. Şair, Azərbaycanın əməkdar incəsənət xadimidir. Mollaxanda təhsil almışdır.



Vahid əmək fəaliyyətinə gənc yaşlarında dülgərliklə başlamışdır. Uşaqlıqdan şeirə meyli olmuş, çox gənc yaşlarından ədəbi dərnəklərdə iştirak edərək, lirik şeirlər yazmışdır. Dostlarının məsləhətilə satirik şeirlər yazmağa başlamış, 1916-cı ildə haqsızlığı, zülmü, mövhumatı tənqid edən "Tamahın nəticəsi" adlı ilk satirik şeirlər kitabını nəşr etdirmişdir. Sovet quruluşunu Vahid razılıqla qarşılamışdı. "Kommunist" qəzeti və "Molla Nəsrəddin" jurnalı ilə sıx yaradıcılıq əlaqələri yaranmışdı. "Məktəb nə deməkdir", "Əsgər və fəhlə dostlarıma", "Mollaxana", "Kupletlər" şeirlərində köhnəliyin qalıqları kəskin satira atəşinə tutulur, yenilik vəsf olunurdu. O, bu əsərlərində sanki köhnəliyə gülsə də, Ezop dililə Sovet cəmiyyətinin əyriliklərinin də üstünü incəliklə açırdı. 1941-45-ci illərdə sovet-alman müharibəsi dövründə yazdığı əsərlərdə vətənə məhəbbət, düşmənə nifrət, qələbəyə inam hissi təbliğ olunurdu. Bu dövrdə onun "Döyüş qəzəlləri" (1943), "Qəzəllər" (1944) kitabları nəşr olundu. Füzuli ənənəsinin davamçısı və şərq ədəbiyyatının gözəl bilicisi olan Vahid həm də gözəl tərcüməçi idi, ərəb, fars dillərini mükəmməl bilirdi. Nizami, Xaqani, Füzuli, Nəvainin qəzəlləri onun tərcüməsində işıq üzü görmüşdür. Sovet sistemi onu nəşr etməməklə hüququ yalnız yazmaq olan böyük bir qəzəl ustadını XX əsrin ən böyük şairini itirdi.

Əliağa Məmmədqulu oğlu İsgəndərov (Vahid) 1965-ci ildə Bakıda vəfat etmişdir. Qəbrinin üstündə və filarmoniya bağında ona abidə qoyulmuş, burada Vahid poeziya evi açılmışdır. Orada tez-tez poeziya və musiqi məclisləri keçirilir.

## Nəcəf bəy Vəzirov
(1854-1926)

Nəcəf bəy Fətəli bəy oğlu Vəzirov 1854-cü ildə Şuşada doğulmuşdur. Dramaturq, publisist, teatr xadimi. İlk təhsilini Şuşada, orta təhsilini Bakıda almışdır. 1878-ci ildə Moskvada Petrovski-Razumovski adına kənd təsərrüfatı akademiyasını bitirmişdir.



N. B. Vəzirov Azərbaycan professional teatrının yaradıcılarındandır. İlk dəfə 1873-cü ildə Həsən Bəy Zərdabi ilə birlikdə M. F. Axundovun "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyalarını tamaşaya qoymuşdur. 1875-ci ildən "Əkinçi" qəzetində çap olunmağa başlamışdır. Dramatik əsərlərində XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan kəndinin - mülkədarların, kəndlilərin, ziyalıların, burjuaziyanın, işbazların və fırıldaqçıların real həyatdakı iç üzünü açaraq tənqid etmişdir. "Əti sənin, sümüyü mənim", "Nə əkərsən, onu biçərsən", "Gəmi lövbərsiz olmaz", "Daldan atılan daş topuğa dəyər" əsərlərində o dövrdə uşaqların ailədə tərbiyə prinsiplərini və münasibətlərini kəskin tənqid atəşinə tutmuşdur. "Yağışdan çıxdıq, yağmura düşdük" əsərində Hacı Qənbərin simasında var-dövlət ehtirası insani münasibətlərin saxtalaşdırılması - ikiüzlülük tənqid olunur. İlk Azərbaycan faciəsi olan "Müsibəti Fəxrəddin" əsərində Avropada təhsil almış liberal bəy oğlunun buradakı feodal qaydalarla razılaşmadığını, onlara qarşı etiraz səsini qaldıran gəncin obrazını yaratmışdır. N. B. Vəzirov əsərlərində çar üsul-idarəsinin Azərbaycanda apardığı siyasətə qarşı səsini qaldırır. Onun dram əsərləri Zaqafqaziyada, Volqaboyunda, Şimali Qafqazda, İranda, Türkiyədə böyük uğurla səhnəyə qoyulur və razılıqla qarşılanırdı. N. B. Vəzirovun Azərbaycan teatr sənətinin inkişafında əhəmiyyətli xidmətləri olmuşdur. Əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur.

Nəcəf bəy Fətəli oğlu Vəzirov 1926-cı ildə Çuxuryurdda vəfat etmiş, Bakıda dəfn olunmuşdur. Lənkəran Dövlət Dram Teatrı onun adını daşıyır.

**Molla Vəli Vidadi**
(1707-1809)

Molla Vəli Vidadi 1707-ci ildə Qazaxın yaxınlığında Şıxlı kəndində doğulmuşdur. Şair təhsilini Qazaxın Poylu kəndində alaraq ərəb və fars dillərini mükəmməl öyrənib mirzəlik etmişdir.



M. V. Vidadi Qazaxın indiki Birinci Şıxlı kəndində məktəb yaradaraq ömrü boyu bu məktəbdə müəllimlik etmişdir. Yerlilərin böyük hörmət və məhəbbətini qazanmışdır. Çox gənc yaşlarında şeir yazmağa başlamışdır. Əvvəlcə yaradıcılığının əsasını həyatsevərlik və işıqlı ideyalar təşkil etsə də, sonralar tədricən qəmli motivlər üstünlük təşkil etməyə başlamışdır. M. V. Vidadi 100 ildən çox yaşamışdır. Uzun ömrü boyu bir çox müsibətlərin şahidi olmuş, satqınlıq və ölümlər görmüşdür. "Müsibətnamə" adlı mənzum əsərində feodallar arasında gedən çoxsaylı toqquşmalardan danışaraq torpağı qanla suvaran, xalqı düşünməyən qaniçən xanları, şöhrət düşkünlərini qamçılayır. M. V. Vidadinin dərdi artdıqca etiraza çevrilir. M. V. Vidadinin əsərlərinin əksəriyyətində həyatdan narazılıq hiss olunur. Onlarda bəylər və xanlar tərəfindən incidilmiş xalqın əhval-ruhiyyəsi əks olunur. "Edərsən", "Ağlarsan", "Belə qalmaz", "Xəstə düşdüm, gələn yoxdur üstümə" adlı şeirlərində o dövrün pis adətləri, haqsızlıqlar şairin düşüncələrində daha aydın əks olunmuşdur. O dövrün faciəli xarakteri M. V. Vidadinin "Durnalar" şeirində daha aydın şəkildə əksini tapmışdır.

*Qatar-qatar olub qalxıb havaya,*
*Nə çıxıbsız asimana durnalar?*
*Qərib-qərib, qəmgin-qəmgin ötərsiz,*
*Üz tutubsuz nə məkana durnalar?*
*Təsbeh kimi qatarınız düzərsiz,*
*Havalanıb ərş üzündə süzərsiz.*
*Gah olur ki, danə-xuruş gəzərsiz,*
*Siz düşərsiz pərişana durnalar!*
*Ərz eləyim bu sözümün tacıdır,*
*Yollarınız həramidir, yağıdır.*
*Şahin-Sonqar sürbənizi dağıdar,*
*Boyanarsız qızıl qana durnalar!*

Vidadinin poeziyası sadəliyi və lirikliyi ilə heyrətamizdir, onlarda insanın canlı səsi səslənir. Onun şeirlərində həqiqi xalq yaradıcılığının yüksək mədəni şeiriyyət forması öz əksini tapır. Molla Vəli Vidadi 1809-cu ildə Birinci Şıxlı kəndində vəfat etmişdir. Birinci Şıxlıda qəbrinin üstündə ona abidə qoyulmuşdur. Bakıda və respublikanın başqa yerlərində küçələr, mədəni-maarif müəssisələri onun adını daşıyır.

# İncəsənət xadimləri

## Mikayıl Abdullayev
(1921-2002)

Mikayıl Hüseyn oğlu Abdullayev 1921-ci ildə Bakıda doğulmuşdur. Boyakar, qrafik və teatr rəssamı olmuşdur. Professor, SSRİ rəssamlıq akademiyasının akademiki, C. Nehru adına Beynəlxalq mükafatın, Azərbaycan SSR Dövlət mükafatı laureatıdır. 1939-cu ildə Ə. Əzimzadə adına Azərbaycan rəssamlıq məktəbini, 1949-cu ildə Surikov adına Moskva Dövlət Rəssamlıq məktəbini bitirmiş, S. Gerasimovun emalatxanasında rəssamlıq sənətinin incəliklərini öyrənmişdir.



M. Abdullayevin yaradıcılığı üçün, daxili həyəcan, obrazların psixologiyasının, poetik ümumiləşdirilməsi xarakterikdir. Onun əsərləri koloritin zənginliyi ilə cəlbedicidir. Bu xüsusiyyətlər onun "Mingəçevir işıqları", "Xaçmaz qızları", "Astarada çay yığımı", "Azərbaycan çöllərində" triptixində, "Çəltik əkən qızlar" əsərində daha aydın görünür. Milli ənənələrin, kənd yerində yaşayan insanların əməyi, məişəti, tipik mənəvi çalarların, üzvi şəkildə müasirliklə vəhdətdə verilməsi M. Abdullayev yaradıcılığına xas xüsusiyyətdir. "Qırx birin iyunu" triptixinin mərkəzi hissəsi xüsusilə diqqəti cəlb edir. 1941- 45-ci illərdə kənd əməkçilərinin payına düşən, ağır, narahat, keşməkeşli həyatını əks etdirən əsər canlı povestdir. "Çəltikçi qızlar" monumental lövhəsi XX əsrin qadınının zəngin mənəvi cizgilərini parlaq boyalarla əks etdirir. Bu, rəssamın ən sevimli mövzusudur. İşlədiyi bir sıra tablolarda müasir qadın obrazı əks olunmuşdur. "Qarabağlı qızlar", "Lənkəranlı kolxozçu qadın", "Abşeronlu qadın", "Ananın gəncliyi" kimi əsərləri bu qəbildəndir. Xalq şairi Səməd Vurğun, yüz yaşlı naxışçı usta Babayev, şair, mütəfəkkir Nəsimi və başqa portretlər qalereyası, Abşeron peyzajları, natürmortlar, Əfqanıstan və başqa ölkələrə həsr etdiyi əsərlər Mikayıl Abdullayev yaradıcılıq diapazonunun genişliyinə şəhadət verir. M. Abdullayevin əsərləri dünyanın bir sıra muzeylərində saxlanılır. Bakıda, Dehlidə, Londonda, Monrealda, Moskvada və dünyanın bir sıra başqa şəhərlərində fərdi sərgiləri keçirilmişdir.

Abdullayev Mikayıl Hüseyn oğlu dəfələrlə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş, “İstiqlal” ordeni ilə təltif olunmuşdur.

Professor Mikayıl Abdullayev 2002-ci il avqustun 21-də vəfat etmişdir.

# Vasif Adıgözəlov

(1935-2006)

Vasif Zülfüqar oğlu Adıgözəlov 1935-ci il iyul ayının 28-də Bakıda məşhur muğam ustası Zülfüqar (Zülfü) Adıgözəlovun ailəsində anadan olmuşdur. İlk musiqi təhsilini Konservatoriyanın nəzdindəki 10 illik musiqi məktəbində pianoçu kimi alıb. 1953-cü ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur. Bəstəkarlıq üzrə Qara Qarayevin, fortepiano üzrə Simuzər Quliyevanın sinfində təhsilini davam etdirmişdir. 1959-cu ildə həmin təhsil ocağını iki ixtisas üzrə bitirmişdir.



Əmək fəaliyyətinə 1958-ci ildən Radio və Televiziya Komitəsində musiqi redaktoru kimi başlamışdır. Sonralar Azərbaycan Bəstəkarlar İttifaqının məsul katibi, M. Maqomayev adına Dövlət Filarmoniyasının baş musiqi redaktoru, A. Zeynallı adına Bakı Musiqi məktəbinin direktoru və s. vəzifələrdə çalışmışdır. 1972-ci ildən Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında müəllimlik etmişdir.

1990-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının I katibi seçilmişdir.

1973-cü ildə «Əməkdar incəsənət xadimi», 1988-ci ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

1989-cu ildə professor, 1990-cı ildə Dövlət Mükafatı laureatı adlarını almışdır

1995-ci ildə "Şöhrət" ordeni və 2005-ci ildə isə "İstiqlal" ordeni ilə təltif olunmuşdur.

Bakı Musiqi Akademiyasında Xor dirijorluğu kafedrasına rəhbərlik etmişdir.

V. Adıgözəlov 4 simfoniyanın, 2 operanın, 5 musiqili komediyanın, 6 instrumental konsertin, 4 oratoriyanın, 3 kantatanın, kamera-instrumental musiqinin, kino-teatr musiqisinin, romans və mahnıların müəllifidir.

Oğlu **Yalçın Adıgözəlov** 1959-cu ildə Bakı şəhərində anadan olmuşdur. Yalçın Adıgözəlov Bülbül adına orta-ixtisas məktəbini bitirdikdən sonra Bakı Musiqi Akademiyasında təhsil almışdır. Daha sonra Leninqrad Konservatoriyasında opera simfonik dirijorluğu ixtisası üzrə maestro İ.A. Musindən dərs almışdır. Yalçın Adıgözəlov 2000-ci ildən Bakı Musiqi Akademiyasının dirijorluq kafedrasının professorudur. 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, 2012-ci ildə isə Azərbaycan Respublikasının Xalq artisti adına layiq görülmüşdür.

Vasif Adıgözəlov 15 sentyabr 2006-cı ildə Bakıda vəfat etmişdir. 1-ci Fəxri Xiyabanda dəfn edilmişdir.

**Zülfü Adıgözəlov**
(1898-1963)

Zülfü Adıgözəlov - Respublikanın görkəmli xanəndəsi, böyük muğam ustadı, şifahi ənənəli professional musiqimizin tarixinə XX əsrin görkəmli xanəndəsi, muğam bilicisi, təsnif və xalq mahnılarının mahir təfsirçisi və təbliğatçısı, hami-müəllim kimi daxil olmuşdur.



Zülfü Adıgözəlov 1898-ci ildə Şuşanın Qaradolaq kəndində anadan olmuşdur. 1927-cü ildə Şuşada muğam axşamlarından birində Zülfü Adıgözəlovun ifasını dinləyən Cabbar Qaryağdıoğlu, onu Bakıya dəvət edir.

Zülfü Adıgözəlov pəsxan xanəndə idi. O, muğam dəstgahını tam şəkildə bəm və orta tessiturada özünəməxsus oxuma məktəbini yaratmışdır. Bu gün adlarını fəxrlə çəkdiyimiz Əbülfət Əliyev, Sahib Şükürov, Hacıbaba Hüseynov, Əlibaba Məmmədov, İldırım Həsənov, Ağaxan Abdullayev, Tələt Qasımov, neçə-neçə gənc istedadlı xanəndələr Zülfi məktəbinin istedadlı davamçılarıdırlar.

Xanəndənin ifa etdiyi və lentə, qrammafon vallarına yazdırdığı "Rast", "Mahur-hindi", "Segah-Zabul", "Bayatı-Şiraz", "Humayun" muğam dəstgahları, bir sıra təsniflər, "Nəbi", "Mən gedirəm Zəngilana", "Dedim bir busə ver", "Kəklik" və b. bu kimi xalq mahnıları təkrarolunmaz, musiqi xəzinəmizin nadir inciləridirlər. Məhz qədim klassik muğamlarımızı, təsnif və xalq mahnılarını oxuyarkən onların ən'ənəvi forma və quruluşunu saxlamaqla xanəndə özünəməxsus nəfəsləri, dəst-xətti ilə ifaçılıq sənətinə yeniliklər gətirmişdir.

Heç də təsadüfi deyil ki, Zülfü Adıgözəlovun xanəndə kimi ifaçılığının xüsusiyyətlərindən söz açarkən görkəmli şərqşünas alim, jurnalist Rafael Hüseynov yazır: "O muğamların labirintlərinə kamil bələd idi, bir muğamın qapısından girib bu muğamın ruhunu incitmədən, səslənmiş rəvanlığına xələl gətirmədən asudəcə sonra elə gəldiyi rəvanlıqla əvvəlki muğama qayıdıb yolunu davam etdirə bilirdi".

Zülfü Adıgözəlov muğam dəstgahların ayrı-ayrı uyğun şöbələrini birləşdirərək mikrosilsilə kimi müstəqil şəkildə təfsir etmişdir. Bu baxımdan "əraq-Pəncgah", "Hasar-müxalif", "Vilayəti-Dilkeş" muğamları gözəl örnəklərdir.

Zülfü Adıgözəlov 1963-cü ildə Bakıda vəfat etmişdir.

**Qəmər Almaszadə**
(1915-2006)

Qəmər Hacağa qızı Almaszadə 1915-ci ildə Bakıda doğulmuşdur. Balet aktrisası, baletmeyster. SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. 1936-cı ildə Leninqrad xoreoqrafiya məktəbini bitirmişdir.



1930-cu ildən yaradıcılıq fəaliyyətinə başlamışdır. 1936-cı ildən Azərbaycan Dövlət Opera və Balet teatrının solisti.

Ə. Bədəlbəylinin "Qız qalası" baletində Gülyanaq, S. Hacıbəyovun eyniadlı baletində Gülşən, Qara Qarayevin "Yeddi gözəl" əsərində Ayşə, A. Adanın "Korsar" əsərində Medora, O. Qliyerin "Qırmızı çiçək"də Tao Xoa, B. Asafevin "Bağçasaray fontanı"nda Mariya rolları onun ən gözəl ifa etdiyi partiyalardır. Milli baletlərdə yaratdığı obrazlar dramatikliyi və poetikliyi ilə zəngindir. Q. Almaszadə Azərbaycan rəqsinə xas olan çiyinlərin, qolların zərif hərəkətlərilə ifa zamanı səhnədə sanki uçurdu. Klassik partiyaların ifasında poetik incəlik təsiredici lirika xarakterikdir. Q. Almaszadə 1953-cü ildən Azərbaycan Dövlət Opera və Balet teatrının baş baletmeysteri olmuş, burada S. Hacıbəyovun "Gülşən" S. Prokovyevin "Daş çiçək", Kreynin "Laurensiya" baletlərini tamaşaya qoyulmuşdur. 1936-cı ildən Q. Almaszadə Bakı xoreoqrafiya məktəbində dərs demişdir. 1970-72-ci illərdə İraqda işləmiş, İraqın Dövlət rəqs ansamblını yaratmışdır.

Q. Almaszadə bir çox orden və medallarla təltif olunmuşdur.

Qəmər Hacağa qızı Almaszadə 2006-cı il aprelin 7-də ömrünün 92-ci ilində vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Rasim Balayev**
(1948)

Rasim Əhməd oğlu Balayev 1948-ci ildə Ağsuda doğulmuşdur. Aktyor, Azərbaycanın xalq artisti, Azərbaycan Dövlət mükafatı laureatı. 1969-cu ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir.



R. Balayev ilk dəfə Bakı kinostudiyasında "Ulduzlar sönmür" əsərində kiçik bir rolda çəkilmişdir. Yaddaqalan xarici görünüşü və fitri istedadı R. Balayevə çox qısa bir zamanda müvəffəqiyyət qazanmağa kömək etdi. Aktyor lirik, ziddiyyətli, xarakterli və həm də əsl həqiqi faciəli rolları eyni şəkildə çox gözəl oynamışdır. Daha çox "Nəsimi", "Babək" və "Sönmüş ocaqların işıqları" filmlərində oynadığı rollarda tamaşaçıların rəğbətini qazanmışdır. Monumental səhnə əsəri olan "Nəsimi" filmində faciəli taleyi olan XVI əsrin filosof şairin rolunu yüksək məharət və parlaqlığı ilə oynamışdır. Genişekranlı və kütləvi səhnələri olan "Babək" filmində R. Balayev IX əsr xalq hərəkatının əfsanəvi qəhrəmanı, istedadlı hərbi sərkərdə Babəki parlaq şəkildə oynamışdır. Fitri istedadı olan aktyor üçün ən kiçik rollarda da oynamaq çətin deyil. "Bu şirin söz, azadlıq", "Sənin birinci saatın", "Xoşbəxtlik səhnəsi", "Mən hələ qayıdacağam", "Birisigün gecəyarısı" kimi filmlərində o, epizodik görünsə də tamaşaçıların yadında qalmışdır. M. Qorki adına studiyada, "Mosfilmdə", "Özbəkfilmdə", "Tacikfilmdə" və. b. studiyalarda lentə çəkilmişdir.

Balayev Rasim Əhməd oğlu bir sıra orden və medallarla təltif olunmuşdur.

**Rəşid Behbudov**
(1915-1988)

Rəşid Məcid oğlu Behbudov 1915-ci ildə Tiflisdə doğulmuşdur. Müğənni (lirik-tenor), SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatıdır.



R. M. Behbudov 1934-44-cü illərdə İrəvan filarmoniyasının və Ermənistan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. 1944-cü ildə Bakıya gələrək Azərbaycan filarmoniyasının solisti olur. 1945-ci ildə Üzeyir Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasında Bakı kinostudiyasında baş rolda çəkilir. Bu rol ona dünya şöhrəti qazandırır. Film dünyanın 60-dan çox ölkəsində ekranlardan düşmədi. "Arşın mal alan" komediyasında Süleymanın ariyasını Rəşid Behbudov Azərbaycan dövlət opera və balet teatrının, K. S. Stanislavski və Nemiroviç-Dançenko adına Moskva Dövlət Musiqili Teatrının səhnəsində oxumuşdur. Fikrət Əmirovun "Sevil" operasında ifa etdiyi Balaşın ariyası tamaşaçıları riqqətə gətirmiş, bu səs, bu avaz əbədi olaraq onların yaddaşında qalmışdır. 1952-59-cu illərdə R. Behbudov Azərbaycan dövlət ansamblının solisti və bədii rəhbəri olmuşdur. 1966-cı ildə Azərbaycan Dövlət Mahnı Teatrını yaradaraq onun rəhbəri və aparıcı solisti olmuşdur. R. M. Behbudovun repertuarı son dərəcə zəngin idi. O, ərəb, hind, fars, rus, türk və dünyanın bir sıra başqa xalqların mahnılarını sevə-sevə, məhəbbətlə oxuyurdu. Çıxışlarında həzinlik, məhəbbət hərarəti temperament hiss olunurdu. Rəşid Məcid oğlu Behbudov dəfələrlə SSRİ və Azərbaycan SSR Ali sovetlərinə deputat seçilmiş, bir sıra orden və medallarla təltif olunmuşdu. 1988-ci ildə Moskvada vəfat etmiş, Bakıda dəfn olunmuşdur.

R. M. Behbudovun atası Məcid Behbudəli oğlu Behbudov (1870-1945) tanınmış xanəndə olmuşdur; Qardaşı Ənvər Məcid oğlu Behbudov (1912-1998) tanınmış teatr rejissoru, RSFSR-in xalq artisti olmuşdur.

# Fərhad Bədəlbəyli

(1947)

Fərhəd Şəmsi oğlu Bədəlbəyli 1947-ci ildə Bakıda görkəmli rejissor, Azərbaycan xalq artisti Şəmsi



Bədəlbəylinin ailəsində anadan olmuşdur. 1965-1969-cu illərdə Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında (professor M. R. Brennerin sinfində), 1969-1971-ci illərdə P. İ. Çaykovski adına Moskva Dövlət Konservatoriyasının aspiranturasında (dosent B. Davidoviçin sinfində) oxumuşdur. B.Smetana adına (Çexoslavakiya, 1967, III mükafat və Smetana əsərinin ən yaxşı ifaçısı mükafatı) və Viana da Mota adına (Portuqaliya, 1968, I mükafat) beynəlxalq müsabiqələrdəki uğurlu çıxışlardan sonra Fərhad Bədəlbəylinin adı məşhurlaşır. Bu gün F. Bədəlbəyli fəal konsert yaradıcılığı ilə məşğuldur. Pianoçunun qastrol səfərləri – Bolqarıstan, Almaniya, Yunanıstan, Daniya, İsrail, İtaliya, Kuba, Norveç, Portuqaliya, Tunis, Türkiyə, Finlandiya, Fransa, Çexoslavakiya, İsveçrə, Yuqoslaviya, Yaponiya və b. əhatə edir.

Musiqi təşkilatçılığı işi, maarifçilik – F. Bədəlbəylinin ikinci, mühüm fəaliyyət sahəsidir. 1986-1989-cu illərdə o, Azərbaycan Musiqi Cəmiyyətinin idarə hey’əti sədrinin I müavini olmuşdur. F. Bədəlbəylinin təşəbbüsü ilə Bakı İncəsənət Mərkəzi (1987-1996-cı illərdə o, buranın rəhbəri olmuşdur) və Azərbaycan Musiqi Xadimləri Cəmiyyəti (hal-hazırda o, 1989-cu ildən bu cəmiyyətin sədridir) yaradılmışdır. 1995-ci ildən o, «Azərbaycan Mədəniyyətinin Dostları» fondunun üzvüdür.

1971-ci ildən F. Bədəlbəyli Azərbaycan Dövlət Konservatoriyasında dərs deyir (1976-cı ildən dosent, 1983-cü ildən professor). 1991-ci ildən F. Bədəlbəyli Ü. Hacıbəyov adına Bakı Musiqi Akademiyasının rektorudur.

Azərbaycanın əməkdar artisti (1972), Azərbaycanın xalq artisti (1978), SSRİ xalq artisti (1990). Azərbaycanın Dövlət mükafatı Laureatıdır.

**Əfrasiyab Bədəlbəyli**

(1907-1976)

Əfrasiyab Bədəl oğlu Bədəlbəyli 1907-ci ildə Bakıda doğulmuşdur. Bəstəkar, musiqi tənqidçisi, dramaturq, Azərbaycanın xalq artistidir. 1930-cu ildə ADU-nun şərqşünaslıq fakültəsinin dilçilik şöbəsini, Leninqrad Konservatoriyası nəzdindəki musiqi məktəbini bitirmişdir.



Ə. Bədəlbəyli 1930-cu ildən ömrünün sonunadək dirijor olmuş, Azərbaycan Dövlət Opera və Balet Teatrının baş dirijoru işləmişdir. Meydanlarda keçirilən simfonik konsertlərə dirijorluq etmişdir. 1943-46-cı illərdə eyni zamanda Azərbaycan Dövlət filarmoniyasının bədii rəhbəri olmuşdur. O, ilk Azərbaycan baleti olan "Qız qalası" baletinin, "Nizami", "Soyüdlər ağlamır" operalarının müəllifidir. "Hacı Qara", 1905-cı ildə, "Fərhad və Şirin" əsərlərinə musiqi bəstələmişdir. "Bahadır və Sona", "Söyüdlər ağlamır", "Qız qalası", "Qaraca qız", "Qızıl açar" baletlərinə libretto yazmışdır. Musiqi və teatr incəsənəti ilə bağlı onlarla məqalənin müəllifidir. C. Rossinin "Sevilya bərbəri" və bir sıra operaların mətnlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Əfrasiyab Bədəl oğlu Bədəlbəyli bir sıra orden və medallarla təltif olunmuş, 1976-cı ildə Bakıda vəfat etmişdir. Bakıdakı musiqi məktəblərindən biri onun adını daşıyır.

## Səttar Bəhlulzadə
(1909-1974)

Səttar Bəhlul oğlu Bəhlulzadə 1909-cu ildə Bakının Əmircan kəndində doğulmuşdur. Əməkdar



incəsənət xadimi, Azərbaycanın xalq rəssamı, Azərbaycan Dövlət mükafatı laureatıdır. 1931-ci ildə Azərbaycan Rəssamlıq Məktəbini, 1941-ci ildə V. İ. Surikov adına Moskva Rəssamlıq İnstitutunu bitirmiş, V. A. Favorskinin və Q. M. Şaqalın tələbəsi olmuşdur.

S. B. Bəhlulzadə doğma yurdu tərənnüm edən onlarla lirik mənzərə - portretin müəllifidir. Azərbaycanın müxtəlif guşələrini, günəşli Abşeronu, Dağlıq Qarabağı, bürkülü Muğanı, gözəl Qubanı, Lənkəranın təsvirəgəlməz lövhələrini fırça ilə kətan üzərinə köçürərkən böyük rəssam özünü unudur, fırça sanki palitra ilə kətan arasında uçaraq təbiət mənzərələrini bütün şairanəliyilə həkk edirdi. S. B. Bəhlulzadə doğma diyarın yaz nəfəsli təzətər havasını, ətirli çiçəklərini, doğma çölləri, bağları tərənnüm etməkdən yorulmurdu. Onun "Vətənimin baharı", "Bakıda atəşfəşanlıq", "Qudyalçay vadisi", "Qızılbənövşəyə gedən yol", "Suraxanı atəşgahı, "Şahnabat", "Əmircan", "Neft daşları", "Şamaxı üzümlükləri" kimi əsərlərində rəssamın incə ruhlu lirik təxəyyülü onun romantikası ilə birləşir. S. B. Bəhlulzadə ilk baxışdan incə yüngül çalarları sərbəst improvizə, manera əlvanlığı ilə tanınıb nəzəri cəlb edir. Onun mənzərə-peyzajlarında, intim-lirik natürmortlarında, incə xalça ornamentlərinin düzülüşünü əks etdirən ənənəvi xalq yaradıcılığı motivləri duyulur. S. B. Bəhlulzadənin fərdi sərgiləri Əlcəzair, Misir, Livan, Suriya Tunis, Norveç, ADR, Çexoslovakiya, Bolqarıstan, İraq, Kuba, Kanada, Belçika, Fransa, Yaponiya və dünyanın bir sıra başqa ölkələrində nümayiş etdirilmişdir. Dünyanın onlarla muzeylərində S. B. Bəhlulzadənin əsərləri daimi eksponatlar sırasındadır.

Səttar Bəhlul oğlu Bəhlulzadə bir sıra orden və medallarla təltif olunmuş, 1974-cü ildə Moskvada vəfat etmişdir. Əmircanda dəfn olunmuşdur, qəbiri üstündə ona abidə qoyulmuşdur.

**Bülbül**
(1897-1961)

Murtuza Məşədi Rza oğlu Məmmədov 1897-ci ildə Şuşa yaxınlığında Xanbağında doğulmuşdur. Müğənni, musiqi folkloru tədqiqatçısı, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, professor, Azərbaycan professional vokal məktəbinin banisidir. Gənc yaşlarında Bülbül təxəllüsünü almışdır. 1927-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında N. İ. Speranskinin sinfini bitirmişdir. İki dəfə 1924 və 1931-ci illərdə Milanda ixtisasartırma kurslarında olmuşdur.



Bülbül yaradıcılığa xanəndə kimi başlamış, Azərbaycan xalq mahnılarını və muğamlarını ifa etmişdir. 1916-cı ildə ilk dəfə Gəncədə Fikrət Əmirovun atası, tanınmış musiqiçi Məşədi Cəmilin yazdığı "Sərkərdənin qılıncı" əsərində səhnəyə çıxmışdır. 1920-ci ildən Birləşmiş Azərbaycan opera teatrı truppasının (1924-cü ildən opera və balet teatrı) solisti olmuşdur. Bülbülün səsi öz dinamik çalarları ilə fərqlənmişdir. İncə yaradıcılıq duyğularına malik olmaqla, milli ifaçılıq tərzi ilə italyan vokal məktəbinin ənənələrini özündə birləşdirirdi. Ü. Hacıbəyovun "Koroğlu" operasında Koroğlu, Qliyerin "Şahsənəm"ində Qərib, M. Maqomayevin "Nərgiz"ində Əlyar, Ə. Bədəlbəylinin "Nizami"sində, Nizami, Niyazinin "Xosrov və Şirin"ində Fərhad, Raxmaninovun eyniadlı əsərində Aleko, Verdinin "Riqoletto"sunda Hersoq, və s. partiyaların təkrarsız ifası onun yaradıcılığında xüsusi yer tutur. Bülbül tez-tez konsert proqramları ilə xarici ölkələrdə qastrollarda olurdu. "Sənsiz", "Sevgili canan", "Qara gözlər", "Ölkəm" daimi repertuarında olan mahnılar idi. 1932-44-cü illərdə respublika elmi-tədqiqat musiqi mərkəzinin təşkilatçısı və rəhbəri olmuşdur.

Bir sıra elmi ekspedisiyalar təşkil edərək 200-dən artıq musiqi folkloru nümunəsinin ifa tərzini lentə almışdı. Azərbaycan mahnılarının üç toplusunu nəşr etdirmişdi. 1932-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Konservatoriyasında dərs demişdir.

Murtuza Məşədi Rza oğlu Məmmədov (Bülbül) dəfələrlə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, orden və medallarla, habelə İtaliyanın "Harribaldi" ordeni ilə təltif olunmuşdur. 1961-ci ildə Bakıda vəfat etmişdir.

Bülbülün oğlu - Polad Bülbüloğlu (Polad Murtuza oğlu Məmmədov - 1945) tanınmış müğənni və bəstəkardır.

**Cabbar Qaryağdı oğlu**
(1861-1944)

Cabbar Məşədi İsmayıl oğlu 1861-ci ildə Şuşada doğulmuşdur. Xanəndə, şair, musiqi xadimi, Azərbaycanın xalq artisti. Orta musiqi təhsilini Şuşada almışdır.



Cabbar Qaryağdı oğlu gənc yaşlarından oxumağa başlamışdır. 1887-ci ildə Ə. Haqverdiyevin "Məcnun Leylinin qəbiri üstündə" səhnəsində Cabbar Qaryağdı Məcnun rolunu ifa etmişdir. XIX əsrin 90-cı illərində Bakı, Gəncə, Ağdaş və Şamaxıda qastrollarda olmuşdur. 1905-ci ildə tarda Qurban Pirimiov, kamançada S. Oqanezaşvili olmaqla üçlük yaradır. Üçlüyün repertuarına Azərbaycanın xalq mahnıları Kürd-şahnaz, Mahur, Bayatı-Qacar, Heyratı və başqa musiqi və təsniflər daxil idi. Onlar Zaqafqaziya, Orta Asiya, İran və İraqa qastrollara gedirdilər. Cabbar Qaryağdı təkcə Azərbaycan dilində deyil fars, özbək, türkmən, gürcü və ərəb dillərində də gözəl oxumuşdur. Üçlüyün ifaları Varşavada, Kiyevdə və Moskvada qrammofon vallarına yazılmışdı. Moskvada Cabbar Qaryağdı ilə tanış olan F. Şalyapin və S. Yesenin onun ifa ustalığını yüksək qiymətləndirirlər. S. Yesenin Cabbar Qaryağdını "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdı. Cabbarın geniş diapazonlu gözəl tembri, güclü səsi var idi. Musiqi ictimaiyyəti onun səsini italyan müğənnisi E. Karuzo ilə müqayisə edirdilər. Cabbar Qaryağdı Azərbaycan Konservatoriyasının yaradıcılarından biri olmuşdur. O, burada klassik xalq musiqisindən dərs demişdir. Konservatoriyanın nəzdində Azərbaycan xalq musiqisini öyrənən Bülbülün rəhbərlik etdiyi elmi-tədqiqat kabinetində onun ifasında 300-ə qədər xalq mahnısı lentə alınmışdır ki, bunların da 50-ni bəstəkar S. Rüstəmov nota almışdı. Cabbar Qaryağdı oğlu Azərbaycan Filarmoniyasının və Azərbaycan radiosunun solisti idi. Şair kimi otuzdan artıq qəzəl və dübeyti yazmışdır. "Şahsənəm" operasının yazılmasında R. Qliyerə kömək etmişdir. Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Niyazi öz musiqi əsərlərini yaradarkən Cabbar Qaryağdı oğlu ilə məsləhətləşərdilər.

Cabbar Qaryağdı oğlu bir sıra orden və medallarla təltif olunmuşdur.

Cabbar Məşədi İsmayıl oğlu (Cabbar Qaryağdı oğlu) 1944-cü ildə Bakıda vəfat etmişdir.

**Cahangir Cahangirov**
(1921-1992)

Cahangir Şirgəşt oğlu Cahangirov 1921-ci ildə Bakının Balaxanı kəndində doğulmuşdur. Bəstəkar, Azərbaycanın xalq artisti, SSRİ Dövlət Mükafatı Laureatı. 1951-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir.



1932-42-ci illərdə C. Cahangirov Azərbaycan Filarmoniyasının xormeysteri, 1942-61-ci illərdə respublika radiosu xorunun bədii rəhbəri, 1961-65-ci illərdə Azərbaycan Dövlət Rəqs ansamblının və eyni zamanda Azərbaycan Filarmoniyasının bədii rəhbəriolmuşdur. 1952-ci ildən C. Cahangirov Azərbaycan Dövlət konservatoriyasında dərs deyir. "Azad", "Xankəndinin taleyi" operaları, "Təzə gəlin" operettası, "Arazın o tayında" solist, xor və orkestr üçün poeması, "Xalqlar dostluğu süitası", "Sabir oratoriyası", "Füzuli" kantatası əsas musiqi əsərləridir. Bundan başqa o, bir sıra dram əsərlərinə və filmlərə musiqi bəstələmiş, mahnılar yazmışdır.

Cahangir Cahangirov bir sıra orden və medallarla təltif olunmuşdur.

Cahangir Şirgəşt oğlu Cahangirov 1992-ci ildə vəfat etmişdir.

**Əminə Dilbazi**
(1909-2003)

Əminə Paşa qızı Dilbazi 1909-cu ildə Qazaxda doğulmuşdur. Rəqqasə, milli rəqslərin ustası, səhnə quruluşçusu. 1957-ci ildə Moskva Beynəlxalq tələbə gənclər festivalının laureatı.



Ə. Dilbazi 1935-ci ildən estradada milli rəqslərin ifaçısı kimi çıxış etmişdir. 1939-cu ildən xalq rəqslərini səhnəyə qoymuşdur. Ə. Dilbazi Azərbaycan Dövlət filarmoniyasının səhnəsində oynanılan "Dədə Qorqud", "Azərbaycan toyu", "Bir bağçanın gülləri" səhnə əsərlərində əsas partiyaların ifaçısı olmuşdur. Onun ifasında "İnnabı", "Tərəkəmə", "Vağzalı-mirzeyi", "Turacı", "Naz eləmə" kimi Azərbaycan rəqsləri istedadının pərəstişkarları arasında yüksək məhəbbətlə qarşılanırdı. Repertuarına rus, ukrayna, özbək, iran, türk, ərəb xalqlarının rəqsləri daxil idi. 1959-cu ildə Ə. Dilbazi Azərbaycanda ilk qadın "Çinar" rəqs ansamblını yaradaraq, rəqslərin quruluşçusu və ansamblın bədii rəhbəri oldu. 1962-65-ci illərdə Azərbaycan mahnı və rəqs ansamblına, 1967-68-ci illərdə "Sevinc" rəqs ansamblına rəhbərlik etmişdir. Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində Ə. Dilbazi "Arşın mal alan", "Leyli və Məcnun", "O olmasın, bu olsun", əsərlərinin rəqs səhnələrini, Azərbaycan musiqili komediya teatrında, habelə erməni, osetin, özbək ansambllarında rəqsləri tamaşaya qoymuşdur. "Arşın mal alan", "Ulduz", "Yallı", "Sevinc" film-konsertində lentə çəkilmişdir. Dünyanın bir sıra ölkələrində qastrollarda olmuşdur. 1949-cu ildən Bakı xoreoqrafiya məktəbində dərs demişdir.

Əminə Paşa qızı Dilbazi bir sıra orden və medallarla təltif olunmuşdur. 2003-cü ildə vəfat etmişdir.

**Ömər Eldarov**
(1927)

Azərbaycanın xalq rəssamı, Milli Elmlər Akademiyasının həqiqi üzvü, heykəltəraş Ömər Eldarov 1927-ci ildə Dağıstan Muxtar Respublikasının Dərbənd şəhərində anadan olub. Azərbaycan Rəssamlıq Məktəbinin heykəltəraşlıq bölməsini qurtardıqdan sonra Ömər Eldarov peşə biliyini artırmaq məqsədilə



Leninqraddakı İ. Repin adına rəngkarlıq, heykəltəraşlıq və memarlıq institutunun heykəltəraşlıq fakültəsində təhsilini davam etdirib. 1946-cı ildən etibarən Ömər Eldarov mütəmadi olaraq müxtəlif respublika, regional və beynəlxalq sərgi və müsabiqələrin iştirakçısı olub. Sənətkarın yaratdığı heykəllər dünyanın bir çox muzeylərində layiqli yer tutmaqdadır. Bu cür əsərlər sırasında şairə Natəvanın, şair Məhəmməd Füzulinin, şair-dramaturq Hüseyn Cavidin, Azərbaycanın görkəmli oftalmoloq alimi Zərifə Əliyevanın, professor İhsan Doğramacının heykəlləri, bəstəkar Üzeyir Hacıbəyovun, rəssam Səttar Bəhlulzadənin, yazıçı Süleyman Rəhimovun, akademik Ziya Bünyadovun və başqalarının qəbirüstü abidələrini göstərmək olar. Eyni zamanda sənətkar bir sıra kamera xarakterli, kiçik həcmli əsərlərin müəllifidir. Yaradıcılıqla yanaşı, Ömər Eldarov həm də Azərbaycanın ictimai və mədəni həyatının fəal iştirakçısıdır. 1958-1968-ci illərdə o Rəssamlar İttifaqının Katibliyinə üzv seçilib. 1970-ci ildə isə o, SSRİ Rəssamlıq Akademiyasının heykəltəraşlıq üzrə Bakıdakı yaradıcılıq emalatxanasının rəhbəri təyin edilib. Bu illər ərzində məşhur heykəltəraş tərəfindən bir neçə nəsil istedadlı peşəkar rəssam yetişdirilib. Ömər Eldarov 1969-1973-cü illərdə Bakı Sovetinin deputatı seçilib və burada mədəni-maarif işi üzrə komissiyanın rəhbəri vəzifəsində çalışıb. 1995-ci ildə isə Ömər Eldarov müstəqil Azərbaycanın ali qanunvericilik orqanı olan Milli Məclisə deputat seçilib. Azərbaycan Rəssamlıq Akademiyasının rektorudur.

Məşhur mədəniyyət və incəsənət xadimi, heykəltəraş Ömər Eldarovun yaradıcılığı və ictimai fəaliyyəti ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib. O, müstəqil Azərbaycanın ali dövlət mükafatı olan "İstiqlal" ordeni ilə təltif edilib.

Azərbaycanın görkəmli siyasi xadimi Heydər Əliyevin Fəxri Xiyabandakı qranitdən hazırlanmış, hündürlüyü 4 metr olan qəbirüstü abidəsinin də müəllifi Ömər Eldarovdur. Vyana da dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun abidəsinin heykəltəraşı Ömər Eldarovdur. Üzeyir Hacıbəyovun Azərbaycanın Avstriyadakı səfirliyinin təşəbbüsü ilə bu abidə ona ehtiram olaraq, 30 may 2006-cı ildə ucaldılmışdır. Müəllif heykəltəraş Ömər Eldarovdur.

Ömər Eldarov Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə 1997-ci ildə “İstiqlal" ordeni, 2017-ci ildə isə "Heydər Əliyev" ordeni ildə təltif olunmuşdur.

**Fuad Əbdürrəhmanov**
(1915-1971)

Fuad Həsən oğlu Əbdürrəhmanov 1915-ci ildə Şəkidə doğulmuşdur. Memardır. SSRİ Rəssamlıq



Akademiyasının müxbir üzvü, əməkdar incəsənət xadimi, Azərbaycan xalq rəssamı, SSRİ Dövlət mükafatı laureatı olmuşdur. 1929-32-ci illərdə rəssamlıq texnikumunda, 1936-39-cu illərdə Repin adına Leninqrad Dövlət Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda oxumuşdur.

İstedadlı sənətkar F. H. Əbdürrəhmanovun Azərbaycan monumental heykəltəraşlıq sənətinin inkişafı və formalaşmasında böyük rolu olmuşdur. Onun əsərləri zəngin yaradıcılıq ənənələri ilə seçilir. Bakıda və Gəncədə Nizaminin, Səməd Vurğunun, Buxarada İbn Sinanın, Düşənbədə Rudəkinin, Ulan-Batorda Suxe Batorun və Çoybalsanın ucaldılmış abidələrində F. Əbdürrəhmanov yaradıcılığının intəhasız genişliyi insanı heyrətə gətirir. Sənətkar "Azadlıq" əsərində istedadlı yaradıcılıq manerası, milli mənəvi zənginliyi üzə çıxarmağa nail ola bilmişdir. Nizaminin abidəsi əhəmiyyətli bədii ümumiləşdirmələri özündə əks etdirir. Burada obrazlılıq və plastika vəhdətdədir.

Fuad Həsən oğlu Əbdürrəhmanov bir sıra orden və medallarla təltif olunmuşdur. O, yaradıcılığının çiçəklənən dövründə - 56 yaşında Bakıda vəfat etmişdir. 1971-ci ildə onun memorial ev-muzeyi açılmışdır.

**Zivərbəy Əhmədbəyov**
(1873-1925)



Zivərbəy Gəraybəy oğlu Əhmədbəyov 1873-cü ildə Şamaxıda doğulmuşdur. Orta təhsilini Şamaxıda almışdır. 1902-ci ildə Peterburq inşaat-mühəndisləri institutunu bitirmişdir. İlk ali təhsilli diplomlu - azərbaycanlı memardır.

1902-17-ci illərdə Z. Əhmədbəyov Bakı Quberniyasının İdarəsində, sonra isə Bakı şəhər idarəsində memar işləmişdir. 1908-22-ci illərdə Bakı şəhərinin baş memarı olmuşdur. Şamaxıda "Cümə məscidi" nin, "İmam məscidi"nin, Bakıda "Təzə Pir" məscidinin, Əmircanda və Vladiqafqazda bir sıra yaşayış, məişət binaları onun layihəsilə tikilmişdir. Z. Əhmədbəyov öz layihələrində Qərbi Avropa və Şərq memarlıq ənənələrini böyük məharətlə birləşdirirdi. Bakıda Oftalmologiya institutunun və onun layihəsilə tikilən bir sıra başqa yaşayış binaları bu gün də göz oxşayır. Əmircanda tikdiyi məscid isə Şərq memarlığının ən yaxşı incilərindən biri kimi YUNESKO-nun tarixi abidələr siyahısına salınaraq qorunur. 1917-ci ildə isə Z. Əhmədbəyov "İslam mədəniyyət abidələrini qoruyan", 1919-cu ildə isə Şamaxıda mədəniyyət abidələrinin öyrənilməsi ilə məşğul olan "Yeni Şirvan" cəmiyyətlərini yaradır.

Zivərbəy Gəraybəy oğlu Əhmədbəyov 1925-ci ildə Bakıda vəfat etmişdir.

**Firəngiz Əhmədova**
(1928-2011)

Firəngiz Yusif qızı Əhmədova 1928-ci ildə Bakıda doğulmuşdur. Müğənni (soprano), SSRİ xalq artisti. 1955-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında M. Kolotovanın sinfini bitirmişdir.



1946-51-ci illərdə Azərbaycan radiosu xorunun, 1951-ci ildən Azərbaycan Dövlət Opera və Balet teatrının solisti olmuşdur. F. Əhmədova səhnə təcəssümündə ılıq ahəng zənginliyi olan cəlbedici səsə malikdir. Azərbaycan bəstəkarları, F. Əmirovun "Sevil"ndə Sevil, Ü. Hacıbəyovun "Koroğlu"sunda Nigar, M. Maqomayevin "Nərgiz" və "Şah İsmayıl"ında Nərgiz və Gülzar, C. Cahangirovun "Azad"ında Səriyyə, S. Ələsgərovun "Bahadır və Sona"sında Sona partiyalarında Şərq qadınının bütün milli koloritini təcəssüm etdirən bu obrazları özünəxas temperamentlə və bütövlüklə yaratmışdır. F. Əhmədova həm də Avropa bəstəkarlarının əsərlərinin gözəl ifaçısı kimi tanınmışdır. D. Puççininin "Toska"sında Toska, C. Verdinin "Aida"sında Aida partiyalarını ifa etmişdir. F. Əhmədova həm də konsertlərdə Azərbaycan xalq mahnıları və romanslarının Ü. Hacıbəyovun "Sənsiz", A. Zeynallının "Ölkəm", "Sual", Niyazinin "Arzu", Ə. Abbasovun "Heyran olmuşam", A. Rzayevin "Oxuma gözəl", habelə S. Raxmaninovun, P. Çayakovskinin, S. Tanayevin əsərlərini böyük məharətlə ifa etmişdir. O, bir sıra xarici ölkələrdə qastrollarda olmuşdu.

Əhmədova Firəngiz Yusif qızı SSRİ və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir.

16 dekabr 2011-ci ildə Bakı şəhərində vəfat etmiş, I Fəxri xiyabanda dəfn edilmişdir.

## Süleyman Ələsgərov
(1924-1999)

Süleyman Əyyub oğlu Ələsgərov 1924-cü ildə Şuşa şəhərində anadan olmuşdur. 1940-cı ildə Şuşa orta ixtisas musiqi məktəbinin tar sinfini bitirdikdən sonra o, Bakıya gəlmiş və əvvəlcə Azərbaycan Dövlət Konservatoriyasının nəzəriyyə şöbəsinə, sonra isə bəstəkarlıq şöbəsinə, professor B. İ. Zeydmanın sinfinə daxil olub, həmin sinfi fərqlənmə diplomu ilə qurtarmışdır.



Böyük Vətən müharibəsi illərində S. Ələsgərov fəal yaradıcılıqla və ictimai işlə məşqul olur: özfəaliyyət kollektivlərinə rəhbərlik edir, hamilik konsertlərində iştirak edir, xalq çalğı alətləri orkestrində (əvvəlcə dirijor assistenti, sonra dirijor) işləyir. Özu də bütün bunları o, təhsillə uyğunlaşdırır.

S. Ələsgərovun tələbəlik illərində yaratdığı Violençel və fortepiano ilə simfonik orkestr üçün ikili konsert diqqətəlayiqir. Bu, Azərbaycan bəstəkarlarının həmin janrda yazdığı ilk əsərlərdən biridir. İlk dəfə 1947-ci ilin iyununda Azərbaycan Dövlət Filarmoniyasında çalınan ikili konserti dinləyicilər hərarətlə qarşılamışlar.

Bəstəkarın diplom işi müasirlərimizin həyatına həsr etdiyi “Vətən” simfoniyası olmuşdur. 1948-ci ildə S. Ələsgərov Azərbaycan Dövlət Konservatoriyasını bitirib, Bakı orta ixtisas musiqi məktəbində dərs deməyə başlayır, eyni zamanda geniş musiqi-ictimai fəaliyyət göstərir.

1949-1951-ci illərdə o, həmin musiqi məktəbinin direktoru, 1951-1952-ci illərdə Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs ansamblının bədii rəhbəri, 60-cı illərdə isə Musiqili Komediya Teatrının direktoru və baş dirijoru vəzifələrində işləmişdir.

1956-cı ildə S. Ələsgərov Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Azərbaycan xalq musiqisi kafedrasına müəllim dəvət edilir və 1971-ci ildən həmin kafedranın müdiri vəzifəsində çalışmışdır.

1967-ci ildə “Milyonçunun dilənçi oğlu” tamaşasına görə bəstəkar S. Ələsgərov, libretto müəllifi Ş.Qurbanov, habelə rəssam B. Mirzəzadə və rejissor Ə. Ələkbərov Ü. Hacıbəyov adına respublika mükafatına layiq görülmüşlər. Bəstəkarın “Ulduz” operettası həm ölkəmizin bir çox şəhərlərində, həm də onun hüdudlarından uzaqlarda tamaşaya qoyulmuş və C. Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında ekranlaşdırılmışdır.

S. Ələsgərovun yaradıcılıq bioqrafiyasında “Bahadır və Sona” operası (librettosu Ə. Bədəlbəyli və Ş. Qurbanovundur) mühüm mərhələ olmuşdur. Opera 1962-ci ildə M. F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuşdur.

S. Ələsgərov bir neçə kantata və poema yaratmışdır. O, “Vətənə eşq olsun!”, “Bahar təranələri”, “Bir bayraq altında” kantatalarının, “Çingiz İldırım” vokal poemasının müəllifidir.

S. Ələsgərovun lirik mahnıları mövzu və emosionallığına görə müxtəlifdir. Onun rus və Azərbaycan klasik şairlərindən A. S. Puşkinin, M. F. Axundovun, M. Ə. Sabirin, S. Vurğunun şerlərinə yazdığı mahnı və romansları bəstəkarın maraqlı vokal lirikası qrupunu təşkil edir.

Süleyman Ələsgərov 21 yanvar 1999-cu ildə dünyasını dəyişib.

2002-ci ildə "Süleyman Ələsgərov xatirələrdə" adlı kitab çıxmışdır.

**Mirzəağa Əliyev**
(1883-1954)

Mirzəağa Əli oğlu Əliyev 1883-cü ildə Bakının Hövsan kəndində doğulmuşdur. İki dəfə SSRİ Dövlət mükafatı laureatı, SSRİ xalq artisti olmuşdur. İbtidai təhsilini mollaxanada, orta təhsilini Bakı rus-müsəlman məktəbində almışdır.



1901-ci ildə səhnə fəaliyyətinə həvəskar kimi Nəcəf bəy Vəzirovun "Müsibəti Fəxrəddin" əsərində Şahmar bəy rolunun ifası ilə başlamışdır. 1906-cı ildə "Həmiyyət" adlı teatr truppası yaradaraq müxtəlif tamaşalarda baş rollarda oynamışdır. 1907-12-ci illərdə "Nicat" cəmiyyətinin teatr truppasında çıxış etmişdir. 1912-ci ildə çar rejimini ifşa edən çıxışlarına və ictimai fəaliyyətinə görə Həştərxana sürgün olunmuşdur. Həştərxanda teatr truppası yaradan Mirzağa Əliyev 1912-16-cı illərdə Volqaboyu şəhərlərdə, Gürcüstanda, İrəvanda və İranda teatr tamaşaları ilə çıxış etmişdir. Üzeyir Hacıbəyovun "Arşın mal alan", "O olmasın, bu olsun", "Ər və arvad" Z. Hacıbəyovun "Əlli yaşlı cavan", "Evliykən subay" komediyaları teatrın daimi repertuarında idi. 1921-ci ildə M. Əliyev Bakıda müstəqil teatr yaradır. Burada "Vəzirin gözləri", "Məşədi evlənir", "Telefon" və bir sıra başqa tamaşalarda baş rolda oynayır. 1924-cü ildən ömrünün sonunadək Azərbaycan Dövlət Dram Teatrında çalışmaqla bir sıra filmlərə çəkilir. M. Əliyev fitri istedada malik səhnə ustası idi, oynadığı rollarda milli koloritə malik təbiilik və incə yumor ifa tərzi ancaq ona məxsus idi. Ü. Hacıbəyovun "O olmasın, bu olsun" tamaşasında Məşədi İbad, C. Cabbarlının "Aydın"ında Balaxan, "Od gəlini"ndə Oddamdı, "Yaşar"da Əmioğlu, Ə. Məmmədxanlının "Şərqin səhəri"ndə Nəcəf bəy, M. İbrahimovun “Məhəbbət”ində Qulamhüseyn, M. Axundovun "Hacı Qara"sında Hacı Qara, M. Qorkinin "Həyatın dibində" əsərində Luka və bir sıra başqa rollarda son dərəcə gözəl ifa tərzilə tamaşaçıların dərin rəğbətini qazanmışdır. M. Əliyev "Almas", "Hacı Qara", "Bakının işıqları" bir sıra başqa filmlərdə yaddaqalan obrazlar yaratmışdır.

M. Əliyev bir sıra orden və medallarla təltif olunmuşdur. O, 1954-cü ildə Bakıda vəfat etmişdir. Bakı küçələrindən biri onun adını daşıyır.

**Fikrət Əmirov**
(1922-1984)



Fikrət Məşədi Cəmil oğlu Əmirov 1922-ci ildə Gəncədə doğulmuşdur. SSRİ xalq artisti, SSRİ və Azərbaycan SSR Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı, professor, Azərbaycan EA-nın müxbir üzvüdür. Gəncə musiqi məktəbini bitirdikdən sonra 1938-39-cu illərdə Bakı musiqi məktəbində oxumuş, 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir.

F. Əmirovun yaradıcılığı təkrarolunmaz rəngarəngliyilə seçilməklə Azərbaycan xalq musiqisilə üzvi vəhdət təşkil edir. O, ilk lirik-psixoloji "Sevil" operasının, "Min bir gecə" baletinin, "Şur", "Kürd ovşarı", "Azərbaycan kapriççiosu", "Gülüstan-Bayatı-Şiraz" simfonik muğamlarının, simli orkestr üçün "Nizami" fəlsəfi simfoniyasının müəllifidir. Ərəb mövzuları əsasında fortepiano ilə orkestr üçün konsertləri, musiqi axıcılığı rəngarəngliyi ilə qəlb oxşayır. Onlarla mahnıları, romansları, xalq mahnılarına işləmələri dillər əzbəridir. Bir sıra dram əsərlərinə və filmlərə musiqi bəstələmişdir. F. Əmirovun yaradıcılığında simfonik muğamlar təkcə Azərbaycan deyil, bütövlükdə bütün şərq xalqlarının musiqi sənətində ənənəvi İnstrumentallıqda ilk simfoniyalaşdırma təcrübəsi kimi dəyərlidir. F. Əmirovun musiqisi İngiltərənin, Almaniyanın, Rusiyanın, Amerikanın, Fransanın və bir sıra başqa ölkələrin səhnələrində radio və televiziyada səsləndirilmişdir. Onun əsərləri XX əsrin görkəmli dirijorları Niyazinin, L. Stakovskinin (ABŞ), Abandorqun (Almaniya), Munşun (Fransa), K. Rojdestvenskinin (Rusiya) və başqalarının rəhbərliyi ilə səslənmişdir.

F. Əmirov 1941-45-ci il sovet-alman müharibəsinin iştirakçısıdır. Dəfələrlə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1959-84-cü illərdə Azərbaycan Bəstəkarlar İttifaqının I katibi, eyni zamanda 1974-84-cü illərdə SSRİ Bəstəkarlar İttifaqının katibi seçilmiş, Azərbaycan Dövlət Konservatoriyasında dərs demişdir. F. Əmirov 1984-cü ildə Bakıda vəfat etmişdir.

F. Əmirovun atası Məşədi Cəmil Əmiraslan oğlu (1875-1928) tanınmış musiqiçi-tarzən-müəllim olmuşdur. "Seyfül-mülk", "Sərkərdənin qılıncı" və "Namuslu qız" musiqili dramlarının müəllifidir.

# Hüseyn Ərəblinski
(1881-1919)

Hüseyn Məmməd oğlu Xələfov 1881-ci ildə Bakıda doğulmuşdur. İlk təhsilini mollaxanada, orta təhsilini Bakı rus-müsəlman məktəbində almışdır. H. Ərəblinski ilk dəfə səhnəyə 1897-ci ildə



M. F. Axundovun "Lənkəran xanının vəziri" dramında Kərim rolunda çıxmışdır. 1905-ci ildən peşəkar aktyor kimi səhnəyə çıxmışdır. "Nicat" və "Səda" cəmiyyətlərinin nəzdindəki teatr truppalarında çıxış etmişdir. 1918-ci ildə Ceyhun, Zülfüqar və Üzeyir Hacıbəyov qardaşlarının teatr truppasında aktyor və rejissor kimi çalışmışdır. Ə. B. Haqverdiyevin "Bədbəxt cavanın"da Fərhad, N. B. Vəzirovun "Müsibəti Fəxrəddinin"də Fəxrəddin, Ş. Saminin "Dəmirçi Gavə"sində Gavə kimi xalq içindən çıxan igid, mərd, mübariz, qəhrəman, saf məhəbbəti, düzlüyü, təmizliyi tərənnüm edən obrazları özünəməxsusluğu ilə ifa edərək tamaşaçıya sevdirirdi. Bütün rolların gözəl ifaçısı idi. Şekspirin eyniadlı əsərində Otello obrazı onun yaradıcılığının zirvəsidir. H. Ərəblinski 1916-cı ildə Bakı kinostudiyasında "Neft və milyonlar səltənətində" filminə çəkilmişdir. O, rejissor kimi, M. F. Axundovun, Ə. B. Haqverdiyevin, N. B. Vəzirovun, C. Məmmədquluzadənin, V. Şekspirin, N. Qoqolun dram əsərlərini habelə Üzeyir və Zülfüqar Hacıbəyov qardaşlarının musiqili komediyasını səhnəyə qoymuşdur. H. Ərəblinski ilk professional azərbaycanlı rejissor olmuşdur. O, teatr truppalarında Azərbaycanın, Şimali Qafqazın, Orta Asiyanın, Krımın və Volqanın şəhərlərində qastrollarda olmuşdur. Həştərxanda teatr səhnəsində ilk addımlarını atan istedadlı aktrisa Davudovanı Bakıya dəvət etmiş, sonralar Mərziyə xanım Azərbaycan səhnəsinin ulduzuna çevrilmişdi.

Hüseyn Məmməd oğlu Ərəblinski (Xələfov) 1919-cu ildə Bakıda öldürülmüşdür. Sumqayıt Dövlət Dram Teatrı və Bakı küçələrindən biri onun adını daşıyır.

## Əzim Əzimzadə
(1880-1943)

Əzim Aslan oğlu Əzimzadə 1880-ci ildə Bakının Novxanı kəndində doğulmuşdur. Azərbaycanın xalq rəssamı, Əmək Qəhrəmanı, xüsusi rəssamlıq təhsili almamışdır. Yaradıcılığı əsrlərdən bəri formalaşan Təbriz Azərbaycan miniatür məktəbindən və rus rəssamlıq məktəbindən bəhrələnmişdir.



1906-cı ildən "Molla Nəsrəddin", "Baraban", "Zənbur", "Tuti", "Kəlniyyət" və sair jurnalların səhifələrində satirik qrafik karikaturalarını nəşr etdirməklə Azərbaycan satirik qrafikasının əsasını qoymuşdur. Ə. Əzimzadənin əsərlərinin əsas mövzusu sosial təzadlar, adətlər və xalqın məişəti təşkil edirdi. Cəmiyyətin müxtəlif təbəqələrinin mənfi ünsürləri - xəsis tacirlər, fırıldaqçı din xadimləri, şarlatanlar onun satirik qələminin hədəfində olurdular. Yaradıcılığında obrazlılıq yığcamlıq olmaqla o, mənfi surətləri gah kəsərli yumor, gah yumşaq kinayə ilə kəskin satira atəşinə tuturdu. Çəkdiyi "İt boğuşdurma", "Kişi arvadını döyür", "Varlı evində toy", "Su üstündə dava", "Köhnə bakılılar" kimi əsərlərində müxtəlif sosial təbəqələrə məxsus tiplərin iç üzünü açaraq qadın hüquqsuzluğu ədalətsizliyə qarşı çıxış edir. O dövrdə cəmiyyətdəki sosial ədalətsizlikləri daha qabarıq əks etdirən "Köhnə Bakı tipləri" və "100 tip" əsəri xüsusilə təqdirəlayiqdir.

Ə. Əzimzadə satirik şair M. Ə. Sabirin "Hophopnamə"sinə çəkdiyi illüstrasiyalarla kitab qrafikası sənətinin əsasını qoymuşdur. Onun teatrlara çəkdiyi geyim eskizləri və dekorasiyalar Azərbaycan rəssamlığının bu sahədəki inkişafına xüsusi təsiri olmuşdur. Əsərləri Bakının, Moskvanın və dünyanın bir sıra başqa muzeylərində nümayiş etdirilir. 1940-cı ildən fərdi sərgiləri nümayiş etdirilmişdir. Bakıda keçirilən birinci sərgidə rəssamın 1200-dən çox əsəri nümayiş etdirilmişdir. 1920-43-cü illərdə Ə. Əzimzadə Azərbaycan rəssamlıq texnikumunda müəllim, 1932-37-ci illərdə isə direktor olmuşdur.

Əzim Aslan oğlu Əzimzadə 1943-cü ildə Bakıda vəfat etmişdir. Xalq öz istedadlı sənətkarını unutmamışdır. Bakı Rəssamlıq Texnikumu, Bakı küçələrindən biri onun adı ilə adlanır. Yaşadığı evdə rəssamın ev muzeyi açılmış, evin yaxınlılığındakı bağda büstü qoyulmuşdur.

## Soltan Hacıbəyov
(1919-1974)

Soltan Hacıbəyov 1919-cu ildə Şuşa şəhərində anadan olmuşdur. S.Hacıbəyovun gəncliyi xalq musiqi sənətinin böyük sərvətləri ilə bilavasitə ünsiyyətdə keçmişdir. İkisinifli ibtidai məktəbi bitirdikdən sonra S. Hacıbəyov 1930-cu ildə Bakıya köçmüş, 1936-cı ildən etibarən burada əmisi Ü.Hacıbəyovla şəxsi ünsiyyəti, onun əsərləri ilə yaxından tanışlığı S. Hacıbəyovda musiqiyə, musiqi yaradıcılığına maraq oyatmışdır.



S.Hacıbəyov orta məktəbi bitirdikdən sonra orta ixtisas musiqi məktəbinin truba sinfində oxumuş (müəllim A.L.Kolpinski), 1939-cu ildə həmin məktəbi bitirib, Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsinə, professor B.İ.Zeydmanın sinfinə daxil olmuşdur. Hələ konservatoriyaya daxil olmamışdan əvvəl “Qızıl gül” musiqili komediyasını yazır.

1940-cı ildə Azərbaycan Musiqili Komediya Teatrının səhnəsində tamaşaya qoyulur. Həmin vaxt teatrda orkestrin rəhbəri vəzifəsində işləyirdi.

Konservatoriyada ilk təhsil illərində S. Hacıbəyov iki pioner mahnısı, fortepiano üçün prelüd, uşaq kantatası yazır. Bundan əlavə Azərbaycan Dövlət Filarmoniyasının nəzdindəki sazçı qızlar ansamblının bədii rəhbəri vəzifəsi ilə əlaqələndirilir. Bir qədər sonra Azərbaycan teatr məktəbində musiqi nəzəriyyəsindən dərs deməyə başlayır. Bu illərdə o, skripka ilə orkestr üçün konsert birinci kvartet, simfonik variasiyalar, kantata və s. yazmışdır.

Böyük Vətən Müharibəsi illərində S. Hacıbəyovda digər bəstəkarlar kimi yaradıcılığında vətənpərvərlik və faşizmə qarşı mübarizə mövzusu mühüm yer tuturdu. Həmin illərdə yazdığı Birinci simfoniyası Q.Qarayevin, C.Hacıyevin simfoniyaları ilə yanaşı, Azərbaycanda simfoniya janrının yaranması faktını göstərən əsərlərin sırasına daxil olmuşdur.

1946-cı ildə, müharibə qurtardıqdan sonra S. Hacıbəyov diplom işi kimi ikinci simfoniyanı (c-moll) təqdim edib, konservatoriyanı bitirdi.

Birinci simfoniya kimi İkinci simfoniyada hərbi vətənpərvərlik mövzusu ilə bağlıdır. Bəstəkarın bədii fikri dörd hissəli silsilədə ardıcıl olaraq açılır.

Bu hissələrdə kədər lövhələri, mübarizənin gərginliyi (I hissə), məişət səhnələrinin fəal dinamikliyi (skerso), mərdanə lirika (II hissə), simfoniyanın üzərində düşmən üzərində qələbədən sonra doğan sevinc və təntənə bir-birini növbə ilə əvəz edir.

1969-70-ci illərdə bəstəkar hər iki simfoniyanı yeni redaksiyalarını işləmişdir. Konservatoriyanı bitirdikdən sonra bəstəkar bir ilə yaxın Moskvada D.Şostakoviçdən yaradıcılıq məsələləri üzrə xeyli məsləhət alır. Bu məsləhətlər bəstəkarın dünyagörüşünün zənginləşməsinə kömək etmişdir.

40-cı illərin ortasında bəstəkar Türkmənistan Dövlət Opera və Balet teatrının sifarişi ilə “Kəminə və Qazi” operasını yazır. Təəssüf ki, opera başa çatdırılmamışdır. Bu əsər üçün yazılmış musiqi parçaları içərisində Orta Asiya mənzərələrinin obrazlarını təsvir edən orkestr lövhəsi var idi. 1945-ci ildə S. Hacıbəyov onun əsasında “Karvan” simfonik lövhəsini yaratmışdır. 1952-ci ildə bəstəkar “Karvan”ın yeni redaksiyasını işləmişdir və hazırda həmin redaksiyada ifa olunur.

1950-cü ildə M.F.Axundov adına Opera və balet Teatrının səhnəsində S.Hacıbəyovun müasir mövzu əsasında yazdığı ilk Azərbaycan baleti olan “Gülşən” tamaşaya hazırlanmışdır. 1952-ci ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

1953-cü ildə “Gülşən” baleti Ə.Nəvai adına Daşkənd Böyük Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Müəllif baletə yazdığı musiqidən süita tərtib etmişdir. “Gülşən” süitası böyük tirajla “Bruno” (Amerika) firması tərəfindən buraxılmış və geniş yayılmışdır.

S. Hacıbəyov 1947-ci ildən başlayaraq, bir çox illər ərzində Azərbaycan Dövlət Konservatoriyasında dərs demiş, 1947-ci ildən 1962-ci ilədək M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında bədii rəhbər, sonra isə direktor işləmişdir. 1969-cu ildən 1974-cü ilədək o Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının rektoru olmuşdur.

S. Hacıbəyov 1974-cü il sentyabrın 19-da vəfat etmişdir.

## Üzeyir Hacıbəyov
(1885-1948)

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov 1885-ci ildə Şuşada doğulmuşdur. Bəstəkar, musiqişünas, SSRİ xalq artisti, professor, SSRİ Dövlət mükafatı laureatı, Azərbaycan EA-nın akademiki, Azərbaycan professional musiqi incəsənətinin banisi. 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır. 1911-12-ci illərdə Moskva filarmoniya cəmiyyətində fərdi kurslarda, sonra isə Peterburq konservatoriyasında təhsil almışdır.



1908-ci ilin yanvarında Ü. Hacıbəyov qardaşları Ceyhun və Zülfüqarla birlikdə H. Z. Tağıyevin teatrında M. Füzulinin eyniadlı poeması əsasında "Leyli və Məcnun" operasını tamaşaya qoyur. Bu tamaşada Ceyhun Hacıbəyli İbn Salam rolunda çıxış edir. Bu əsərlə nota yazılmış musiqi ilə solo vokal ifaçılığını bəstəkarın göstərişinə uyğun olaraq özündə birləşdirən ilk Şərq muğam teatrının əsası qoyuldu. Əsər böyük rəğbətlə qarşılandı və bu gün də opera səhnəsindən düşmür. Bundan sonra Ü. Hacıbəyov "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Əsli və Kərəm", "Şah Abbas və Xurşudbanu", "Harun və Leyla" musiqili muğamlı operalarını yaratdı. Bu əsərlər insanın ən gözəl hisslərini təcəssüm etdirir. Bu əsərlərin hamısı 1908-ci ildə Ü. Hacıbəyov tərəfindən yaradılmış ilk teatr truppası tərəfindən H. Z. Tağıyevin maddi yardımı ilə səhnəyə qoyulmuşdur.

Ü. Hacıbəyov yaradıcılığının zirvəsi "Koroğlu" operasıdır. Bu epik qəhrəmanlıq dastanı XVII-XVIII əsrdə kəndli üsyanlarından sonra xalq hərəkatı birliyinin klassik musiqi nümunələrilə obrazlı təzahür ifadəsidir. "Koroğlu" operasının musiqi dramaturgiyasını monumental xor səhnələri təşkil edir. Keçmiş dövrün məişəti və adət-ənənələri onun "Ər və arvad", "O olmasın, bu olsun", çox şöhrət tapmış "Arşın mal alan" musiqili komediyalarında daha dolğun əksini tapır. Bu əsərlər, xüsusilə "Arşın mal alan", Londonda, Parisdə, Berlində, Nyu-Yorkda, Moskvada, Sankt-Peterburqda, İstanbulda, Tehranda, Qahirədə, Pekində, Varşavada, Sofiyada və dünyanın bir sıra başqa ölkələrində dəfələrlə oynanılıb. "Arşın mal alan" motivləri əsasında 1917, 1945 və 1956-cı illərdə Bakıda, 1937-ci ildə isə Amerikada eyniadlı film çəkilmişdir. Qeyd etmək lazımdır ki, "Arşın mal alan" dünya musiqi mədəniyyəti tarixində ilk müzikldir. Öz muğam operalarına və musiqili komediyasına Üzeyir Hacıbəyov librettoları özü yazırdı. O, çoxlu musiqi əsərlərinin müəllifidir. Nizaminin "Sənsiz" və "Sevgili canan" qəzəllərinə yazdığı romanslar ölməz sənət nümunələridir. O, Azərbaycan Xalq Cümhuriyyəti (1918-20) Dövlət himninin (sözləri Əhməd Cavadındır), Azərbaycan SSR-nin Dövlət himnini (sözləri S. Vurğun və S. Rüstəmindir) müəllifidir. "Firuzə" əsəri yarımçıq qalmışdır. Ü. Hacıbəyov respublikada musiqi təhsilinə xüsusi qayğı ilə yanaşırdı. Musiqi məktəbi yaradaraq burada xalq çalğı alətləri şöbəsi təşkil etmiş, xor kollektivini formalaşdırmışdı. M. Maqomayevlə birlikdə ilk Azərbaycan mahnıları toplusunu nəşr etmişdir. 1938-48-ci illərdə Azərbaycan dövlət konservatoriyasının müəllimi və rektoru olmuşdur.

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyov dəfələrlə SSRİ Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1948-ci ildə Bakıda vəfat etmişdir. Azərbaycan Dövlət Konservatoriyası, özünün yaratdığı və rəhbərlik etdiyi Azərbaycan dövlət simfonik orkestri, Bakıda küçə onun adını daşıyır. Bakıda və Şuşada ev muzeyi açılmış, ona abidələr qoyulmuşdur. Bəstəkar F. Əmirov Ü. Hacıbəyova musiqili poema həsr etmiş, yazıçı Anar Bakı kinostudiyasında "Üzeyir Hacıbəyov. Uzun ömrün akkordları" ikiseriyalı film çəkmişdir. Ona çoxlu şeirlər, mahnılar, poemalar həsr olunmuş, haqqında oçerklər yazılmışdır.

Üzeyir Hacıbəyovun böyük qardaşı tanınmış bəstəkar Zülfüqar Əbdülhüseyn oğlu (1884-1950) "Aşıq Qərib" operasının, "Əlli yaşlı cavan" musiqili komediyasının, "Varlı", "Evliykən subay", "On bir yaşlı nişanlı" və başqa musiqi əsərlərinin müəllifidir. Ü. Hacıbəyovun əmisi oğlu SSRİ xalq artisti Soltan İsmayıl oğlu Hacıbəyov (1919-1974) tanınmış bəstəkar və dirijor olmuşdur. "Gülşən" baletinin və "Qırmızı qızılgül" musiqili komediyasının, "Karvan" süitasının və bir sıra başqa musiqi əsərlərinin müəllifidir.

**Rauf Hacıyev**
(1922-1995)

Rauf Soltan oğlu Hacıyev 1922-ci ildə Bakıda doğulmuşdur. Bəstəkar, ictimai xadim, SSRİ xalq



artisti. 1948-49-cu illərdə Moskva Konservatoriyasında oxumuş, 1953-cü ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir.

R. Hacıyev Azərbaycan Dövlət estrada orkestrinin yaradıcısı və bədii rəhbəridir (1955-65). 1965-71-ci illərdə Azərbaycanın mədəniyyət naziri. Dəfələrlə SSRİ və Azərbaycan SSR bəstəkarlar ittifaqlarının rəhbər orqanlarına seçilmişdir. R. Hacıyev "Romeo mənim qonşumdur", "Tələbələrin işləkləri", "Kuba - məhəbbətim mənim", "Təbəssümünü, gülüşünü gizlətmə", "Dördüncü fəqərə", "Ana, mən evlənirəm", "Qafqaz əsiri", "Müxtəlif yollar" komediyalarının, oratoriya, kantataların, dramatik səhnə əsərlərinə, filmlərə yazılmış musiqili əsərlərinin müəllifidir. Onun musiqili komediyaları dünyanın bir çox teatrlarının səhnələrində oynanılmışdır.

Hacıyev Rauf Soltan oğlu dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1995-ci ildə vəfat etmişdir.

## Zeynəb Xanlarova
(1936)

Zeynəb Yəhya qızı Xanlarova 1936-cı ildə Bakıda doğulmuşdur. Müğənni (lirik soprano), SSRİ xalq artisti, 1961-ci ildə Bakı Musiqi Məktəbində S. Şuşinskinin sinfini bitirmişdir.



Z. Xanlarova Azərbaycan xalq mahnılarının görkəmli ifaçısıdır. Zəngin tembri, qeyri-adi geniş diapazonlu ifa tərzi var. Z. Xanlarova Azərbaycan Dövlət Opera və Balet teatrında C. Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" operasında Leyli və Əslinin partiyalarını ifa etmişdir. Estrada müğənnisi kimi daha çox populyardır. "Şahnaz", "Qatar", "Bayatı-Şiraz" və habelə Azərbaycan bəstəkarları, Q. Qarayev, F. Əmirov, A. Məlikov, T. Quliyev, C. hangirov, R. Hacıyev, Ə. Tağıyevin mahnılarının gözəl ifaçısıdır. Z. Xanlarova özü də mahnılar bəstələmişdir. Repertuarına ərəb, fars, hind, türk, əfqan və bir sıra başqa xalqların mahnıları daxildir. Dünyanın bir sıra ölkələrinin milyonlarla tamaşaçıları Zeynəb Xanlarovanın sənətini alqışlamışlar. Onun haqqında "Salam, Zeynəb" filmi çəkilmişdir.

Xanlarova Zeynəb Yəhya qızı dəfələrlə Azərbaycan Ali Sovetinə, Milli Məclisə deputat seçilmişdir. "Melodiya" qrammofon valları firmasının "Qızıl val" mükafatına layiq görülmüşdür.

"Heydər Əliyev", "İstiqlal", "Şöhrət" ordenləri ilə təltif olunmuşdur.

**Maqsud İbrahimbəyov**
(1935-2016)

Azərbaycan ədəbiyyatının, mədəniyyətinin və incəsənətinin inkişafında Maqsud və Rüstəm İbrahimbəyov qardaşlarının böyük xidmətləri vardır.



Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov 11. 05. 1935-ci ildə Bakıda anadan olmuşdur. 1955-1960-cı illərdə Azərbaycan Dövlət Politexnik İnstitutunda təhsil almışdır. 1964-cü ildə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun ali ssenaristlik və rejissorluq kurslarının ssenarist, 1974-cü ildə isə rejissorluq fakültəsini bitirmişdir.

"İnsanların dənizi (1965), "Bakı Kremli" (1965), "Suvenir" (1967), "Canlı çiçəklər" (1967), "Uşaqlığın son gecəsi" (1968), "Bizim Cəbiş müəllim" (1969), "Bütün yaxşılıqlara görə ölüm" (1974), "Mezozoy əhvalatı" (1975), "De ki, sevirsən məni" (1979), "Yarımçıq qalmış mahnı" (1979), "Sonu yaxşı qurtaran hekayə" (1982), "Gənc kişi üçün qadın" (1996) filmlərinin ssenari müəllifi və bəzilərinin rejissorudur.

M. İbrahimbəyov bir neçə bədii kitabın müəllifidir. Xalq yazıçısı, əməkdar incəsənət xadimidir.

Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Maqsud İbrahimbəyov Prezident İlham Əliyevin Sərəncamı ilə 10. 05. 2005-ci ildə "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Maqsud İbrahimbəyov 22 mart 2016-cı ildə Bakı şəhərində vəfat etmişdir. I Fəxri Xiyabanda dəfn edilmişdir.

**Rüstəm İbrahimbəyov**
(1939-2022)

Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyov 05.02.1939-cu ildə Bakıda anadan olmuşdur. 1962-ci



ildə Azərbaycan Neft Kimya İnstitutunu bitirib, namizədlik dissertasiyasını müdafiə etmişdir. O illərdə Moskvada ali rejissorluq və ssenaristlik kurslarının əvvəlcə ssenari bölməsini (1967), sonralar rejissorluq bölməsini (1974) bitirmişdir.

Avropa Kino Sənəti Akademiyasının həqiqi üzvü, ABŞ Kino Akademiyasının üzvü olmuşdur.

1995-ci ildə «Günəşdən usanmışlar» filmi Amerika Kino Akademiyasının «Oskar» mükafatına layiq görülüb.

Rüstəm İbrahimbəyov 11 mart 2022-ci ildə uzun sürən xəstəlikdən sonra 83 yaşında Moskvada vəfat etmişdir. 16 mart 2022-ci ildə bakıda Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Adil İsgəndərov**
(1910-1978)

Adil Rza oğlu İsgəndərov 1910-cu ildə Gəncədə doğulmuşdur. SSRİ xalq artisti, Azərbaycanın əməkdar incəsənət xadimi, SSRİ Dövlət mükafatı laureatı. 1931-ci ildə Bakı teatr texnikumunu, 1936-cı



ildə Moskva Dövlət Teatr İncəsənəti İnstitutunu bitirmişdir. 1932-36-cı illərdə A. İsgəndərov oxumaqla bərabər, E. Vaxtanqov adına Moskva Teatrında rejissorluq təcrübəsində olmuşdur. 1936-60-cı illərdə A. İsgəndərov Azərbaycan Dövlət Dram Teatrında rejissor, baş rejissor və direktor olmuşdur. 1966-74-cü illərdə Bakı Kinostudiyasının direktoru olmuşdur. A. İsgəndərovun ilk quruluş verdiyi A. Korneyçukun "Platon Kreçet" və M. İbrahimovun "Həyat" pyesi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı. Azərbaycan Dövlət Dram Teatrında işlədiyi 25 il ərzində S. Vurğunun "Fərhad və Şirin", "Vaqif", C. Cabbarlının "Aydın", "1905-ci ildə", M. S. Ordubadinin "Dumanlı Təbriz", Ə. Məmmədxanlının "Şərqin səhəri", V. Şekspirin "Otello", M. Hüseynin "Cavanşir" və başqa əsərlərə quruluş vermişdir. A. İsgəndərovun teatrda S. Vurğunun "Vaqif" dramına verdiyi quruluş yaradıcılığının zirvəsi olmuşdur. A. İsgəndərov Azərbaycan opera və balet teatrında və Rus dram teatrında da əsərlər tamaşaya qoymuşdur. A. İsgəndərovun aktyor kimi kinoda da xidmətləri böyükdür. "Qara daşlar", "Uzaq sahillərdə", "Məhəbbət dastanı", "Romeo mənim qonşumdur", "Dərviş Parisi partladır", "Məhəbbətim mənim, kədərim mənim" filmlərində yaddaqalan obrazlar yaratmışdır. Quruluşçu rejissor kimi, "Əhməd haradadır" filmini çəkmişdir. A. İsgəndərov 1937-ci ildən Azərbaycan Dövlət İncəsənət İnstitutunda işləmiş, professor olmuşdur.

Adil Rza oğlu İsgəndərov dəfələrlə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1978-ci ildə Bakıda vəfat etmişdir.

## **Lətif Kərimov**
(1900-1991)

Lətif Hüseyn oğlu Kərimov 1900-cü ildə Şuşada doğulmuşdur. Dekorativ sənəti ustası, ornamentçi-rəssam, sənətşünas. Azərbaycanın xalq rəssamı, SSRİ Dövlət mükafatı laureatı, Azərbaycanın əməkdar incəsənət xadimi. Təbriz xalça məktəbinin rəssamlarının rəhbərliyi altında yüksək ustalığa çatmışdır.



L. H. Kərimov 1912-29-cu illərdə Cənubi Azərbaycanda yaşamışdır. 1930-cu ildən ömrünün sonunadək "Azərxalça" birliyinin bədii-texniki rəhbəri olmuşdur. O, 1200-dən çox xalça naxışının ornamentinin müəllifidir. Onun xalça ornamentikasının zənginləşdirilməsi yolundakı axtarışları, tematik və portret xalçaların toxunması təcrübəsi zəngin və rəngarəng idi. "Firdovsi" xalçası özünün yüksək bədii-texniki keyfiyyətləri haşiyəyə çıxarılmış ornamentlərin zərifliyi, ornamental formaların kombinasiyaların, ritmlərin aydınlığı və dəqiqliyi, bitkinliyi ilə fərqlənir. Ərəb hərflərilə çap olunmuş şeir nümunələri xalça dekoru ilə üzvi vəhdət təşkil edir. "Bahar", "Göy-göl", "Qarabağ", "Şuşa", "Nizami", "Füzuli", "Nəsimi", "Vaqif" və başqa xalçaları özünün təravətli dekorativ həlli ilə diqqətçəkəndir. Onun xalçaları London, Paris, Nyu-York, Dehli, Qahirə, Tehran və dünyanın bir sıra başqa muzey və saraylarının bəzəyidir. L. Kərimov eyni zamanda Azərbaycan EA-nın Memarlıq və İncəsənət İnstitutunun dekorativ tətbiqi sənət şöbəsinin müdiri olmuşdur. O, həm də dizayner olmuşdur. Binaların daxili interyerlərini bəzəmiş, kitablara tərtibat vermiş, zərgərlik məmulatları üçün maketlər və başqa dekorativ bəzək işləri görmüşdür. Lətif Hüseyn oğlu Kərimov orden və medallarla təltif olunmuşdur.

1990-cı ildə Bakıda vəfat etmişdir.

**Mir Seyfəddin Kirmanşahlı**
(1892-1933)

1892-ci ildə Tehran yaxınlığındakı Kirmanşahda doğulmuşdur. Aktyor, rejissor, sənətşünas. 1908-ci ildə Rusiyaya gəlmişdir. İlk təhsilini Tiflisdə almış, sonra Moskva Teatr Texnikumunda oxumuşdur.

Yaradıcılıq fəaliyyətinə Tiflisin Azərbaycan teatrında başlamışdır. Burada o, C. Məmmədquluzadənin "Ölülər"ində İsgəndəri, M. F. Axundovun "Hacı Qara"sında Heydər bəyi, Ş. Saminin "Dəmirçi Gavə"sində Gavə, N. Qoqolun "Müfəttiş"ində bələdiyyə rəisini və başqa rolları böyük ustalıqla ifa etmişdir. Onun gözəl səsi, hərəkətləri böyük səhnə mədəniyyəti tamaşaçılarda rəğbət hissi ilə qarşılanırdı. O, rejissor kimi bu teatrda E. Molyerin, "Jorj Danden", H. Cavidin "Uçurum", C. Cabbarlının "Aydın", F. Şillerin "Qaçaqlar", N. Vəzirovun "Hacı Qənbər", Şekspirin "Hamlet" əsərlərini böyük ustalıqla tamaşaya qoymuşdu. 1919-cu ildə Ş. Kirmanşahlı Tiflisdəki Azərbaycan teatrının kollektivi ilə İstanbulda böyük müvəffəqiyyətlə çıxış etmişdi. 1920-ci ildən M. Kirmanşahlı Azərbaycan Dövlət Dram teatrında aktyor və rejissor işləməklə bərabər filmlərə də çəkilir.

O, 1930-cu ildə İrana qayıdır. Təbrizdə teatr truppasına rəhbərlik edir, İran teatr səhnələrində Ü. Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasını "Leyli və Məcnun" operasını, M. F. Axundovun "Lənkəran xanının vəziri", Ə. Haqverdiyevin "Pəri cadu" və başqa əsərləri tamaşaya qoyur. Tehranda "Dramaturji Studiya" açaraq burada səhnə ustalığından dərs keçirdi.

Mir Seyfəddin Kirmanşahlı İranda siyasi görüşlərinə görə təqib olunmuşdur.

1933-cü ildə Tehranda vəfat etmişdir.

## Göyərçin
(1887-1960)

İlk qadın aktyorumuzdur. Göyərçin, əslində onun teatr təxəllüsüdür, əsl adı isə Gövhərdir. Gövhər Əhməd qızı Qazıyeva 1887-ci ildə Tiflisdə ziyalı ailəsində anadan olub, orada nəcib qızlar institutunu bitirib, rus və Azərbaycan dillərində mükəmməl təhsil alıb. İbrətamiz, maraqlı bir həyat yolu keçib.

19-cu əsrin sonu – 20-ci əsrin əvvəli Tiflisin teatr mühiti, çox maraqlı və rəngarəng idi. Tiflis zadəgan teatrında həvəskar azərbaycanlı aktyorlar da tez-tez tamaşalar verirdilər. Bu zaman Tiflisdə bir neçə Azərbaycan teatr truppası fəaliyyət göstərirdi. Bunlardan mühümləri Mirzə Əli Abbasovun rəhbərlik etdiyi "Dram cəmiyyəti" və Həbib bəy Köçərlinskinin başçılıq etdiyi "Səadət" truppası idi.

1906-cı ildən səhnə fəaliyyətinə başlayan Göyərçin xanım hər iki truppanın tamaşalarında uğurla çıxış etmişdir. İlk qadın aktyorumuzun Tiflis zədəgan teatrında iştirak etdiyi ilk tamaşa Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi idi. 1910-cu il oktyabrın 9-da verilmiş bu tamaşa böyük müvəffəqiyyətlə keçmişdi. Yenə həmin il oktyabrın 30-da "Səadət" dram dəstəsi Şəmsəddin Saminin "Gaveyi-ahəngər" pyesini tamaşaya qoymuşdu. Tamaşada Gavə rolunda Sultanov, Fərhad rolunda Mir Seyfəddin Kirmanşahlı, Xubçöhr rolunda Göyərçin xanım çıxış edirdilər.

Göyərçin xanımın şöhrəti tez bir zamanda bütün Zaqafqaziyaya yayıldı. Bakı qəzetləri ona məqalələr həsr etdi. "Nicat" cəmiyyəti onu Bakıya çağırdı.

Göyərçin xanımın repertuarı geniş və əhatəli idi. O, Henrix Heynenin "Əlmənsur", Loxmanovanın "Napoleonun vəfatı", Namiq Kamalın "Qara bəla" əsərləri ilə yanaşı, Azərbaycan dramaturqlarının tamaşalarında da oynamışdır. Azərbaycanlı qızı N.Nərimanovun "Nadir şah" pyesində Gülcahan, Ə.Haqverdiyevin "Pəri Cadu" tamaşasında Hafizə, "Bəxtsiz cavan" faciəsində Mehri xanım, Z.Hacıbəyovun "Evliykən subay" əsərində Pərizad rollarını sənətkarlıqla yaratmışdır.

Ü.Hacıbəyovun "O olmasın, bu olsun" tamaşasında Gülnaz, "Leyli və Məcnun"da Leyli rollarının ifaçısı olan Göyərçin xanım bu obrazları səhnədə özünəməxsus tərzdə canlandıra bilmişdir.

1911-ci il mayın 26-da və 30-da Tiflisdə Göyərçin xanımın benefisi keçirildi. Bu gecədə ilk dəfə Zülfüqar Hacıbəyovun "On bir yaşlı arvad" pyesi göstərilmişdi. Lakin azərbaycanlı qadının səhnəyə çıxması nadan, cahil adamları narahat edirdi. Odur ki, cahillər və din xadimləri müsəlman qadının səhnəyə çıxması əleyhinə müxtəlif fitnələr törədirdilər.

Göyərçin xanım Azərbaycan səhnəsinin bir çox görkəmli aktyorları - Hüsyen Ərəblinski, Mirzağa Əliyev, Hüseynqulu Sarabski, Mir Seyfəddin Kirmanşahlı və başqaları ilə birgə çıxış etmişdir. Onun Mirzəağa Əliyevlə əməkdaşlığı ilk dəfə Tiflisdə "Əlli yaşında cavan" tamaşasında olmuşdur. İrəvanda onlar daha böyük müvəffəqiyyət əldə etmişdilər.

Mirzağa Əliyevlə Göyərçin xanımın sənət dostluğu sonralar məhəbbətə çevrildi. 1912-ci ilin mayında onlar evlənib Bakıya köçdülər. Çar hökuməti orqanlarının fitnəkarlığı nəticəsində Mirzağa Əliyev həmin il Həştərxana sürgün olundu. Göyərçin xanım isə 1913-cü ildə Polşaya getdi və Varşavada "Müqəddəs Sofiya" tibb məktəbinə daxil oldu, 1915-ci ildə mamalıq üzrə bu təhsil müəssisəsinin bitirib

Bakıya qayıtdı. 1915-ci ildə "Bəsirət" qəzeti akuşerka Gövhər xanım Əliyevanın peşə fəaliyyətinə başlaması haqqında bir elan da vermişdi.

Mirzağa Əliyevlə Göyərçin xanımın tale yolları ayrıldığı üçün onlar boşanmışdılar. Qəribədir ki, evlənəndən sonra M.Əliyev həyat yoldaşının səhnədə çıxış etməsinə icazə verməmişdir. Reallıq budur ki, Göyərçin xanım ərə gedəndən (bu, onun ikinci nikahı idi və birinci ərindən onun İsmayıl adlı oğlu vardı) sonra səhnəyə çıxmamışdır.

1937-ci ildə Göyərçin xanım artıq daimi yaşadığı İrandan bir neçə günlüyə Bakıya gəlir. Keçmiş səhnə yoldaşları teatrda onun şərəfinə qəbul düzəldirlər. Keçmiş aktrisa C.Cabbarlının "Almas" pyesinin tamaşasına baxır. Tamaşa və qəbul günü qeyri-adi hadisə baş verir. Göyərçin xanım on beş ildən bəri itirdiyi oğlu İsmayılı tapir. Qəfil sevincdən özünü itirmiş qadın hamıya hədiyyə paylayırmış.

Göyərçin xanım İrana görkəmli aktyor və rejissor Mirseyfəddin Kirmanşahlının təhriki ilə getmişdir.

1960-cı ildə Cənubi Azərbaycanda vəfat etmiş Gövhərin – Göyərçin xanımın Azərbaycan teatrının salnaməsinə ilk qaranquş kimi düşməsi təbiidir.

## Qara Qarayev
(1918-1982)

Qara Əbülfəz oğlu Qarayev 1918-ci ildə Bakıda doğulmuşdur. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, professor, Azərbaycan EA-nın akademiki, Lenin və SSRİ Dövlət mükafatları laureatı, 1935-38-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. 1938 ildən təhsilini Moskva konservatoriyasında davam etdirərək, 1946 ildə konservatoriyanı bitirmiş (D. Şostakoviçin bəstəkarlıq sinfini) və həmin ildən ADK-da dərs demişdir. Azərbaycan EA-nın akademiki (1959), SSRİ Dövlət (1946, 1948), və Lenin (1967) mükafatları laureatı.



Ən yaxşı ifadə vasitələrilə dünya musiqisinin ən gözəl nümunələrini Azərbaycan musiqisinə tətbiq etməklə onun inkişafını sürətləndirmək Q. Qarayev yaradıcılığının xarakterik cəhətlərindəndir. Onun musiqisi ekspressiv və melodik olmaqla dərin məna daşıyır. Q. Qarayevin musiqisində dərin lirika, tragik pafos, epik əhatəlilik və incə psixologiya bir-birinə toxunmuş şəkildə vəhdət təşkil edir. Bəstəkarın ən yaxşı əsəri "Yeddi gözəl" baletidir. Nizaminin humanist obrazları burada yüksək bədiiliklə öz əksini tapmışdır. Bu baletdə xalq musiqisi yaradıcı şəkildə sərbəst işlənmişdir. "Yeddi gözəl" dünya musiqili-xoreoqrafiya incəsənətinin ən böyük nailiyyətidir. Bu balet dünyanın bir çox ölkələrinin teatr səhnələrində oynanılmışdır. Q. Qarayevin "İldırımlı yollarla" baletində zənci musiqi folkloru böyük ustalıqla işlənmişdir. Q. Qarayev "Leyli və Məcnun" simfonik poemasında musiqi ilə ali Nizami poeziyasının bütün incəliklərini əks etdirməyə nail ola bilmişdir. 3-cü simfoniya da öz dəyərinə görə xeyli əhəmiyyətlidir. Burada insan şəxsiyyətinin formalaşması, onun həyata münasibətləri problemləri qoyulmuşdur. O "Könül mahnısı" kantatası, "Dostluq himni" kantatası kimi iri həcmli böyük vokal-simfonik əsərlərin müəllifidir. Q. Qarayev C. Hacıyevlə birlikdə "Vətən" operasına, "Ələkeçməz Qaskonlu" müziklinə və bir çox dramatik səhnə əsərlərinə, bədii filmlərə musiqi bəstələmişdir. O, həm də bir sıra başqa musiqi əsərlərinin müəllifidir.

Qara Əbülfəz oğlu Qarayev 1953-82-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi, 1962-82-ci illərdə SSRİ Bəstəkarlar İttifaqının katibi olmuşdur. 1946-82-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında dərs demiş, 1949-53-cü illərdə bu Konservatoriyanın rektoru olmuşdur. O, dəfələrlə Azərbaycan və SSRİ Ali sovetlərinə deputat seçilmişdir. Bir sıra orden və medallarla təltif olunmuş, 1982-ci ildə Moskvada vəfat etmiş, Bakıda dəfn olunmuşdur.

**Xuraman Qasımova**
(1951)

Xuraman Əkrəm qızı Qasımova 1975-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Azərbaycanın xalq artisti, Azərbaycan Dövlət mükafatı laureatıdır.



X. Qasımova səhnə fəaliyyətinə 1976-cı ildən Azərbaycan Opera və Balet Teatrının solisti kimi başlamışdır. Onun güclü səsi qısa bir müddətdə tamaşaçıların və teatr ictimaiyyətinin diqqətini cəlb etdi. F. Əmirovun "Sevil"ində Sevil və Dilbər, Ü. Hacıbəyovun "Koroğlu"sunda Nigar, D. Puççininin "Bohema"sında Timi və Muzetta, C. Verdinin "Otello" və "Aida"sında Dezdemona və Aida partiyaları yaradıcılığının əsasını təşkil edir. X. Qasımova vokalistlərin bir sıra beynəlxalq müsabiqələrinin qalibi, 1981-ci ildə Afinada keçirilən festivalın “Qran Pri” və Qızıl medalının laureatıdır. Bakı kinostudiyalarında filmə çəkilmişdir.

Xuraman Əkrəm qızı Qasımova dünyanın bir sıra ölkələrində böyük uğurla konsertlər verir, Azərbaycan Dövlət Konservatoriyasında dərs deyir.

## Fidan Qasımova
(1947)

Fidan Əkrəm qızı Qasımova ilk müğənnidir ki, Azərbaycan vokal məktəbini beynəlxalq səviyyəyə qaldırmış və xarici ölkələrdə keçirilən bir çox nüfuzlu vokal müsabiqələrinin qalibi olmuşdur. Hələ tələbəlik illərində o, Cenevrədə (İsveçrə) keçirilən I beynəlxalq müsabiqəsində gümüş medala layıq görülmüş və Niderlandda keçirilən müsabiqədə II yerə çıxmışdır. Onun ən böyük qələbəsi 1977-ci ildə İtaliyada Vietti adına beynəlxalq vokalçılar müsabiqəsinin I mükafatına layiq görülməsi oldu.



1976-cı ildə F. Qasımovanı Azərbaycan Opera Teatrına solist dəvət edirlər. Teatrın işləri ilə bərabər o, pedaqoji fəaliyyətlə də məşğul olur. F. Qasımova xarici ölkələrə çoxlu qastrol səfərləri edərək Azərbaycan mədəniyyəti və incəsənətini təbliğ edir. F. Qasımova Azərbaycanın xalq artisti və SSRİ xalq artisti, eləcə də Respublika Dövlət mükafatı laureatı adına layıq görülmüşdür. 1997-ci ildə o, Azərbaycan Respublikasının «Şöhrət Ordeni» ilə təltif olunmuşdur.

## Tofiq Quliyev
(1917-2000)

Tofiq Ələkbər oğlu Quliyev 1917-ci ildə Bakıda doğulmuşdur. Azərbaycanın xalq artisti. 1934-36-cı illərdə Azərbaycan Dövlət Konservatoriyasında oxumuşdur. 1951-54-cü illərdə Moskva Konservatoriyasının bəstəkarlıq şöbəsində və dirijorluq şöbəsində oxumuş, aspiranturada təhsil almışdır.



1954-58-ci ildə T. Ə. Quliyev Azərbaycan Dövlət Konservatoriyasında orkestr sinfini və eyni zamanda "Azərbaycanfilm" Kinostudiyasında musiqi redaktoru olmuşdur. 1961-64-cü illərdə Azərbaycan Dövlət Filarmoniyasının direktoru olmuşdur. T. Quliyevin musiqisində Azərbaycan milli musiqisinin xarakterik cəhətləri əks olunmuşdur. O, bir sıra musiqili komediyaların - "Sabahın xeyr, Ella", "Aktrisa", "Qızılaxtaranlar" komediyalarının müəllifidir. T. Quliyev tez-tez əmək, gənclik və məhəbbət mövzularına müraciət etmişdir - "Azərbaycan", "Bahar", "Sevimli", "Qızıl yarpaq" əsərləri böyük müvəffəqiyyət qazanmışdır. O, teatr tamaşalarına, bədii filmlərə musiqi bəstələmiş, bir sıra başqa musiqi əsərləri üzərində işləmişdir.

Tofiq Quliyev Azərbaycan Ali Sovetinə deputat seçilmiş, Azərbaycan Bəstəkarlar İttifaqının katibi olmuş, orden və medallarla mükafatlandırılmışdır.

Tofiq Quliyev 2000-ci ildə Bakıda vəfat etmişdir.

Tofiq Quliyevin oğlu 1941-ci ildə doğulmuş, Eldar Tofiq oğlu Quliyev tanınmış kinorejissor, Azərbaycanın xalq artisti, SSRİ Dövlət mükafatı laureatıdır.

**Əbdülmüslüm Maqomayev**
(1885-1942)

Əbdülmüslüm Məhəmməd oğlu Maqomayev 1885-ci ildə Qroznıda Azərbaycanın Qax rayonundan köçmüş dəmirçi ailəsində anadan olmuşdur. Bəstəkar, dirijor, Azərbaycanın əməkdar incəsənət xadimi. 1904-cü ildə Qori Müəllimlər Seminariyasını bitirmişdir.



M. Maqomayev Şimali Qafqazda, Lənkəranda və Bakıda müəllimlik etmişdir. 1911-ci ildən Azərbaycan musiqili teatrının yaradılmasında fəal iştirak etmişdir. Üzeyir, Zülfüqar və Ceyhun Hacıbəyov qardaşlarının truppasında skripkaçı, sonra dirijor olmuşdur. M. Maqomayev də Ü. Hacıbəyov kimi xalq musiqi incəsənətini klassik musiqi ilə sintez etməyə səy etmişdir. M. Maqomayevin bəstəkarlıq stilinin formalaşmasında xalq musiqi folklorunu toplamasının və yazdırmasının əhəmiyyətli rolu olmuşdur. O, Üzeyir Hacıbəyovla birgə 300-ə qədər xalq musiqi nümunəsini toplayaraq nota almış və ilk xalq musiqisi toplusunu nəşr etdirmişdir. M. Maqomayev 1916-cı ildə tarixi əfsanələrə uyğun, musiqi əsasını muğamlar təşkil edən "Şah İsmayıl" operasını yaratdı. Xalq mahnıları üstündə qurulmuş "Nərgiz" operası çox əhəmiyyətlidir. M. Maqomayev orkestr üçün "Dərviş" fantaziyası, "Azərbaycan çölləri" simfonik pyesi və bir sıra başqa musiqi əsərlərinin müəllifidir. Onun "Cənab Xoruz" musiqili komediyası yarımçıq qalmışdır. O, bir sıra filmlərə və dramatik səhnə əsərlərinə musiqi bəstələmişdir. M. Maqomayev bir müddət Bakı radio qovşağında musiqi redaksiyasına rəhbərlik etmişdir. Azərbaycan Opera Və Balet Teatrının dirijoru, bədii rəhbəri, baş rejissoru və direktoru olmuşdur.

O, 1937-ci ildə Nalçikdə vəfat etmiş, Bakıda dəfn olunmuşdur. Azərbaycan Dövlət Filarmoniyası və Bakı küçələrindən biri onun adını daşıyır.

M. Maqomayevin nəvəsi 1942-ci ildə doğulmuş Müslüm Məhəmməd oğlu Maqomayev tanınmış müğənni, bəstəkar və rəssamdır.

**Müslüm Maqomayev**
(1942-2008)

Müslüm Məhəmməd oğlu Maqomayev 1942-ci ildə Bakıda doğulmuşdur. Müğənni (bariton), bəstəkar, rəssam. SSRİ xalq artisti. Bəstəkar Maqomayev Əbdülmüslüm Məhəmməd oğlunun nəvəsidir.



1963-cü ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. 1964-65-ci illərdə Milanın "La-Skala" teatrında sənətkarlığını artırmışdır. 1968-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir.

M. Maqomayev yüksək temperamentli, yumşaq templi, gözəl ahəngli böyük səsə malikdir. Onun ifaçılığı özünün ekspressivliyi və ruh yüksəkliyi ilə fərqlənir. O, Ü. Hacıbəyovun "Koroğlu", M. Maqomayevin "Şah İsmayıl", S. Raxmaninovun "Aleko", Qara Qarayevin və C. Hacıyevin "Vətən" operalarında böyük müvəffəqiyyətlə oxumuşdur. 70-80-ci illərdəki SSRİ-də, həm də başqa ölkələrdə böyük təmtəraqla qarşılanan estrada müğənnisi olmuşdur. Böyük konsert zallarında və stadionlarda onun konsertinə minlərlə tamaşaçı toplaşırdı. 1975-ci ildə M. Maqomayev yaratdığı və rəhbərlik etdiyi Azərbaycan Dövlət Simfonik-Estrada Orkestri ilə qastrollarda solist kimi çıxış etmişdir. O, dünyanın bir sıra ölkələrində - Bolqarıstan, Almaniya, İran, Kanada, Rusiya, Finlandiya, Fransa, Polşa, Türkiyə və başqa ölkələrdə müvəffəqiyyətlə oxumuşdur. M. Maqomayevin repertuarı "Koroğlu", "Sehrli tütək", "Şah İsmayıl", "Yevgeni Onegin", "Fiqaronun toyu", "Riqoletto", "Sevilya bərbəri", "Otello", "Faust" operaları, P. İ. Çaykovskinin, S. V. Raxmaninovun romansları, A. Paxmutova, T. Xrennikov, P. Bülbüloğlunun və özünün bəstələdiyi neopolitan mahnıları ilə zəngindir. M. Maqomayevin ifasında Ü. Hacıbəyovun, Nizaminin sözlərinə bəstələdiyi "Sənsiz" və "Sevgili canan" romansları təntənəli səslənir.

M. Maqomayev bir sıra mahnı müsabiqələrinin iştirakçısıdır. 1969-cu ildə Polşanın Sopot şəhərində keçirilən beynəlxalq festivalda birinci mükafatı almışdır. Festivalın münsiflər heyətinin üzvlərindən biri demişdi: Müslümün özünə tay rəqibindən başqa hər şeyi var. Elə o ildə M. Maqomayevi Fransada mexaniki yazı üçün oxuduğu mahnılara görə "Qızıl val" mükafatına layiq görülmüşdü. O, Polşanın Zelene-Qur şəhərində birinci mükafata layiq görülmüş "Mavi əbədilik" və bir sıra başqa mahnıların müəllifidir. "Nizami" filmində baş rolda çəkilmiş və haqqında "Oxuyur Müslüm Maqomayev" filmi çəkilmişdir.

Müslüm Maqomayev bir sıra orden və medallarla təltif olunmuşdur. 2008-ci ildə Moskva şəhərində vəfat etmişdir, cənazəsi Bakıya gətirilərək I Fəxri Xiyabanda dəfn edilmişdir.

## Əcəmi Naxçıvani
(XII əsrin 20-ci illəri – XII əsrin sonu)

Əcəmi Əbubəkr oğlu Naxçıvani – Azərbaycanın görkəmli memarı, Naxçıvan memarlıq məktəbinin banisi. Əcəmi orta əsr Azərbaycan memarlığına yeni istiqamət vermiş, özünün sənət dühası ilə Səlcuqilər dövrü memarlığının bir qədər ağır və sərt üslubuna böyük incəlik və dinamiklik gətirmiş, Yaxın Şərq memarlığına güclü təsir göstərmişdir Şərqin böyük dühaları ona "Şeyxül-mühəndis" (mühəndislərin başçısı) fəxri adı vermişdilər.



Əcəminin yaradıcılığı XII əsrdə qüdrətli Azərbaycan Atabəyləri dövlətinin paytaxtı Naxçıvanla bağlı olmuşdur. Əcəminin yaratdığı ilk məlum abidə Yusif ibn Küseyir türbəsidir. Naxçıvan şəhərinin mərkəzində yerləşən və el arasında "Atababa günbəzi" adı ilə tanınan bu türbə 1162-ci ildə tikilmişdir. Abidənin giriş qapısından soldakı kitabədə memarın adı yazılmışdır: "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməli". Təkcə Azərbaycanda deyil, islam aləmində ən hündür və incə kompozisiyalı türbələrindən sayılan Mömünə xatun türbəsini Əcəmi 1186-cı ildə Naxçıvanın qərb hissəsində ucaltmışdır. El yaddaşında "Atabəy günbəzi" adı ilə qalan bu türbə Atabəy Şəmsəddin Eldənizin arvadı, Məhəmməd Cahan Pəhləvanın anası Mömünə xatunun şərəfinə tikilmişdir. Əcəmi yaradıcılığı Azərbaycan və Yaxın Şərq ölkələri memarlığına böyük təsir göstərmişdir - Marağadakı Göy günbəz (1196), Naxçıvan yaxınlığındakı Gülüstan türbəsi (XIII əsr), Qarabağlar türbəsi (XII-XIV əsrlər), Bərdə və Səlma türbələri (XIV əsr), türk memarı Sinanın (XVI əsr) İstanbulda tikdiyi türbələrdə Əcəmi ənənələri yaşayır. 1926-ci ildə Gəncədə Nizaminin məzarı üstündə abidə qoyularkən Əcəmi irsindən istifadə edilmiş, Nizami türbəsi Əcəmi dühası ruhunda tikilmişdir.

H. İbrahimovun "Əsrin onda biri" romanı, Kəmalənin "O bizim dağların oğlu idi" pyesi Əcəmiyə həsr edilmişdir. 1976-cı ildə anadan olmasının 850 illiyi geniş qeyd olunmuşdur. Naxçıvan şəhərində Əcəmi Naxçıvanskinin büstü ucaldılmışdır.

Bakıda Əcəmi Əbubəkr oğlu Naxçıvaninin şərəfinə Bakı metropoliteninin stansiyalarından biri "Memar Əcəmi" adlandırılmışdır.

**Arif Məlikov**
(1933-2019)

Arif Cahangir oğlu Məlikov 1933-cü ildə Bakıda doğulmuşdur. Bəstəkar, SSRİ və Azərbaycan xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, professor, 1958-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında Q. Qarayevin sinfini bitirmişdir.



Arif Məlikov müxtəlif janrlarda yazılmış musiqi əsərlərinin - "Məhəbbət əfsanəsi", "İki qəlbin poeması", "Bu yerdə iki nəfər" baletlərinin, "Dalğalar" operettasının, vokal simfonik əsərlərin, simfoniyaların müəllifi olmaqla, kinofilmlərə və teatr səhnə əsərlərinə musiqi bəstələmiş və bir sıra başqa musiqi əsərləri yazmışdır. "Məhəbbət əfsanəsi" baleti A. Məlikova dünya şöhrəti gətirmişdir. Bu əsər dünyanın bir sıra ölkələrinin teatr səhnələrində, habelə Moskvanın Böyük Teatrında dəfələrlə oynanılmışdır. A. Məlikov 1958-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında dərs deyir.

Arif Məlikov dəfələrlə SSRİ Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

Arif Məlikovun əsərləri dünyanın bir çox ölkələrində - Rusiya, ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya, Türkiyə, Braziliya, Avstriya, Norveç, Finlandiya, İtaliya, Misir, Tailand, Yuqoslaviya, Bolqarıstan, Ruminya, Macarıstan, Çexiya, Slovakiya, Polşa, Almaniya, Özbəkistan, Qazaxıstan, Moldova, Ukrayna və Gürcüstanda ifa olunmuşdur.

Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə 13 sentyabr 2013-cü ildə "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir.

Arif Məlikov 9 may 2019-cu ildə 85 yaşında vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur.

## Tokay Məmmədov
(1927-2018)



Tokay Həbib oğlu Məmmədov 1927-ci ildə Bakıda doğulmuşdur.

Anası Zivər Məmmədova Azərbaycanın ilk qadın heykəltəraşı olub.

Əməkdar incəsənət xadimi, Azərbaycanın xalq rəssamı, SSRİ rəssamlıq akademiyasının müxbir üzvü, professor, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. 1951-ci ildə Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunu bitirmişdir.

T. Məmmədovun yaradıcılığı üçün həyat həqiqətləri ilə seçilən emosionallıq, mürəkkəb psixoloji hallar əsl milli əlamətlərin ehtivası xarakterikdir. Özlərinin yaradıcılıq dəsti xətti, və yaradıcılıq dünyası müxtəlif olan şairlər Nizami, Sabir, Səməd Vurğun, bəstəkar Üzeyir Hacıbəyov, dirijor Niyazi kimi Azərbaycan ədəbiyyat və incəsənət xadimlərinin portretlərini yaratmaq ona müyəssər olmuşdur. Leninqrad institutunda eyni kursda oxuduğu Ö. Eldarovla və memar H. Muxtarovla birgə yaratdıqları Azərbaycanın XVI əsr dahi şairi Füzulinin monumenti xüsusilə nəzərə çarpandır. Abidənin yaradıcıları şairin yaşadığı dövrü, şəxsi həyatının və mənəvi ruhi dünyasının ayrı-ayrı cizgilərini əks etdirən birləşmiş məcmusunu ümumi vəhdət şəklində çox ustalıqla əks etdirə bilmişlər. Bu elə bir dərin xəlqi və milli özünəməxsus abidədir ki, burada obrazların tipik xarakterləri ictimai ideal səviyyəsinə qaldırılmışdır.

Azərbaycan heykəltəraşlığında ağac materialdan ilk dəfə olaraq T.Məmmədov istifadə edib. Ağacın növlərini və onların keyfiyyətlərini dəqiqliklə öyrənən gənc sənətkar bu material əsasında bir çox insan simalarını canlandırır.

Heykəltəraşın yaratdığı portretlər qalereyasında, həmçinin mərmər, tunc, gips materiallardan yüzlərlə portret mövcuddur ki, bu cür materiallarda sənətkar birinci növbədə xarici görünüşlə yanaşı, daxili psixoloji keyfiyyətləri də göstərməyə müvəffəq olub. Bu qəbilədən onun Azərbaycanda opera janrının əsasını qoymuş, musiqiçi alim "Üzeyir Hacıbəyov", xalq rəssamı "Rüstəm Mustafayev", qadın rəssamımız "Vəcihə Səmədova", yazıçı "Süleyman Rəhimov", polyak bəstəkarı "F.Şopen" və Avstriya bəstəkarı "V.A.Motsart" kimi dahilərin büst portretlərini qeyd etmək olar.

T.Məmmədov bir neçə qəbirüstü abidənin də müəllifidir. O, 1956-ci ildə Şuşa şəhərində musiqiçi alim, xəttat və rəssam Mir Möhsün Nəvvabın qəbirüstü abidəsini düzəldib. Heykəltəraş Azərbaycanın ilk professional vokal sənətinin banisi Bülbülün də qəbirüstü abidəsini yaradıb.

T.Məmmədov Bakıda Məhəmməd Füzuli, Nəsimi, Üzeyir Hacıbəyov və Koroğlunun heykəllərinin müəllifidir.

Tokay Məmmədov yaratdığı işlərə görə 1978-ci ildə SSRİ Dövlət Mükafatı, 1982-ci ildə isə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülüb. O, həmçinin "Şərəf nişanı", "Xalqlar dostluğu", "Şöhrət" ordenləri ilə təltif olunub. Heykəltəraş, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında yetişən gənc heykəltəraşlara dərs demişdir.

O, 1970-1972-ci illərdə Azərbaycan Rəssamlar İttifaqına rəhbərlik etmişdir.

2018-ci il mayın 2-də Bakıda vəfat etmişdir. II Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Şövkət Məmmədova**
(1897-1981)

Şövkət Həsən qızı Məmmədova 1897-ci ildə Tiflisdə doğulmuşdur. Müğənni (lirik-soprano), SSRİ xalq artisti. 1910-cu ildə Tiflis Musiqi Məktəbini bitirdikdən sonra Hacı Zeynalabdin Tağıyevin sponsorluğu ilə təhsilini Milanda davam etdirmişdir. 1919-21-ci illərdə Kiyev Konservatoriyasında təhsil almış, 1927-29-cu illərdə vokal professional təhsilini Milanda və Parisdə təkmilləşdirmişdir.



Ş. H. Məmmədova yumşaq, ılıq tembrli səsə malik yüksək professional səviyyəli müğənni olmuşdur. O, dünya vokal incəsənətinin ən yaxşı ənənələri və nümunələrini Azərbaycan səhnəsinə gətirmişdir. 1921-ci ildə Verdinin "Traviata" əsərindən Violettanın partiyasını Azərbaycan Dövlət Opera və Balet teatrının səhnəsində ifa etmişdir. Burada O, Ü. Hacıbəyovun "Arşın mal alan" operasında Gülçöhrənin, M. Maqomayevin "Şah İsmayıl"ında Gülzarın, Qliyerin "Şahsənəm" operasında Şahsənəmi, Rossinin "Sevilya bərbəri"ndə Rozannanı, Qlinkanın "İvan Susanin"ində Antonidanı və bir sıra başqa operalardan partiyaları, yüksək professionallıqla ifa etmişdir. O, dəfələrlə Kiyev, Moskva, Leninqrad, Odessa, Tbilisi, Təbriz, Paris və başqa şəhərlərdə konsert proqramları ilə çıxış etmişdir. Ş. Məmmədova ilk Azərbaycan Teatr Texnikumunun və not nəşriyyatının yaradıcısıdır. 1945-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında dərs demişdir. 1949-cu ildən bu konservatoriyanın professoru olmuşdur.

Şövkət Həsən qızı Məmmədova dəfələrlə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1981-ci ildə Bakıda vəfat etmişdir.

## Mirzə Qədim İrəvani
(1825-1875)

Mirzə Qədim İrəvani 1825-ci ildə qədim Azərbaycan şəhəri İrəvanda anadan olmuşdur.

XIX əsrin 50-ci illərində baxımsızlıq üzündən yarasız hala düşən, nəmişlikdən divar rəsmləri korlanan, karniz və tavanın güzgüləri qopub tökülən İrəvandakı Xan sarayında qismən də olsa bərpa işləri aparılmışdır. Bərpa işlərini Azərbaycan dəzgah boyakarlığının banisi Mirzə Qədim İrəvani həyata keçirmişdir. Xüsusi rəssamlıq təhsili almayan M.Q.İrəvani bu sənəti bədii oyma ustası olan atasından öyrənmişdi. Yaradıcılığının ilk dövrlərində dekorativ sənətlə məşğul olmuş, bir sıra portretlər – «Süvari», «Rəqqasə», «Dərviş» (Azərbaycan İncəsənət Muzeyi) və s. yaratmışdır. İrəvan sərdarının sarayındakı pannoları və süjetli kompozisiyaları bərpa etmiş, sarayın güzgülü zalında yağlı boya ilə bir neçə monumental portret (Fətəli şah, Abbas Mirzə və s.) çəkmişdir. Onun 1860-70-ci illərdə yaratdığı «Vəcihulla Mirzə», «Mola», «Ayaq üstə dayanmış qadın», «Oturmuş qadın», «Gənc oğlan» rəsmləri Azərbaycan İncəsənət Muzeyində, «Şah Tələt» Gürcüstan Dövlət İncəsənət Muzeyində, «Çiçəklər və quşlar» Sankt-Peterburqda Ermitajda saxlanılır.

Sarayın bərpadan əvvəlki və sonrakı tərtibatına aid əyani materialın müqayisəli təhlili göstərir ki, divar rəsmlərinin ancaq bir hissəsi portretlər və dekorativ pannolar bərpa edilibmiş. Ov, döyüş və məhəbbət səhnələrini bərpa etmək mümkün olmadığından, onların yerində yeni ornamental-dekorativ pannolar çəkilibmiş. Portretləri bərpa edərkən M.Q.İrəvani işə mexaniki yanaşmamış, yeni texniki vasitələrlə, əvvəlkilərdən fərqlənən yeni əsərlər yaratmışdır. Böyük ölçülü kətan üzərində yağlı boyalarla işlənilib sonradan divara yapışdırılmış bu əsərlər, əslində realist monumental boyakarlığın ilkin nümunələri idi. Məhz buna görədir ki, bu əsərlər yüksək qiymətləndirilir və «Asiya boyakarlığının ən yüksək nümunəsi» hesab edilir.

Özlərini dünyanın mədəni xalqı kimi qələmə verməyə çalışan ermənilər şərqin nadir sənət incisi olan sərdar sarayını da 1918-ci ildə yerlə-yeksan etmişlər.

Mirzə Qədim İrəvani 1875-ci ildə vəfat etmişdir.

## Fatma Muxtarova
(1893-1972)

Fatma Səttar qızı Muxtarova 1893-cü ildə Cənubi Azərbaycanın Urmiya şəhərində doğulmuşdur.



Müğənni (metso-soprano) Azərbaycanın xalq artisti, Gürcüstanın əməkdar artisti.

F. Muxtarova uşaq vaxtında ailəsilə birgə Rusiyaya köçmüşdür. Əvvəlcə Rostovda, sonra isə Peterburqda yaşamışdır. Atasını tez itirən Fatma ailəni saxlamalı olmuşdur. Səyyar artistlərlə Katya adı ilə Rusiyanı dolaşmış, şarmanka və qarmoşkanın müşayiəti ilə oxuyub rəqs etmişdir. Saratov şəhərində yerli qəzetin – "Saratovski vedemosti" qəzetinin redaktoru Arxangelskinin diqqətini cəlb etmiş, o da neft maqnatı M. Muxtarovdan bu istedadlı yetim həmyerlisinə musiqi təhsili almaqda kömək etməyi ondan xahiş etmişdi. Çox səxavətlə xeyriyyə işlərilə məşğul olan M. Muxtarov nəinki qızı müdafiə etdi, hətta arvadı ilə məsləhətləşərək onu qızlığa götürərək öz familiyasını ona verdi. Professor M. Y. Medvedyevin köməyilə F. Muxtarovanı Saratov Konservatoriyasına düzəltdi. 1914-cü ildə o, buranı bitirdi. Tezliklə F. Muxtarova böyük rus müğənnisi F. İ. Şalyapinə təqdim olundu. Böyük müğənni qızın içindən gələn güclü məlahətli və gözəl səsindən, yüksək bədii temperamentindən, ifa tərzindən riqqətə gələrək onu S. İ. Zimin adına Moskva opera teatrına düzəltdi. O, burada üç il işlədi.

1917-38-ci illərdə F. Muxtarova Kazan, Kiyev, Leninqrad, Odessa, Xarkov və Tiflisin opera səhnələrində oxudu. 1938-ci ildə Bakıya gəldi. 1938-53-cü illərdə burada o, Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində oxudu. Onun əsas partiyaları M. Musorqskinin "Xovanşina" və "Boris Qodunov" əsərlərində Marfa, Mnişik, N. Rimski-Korsakovun "Çar gəlini"ndə Dəlilə, Ə. Bədəlbəylinin "Nizami"sində Əzri olmuşdur. Yaradıcılığının zirvəsi tamaşaçıları qırx il heyrətə gətirmiş J. Bizenin eyni adlı əsərində Karmenin partiyası olmuşdur.

Fatma Muxtarova F. Şalyapinlə, Lemeşevlə, Bülbüllə oxumuşdur. Ü. Hacıbəyov, L. Sobinov, A. M. Şərifzadə və başqa incəsənət xadimləri onun sənətini yüksək qiymətləndirmişdilər. Sənətşünaslar onun yaradıcılığı haqqında bir neçə monoqrafiya, çoxlu məqalələr yazmışlar. O, orden və medallarla təltif olunmuşdur.

Fatma Səttar qızı Muxtarova 1972-ci ildə Bakıda vəfat etmişdir.

**Rüstəm Mustafayev**
(1910-1940)

Rüstəm Məmməd oğlu Mustafayev 1910-cu ildə Bakıda doğulmuşdur. Teatr rəssamı. 1926-cı ildə Azərbaycan rəssamlıq məktəbini bitirmişdir. Müxtəlif illərdə Bakı satirik və türk fəhlə kəndli teatrında, Azərbaycan Dövlət Dram Teatrında quruluşçu rəssam işləmişdir.



Teatr rəssamlığı sənətinə parlaq səhifələr yazmış R. Mustafayev Azərbaycan teatr dekorasiyası sənətinin banisidir. 30-cu illərdə Azərbaycan teatr sənətinin parlaq yüksəlişi dövründə onun yaradıcılığı daha geniş inkişaf etmişdir. O illərdə böyük estetik zövqlə və bədii pafoslarla səhnəyə qoyulan "1905-ci ildə", "Od gəlini" (C. Cabbarlı), "Ölülər" (C. Məmmədquluzadə), "Şahnamə" (M. Cəlal), "Şeyx Sənan" (H. Cavid) kimi əsərlərə bütün gözəlliyi ilə bədii tərtibat vermişdir. C. Cabbarlının "1905-ci ildə" əsərində R. Mustafayev özünəməxsus şəkildə kostyumlarla dekorasiyaların vəhdətini yarada bilmişdir. "Arşın mal alan", "Leyli və Məcnun", "Koroğlu" (Ü. Hacıbəyov), "Aşıq Qərib" (Z. Hacıbəyov), "Şah İsmayıl" (M. Maqomayev), "Sonalar gölü" (Çaykovski) - Azərbaycan opera və balet teatrının səhnəsində qoyulmuş bu kimi ən yaxşı tamaşalarda dekorasiyalarda və geyimlərdə R. Mustafayevə məxsus əhatəlilik və rəngarənglik öz əksini tapmışdır. "Koroğlu" operasının bədii tərtibatını xüsusilə qeyd etmək lazımdır. Buradakı rəssamlıq dekorasiyalarında kənd mənzərəsinin poetik təzahürü və milli tarixin problemləri öz əksini tapmışdı. Mərdanə sadəlik və bədii obrazların monumentallığı Üzeyir Hacıbəyovun, qəhrəmanlıq musiqisilə harmonik şəkildə vəhdət təşkil edir. 1928-ci ildən o çoxsaylı rəssamlıq sərgilərində iştirak etmişdi. Orden və medallarla təltif olunmuşdu.

Rüstəm Mustafayev 1940-cı ildə Bakıda vəfat etmişdir. Bakıdakı Azərbaycan İncəsənət Muzeyi onun adını daşıyır.

## Vaqif Mustafazadə
(1940-1979)

Vaqif Əziz oğlu Mustafazadə 1940-ci ildə Bakıda doğulmuşdur. Pianoçu-bəstəkar. Azərbaycanın



əməkdar artisti, Azərbaycan Dövlət mükafatı laureatı. 1963-cü ildə A. Zeynallı adına Bakı Musiqi Məktəbini bitirmişdir.

V. Mustafazadə 1965-ci ildə Gürcüstan Dövlət Filarmoniyasında "Qafqaz" adlı caz trio təşkil edərək dörd il ona rəhbərlik edir. 1969-70-ci illərdə Azərbaycan dövlət estrada orkestrində fortepianoda solist olur. 1970-71-ci illərdə respublikada ilk dəfə olaraq "Leyli" qadın vokal-instrumental ansamblı yaradıb ona rəhbərlik edir. 1971-79-cu illərdə "Sevil" və "Muğam" vokal-instrumental ansambllarını yaradır. V. Mustafayev xalq mahnıları və muğamları mövzusunda caz musiqisi əsərləri yaradan istedadlı bəstəkar idi. O, 1966-cı ildə Tallində, 1978-ci ildə Tbilisidə keçirilən ümumittifaq caz musiqisi festivallarının və habelə 1978-ci ildə Monte Karloda keçirilən Beynəlxalq festivalın mükafatının laureatı idi. Çox müvəffəqiyyətlə Avropa, Asiya və Amerikada qastrollarda çıxış edirdi.

Vaqif əziz oğlu Mustafazadə 1979-cu ildə yaradıcılıq enerjisinin çiçəkləndiyi bir dövrdə Daşkənddə vəfat etmiş, Bakıda dəfn olunmuşdur.

Qızı Əzizə XX əsrin tanınmış pianoçusu, caz ustasıdır. Dünyanın bir sıra ölkələrinin tamaşaçıları onun ifasını sevə-sevə dinləyirlər.

## Toğrul Nərimanbəyov
(1930-2013)

Toğrul Fərman oğlu Nərimanbəyov 1930-cu ildə Bakıda doğulmuşdur. Boyakar, monumentalçı və teatr rəssamı. SSRİ və Azərbaycan xalq rəssamı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. 1950-ci ildə Bakı Rəssamlıq Məktəbini, 1955-ci ildə Litva Dövlət İncəsənət İnstitutunu bitirmişdir.



T. Nərimanbəyovun romantik aspektdə işlənmiş tabloları gərgin ritm və ekspressiv əlvanlığı ilə zəngindir. Çılğın ehtiras qaynarlıq, güclü xarakter, emosional yüksəliş əhatəlilik yaradıcılığına xasdır. T. Nərimanbəyovun "Xəzər üzərində şəfəq", "Baltika balıqçıları" tablolarında gənc entuziastların romantik obrazları əks olunmuşdur. "Emalatxanada" "S. Bəhlulzadə", "Mahnı", "Məhsuldarlıq", "Polyaçka", Sevinc" kimi lirik lövhələrində işıqlı həyati anlar əks olunmuşdur. T. Nərimanbəyov əlvan və parlaq boyalardan istifadə edərək çılğın dinamik müasir qəhrəmanlığı canlandırmağa səy edir. Rəssamın ürəkdolusu axtarış formaları və ekspressiyaları Azərbaycan və dünya incəsənətinin ən yaxşı ənənələrinə əsaslanmışdır. T. Nərimanbəyovun "Göyçay bağlarında", "Bahar yarmarkası", "Narlar və armudlar", "Çiçəklər", "Köhnə çinar", "Qız qalası" kimi heyranedici natürmort və peyzajlardan təbii dekorativlik duyumlarıyla təbiət ətri duyulur. Onlara sanki torpağın canlı şirəsi, Abşeronun yandırıcı günəşi, Göyçayın, Zaqatalanın, Lənkəranın təbiətinin çılğın sonsuzluğunun əlvan rəngləri hopmuşdur. T. Nərimanbəyov bir çox teatr səhnələrinin və bayram təntənələrinin, dekorativ səhnə əsərlərinin müəllifidir. Nərimanbəyov Toğrul Fərman oğlu 1952-ci ildən bədii sərgilərin iştirakçısıdır. Kubada, Hindistanda, Polşada, Çexiyada, Slovakiyada, Almaniyada, Fransada, İtaliyada və Moskvada, ABŞ-da dəfələrlə fərdi sərgiləri keçirilmişdir.

Bir sıra orden və medallarla təltif olunmuşdur.

2 iyun 2013-cü ildə Parisdə vəfat etmişdir. Parisin mərkəzində yerləşən Passi qəbiristanlığında dəfn olunmuşdur.

**Niyazi Tağızadə-Hacıbəyov**
(1912-1984)

Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyov 1912-ci ildə Tiflisdə doğulmuşdur. Bəstəkar, dirijor, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, Üzeyir Hacıbəyov və C. Nehru adına Beynəlxalq mükafatların laureatı. Bəstəkar Zülfüqar Hacıbəyovun oğlu, Üzeyir Hacıbəyovun qardaşı oğludur. Ü. Hacıbəyovun onun musiqi tərbiyəsində böyük rolu olmuşdur. 1926-31-ci illərdə Niyazi Moskva Musiqi Texnikumunda və Leninqrad Mərkəzi Texnikumunda təhsil almışdır. 1933-44-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasında məşğul olmuşdur.



XX əsrin 30-cu illərindən yaradıcılığa başlamışdır. Niyazi Azərbaycan musiqi mədəniyyətinin tarixinə milli ənənələrdən ruh alan və onları yaşadan sənətkar kimi daxil olmuşdur. Öz yaradıcılığında Ü. Hacıbəyov yaradıcılığını bir neçə tərəfdən inkişaf etdirmişdir. Dirijor kimi musiqini incəliklərinə kimi duyurdu. Müğənnilərlə yüksək səviyyədə işləməyi və orkestri musiqi duyumu ilə virtuozluqla - məharətlə idarə etməyi bacarırdı. 1938-ci ildə Üzeyir Hacıbəyov adına simfonik orkestrin direktoru, bədii rəhbəri və dirijoru, Azərbaycan opera və balet teatrının baş dirijoru və direktoru olmuşdur. Azərbaycan bəstəkarlarının bir çox əsərləri, Q. Qarayevin "Leyli və Məcnun simfonik poeması", "İldırımlı yollarla" baletindən ikinci süita, F. Əmirovun "Sevil" M. Maqomayevin "Nərgiz", A. Məlikovun "Məhəbbət əfsanəsi" baletləri və s. onun idarəsilə səslənmişdir.

Niyazi Ü. Hacıbəyovun "Koroğlu" operasının Q. Qarayevin "Yeddi gözəl", "İldırımlı yollarla" baletlərinin səhnə quruluşunda iştirak etmişdir. Niyazi Leninqrad opera və balet teatrının baş dirijoru olmuşdur. Burada o, A. Məlikovun "Məhəbbət əfsanəsi" baletini yeni quruluşda, P. Çaykovskinin "Yatmış gözəl" və S. Prokofyevin "Daş çiçək" əsərlərinin dirijoru olmuşdur. Bu baletlərin dirijoru kimi, Parisin "Qrand-Opera", Londonun "Kovent-Qarden" saraylarında dirijorluq etmiş, tamaşaçıları və mətbuatı heyrətdə qoymuşdur. Niyazi Almaniyada, Türkiyədə, İranda ABŞ-da və bir sıra başqa ölkələrdə dirijorluq etmişdir. Nadir sənətkarlıq istedadı ilə planetin milyonlarla tamaşaçısının qəlbini riqqətə gətirmişdir. Niyazi N. Gəncəvinin "Xosrov və Şirin" poemasının və R. Taqorun "Çitra"sının motivlərinə balet, orkestr pyesləri üçün "Konsert valsı", "Zaqatala süitası", "Xatirə", "Arzu", "Mənim Təbrizim", "Ulan Bator gecələri" və bir sıra başqa musiqi əsərləri yazmışdır.

Tağızadə-Hacıbəyov Niyazi Zülfüqar oğlu (Niyazi) dəfələrlə Azərbaycan SSR Ali sovetinə deputat seçilmiş, bir sıra ordenlər, habelə Bolqarıstan və Macarıstanın ordenlərilə təltif olunmuşdur. 1984-cü ildə Bakıda vəfat etmişdir.

## Rasim Ocaqov
(1933-2006)



Rasim Mirqasım oğlu Ocaqov 1933-cü ildə Şəkidə doğulmuşdur. Rejissor, kinooperator, Azərbaycanın xalq artisti, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. 1955-ci ildə ÜİKİ-nin operatorluq kursunu, 1966-cı ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir.

İlk operator işi "Onun böyük ürəyi" filmi olmuşdur (1959). O, operator kimi "Əsl dost", Bizim küçə", "Əsas müsahibə" və başqa filmləri çəkmişdir. R. M. Ocaqovun operator ustalığı, digər Azərbaycan operatorlarından fərqi kamerasının daim kadrdaxili hərəkəti , geniş planda kadra alma və ekspressiyalardır. R. Ocaqov "Qisasçı", "Tütək səsi", "Ad günü", "İstintaq", "Bağlı qapı arxasında", "Park" ("Lenfilm" kinostudiyası ilə birgə) "Başqa həyat", "Qətldən yeddi gün sonra" və başqa filmləri çəkmişdir. R. M. Ocaqov sosial gərginliklərlə zəngin olan filmlərin yaradıcısı və mürəkkəb kolliziyaların tədqiqatçısı kimi özünü tanıtmışdır. Öz əsərlərində o, insanların talelərini açaraq fərdiliklərini və əksliklərini göstərmişdir.

Rasim Mirqasım oğlu Ocaqovun filmləri müxtəlif kinofestivallarda mükafatlara layiq görülmüşdür. "Tütək səsi" dünyanın bir sıra ekranlarında göstərilmişdir.

## Qurban Pirimov
(1880-1965)

Qurban Baxşəli oğlu Pirimov 1880-ci ildə Ağdamın Gülablı kəndində doğulmuşdur. Musiqiçi, tarzən. Azərbaycanın xalq artisti, görkəmli musiqiçi Sadıq Əsəd oğlunun tələbəsi olmuşdur. XIX əsrin sonlarında ifaçılıq etməyə başlamış, 1905-ci ildən xalq müğənnisi Cabbar Qaryağdının üçlüyündə E. Oqannezaşvili ilə birlikdə Zaqafqaziya, Orta Asiya, Kiyev, Moskva və İranda qastrollarda olmuşdur. Q. Pirimov dramatik və musiqili səhnə əsərlərində tarda müşayiət etmişdir.



Üzeyir Hacıbəyovun 1908-ci ildə ilk dəfə tamaşaya qoyulan "Leyli və Məcnun" əsərində Qurban Pirimov məharətlə tarda ifa etmişdir. 1912-ci ildə Varşavada "Sport-rekord" firması Q. Pirimovun ifasını qrammofon valına köçürmüşdür. Tarzənlərdən birinci dəfə Qurban Pirimov səhnəyə müşayiətsiz tək ifada çıxmış və dinləyicilərin qəlbini riqqətə gətirmişdir. Onun ifasını səhnədə dinləyən tamaşaçı və dinləyicilərin heyrətdən gözləri yaşarmışdı. 1920-ci ildən ömrünün sonunadək Q. Pirimov Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. O, Qliyerin "Şahsənəm" operasının tamaşaya qoyulmasında bilavasitə iştirak etmiş, bir sıra gənc tarzən yetişdirmişdir. 1934-cü ildə Tiflisdə keçirilən Zaqafqaziya xalqlarının olimpiadasında birinci yeri tutmuş, 1939-cu ildə Moskvada keçirilmiş musiqiçilərin ümumittifaq baxışının qalibi olmuşdur.

Qurban Pirimov bir sıra orden və medallarla təltif olunmuşdur.

Qurban Baxşəli oğlu Pirimov 1965-ci ildə Bakıda vəfat etmişdir.

**Maral Rəhmanzadə**
(1916-2008)

1916-cı ildə Bakıda doğulmuşdur. Azərbaycanın Xalq rəssamı, respublika Dövlət mükafatı laureatı.



1940-cı ildə Moskva İncəsənət İnstitutunu bitirmişdir.

İstedadlı fırça ustası T. Rəhmanzadə plakatlar yaradır, klassiklərin, və müasir yazıçıların əsərlərinə çəkdiyi illüstrasiyalarda müasir epoxa, zamanın rəngləri, ədəbi əsərin fərdiliyi nəzərə alınmaqla, miniatür elementləri tətbiq edib, qrafik obrazların realist təcəssümünə nail olur. Xətainin "Dəhnamə"sinə, Heyran xanımın lirik qəzəllərinə, "Azərbaycan nağılları"na çəkdiyi illüstrasiyalar xüsusilə dolğun, incə və lakonikdir. T. Rəhmanzadə dəzgah qrafikasının inkişafına böyük töhfələr vermişdir. "Bakı", "Neft", "Bizim Xəzərdə", "Dağ kəndinin anaları", "Araz", "Mənim vətənim", "Azərbaycan, "Naxçıvan gözəli" linoqravüralarında tarixi keçmişimiz və bu günümüz əks olunmaqla, əmək adamlarının obrazları, elmi və lirik peyzajlar, hardasa kənd və şəhər adamlarının məişətinin özünəməxsus fərdiliyi öz əksini tapır. Rəssamın milli ənənələrə sədaqəti onun müasir dünyagörüşü ilə üzvi vəhdət təşkil edir. Seriyalar özünün qrafik məharətli texniki icrası ilə fərqlənir.

Rəhmanzadə Maral Yusif qızı 1940-cı ildən sərgilərin iştirakçısı olmuşdur. Bakıda dəfələrlə fərdi sərgisi açılmışdır.

Əsərləri xarici ölkələrdəki incəsənət sərgilərində (İngiltərə, Fransa, İtaliya, Yaponiya, Avstraliya, Belçika, Suriya, Livan və s.) nümayiş etdirilmişdir.

Əsərləri Tretyakov qalereyası (Moskva), R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və s. muzeylərdə, ABŞ və İngiltərədə şəxsi kolleksiyalarda saxlanılır.

2008-ci il mart ayının 16-da vəfat etmiş və Mərdəkan qəbristanlığında torpağa tapşırılmışdır. M.Rəhmanzadə milli təsviri sənətin inkişafındakı böyük xidmətlərinə görə bir çox orden və medallara, o cümlədən "Şöhrət" ordeninə layiq görülmüşdür.

## Səid Rüstəmov
(1907-1983)

Səid Əli oğlu Rüstəmov 1907-ci ildə İrəvanda doğulmuşdur. Bəstəkar, dirijor, Azərbaycanın xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. 1930-cu ildə Azərbaycan dövlət konservatoriyasının xalq musiqisi



fakültəsini, 1932-ci ildə Azərbaycan pedaqoji institutunu bitirmişdir. 1931-ci ildən S. Rüstəmov Azərbaycan radiosunun xalq çalğı alətləri orkestrinin konsertmeysteri, 1935-ci ildən isə direktoru və bədii rəhbəridir. 1940-49-cu illərdə Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və direktoru. 1943-48-ci illərdə Azərbaycan radio komitəsinin musiqi verilişləri redaksiyasının rəhbəri olmuşdur. S. Rüstəmov "Azərbaycan rəqs melodiyaları"nın, "Beş yüz Azərbaycan xalq mahnıları", "Azərbaycan aşıq mahnıları", "Azərbaycan xalq mahnıları", "Azərbaycan xalq rəngləri" kitablarında musiqi işləmələri apararaq onları nəşr etdirmişdir. 1948-52-ci illərdə Azərbaycan bəstəkarlar ittifaqının sədri olmuş, 1928-ci ildən Bakı musiqi məktəbində, 1958-83-cü illərdə Azərbaycan dövlət konservatoriyasında tar sinfində dərs demişdir. S. Rüstəmovun əsas əsərləri "Beşmanatlıq gəlin", "Durna" və "Rəisin arvadı" komediyaları, solo, xor və orkestr üçün "Azərbaycan" kantatası, xalq çalğı alətləri üçün "Bayatı kürd" fantaziya - kantatası, tar və orkestr üçün konsert, Azərbaycan mahnı, rəqs və xalq çalğı alətləri orkestri üçün "Günəşli Azərbaycan" musiqili dramatik kompozisiya və b. Dramatik səhnə əsərlərinə musiqilər yazmışdır. S. Rüstəmovun "Alagöz", "Sürəyya", "Gəlmədin", "Həkim qız" mahnıları lirik və qəlboxşayandır.

Səid Əli oğlu Rüstəmov dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1983-cü ildə Bakıda vəfat etmişdir.

**Tahir Salahov**
(1928-2021)

Tahir Teymur oğlu Salahov 1928-ci ildə Bakıda doğulmuşdur. Boyakar, qrafik, teatr rəssamı. SSRİ xalq rəssamı, professor. Rusiya Rəssamlıq Akademiyasının akademiki, SSRİ və Azərbaycan dövlət Mükafatları Laureatı, Sosialist Əməyi Qəhrəmanı. 1950-ci ildə Bakı Rəssamlıq Məktəbini 1950-ci ildə V. Surikov adına Moskva Dövlət Rəssamlıq Akademiyasını bitirmişdir. P. D. Pokarjevskinin tələbəsi olmuşdur. 1973-cü ildən SSRİ dağılanadək SSRİ rəssamlıq ittifaqının birinci katibi olmuşdur.



İstedadlı fırça ustası Tahir Salahov Azərbaycan rəssamlıq sənətinin dramatik qəhrəmanlıq xəttinin nümayəndəsidir. Lövhələrinin obrazları vüqarlı və dinamik, qətiyyətli lakonikliyə malik olmaqla, kompozisiya baxımından monumental və əlvan düzümə malikdir. Onun rəsmlərində məna ilə forma kamilliyi vəhdət təşkil edir. T. Salahovun "Romantiklər" kompoziyası genişformatlı kinokadr prinsipinə uyğun əmək mövzusunun poetik ifadəsinin parlaq təzahürüdür. "Abşeron qadınları" kompozisiyasında Azərbaycan qadınının daxili gözəllikləri və ləyaqəti - ana və əməkçi obrazı əks olunmuşdur. "Bəstəkar Qara Qarayevin portreti" əsəri əsl yaradıcılıq yüksəkliyinin kəskin psixoloji xarakterini əks etdirməklə cəzbedicidir. Bu obrazın əks etdirilməsi baxımından intellektin dərinliyini, iti ağlı, fantaziyanın uğuru, bəstəkarın daxili aləmini bütün gözəllikləri ilə əks etdirməklə XX əsrin sonunda Azərbaycan portret sənətinin zirvəsi sayılır. T. Salahovun tematik diapazonu genişdir. O, "Xəzərin üstündə", "Abşeron motivləri" peyzajlarının, C. Cabbarlının "Aydın", Ü. Hacıbəyovun "Koroğlu", V. Şekspirin "Hamlet" və bir sıra başqa səhnə əsərlərinə tərtibat vermiş, İtaliya, Meksika, Rusiya, ABŞ və başqa ölkə xalqlarının həyatını əks etdirən lövhələr çəkmişdir.

Tahir Salahov uzun illər SSRİ Rəssamlıq Akademiyasının prezidenti olmuş, hazırda Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidentidir. Dəfələrlə SSRİ Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev 2008-ci il noyabrın 27-də Tahir Salahova "Heydər Əliyev" ordenini təqdim etmişdir.

8 iyul 2011-ci il tarixində Tahir Salahov Avropa Elm və İncəsənət Akademiyasının incəsənət bölməsi üzrə həqiqi üzvü seçilmişdir.

2012-ci ildə Bakının İçərişəhər Tarixi-Memarlıq Qoruğunun İlyas Əfəndiyev küçəsində ev-muzeyi açılıb. Ev-muzey Tahir Salahovun Azərbaycan dövlətinə bağışladığı özünün rəsm əsərlərindən ibarət kolleksiyası və şəxsi arxivi əsasında yaradılıbdır.

Tahir Salahov 2015-ci ildə Rusiya Federasiyasının "Dostluq" ordeni ilə, 2018-ci ildə isə Azərbaycan Respublikasının 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir.

Tahir Salahov 20 may 2021-ci ildə 92 yaşında Almaniyanın Berlin şəhərində müalicə olunduğu ağciyər iltihabından vəfat etmişdir. Bakıda Fəxri Xiyabanda dəfn olunub.

**Hüseynqulu Sarabski**
(1879-1945)

Hüseynqulu Məlik oğlu Rzayev 1879-cu ildə Bakıda doğulmuşdur. Müğənni (lirik-tenor), rejissor, teatr xadimi, müəllim. Azərbaycanın xalq artisti. Mollaxana təhsili almışdır.



Səhnə fəaliyyətinə 1902-ci ildə N. Nərimanovun "Dilin bəlası" pyesində muğam və xalq mahnılarının ifası ilə başlamışdır. H. Sarabski xalq mahnılarını yüksək ustalıqla ifa etməyi bacarırdı. Onun səsi qəlboxşayan, həzin idi. 1903-cü ildə Sarabski "Nicat" cəmiyyətinin nəzdində M. Maqomayev və Üzeyir, Zülfüqar və Ceyhun Hacıbəyov qardaşlarıyla birgə teatr truppası yaradır. H. Sarabski bu truppanın solisti olur. Burada Ü. Hacıbəyovun "Leyli və Məcnun" operasının ilk səhnə quruluşunda Məcnunun partiyasını ifa edir. H. Sarabski Məcnunun partiyasını axırıncı dəfə 1941-ci ildə Azərbaycan opera və balet teatrında ifa etmişdi. H. Sarabski Azərbaycan səhnəsində Məcnun rolunun bu günə kimi ən yaxşı ifaçısı olmuşdur. H. Sarabski, Ü. Hacıbəyovun "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşudbanu", "Əsli və Kərəm", "Arşın mal alan" əsərlərində Sənan, Rüstəm, Şah Abbas, Kərəm Əsgər, Z. Hacıbəyovun "Aşıq Qərib"ində Qərib, M. Maqomayevin eyniadlı əsərində Şah İsmayıl rollarını yüksək peşəkarlıqla ifa etmişdir. O, C. Hacıbəyovun "Rüstəm və Söhrab", "Ər və arvad", "Arşın mal alan", "Leyli və Məcnun", C. Məmmədquluzadənin "Ölülər" komediyasına səhnə quruluşu vermişdir. H. Sarabski "Bizim dağlar", "Muğan" və uşaqlar üçün yazdığı "Ay-ay" mahnısının müəllifidir. O, Gürcüstanda, Orta Asiyada, İranda, Volqaboyu şəhərlərdə, İrəvanda və başqa yerlərdə qastrollarda olmuş, Azərbaycan musiqisinin inkişafı üçün böyük işlər görmüşdür. 1920-45-ci illərdə Azərbaycan opera və balet teatrının solisti olmaqla musiqili özfəaliyyət teatr kollektivinə və 1932-ci ildən ömrünün sonunadək respublika xalq yaradıcılıq evinə rəhbərlik etmişdir. Azərbaycan Dövlət konservatoriyasında xalq mahnıları sinfində dərs demişdir. Ş. Ələkbərova, M. T. Bağırov, H. A. Hacıbababəyov, S. Qədimova, A. O. Sadıxov, A. Rzayev onun tələbələri olmuşlar.

Hüseynqulu Məlik oğlu Rzayev (Sarabski) Azərbaycan Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur.

1945-ci ildə Bakıda vəfat etmişdir. Adına musiqi məktəbi və küçə var.

## Sultan Məhəmməd
(?-1555)

XV əsrin 70-ci illərində Təbrizdə doğulmuşdur. Miniatürçü rəssam. XVI əsrin birinci yarısında Təbriz miniatür məktəbinin rəhbəri olmuşdur.

Sultan Məhəmməd əvvəlcə I Şah İsmayılın saray kitabxanasında işləyərək oğlu Şah Təhmasibə rəsm çəkməyi öyrətmişdir. Yaratdığı emalatxanada ən gözəl xəttatları, bəzəkli naxışvuranları toplamışdı. Burada Firdovsinin "Şahnamə", Hafizin "Divan"ı Nizaminin "Xəmsə"sindəki səhnələri əks etdirən o zamana görə məna dərinliyi və zənginliyi, əlvanlığı ilə fərqlənən unikal miniatürlər yaratmışdır. Sultan Məhəmmədin rəhbərliyi altında azərbaycanlı miniatür ustası Mir Seyid Əli, Zeynalabdin Təbrizi, Mirzə Əli Təbrizi, Mühəmmədi və bir sıra başqaları çalışırdılar. Onların dolğun əsərlərində təsviri və dekorativ başlanğıc ayrılmaz vəhdət təşkil etməklə, peyzaj şərti fon kimi deyil, kompozisiyanın üzvi hissəsi kimi verilirdi. Obrazların real canlılığı və janr incəliklərinə maraq yaradaraq rənglərin düzülüşü özünün incə, həzin ritmliyi və əlvan çalarları ilə fərqlənirdi. Sultan Məhəmmədin emalatxanasında "tab miniatürlərilə bərabər ayrıca vərəqlərdə "Ov səhnəsi", Sultan Səncər və qarı", "Yarışda", "Bəhram-Gur ovda", "Şirin çimərkən Xosrovun ona tamaşa etməsi", "Xosrovun anasının Şirinə baxması" və s. saxlanılırdı. Sultan Məhəmmədin və onun şagirdlərinin işləri dünyanın ən əzəmətli London, Nyu-York, Edinburq, İstanbul, Paris, Peterburq və s. şəhərlərin muzeylərində saxlanılır.

Sultan Məhəmməd 1555-ci ildə Təbrizdə vəfat etmişdir.

**Abbasmirzə Şərifzadə**
(1893-1938)

Abbasmirzə Mirzə Əbdülrəsul oğlu Şərifzadə 1893-cü ildə Şamaxıda doğulmuşdur. Aktyor, teatr, kino rejissoru. 1895-ci ildə valideynləriylə Bakıya köçmüşdür. İbtidai təhsil aldıqdan sonra 1906-cı ildə Bakı klassik gimnaziyasına daxil olmuş, lakin xəstəliyi ilə əlaqədar oranı bitirə bilməmişdir.



A. Şərifzadə uşaq yaşlarından teatra həvəs göstərmiş, 15 yaşında isə artıq J. B. Molyerin "Zorən Təbib" əsərində lal qızın rolunda oynamışdır. 1910-cu ildə "Səfa" və "Nicat" cəmiyyətlərinin teatr səhnələrində çıxış edərək Azərbaycan, Orta Asiya, Şimali Qafqaz, İran və Volqaboyu şəhərlərdə qastrollarda olur. 1916-cı ildə Zülfüqar, Ceyhun və Üzeyir Hacıbəyov qardaşları rejissor kimi onu "Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib" musiqili dramını səhnəyə qoymaq üçün dəvət edirlər. 1917-ci ildə Bakının teatr ictimaiyyəti onu müsəlman artistləri ittifaqının sədri seçir. 1920-ci ildən A. A. Şərifzadə Azərbaycan Dövlət Dram teatrının artisti olur. Burada realist teatr obrazlarının unudulmaz bütöv bir qalereyasını yaradır. İncə, bədii, duyğu, realizm, psixoloji, dərinlik, ehtiraslılıq bütün bunlar onun yaradıcılıq palitrasında vəhdət təşkil edirdi. C. Cabbarlının "Aydın"ında Aydın, "Oqtay Eloğlu"nda Oktay, "Od gəlini"ndə Elxan, H. Cavidin "Şeyx Sənan"ında Şeyx Sənan, "İblis"ində İblis, "Səyavuş"da Səyavuş, M. Cəlalın "Şahnamə"sində Gülab onun yaratdığı ən yaxşı obrazlardır. V. Şekspirin Hamlet, Otello, Maqbet və başqa obrazları da o son dərəcə gözəl yaratmışdı.

1920-30-cu illərdə Bakı və Moskva mətbuatı A. M. Şərifzadəni Hamlet rolunun ən yaxşı ifaçısı kimi dəyərləndirmişdi. 1923-cü ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının baş rejissoru olmuş, burada "Əsli və Kərəm", "Aşıq Qərib, "Şah İsmayıl" operasını səhnəyə qoymuşdu. Azərbaycan milli kinematoqrafiyasının da inkişafında A. M. Şərifzadənin dəyərli xidmətləri var. 1915-ci ildə "Xaspolad", 1924-cü ildə "Bayquş" filmlərinə çəkilmiş, Azərbaycanın ilk kinorejissorlarından olmuşdur. O, Bakı kinostudiyasında 1926-36-cı illərdə "Bismillah", "Hacı Qara", "Məhəbbət oyunu" filmlərini səhnələşdirmiş, "Azərbaycana səyahət" sənədli filmini çəkmişdir. Abbasmirzə Şərifzadə həyat yoldaşı, Azərbaycan teatr səhnəsinin görkəmli aktrisası Mərziyyə Davudova ilə birlikdə Azərbaycan teatrının bütöv pleyadasını təşkil edən gənc teatr sənətkarları yetişdirmişlər. 1928-ci ildə Azərbaycan Teatr İctimaiyyəti A. M. Şərifzadə yaradıcılığının 20 illiyini böyük təntənə ilə qeyd etmişlər.

Abbasmirzə Əbdülrəsul oğlu Şərifzadə Stalin repressiyasının qurbanı olmuş, 1938-ci ildə güllələnmişdir. Sonralar isə bəraət verilmişdir.

Bakıdakı aktyor evi və Azərbaycan paytaxtının küçələrindən biri onun adı ilə adlandırılmışdır.

**Seyid Şuşinski**
(1889 -1965)

Mir Mövsüm ağa Seyid İbrahim oğlu – Seyid Şuşinski 1889-cu ildə Şuşada anadan olmuşdur.

Seyid Şuşinski - Şuşa xanəndəlik məktəbinin ən parlaq nümayəndəsi idi. Cabbar Qaryağdıoğlu onu "Şərq musiqisinin incisi" adlandırmışdı.



Nadir və gözəl səsə malik Seyid Şuşinski xanəndəlik sənətinin sirlərinə yiyələnmək üçün ən əvvəl iki il Nəvvabın yanında oxumuşdu. Sonrakı müəllimi Cabbar Qaryağdıoğlu olmuşdu. Seyid Şuşinski ifa üçün mürəkkəb muğam olan "Cahargah"ı xüsusilə böyük məharətlə oxuyardı. Onun yaradıcılığında Hafiz, Füzuli, Seyid Əzim Şirvani qəzəllərilə yanaşı, Cavidin və Sabirin şerlərinə də müraciət edirdi. Sabirin "Millət necə tarac olur-olsun, nə işim var" şerini "Müxalif"də oxuyardı. Seyid Şuşinski siyasi-ictimai mövzuda şer və qəzəl oxuyan, xalqı mübarizəyə çağıran ilk xanəndə olmuşdur. O, bir sıra mübariz ruhlu mahnılar da oxumuşdur. "Ayıl ey millət", "Mən bir türkəm", "Millət istərsə" və s. Seyid Şuşinski, Mirzə Cəlil, Əblürrəhimbəy Haqverdiyev, Hüseyn Cavid, Hüseyn Ərəblinski kimi sənətkarlarla dostluq edirdi. “Molla Nəsrəddin” jurnalının bir neçə nömrəsinin çıxmasına maddi yardım göstərmişdi. Ümumiyyətlə, Seyid Şuşinski böyük mesenat idi, o dövrün teatr aktyorlarına çox gömək etmişdi. Özü də aktyor kimi bir sıra rolları oynamışdı. Üzeyir Hacıbəyovun müxtəlif illərdə Tiflisdə, Şuşada və Bakıda tamaşaya qoyulan «Leyli və Məcnun» operasında Məcnun, İbn Səlam, «O olmasın, bu olsun», «Arşın mal alan» musiqili komediyalarında Sərvər və Əsgər rollarında çıxış etmişdir.

Seyid Şuşinski "Cahargah"dan başqa "Mahur", "Nəva", "Məsnəvi", "Mani", "Arazbarı", "Heyratı" kimi muğamların gözəl ifaçısı idi. O, novator sənətkar olaraq, bir çox muğamları birləşdirib onları yeni variantda oxumuşdur ("Rast-Humayun", "Qatar-Bayatı", "Şur-Şahnaz"). "Rast"da və "Kürdi-Şahnaz"da "Dilkəş"i ilk dəfə Seyid Şuşinski ifa etmişdir.

1926-1933 illərdə Azərbaycan Dövlət Konservatoriyasında, 1943-cü ildən isə Bakı Musiqi Məktəbində xanəndəlik üzrə dərs demişdir.

1956-cı ildə Azərbaycan Xalq artisti adına layiq görülmüşdür.

Seyid Şuşinski 1965-ci ildə vəfat etmişdir.

## Xan Şuşinski
(1901-1979)

İsfəndiyar Aslan oğlu Cavanşirov - Xan Şuşinski 20 avqust 1901-ci ildə Şuşa şəhərində anadan olmuşdur.



Şuşa məclislərinin birində onun məharətli ifası bütün qonaqları heyran etdiyindən ustadı İslam Abdullayev ona “Xan” adını vermişdir. Xan Şuşinskinin etirafına görə onun kamil xanəndə kimi yetişməsində İslam Abdullayevdən sonra Cabbar Qaryağdıoğlunun və Seyid Şuşinskinin böyük rolu olmuşdur.

Müstəsna istedadlı, geniş diapozonlu, gur və məlahətli səsi, yüksək ifaçılıq mədəniyyəti sayəsində Xan Şuşinski hələ gənclik illərində şöhrət qazanmışdır. Yaradıcılığında “Mirzə Hüseyn segahı”, “Şahnaz”, “Qarabağ şikəstəsi”, “Kürd-şahnaz”, “Rast”, “Bayatı-Şiraz”, “Çahargah”, “Mahur”, “Heyratı”, “Şur” və digər muğamlar əsas yer tuturdu. Xan gözəl qaval çaldığına görə ritmik muğamlarının da mahir ifaçısı idi.

«O olmasın, bu olsun» (1956) filmində müğənni rolunda çıxış etmişdir. Xan Şuşinski Üzeyir bəyin "Qara göz" mahnısını xüsusi şirinliklə oxuyardı.

Xanın özü bir sıra mahnıların müəllifi idi. Onlardan "Qəmərim", "Ay gözəl", "Məndən gen gəzmə", "Al yanağından", "Ölürəm a Ceyran bala" və nəhayət Şuşaya həsr etdiyi və dillər əzbəri olan "Şuşanın dağları başı dumanlı" mahnılarıdır.

1943-cü ildə Azərbaycanın Xalq artisti adına layiq görülmüşdür.

Xan Şuşinski 18 mart 1979-cu ildə vəfat etmişdir.

## Leyla Vəkilova
(1927-1999)



Leyla Məhəd qızı Vəkilova 1927-ci ildə Bakıda doğulmuşdur. SSRİ xalq artisti. 1943-cü ildə Bakı xoreoqrafiya məktəbini bitirmiş, Q. Almaszadənin tələbəsi olmuşdur. 1945-46-cı illərdə Moskva xoreoqrafiya məktəbində sənətini təkmilləşdirmişdir.

L. M. Vəkilova 1943-71-ci illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının balerinası olmuşdur. O, milli baletlər: "Qız qalası", "Yeddi gözəl", "Gülşən", "Məhəbbət əfsanəsi", "Qaraca qız"-da Gülyanaq, Ayşə, Gülşən, Şirin və Qaraca qız partiyalarını böyük məharətlə oynamışdır. O, bir sıra başqa - Sari, Odetda, Avrora, Maşa, Laurensiya, Zarema, Tao Xoa və s. partiyaların ifaçısı olmuşdur. L. Vəkilova Bakı Xoreoqrafiya məktəbində dərs deyir. 1976-cı ildən Azərbaycan rəqs ansamblının rəhbəridir. Xarici ölkələrdə qastrollarda böyük müvəffəqiyyətlə çıxış etmişdir.

Vəkilova Leyla Məhəd qızı orden və medallarla təltif olunmuşdur.

Leyla Vəkilova 21 fevral 1999-cu ildə Bakıda vəfat etmişdir.

## Asəf Zeynallı
(1909-1932)

Asəf Zeynalabdin oğlu Zeynallı 1909-cu ildə Dərbənddə doğulmuşdur. 1923-26-cı illərdə Bakı musiqi texnikumunda, 1931-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində, Üzeyir Hacıbəyov sinfini bitirmişdi.



1929-31 illərdə A. Zeynallı türk fəhlə teatrında musiqi bölməsinin müdiri və Azərbaycan proletar musiqiçiləri birliyinin sədri olmuşdur. Q. Qarayev və T. Quliyev onun tələbələri olmuşlar. A. Zeynallı istedadlı bəstəkar olmuşdur. Azərbaycan musiqi tarixində ilk romanslar onun adı ilə bağlıdır. Onun "Ölkəm", "Sual", "Çadra", "Seyran" və başqa romansları bu gün də dildən düşmür. Türk fəhlə teatrında oynanılan C. Cabbarlının "Sevil", "Qayıdış", X. Nəzirli və S. Rüstəmin "Alov", A. Həmidin "Hind qızı", V. Kirşonun "Küləklər şəhəri" əsərlərinə musiqi bəstələmişdi. "Uşaq süitası" əsərilə Azərbaycan uşaq musiqisinin əsasını qoymuşdu. A. Zeynallı 50-yə yaxın Azərbaycan xalq folklor mahnılarını nota almışdır.

Asəf Zeynalabdin oğlu Zeynallı 1932-ci ildə yaradıcılığının parlaq çiçəkləndiyi bir dövrdə vəfat etmişdir. Doğulduğu gündən 23 il altı ay keçmişdi. Bakı musiqi məktəbi və paytaxtın küçələrindən biri onun adını daşıyır.

## Nəsibə Zeynalova
(1917-2004)

Nəsibə Cahangir qızı Zeynalova 1917-ci ildə Bakıda doğulmuşdur. Azərbaycanın xalq artisti, Azərbaycan Dövlət mükafatı laureatı. 1941-ci ildə Bakı teatr texnikumunu bitirmişdir.



N. C. Zeynalova Azərbaycan teatr səhnəsinin görkəmli ustasıdır. 1937-ci ildən teatrda fəaliyyətə başlamış, 1941-ci ildən Azərbaycan musiqili komediya teatrının səhnəsində çıxış edir. O, burada S. Rüstəmovun "Beşmanatlıq gəlin"ində Gülnaz, A. Məşədibəyovun "Bu kimin toyudur"da Məsmə, T. Quliyevin "Qızılaxtaranlar"ında Rəşxəndə, V. Dolidzenin "Keto və Kote"sində Kabato rollarının parlaq, təkrarolunmaz ifaçısı olmuşdur. O, Bakı kinostudiyasında "Qayınana", "Ögey ana", "Şərəf qanunu", "Ulduz", "Bizim Cəbiş müəllim", "Böyük dayaq" filmlərinə çəkilmişdir. N. Zeynalova yüksək professionallıqla oxuyur, oynayır, böyük istedadla dramatik obrazlar yaradır.

Zeynalova Nəsibə Cahangir qızı orden və medallarla təltif olunmuş, haqqında "Aktrisanın təbəssümü" filmi çəkilmişdir (Rejissor R. Kazımovski).

Atası Cahangir Məşədi Rza oğlu Zeynalov (1865-1918) tanınmış Azərbaycan teatr xadimi, Azərbaycan professional teatrının əsasını qoyanlardan biri olmuşdur.

Oğlu Cahangir Zeynalov məşhur aktyordur.

Nəsibə Zeynalova 10 mart 2004-cü ildə vəfat etmişdir. Fəxri Xiyabanda dəfn edilmişdir.

# Mesenatlar

## Şəmsi Əsədullayev
(1841-1913)



1841-ci ildə Bakının Əmircan kəndində doğulmuşdur. Multimilyonçu - neft sahibkarı. Elmə, mədəniyyətə xüsusi qayğı göstərmiş, onlarla azərbaycanlı gəncin Almaniyada, Fransada, Varşavada, Kazanda, Kiyevdə, Moskvada, Odessada, Peterburqda və Xarkovda oxumasına himayədarlıq etmişdir. Tiflisdə olan Aleksandr müəllimlər institutu onun şəxsi vəsaiti hesabına fəaliyyət göstərmişdir. Ş. Əsədullayev tanınmış fransız yazıçısı Banin (Ümbülbani) xanımın babasıdır.

Şəmsi Əsədullayev kasıb ailədə dünyaya göz açmışdır. Gəncliyində arabaçəkən olmuş, kənd təsərrüfatı məhsullarını daşımışdır. 1874-cü ildə azacıq kapitalla primitiv üsullarla işləyən neftçıxarma kontoru açır. Artıq 1893-cü ildə bu kiçik kontor "Şəmsi Əsədullayev" adına yeni texnoloji üsullarla işləyən neftçıxarma firmasına çevrilir. 1893-cü ildə cəmi 500 manat kapitala malik "Şəmsi Əsədullayev" firması 1913-cü ildə artıq 10 milyon manat vəsaitə malik idi. Şəmsi Əsədullayev Sabunçu, Suraxanı və Ramanada yerləşən 37 neft buruğunun, mexaniki emalatxanaların və neftayırma zavodlarının, Xəzərdə üzən onlarla gəminin sahibi idi. Moskvada böyük daşınmaz mülkiyyətin sahibi idi. Malikanələrinin birini müsəlman mədəniyyət mərkəzinə bağışlamışdı (Tatar evi). 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra kommunist rejimi Əsədullayevin bütün mülkiyyətini milliləşdirdi.

Şəmsi Əsədullayev 1913-cü ildə Yaltada vəfat etmiş, Bakıda basdırılmışdır.

Ş. Əsədullayevin oğlu - Mirzə Əsədullayev (1875-1936) Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin görkəmli xadimlərindən olmuş, tanınmış fransız yazıçısı Baninin (Ümbülbani) atasıdır. Mirzə Əsədullayev 1921-ci ildə Fransaya mühacirət etmiş və 1938-ci ildə burada vəfat etmişdir, Bobinyada dəfn olmuşdur.

**Murtuza Muxtarov**
(1857-1920)

XIX əsrin ortalarında Bakının Əmircan kəndində doğulmuşdur. Multi-milyonçu - neft sahibkarı. Təkcə ibtidai mollaxanada təhsil almışdır.



M. Muxtarov gənc yaşlarında muzdurluq etmiş, arabaçəkən olmuşdur. Müxtəlif yükləri, habelə Tiflisə xam neft daşımışdır. Sonra Zabratdakı qazma kontorunda fəhləlik etmişdir. M. Muxtarov çalışqan işçi olmuş, işləməkdən həzz almış, tezliklə buruq ustası olmuşdur. Səmərələşdirici olmuş, hətta qazma baltasını təkmilləşdirmişdir. Kontorun sahibi Markov ondan heç nəyi əsirgəməzmiş. XIX əsrin 80-ci illərinin əvvəllərində qocalmış Markov kontoru Muxtarova satıb Rusiyaya gedir. M. Muxtarov 1890-cı ildə öz kontorunu "Muxtarov podratı" adlandıraraq onu daha da genişləndirir. Qazma avadanlığını təkmilləşdirərək Abşeronda ilk dəfə olaraq 1100 metrlik quyu qazdırır. Qroznıda və Maykopda kontorunun filialını açır.

XIX əsrin sonlarında Muxtarov Rusiyada ilk dəfə olaraq Bibi-Heybətdə konstruktor bürosu olan neft avadanlıqları istehsal edən böyük bir zavod tikir. Bu zavodun məhsulları təkcə Rusiyaya deyil, xaricə də, hətta uzaq Amerikaya da ixrac edilirdi. XX əsrin əvvəllərində Muxtarov varidatına görə Bakı milyonçularının çoxunu keçmişdi. Bakıya fərdi dəvət olunan mühəndislər Muxtarova mühəndis incəliklərini və mürəkkəb sxem və layihələri izah edib başa salırdılar. Muxtarov kifayət qədər ahıl vaxtda neft sənayesində işlənən bütün avadanlıqların istehsal texnologiyalarını incəliklərinə qədər dəqiqliklə bilirdi. Hətta bu sahədə ixtira patenti var idi.

Bakı milyonçularının əksəriyyəti kimi Muxtarov da xeyriyyə işlərilə məşğul olurdu. Arvadı Lizanın vətəni Vladiqafqazda və doğma kəndi Əmircanda məscid tikdirmişdi. Memar Zivər bəy Əhmədbəyovun rəhbərliyi ilə tikilən bu məscid Azərbaycan memarlığının ən gözəl incilərindən biri kimi YUNESKO-nun qorunan tarixi abidələr siyahısına salınmışdır. M. Muxtarov Bakıda, Kislovodskda, Rusiyanın başqa şəhərlərində, Avropada, Florensiyada bir sıra gözəl binalar tikdirmişdir. Bakının abadlaşdırılması üçün xeyli vəsait ayırmışdı. Çar cəlladları Bakıda tanınmış Qoçu Zəlimxanı güllələdikdə onun uşaqlarının təhsilini öz üzərinə götürmüşdü. Nəticədə Zəlimxanın qızı həkim, oğlu aqronom oldular. O, görkəmli azərbaycanlı aktrisası Fatma Muxtarovanı (Katya) qızlığa götürmüşdü.

M. Muxtarov çox cəsur insan idi - ancaq özünün bu dünyadakı həyatını faciəli surətdə başa vurdu. Bolşeviklər onun mülkiyyətini milliləşdirmək istəyəndə, içəri girən birinci bolşevik soyğunçunu, sonra isə özünü güllə ilə vurmuşdu.

**Ağa Musa Nağıyev**
(1848-1919)

1848-ci ildə (başqa məlumata görə 1842) Bakının Biləcəri kəndində doğulmuşdur. Milyonçu neft sahibkarı. A. M. Nağıyev tanınmış fransız yazıçısı Baninin (Ümbülbanu) babası olmuşdur.



M. Nağıyev gəncliyində hambal olmuş, iki üç qəpiyə daşıma xidməti göstərmişdir. Pul yığıb Balaxanıda torpaq sahəsi alır və neft quyusu qazmağa başlayır. Başlanğıc çox uğurlu olur. Balaxanıda, sonra Ramana və Sabunçuda yer alır. 1893-cü ildə artıq 10 milyon kapitalı olur. "Musa Nağıyev" adlanan neftçıxarma firması var idi. XX əsrin əvvəlinə M. Nağıyevin artıq Bibiheybətdə, Naftalanda və Suraxanıda sahələri var idi. Neftayırma zavodu və neft sənayesinə xidmət edən mexaniki sexlər işlədirdi. Bir neçə tanker, yükdaşıyan gəmi alır. Özünün müsəlman arvadı və uşaqları üçün "Torqovaya" küçəsi ilə Marlinski küçəsinin kəsişməsində, gürcü arvadı üçün isə Krasnovodsk küçəsində ev tikdirmişdi. Bu evlərin tikintisi üçün materiallar İtaliyadan, Avropanın digər şəhərlərindən və Rusiyadan gətirilirdi. Bu binalar bu gün Bakının bəzəyidir. Musa Nağıyev çox xəsis adam idi, ancaq xeyriyyəçiliklə də məşğul olurdu, Bakıya gətirilən Şollar su xəttinin çəkilməsinin pulunun bir hissəsini vermiş, xalq üçün o zamana görə və bu gün də çox yaxşı sayılan və indi onun adını daşıyan böyük bir xəstəxana tikdirmişdi. 1920-ci ildə Azərbaycanda kommunist rejimi qurulduqdan sonra A. M. Nağıyevin mülkiyyəti milliləşdirildi.

Ağa Musa Nağıyev 1919-cu il martın 4-də Bakıda vəfat etmişdir.

**Hacı Zeynalabdin Tağıyev**
(1838-1924)

Hacı Zeynalabdin Tağı oğlu Tağıyev 1838-ci ildə (bəzi mənbələrdə 1842-ci ildə) Bakıda çəkməçi



ailəsində doğulmuşdur. Multimilyonçu, XX əsrdə Bakıda ən böyük neft sahibkarı, iş adamı. Təhsil və mədəniyyətin himayəçisi olduğuna görə xalq ona millətin atası adını vermişdi.

Z. Tağıyev 10 yaşında anasını itirmişdir. Ailədəki ağır vəziyyət onu işləməyə vadar etdiyindən tikintidə günü 6 qəpiyə palçıq daşımışdır. 12 yaşında daş yonmuşdur. 15 yaşında daşqoyan-bənna olmuşdur. Bir qədər pul topladıqdan sonra iki mağaza alıb orada sənaye məhsulu satmağa başlamışdır. 1870-ci ildə Tağıyev kerosin almaq üçün iki çəni olan zavod tikir. Kerosinə o vaxt tələbat çox idi. 1872-ci ildə neft çıxarmaya kapital qoyaraq iki quyu qazdırır. 1886-cı ildə neft istehsalı və neftayırma ilə məşğul olan, paya əsaslanan firma açır. 1897-ci ildə özünün şəxsi firmasını yaradır. XX əsrin əvvəlində toxuculuq sənayesi yaratmaq məqsədilə Rusiyada parça istehsal edən çox böyük bir fabrik tikib, "Xəzər manufaktura cəmiyyətini" yaradır, ticarət əməliyyatları aparmaq üçün 1914-cü ildə başqa iş adamları ilə birgə kommersiya bankı yaradaraq idarə heyətinin sədri seçilir, 1916-cı ildə "Balıq sənayesi ilə məşğul olan aksioner cəmiyyətini" təşkil edərək balıqçı torları alır, vətəgələr yaradıb, balıqçılıq təsərrüfatını təşkil edir. Dağıstanda və Azərbaycanda balığı konservləşdirən, qurudan zavodlar tikir, soyuducu kameralar yaradır. 1917-ci ilin sonunda Z. A. Tağıyevin mülkiyyəti 30 milyon rubl idi. O, əliaçıqlıqla xeyriyyə işlərinə vəsait ayırıb, bu günün özündə də fəaliyyət göstərən məktəb və teatr, qızlar məktəbi açıb, onlar üçün ayrıca bina tikdirib. Qəzet və jurnal təsis edir. Onun vəsaiti hesabına Azərbaycanın oğul və qızları İngiltərə, Almaniya, Fransa və Rusiyada təhsil alırlar. Nəriman Nərimanov, Məmməd Əmin Rəsulzadə və başqaları onun vəsaitilə oxumuşdu.

Z. T. Tağıyev Rusiya imperiyasının, Buxara əmirinin, İranın ordenlərilə təltif olunmuşdu. Azərbaycanda kommunist rejimi qurulanda Z.T.Tağıyev könüllü olaraq özünün bütün mülkiyyətini Azərbaycan kommunist hökumətinə bağışlamışdı.

O, Sovet hökümətinin ona ömrünün axırınadək təhkim etdiyi Mərdəkandakı bağında 1924-cü il sentyabrın 1-də 86 yaşında vəfat etmiş və sentyabrın 4-də dəfn edilmişdir.